Həzrət Bəhaullahın

# Yazılarından Seçmələr



# Həzrət Bəhaullahın Yazılarından Seçmələr

**Həzrət Şövqi Əfəndi Tərəfindən Tərtib Olunmuş və İngilis Dilinə Tərcümə Edilmişdir**

Tərcümə və çap - Azərbaycan Bəhailəri Milli Ruhani Məhfili

## Mündəricat

Ön söz ........................................................................................................4

Seçmə 1-18--Allahın Günü ....................................................................5
Seçmə 19-69--Allahın Məzhəri.........................................................37
Seçmə 70-99--Ruh və Onun Ölümsüzlüyü ....................................108
Seçmə 100-121--Dünya Nizamı və Ən Böyük Sülh .....................................151
Seçmə 122-166--Fərdin Vəzifələri və Həyatın Ruhani Mənası....................192



# Ön söz

BƏHAİ DİNİNİN BANİSİ Həzrət Bəhaullahın Yazılarından Seçmələr Onun Lövhlərindən alınmış parçalar və çıxarışlardan ibarət bir məcmuədir. 1921-1957-ci illərdə Bəhai Dinini Başçısı olmuş Şövqi Əfəndi bu çıxarışları etmiş və onları ingilis dilinə tərcümə etmişdir. Seçmələr ilk dəfə 1935-ci ildə nəşr edilmişdir.

Həzrət Bəhaullahın Yazılarından Seçmələr son dərəcə mühüm bir kitab olub, çoxsaylı mövzulara Bəhai təlimləri nöqteyi-nəzərindən işıq salır. Bu mövzulardan ancaq bir neçəsini sadalasaq, onlara bizim yaşadığımız günün əzəməti, sülhün və dünya nizamının ruhani şərtləri, Allahın və Onun Məzhərlərinin təbiəti, peyğəmbərliklərin həyata keçməsi, ruh və onun ölümsüzlüyü, sivilizasiyanın yenilənməsi, sivilizasiya prosesinin amilləri kimi Allahın Məzhərlərinin birliyi, insanlığın birliyi, həyatın məqsədi və s. kimi mövzular daxildir.

Şövqi Əfəndiyə görə, bu məcmuə, "Bəhai Dininin Müəllifinin görkəmli əsərlərindən ən səciyyəvi və indiyədək dərc edilməmiş parçalarından seçmələrdən ibarətdir". Parçalar Həzrət Bəhaullahın 1853-cü ildən 1892-ci ilədək bütün Vəhy dövrü boyunca nazil olmuş Yazılarından alınmışdır. Kitab beş hissədən ibarətdir:

- **Allahın Günü (Seçmə 1-18)**
- **Allahın Məzhəri (Seçmə 19-69)**
- **Ruh və onun ölümsüzlüyü (Seçmə 70-99)**
- **Dünya Nizamı və Ən Böyük Sülh ( Seçmə 100-121)**
- **Fərdin vəzifələri və həyatın ruhani mənası (Seçmə 122-166)**



## Seçmə 1-18--Allahın Günü (↑)

## Seçmə 1 (↑)

PAK VƏ UCASAN Sən, ey mənim Allahım! Mən Səni necə zikr edim, İlahi? Axı mən yəqin bilirəm ki, heç bir arifin dili Sənin adını layiqli tərzdə vəsf edə bilməz, nə də aşiqlərin könül quşları Sənin qüdrət və irfan səmana ucala bilər.

Əgər mən Səni hər şeyi dərk Edən adlandırsam, ey mənim Allahım, onda etiraf etməli olaram ki, idrakın ən yüksək Təzahürləri Sənin əmrinlə yaranıb; və əgər mən Sənə hikmət Sahibi desəm, yenə də etiraf etməli olaram ki, bütün hikmət Çeşmələri Sənin İradənlə çağlayıb; əgər mən Səni Vahid adlandırsam, onda görərəm ki, birliyin zatı olan Kəsləri Sən zühür etdirmisən və Onlar sadəcə Sənin yaratdıqlarındır; və əgər mən Sənin hər şeyi Bilən olduğunu bəyan etsəm, onda qəbul etməli olaram ki, bütün bilik cövhərləri Sənin Məqsədinlə yaranmışlar və Sənin Məqsədinin alətləridir.

Sən fani insanın Sənin sirrini aşkar etməsi, Sənin cəlalını təsvir etməsi və ya hətta Sənin Zatının təbiətinə işarə etməsi səylərindən ucasan, hədsiz ucasan. Onlar nə qədər cəhd göstərsələr də, heç vaxt Sənin xilqətinin üzərinə qoyulmuş məhduddiyyətləri aşmağa ümid belə bəsləyə bilməzlər, çünki bu səylər Sənin Əmrinlə canlanmış və Sənin İradənlə yaranmışlar. Müqəddəslərin ən müqəddəsinin Sənin vəsfindən ifadə edə biləcəyi ən ali hisslər və insanların ən arifinin Sənin təbiətini dərk etməsi cəhdlərində bəyan edə biləcəyi ən dərin hikmət–hamısı o Nöqtənin ətrafına fırlanır ki,

O, Sənin hökmünə tabedir, Sənin Camalına səcdə edir və Sənin Qələminin hərəkətindən təkan alır.

Yox, bağışla, İlahi, çünki bu sözlərdən varlıqların mahiyyəti ilə Sənin Əmr Qələminin arasında əlaqə olduğu anlaşılır, halbuki o Kəslər ki, Səninlə əlaqələndirilirlər, bu cür əlaqə anlayışından çox, çox uzaqdırlar! Bütün müqayisə və oxşarlıqlar Sənin Əmr Ağacının gücünü nümayiş etdirməkdə acızdır və Sənin Özünün Məzhərinin və Sənin Camalının Məşriqinin dərk olunmasına aparan bütün yollar bağlıdır.

Sən Səni zikr edənlərin zikrindən, Səni vəsf edənlərin vəsfindən, Səni tərifləyənlərin tərifindən ucasan, çox ucasan! Sən öz bəndələrinə Sənin qüdrətini və cəlalını ucaltmağı əmr etməklə, onlara mərhəmət göstərdin, ta ki, onlar öz daxili varlıqlarında gizlədilmiş məqama—özlərini tanımaq məqamına yüksələ bilsinlər.

Sənin Özündən başqa heç kəs heç zaman Sənin sirrini aça bilməyib, yaxud Sənin böyüklüyünü layiqincə ucalda bilməyib. Sən həmişə insanların tərifindən uca və gizli qalacaqsan. Səndən başqa Allah yoxdur. Sən Əlçatmaz, Qüdrətli, Hər şeyi Bilən və Müqəddəslərin Müqəddəsisən!

## Seçmə 2 (↑)

HƏR ŞEYİN ƏVVƏLİ Allahı tanımaq, hər şeyin axırı isə goylərdə və yerdə hər şeyə nüfuz edən İlahi İradə səmasından nazil olan hər şeyə sözsüz riayət etməkdir.

## Seçmə 3 (↑)

ƏZƏLDƏN BÜTÜN PEYĞƏMBƏRLƏRİN Məqsədi və Vədi olan Əmr və Onun Elçilərinin ən çox ümid bəslədikləri Arzu indi Qüdrətlinin nüfüz edən İradəsinin gücü və qarşısıalınmaz hökmü ilə zühur etmişdir. Belə bir Əmrin gəlişi bütün müqəddəs Yazılarda müjdələnmişdir. Bununla belə, gör insanlar Onun yolundan necə azmışlar və Onun Cəlalından necə pərdələnmişlər.

De: Ey Haqq aşiqləri! Çalışın ki, Onu, həqiqətən də, tanıyasınız və Onun əmrlərini layiqincə yerinə yetirəsiniz! Bu elə bir Əmrdir ki, bir kəs onun yolunda bir damla qan itirsə, əvəzində yüz min dəniz mükafat alar. Ehtiyatlı olun, ey dostlar, bu qiyməti bilinməyən xeyiri əldən verməyin və bu uca məqama laqeyd olmayın! İnsanlar mövhumi təsəvvürlər yolunda neçə-neçə canları qurban vermiş və verməkdədirlər. Siz isə, Allaha şükürlər edin ki, ürəyinizin Arzusuna çatmış, Vəd Olunmuşa yetişmisiniz. Tək olan Haqq Taalanın—tərifi göylərə ucalsın—köməyi ilə yetişdiyiniz məqamı qoruyun və Onun Əmrinin yüksəlişinə səbəb olan işlərdən yapışın! O, həqiqətən, sizə düz olan və insanın məqamını ucaldan şeyləri əmr edir. Uca və mərhəmətlidir Allah, bu ecazkar Lövhəni nazil edən Odur!

## Seçmə 4 (↑)

BU GÜN ALLAHIN ən gözəl nemətlərinin insanların üzərinə yağdığı Gündür, o Gün ki, Onun ən böyük fəzli bütün yaradımış şeylərə nüfüz etmişdir. Dünyanın bütün xalqları aralarındakı ixtilafı aradan götürməli və tam birlik və sülh içində Onun inayət ağacının kölgəsinə toplaşmalıdırlar. Bu gün onlar öz məqamlarını ucaldan və onlara ən yaxşı şəkildə fayda verən işlərdən yapışmalıdırlar. Xoş o kəslərin halına ki, Mənim ən uca Qələmim onları xatırlamaq üçün hərəkətə gəldi. Və mübarəkdir o kəslər ki, Biz Öz dərkolunmaz hökmümüzlə onların adlarını gizli saxlamağı lazım bildik.

Tək olan Haqq-Taalaya dua edin ki, bütün insanlara Bizim gözümüzdə qəbul olunan işləri yerinə yetirmək imkanı bəxş etsin. Tezliklə dünyanın bugünkü nizamı yığışacaq və onun əvəzinə yeni bir nizam qurulacaq. Həqiqətən, sənin Rəbbin doğru Söyləyən və gizli şeyləri Biləndir.

## Seçmə 5 (↑)

BU GÜN ALLAHIN mərhəmət Dənizinin insanlara nazil olduğu, Onun inayət Günəşinin onların üzərinə işıq saçdığı, Onun səxavət buludlarının bütün bəşərin üzərinə kölgə saldığı bir gündür. İndi kədərli qəlblər məhəbbət və yoldaşlıq nəsminin ətrini duymalı, mərhəmət və dostluq yağışı ilə yuyulub təravətlənməlidirlər.

Allahın sevimli kəsləri hər hansı məclisə toplaşanda və bir kimsə ilə qarşılaşanda, Allaha münasibətdə və Onu zikr edib, təriflədikləri zaman elə mütilik və itaətkarlıq göstərməlidirlər ki, ayaqlarının altındakı torpağın hər bir zərrəsi onların səmimiyyətinin və sədaqətinin dərinliyinə şahidlik etsin. O pak könüllərin apardığı söhbətlər elə bir qüvvə ilə canlanmalıdır ki, o torpağın zərrələri onların təsirindən titrəsin. Elə olmasın ki, torpaq onlara desin: "Mən sizdən üstünəm, çünki mən əkinçilərin bütün əzablarına dözürəm. Bütün fəzilətlərin Mənbəyi olan Allahın məndə əmanət qoyduğu nemətləri bütün canlılara bəxş etmişəm və edirəm. Bu yüksək şərəfə və bütün varlığın ehtiyacını ödəyən tükənməz nemətlərimə baxmayaraq, mənim mütiliyimin dərəcəsinə bax, gör mən necə də tam itaətkarlıqla insanların ayaqları altında tapdalanmağa razı olmuşam".

Hamı bir-birilə səbrlə, mehribanlıq və məhəbbətlə rəftar etməlidir. Əgər sizlərdən kimsə müəyyən bir həqiqəti anlamaqda acizdirsə və ya onu anlamağa çalışırsa, onunla söhbət zamanı fövqəladə mehribanlıq və hədsiz xeyirxahlıq ruhu göstərin. Özünüzü ondan az da olsa, üstün və qabiliyytəli saymayaraq, ona həqiqəti görməkdə və tanımaqda kömək edin.

Bu Gün insanın əsas vəzifəsi Allahın onun üçün yağdırdığı mərhəmət selindən öz payını almaqdır. Qoy ona görə də heç kəs qabın böyüklüyünə və ya kiçikliyinə fikir verməsin. Bəzilərinin payı bir ovuc, bəzilərininki bir kasa, digərlərininki də hətta bir küp ola bilər. Bu Gün hamının nəzəri Allah Əmrinin inkişafına xidmət edən işlərə yönəlməlidir. Əbədi Həqiqətin Özü Mənə şahiddir! Bu Gün bu Əmrə Allahın sevimliləri arasındakı ixtilaf və çəkişmə, münaqişə, yadlıq və soyuqluqdan başqa heç nə daha böyük ziyan vura bilməz. Allahın qüdrəti və hökmü ilə bunlardan uzaqlaşın və Elm, Hikmət və Ülfət Sahibinin adı ilə qəlblər arasında birlik yaratmağa çalışın. Tək olan Haqq Taalaya dua edin ki, Onun yolunda görülən işlərin ləzzətini və Onun xatirinə göstərilən mütilik və itaətkarlığın şirinliyini dadasınız. Özünüzü unudun və

başqalarına nəzər yetirin. Səylərinizi insanları tərbiyələndirən şeylərə yönəldin. Heç bir iş Allahdan gizli olmayıb və gizli deyil. Əgər Allahın yolu ilə getsəniz, Onun tükənməz və əbədi nemətləri sizin üzərinizə yağacaq. Aləmlərin Rəbbinin hərəkət edən Qələmindən süzülüb aşkara çıxan nurlu Lövh budur. Onda nazil olanlar üzərində düşünün və onun hökmlərinə əməl edənlərdən olun.

## Seçmə 6 (↑)

YER ÜZÜNÜN MÜXTƏLİF xalqları və tayfaları Vəd Olunmuşun intizarında idilər. Amma Həqiqət Günəşi aləmin üfüqündə parladığı zaman Allahın yönəltdiyi kəslərdən başqa hamı Ondan üz döndərdi. Əgər bu Gün həqiqi möminin yetişə biləcəyi uca məqam açıqlansa, qorxuram ki, bəziləri hədsiz sevincdən ölərlər.

Bəyan Nöqtəsi buyurur: "Gələcək Vəhyin imkanlarını özündə cəmləşdirən nüftə elə bir qüdrətə malikdir ki, Mənim ardıcıllarımın birləşmiş qüvvəsindən üstündür". Və yenə də buyurur: "Onun haqqında söylədiyim təriflər arasında ən böyüyü Mənim yazılı etirafımdır ki, Mənim heç bir kəlamım Onu layiqli tərzdə təsvir edə bilməz, nə də ki, Mənim Kitabımda, Bəyanda, Ona edilən hər hansı işarə Onun Əmrini tam şəkildə nümayiş etdirə bilər".

Əgər bir kimsə bu ali kəlamlarda gizlənmiş dəryaların dərinliyinə baş vursa və onların mənasını anlasa, o zaman bu ən əzəmətli, ən müqəddəs və ən ulu Əmrin sözlərə sığmaz cəlalının bir parıltısına agah olmuş hesab olunar. Zühurun uca məqamı bəlli oldusa, ona iman gətirənlərin məqamı da məlum və aydın olar. Haqq olan Allaha and olsun ki, bu qəlblərin çəkdiyi tək bir nəfəs yer üzünün bütün xəzinələrindən daha zəngindir. Xoş buna nail olanların halına və vay bundan qafil olanların halına!

## Seçmə 7 (↑)

Həqiqətən, Mən deyirəm, bu elə bir Gündür ki, bəşər Vəd Olunmuşun Camalını görə və Səsini eşidə bilər. Allahın çağırış sədası ucalmış və Onun üzünün nuru insanlar üzərinə yayılmışdır. İndi hər kəs əvvəllər eşitdiyi hər boş sözü qəlbinin lövhəsindən silməli və açıq və qərəzsiz qəlblə Onun Vəhyinin əlamətlərinə, Onun Missiyasının dəlillərinə və Onun Cəlalının nişanələrinə nəzər salmalıdır.

Bu Gün, həqiqətən, əzəmətli bir Gündür. Onun bütün müqəddəs Kitablarda "Allahın Günü" kimi xatırlanması onun böyüklüyünə şəhadət verir. Hər bir Peyğəmbərin və hər bir İlahi Elçinin qəlbi bu bənzərsiz Gün üçün susamış, yer üzünün bütün xalqları bu Günə yetişməyin həsrətində olmuşlar. Fəqət Zühür Günəşi İlahi İradə səmasında parlayan kimi, Allahın yönəltdiyi kəslərdən başqa hamının bihuş və qafil olduğu aşkara çıxdı.

Ey Məni xatırlayan! Böyük bir pərdə bəşəriyyətin qarşısını kəsib və Onun çağırışının sədasını eşitməyə qoymur. İnşallah, birliyin nuru bütün yer üzünü bürüyər və onda hər kəsin alnına "Səltənət Allahındır" möhürü vurular.

## Seçmə 8 (↑)

HAQQ OLAN ALLAHA and olsun! Bu günlər Allah Özünün bütün Elçilərini və Peyğəmbərlərini, eləcə də İsmət Sarayının keşikçilərini, əzəmət Çadırının və qüdrət Alaçığının sakinlərini imtahana çəkir. Belə isə, müşriklərin halı necə olacaq?

## Seçmə 9 (↑)

YA HÜSEYN! YER üzünün bəzi məzhəb və firqələri İmam Hüseynin zühurunu gözləyirdilər, çünki qadir Allahın seçilmişləri vasitəsilə o Həzrətin Qaimdən sonra zühur edəcəyi müjdəsi verilmişdi. Həmçinin xəbər verilmişdi ki, o ilahi feyzlər Mənbəyinin zühuru zamanı Allahın bütün Elçiləri və Peyğəmbərləri, hətta Qaimin özü də o Həzrətin mübarək Bayrağının kölgəsinə toplanacaqlar. Həmin o vaxt indi yetişib. Aləm Onun üzünün nuruna boyanıb. Lakin Adlar Sahibinin gücü ilə güman və ehtiraz bütlərini sındıraraq, iqan şəhərinə daxil olan kəslərdən savayı hamı Ondan üz döndərib. Bu Gün Onun Vəhyinin nəfis Şərabının möhürü Qəyyumun adı ilə sındırıldı. Onun fəzli insanların üzərinə axmaqdadır. Ondan öz piyaləni doldur, bu Mübarək və ən Müqəddəs Adın şərəfinə iç!

## Seçmə 10 (↑)

ÜMMƏTLƏRƏ ƏVVƏLCƏDƏN TƏYİN olunan vaxt gəlib yetişdi. Müqəddəs Kitablardaki ilahi vədlərin hamısı yerinə yetdi. Allahın Qanunu Siondan yayıldı, Yerusəlim dağları və düzləri Onun Vəhyinin nuruna qərq oldu. Xoş o kəsin halına ki, Əzəmətli və Qəyyum Allahın Kitablarında nazil olanlar üzərində düşünür. Ey Allahın sevimliləri, düşünün və qulaqlarınızı açıb Allah Kəlamını eşidin, ta ki, Onun mərhəməti sayəsində dəyanətin saf suyundan içəsiniz və Allahın Əmri yolunda dağ kimi möhkəm və sarsılmaz olasınız.

Yeşaya Peyğəmbərin Kitabında buyurulur: "Rəbbin zəhmindən və Onun əzəmətinin parıltısından qayanın içinə gir və torpağın altında gizlən!" Əgər bir kəs bu ayə üzərində düşünsə, bu Əmrin əzəmətini tanımaya bilməz və Allahın Özünün Günü olan bu Günün qüdrətinə şübhə edə bilməz. Həmin ayənin sonunda buyurulur: "O Gün təkcə Rəbb Özü ucalacaqdır". Bu Gün elə bir Gündür ki, onu Uca Qələm bütün müqəddəs Kitablarda vəsf edib. Elə bir ayə yoxdur ki, Onun Müqəddəs Adını ucaltmasın, elə bir Kitab yoxdur ki, bu mövzunun ucalığına şəhadət verməsin. Əgər bu Zühur haqqında bütün bu Kitablarda və müqəddəs Yazılarda nazil olanları xatırlatsaq, bu Lövhənin həcmi qat-qat böyüyər. Bu Gün hər kəs Allahın saysız kəramətlərinə güvənməli və böyük bir hikmətlə Əmrin həqiqətlərini yaymaq üçün ayağa qalxmalıdır. Yalnız və yalnız onda bütün yer üzü Onun Əmrinin sübh nuruna boyanacaq.

## Seçmə 11 (↑)

NƏ XOŞDUR BU Gün! Bu Gün mərhəmət nəsimi bütün məxluqatın üzərinə əsir, elə bir mübarək Gün ki, ötən əsrlər və qərinələr mübarəkliyinə görə onunla müqayisəyə gələ bilməz, elə Gün ki, Günlərin Qədiminin üzü Onun müqəddəs taxtına tərəf dönüb. O zaman bütün məxluqatın sədası ucaldı və onların üzərində səma Ordusunun nidası eşidildi: "Tələs, ey Kərmel, çünki Allahın, Adlar Səltənəti Hökmdarının və Səma Qurucusunun üzünün nuru sənin üzərindən ucalmışdır!"

O zaman sevincdən cuşa gələn dağ uca səslə dedi: "Canım Sənə fəda olsun, çünki Sən mənə nəzər yetirdin, Öz nemətini mənə bəxş etdin və qədəmlərini mənə tərəf yönəltdin! Fərağın məni öldürdü, ey əbədi həyat Çeşməsi, hicranın qəlbimi yandırdı! Həmd olsun Sənə, çünki Sən Öz səsini mənə eşitdirdin, Öz qədəmlərinlə məni şərəfləndirdin, Öz Gününün nəsimi və Öz Qələminin incə səsi ilə məni canlandırdın, o səs ki, Sən onu Öz bəndələrin arasında Sur sədası kimi qərar verdin. Və sənin qarşısıalinmaz Əmrinin zühür vaxtı yetişəndə, Sən Öz Qələminə ruhunu üfürdün və o zaman bütün xilqət lərzəyə gəldi və bütün məxluqatın Malikinin Xəzinələrindəki gizli sirlər aşkara çıxdı".

Onun sədası ən Uca Məqama çatmamış Biz dedik: "Ey Kərmel, öz Rəbbinə şükr et! Məndən ayrılığın odunda yanan zaman vüsal dənizinin dalğaları üzünün qarşısında dalğalandı, bununla da sənin və bütün mövcudatın gözlərinə işıq gəldi, gizli və aşkar olan hər şeyi sevinc bürüdü. Sevin, bu Gün Allah Öz taxtını sənin üzərində qurub və səni Öz əlamətlərinin şəfəq saçdığı məkana, Öz Vəhyinin dəlillərinin çeşməsinə çevirib. Xoş o kəsin halına ki, sənin ətrafına dolanır, Sənin şərəfli zühurunu bəyan edir və Rəbbin olan Allahın mərhəmətindən nazil olanı söyləyir. Şərəfli Rəbbinin adi ilə Ölməzlik Piyaləsini al və Ona şükr et, çünki O, Öz mərhəməti ilə sənin kədərini sevincə, iztirabını fərəhə çevirdi. Həqiqətən, O, Öz taxtını qurduğu, qədəmləri ilə təşrif gətirdiyi, hüzuru ilə şərəfləndirdiyi, nidasını ucaltdığı və göz yaşını axıtdığı yeri sevir".

"Ey Kərmel, Siona xoş müjdə ver və de: Fani gözlərdən gizli qalan Kəs gəldi. Onun hər şeyi fəth edən səltənəti zahir oldu, Onun hər yanı bürüyən nuru aşkar oldu. Bu məqamda tərəddüd edib durmaqdan çəkinin. Allahın səmadan enmiş şəhərinə–İlahi Kəbəyə doğru tələsin və onun ətrafında təvaf edin. Allahın sevimliləri və qəlbi təmiz

olan kəslər, eləcə də ən uca mələklər bu Şəhərin ətrafina toplaşaraq sitayş edirlər. Ah, Mən necə də bu Zühurun xoş müjdəsini yer üzünün hər yerinə və hər bir şəhərinə çatdırmaq həsrətindəyəm! Bu həmən Zühurdur ki, Turun qəlbini cəzb etmiş və Sidrə onun adı ilə nida çəkmişdi: “Mülk və Mələkut Rəbblərin Rəbbi Allaha məxsusdur!” Həqiqətən, bu elə bir Gündür ki, torpaq və dəniz onun müjdəsinə sevinir, elə bir Gün ki, onun üçün gizli saxlanılmış şeylər Allahın fani ağılın və qəlbin idrakından uca olan inayəti ilə aşkara çıxacaq. Tezliklə Allah Öz Gəmisini sənə doğru yönəldəcək və Allahın Kitabında xatırlanmış Bəha əhlini zahir edəcək”.

Mübarəkdir bütün bəşərin Rəbbi olan Allah! Onun zikri ilə torpağın zərrələri hərəkətə gəlir və Əzəmət Dili Onun elmində gizlənən, Onun qüdrət xəzinəsində saxlanan şeyləri açıb danışır. O, həqiqətən, Qüdrətli, Əzəmətli və Uca Adının gücü ilə yerdə və göydə olan hər şeyə hakimdir!

## Seçmə 12 (↑)

EY İNSANLAR, İLAHİ ədalət günlərini qarşılamağa hazırlaşın, zira vəd olunmuş saat gəlmişdir. Məbada, onun əhəmiyyətini anlamayasınız və yolunu azmışların sırasında olasınız!

## Seçmə 13 (↑)

KEÇMİŞ GÜNLƏRƏ NƏZƏR salın: yüksək və aşağı təbəqədən olan nə qədər insan həmişə bir olan Allahın müqəddəs vücudlarda zühurunu gözləmişdir. Onlar hər vaxt və hər an gözdə-qulaqda olmuş və dua edib yalvarmışlar ki, bəlkə İlahi mərhəmət nəsimi əsməyə başladı və vəd olunmuş Camal qeyb pərdəsindən zühur meydanına qədəm qoydu. Amma hər dəfə fəzl qapıları açılıb, kəramət buludları bəşərin üzərinə yağanda və qeyb Günəşi qüdrət üfüqündən doğanda onlar hamılıqla Onu danmış və Allahın Özünün üzü olan Onun üzündən üz döndərmişlər....

Bir qədər düşünün, bu əməllərin səbəbi nə olmuşdur? Cəlal Sahibinin Camalının Təzahürləri ilə nə üçün belə rəftar etmişlər? O zamanlar o bəndələrin inkar və müxalifətinin səbəbi nə olmuşdursa, indi də bu bəndələrin inadkarlığının səbəbi odur. Əgər desək ki, ilahi dəlillər kamil və tam olmayıb və bu da bəndələrin etirazına səbəb olub, bu, açıq–aşkar bir küfr olar. Axı, Səxavət Sahibinin səxavətinə və Onun hər yeri bürüyən inayətinə və mərhəmətinə yaraşmaz ki, xalqı doğru yola yönəltmək üçün bütün bəndələri içərisindən bir nəfəri seçsin, amma Ona kifayət qədər dəlil–sübut verməsin, üstəlik Onun seçdiyi Kəsə iman gətirmədikləri üçün insanları əzaba düçar etsin. Xeyr, əzəldən bəri varlıq Sultanının nemətləri Onun İlahi Zatının Məzhərləri vasitəsilə bütün yer üzünü və onun sakinlərin bürümüşdur. Bir an belə, Onun feyzi kəsilməmiş, nə də Onun inayət buludlarından bəşərin üzərinə yağan yağış dayanmışdır. Və deməli, bu cür rəftar, bütün təkəbbür və qürur vadisində addımlayan, uzaqlıq səhralarında azan, güman yollarında gəzən və öz din üləmalarının arxasınca gedən insanların məhdud düşüncəsi nəticəsində baş verir. Onların etirazdan başqa işləri, həqiqətə göz yummaqdan savayı istəkləri yoxdur. Hər bir bəsirət sahibinə məlumdur ki, əgər həmin bəndələr Həqiqət Günəşinin hər zühuru zamanı gözlərini, qulaqlarını və qəlblərini gördüklərindən, eşitdiklərindən və duyduqlarından təmizləsəydilər, əlbəttə, Allahın Camalından məhrun olmazdılar və əzəmət məkanından uzaq düşməzdilər. Onlar hər zaman ilahi dəlilləri öz üləmalarından aldıqları biliklərin tərəzisində çəkmiş, bu dəlillərin öz məhdud anlayışlarından fərqli olduğunu gördükdə belə rəzil işlər törətmişlər....

Həzrət Musanı düşünün! O Həzrət İlahi hökmranlıq əsası və İlahi biliyin bəyaz əli ilə İlahi məhəbbət Faranından, tükənməz qüdrət və əzəmət əjdahası ilə nur Sinasından zühur meydanına qədəm qoydu. Və bütün Mülk aləmində olanları əbədi Mələkut

aləminə, vəfa ağacının meyvələrindən dadmağa dəvət etdi. Əlbəttə ki, firon və onun tayfasının sərt etirazından və müşriklərin o mübarək Ağaca atdıqları mövhumat daşlarından xəbərdarsınız. İş o yerə çatdı ki, firon və onun tayfası o Müqəddəs Ağacın odunu yalan və inkar suyu ilə söndürməyə çalışdılar. Amma onlar bilmirdilər ki, dünyəvi su İlahi hikmət odunu yatırda bilməz, fani külək əbədi hökmranlıq çırağını söndürə bilməz. Əksinə, bəsirət gözü ilə baxanlardan və Allah rizası yolu ilə gedənlərdənsinizsə, belə su ancaq odun alovlanmasına, belə külək yalnız çırağın qorunmasına səbəb olar...

Həzrət Musanın dövranı başa çatıb Ruhun dan yerindən İsanın nuru aləmi bürüyündə, bütün yəhudilər etiraz etdilər ki, Tövratda gəlişi vəd olunmuş Şəxs Həzrət Musanın qanunlarını yaymalı və yerinə yetirməlidir, amma özünü "Məsihullah" adlandıran bu nazaretli gənc Həzrət Musanın ən böyük hökmlərindən olan boşanmanı və şənbə gününü ləğv edib. Və bundan əlavə, Zühurun əlamətləri hələ özünü göstərməyib. Beləcə yəhudilər Tövratda vəd olunan Zühuru hələ də gözləməkdədirlər. Həzrət Musadan sonra nə qədər Müqəddəslik Məzhəri, əbədi nurun nə qədər Təzahürləri aləmdə zühur edib, amma yəhudilər öz şeytani istəklərinin və nəfsani xəyallarının qalın pərdələrinə bürünərək onların öz xurafatının yaratdığı əlamətlərə uyğun gələn saxta vücudun nə zaman zühur edəcəyini gözləyirlər!

Odur ki, Allah onları günahlarına görə cəzalandırdı, onlardan iman ruhunu aldı və onlara cəhənnəmdə yanan odla əzab verdi. Bu isə ondan ötrü baş verdi ki, yəhudilər Tövratda növbəti Zühurun əlamətləri barədə yazılanları dərk etmək istəmədilər. Onlar bu əlamətlərin həqiqi mahiyyətini anlamadıqlarına və zahirdə də həmin işlər heç vaxt baş vermədiyinə görə onlar Həzrət İsanın camalından məhrum qalmış, Allahın Üzünü görmək şərəfinə nail olmamışdılar. Və onlar hələ də Onun gəlişini gözləyirlər!

Məhz bu səbəbə görə İsrail övladları gələcək Zühurun əlamətləri barədə Tövratda nazil olmuş sözlərin mənasını başa düşmək istəməmişlər. Onlar bu sözlərin həqiqi mənasını anlaya bilmədiklərindən bu cür hadisələr də heç vaxt baş vermədi və ona görə də, onlar Məsihin gözəlliyini görməkdən binəsib qaldılar və Allahın Üzünü seyr etməkdən məhrum oldular. Və hələ də Onun gəlişini gözləyirlər! Əzəldən bu günə qədər bütün ümmətlər belə uydurma və nalayiq fikirlərdən yapışmış və özlərini paklıq və müqəddəslik çeşmələrindən axan saf sulardan məhrum etmişlər....

Elm əhlinə məlum və bəllidir ki, Həzrət İsanın məhəbbət odu yəhudilərin məhdudluq pərdələrini yandırdıqdan və o Həzrətin hökmləri zahir olandan və bir hissəsi tətbiq olandan sonra bir gün o qeyb Camalının Məzhəri Öz həvvarilərinə Öz gedişindən söz açdı və onların qəlbində ağır itki odunu yandırıb buyurdu: “Mən gedirəm və yenə gələcəyəm”. Başqa bir məqamda isə buyurmuşdu: “Mən gedirəm, başqa birisi gələcək və Mənim demədiklərimi deyəcək, Mənim dediklərimi isə yerinə yetirəcəkdir”. Əgər Tövhid Məzhərlərinə İlahi bəsirət gözü ilə baxsanız, görərsiniz ki, bu iki cümlənin mənası əslində birdir.

Hər bir bəsirət sahibi təsdiq edər ki, Xatəmin (Həzrət Məhəmmədin) Əhdində həm Həzrət İsanın Kitabı, həm də Onun Əmri təsdiq olundu. Ad məsələsinə gəldikdə isə, o Həzrət Özü buyurmuşdu: “Mən İsayam”. Və O, Həzrət İsanın əlamətlərinin, xəbərlərinin və kəlamlarının Allah tərəfindən göndərildiyini təsdiq etdi. Bu baxımdan nə onların özlərində bir fərq müşahidə olunur, nə də kitablarında bir uyğunsuzluq görünür, çünki onların hər ikisi Allahın Əmrini müdafiə etmiş, Onun tərifini söyləmiş və Onun hökmlərini bəyan etmişlər. Məhz buna görə Həzrət İsa özü buyurmuşdu: “Mən gedirəm və yenə gələcəyəm”. Məsələn, günəşi götürün. Əgər o indi desə ki, mən dünənki günəşəm, doğru söyləmiş olar. Əgər zaman baxımından desə ki, həmin günəş deyiləm, yenə doğru söyləmiş olar. Eynilə də, əgər deyilsə ki, günlərin hamısı birdir, bu, doğru və düzgün olar. Və əgər deyilsə ki, özünəməxsus ad və əlamət baxımından onlar bir-birindən fərqlənirlər, bu yenə də doğru olar. Göründüyü kimi, onlar eyni olsalar da, hər birinin öz adı, ayrı bir xüsusiyyəti və öz xüsusi yeri vardır. Müqəddəs Məzhərlərin məqamlarındakı fərq və birliyi də bu tərzdə və bu qayda ilə dərk edin ki, o adlar və sifətlər Yaradıcısının birlik və fərqlilik sirlərinə etdiyi işarələri anlayıb başa düşəsiniz və o əzəli Camalın nə üçün müxtəlif vaxtlarda Özünə müxtəlif ad və məqam verməsi barədə sualınıza tam cavab tapasınız...

Əzəli Qeyb və İlahi Mahiyyət elm və məna üfüqündə Məhəmməd Günəşini parladanda, yəhudi ruhanilərinin etirazlarından biri də bu oldu ki, Həzrət Musadan sonra Allah heç bir Peyğəmbər göndərməyəcəkdir. Bəli, Kitabda bir Şəxs xatırlanır ki, O zühur etməli, Həzrət Musanın Dinini yaymalı və Musa ümmətinin maraqlarını qorumalıdır ki, beləliklə Tövratda yazılmış qanunlar yer üzünü əhatə etsin. Buna görə Əbədi Cəlal Sultanı Öz Kitabında həmən uzaqlıq və azğınlıq vadisində dolaşanların dilindən buyurur: “Yəhudilər dedilər: “Allahın əli bağlıdır”. Onların öz əlləri

bağlansın; dedikləri elə bu sözə görə də lənətə gəldilər. Xeyr, Allahın əlləri açıqdır”.”Allahın əli onların əllərindən üstədir”. Quranın təfsirçiləri bu ayənin nazil olmasının səbəbini müxtəlif cür şərh etmişlər, amma siz onun mənasını anlamağa çalışın. O, buyurur: Yəhudilərin təsəvvür etdikləri necə də yanlışdır! Musanın camalını zahir etdirən və Ona Peyğəmbərlik xalatı bəxş edən, həqiqətən də Sultan olan Kəsin əlləri necə bağlana bilər? Necə düşünülə bilər ki, O, Musadan sonra başqa bir Elçi göndərməyə qadir deyildir? Görün, onların söylədikləri necə də mənasızdır; elm və bilik qanunlarından nə qədər uzaqdır! Bu Gün də bütün bu insanlar belə cəfəngiyyat söyləməklə məşğuldurlar. Onlar min ildən artıqdır ki, bu ayəni oxuyub düşünmədən yəhudiləri məzəmmət edirlər, amma heç anlamırlar ki, özləri də gizli və aşkar şəkildə yəhudilərin münasibət və etiqadını bəyan edirlər. Yəqin onların boş mübahisələrindən xəbərdarsınız ki, bütün Zühurlar başa çatıb, İlahi mərhəmət qapıları bağlanıb, daha əbədi müqəddəslik məşriqlərindən heç bir Günəş parlamayacaq, əbədi nemət Dəryasından yeni dalğalar üzə çıxmayacaq və Əzəli Cəlal Çadırından Allahın Elçiləri daha zahir olmayacaq. Budur bu şüursuz və cılız insanların düşüncə səviyyəsi! Onlar zənn edirlər ki, tükənməsi ağıllara sığmayan Allahın hər şeyi bürüyən feyzi və intəhasız mərhəməti bitmişdir. Hər tərəfdə və hər yanda zülm kəmərini bağlayıb öz gümanlarının şor suyu ilə Sidrənin Odunu söndürməyə çalışırdılar, amma bilmirdilər ki, qüdrət şüşəsi İlahi Çırağı öz alınmaz qalasında hifz edir...

Bax gör, Həzrət Məhəmmədin, Allahın Rəsulunun hökmranlığı bu gün necə də aydın və aşkardır. Və yəqin agahsınız ki, o Həzrətin zühurunun əvvəlində müşriklər və azğınlar, o dövrün üləmaları və onların əlaltıları o ruhani Cövhərin, pak və müqəddəs Varlığın başına nə bəlalar gətirmişlər! O Həzrətin keçdiyi yola nə qədər tikanlar və qanqallar tökmüşlər! Və bu da məlumdur ki, bu bədbəxt insanlar öz yanlış və şeytani təsəvvürlərinə uyaraq o ölümsüz Vücudu incitməyi özlərinə nicat vasitəsi bilirdilər. Belə ki, Abdullah Übəy, rahib Əbu Amir, Kəb ibn Əşrəf və Nəzr ibn Haris kimi o dövrün tanınmış üləmaları hamılıqla o Həzrəti yalançı elan etmiş, Onu dəli və iftiraçı adlandırmışlar. Və Ona qarşı elə ağır böhtanlar demişdilər ki, Allah mürəkkəbə onları yazmağa, Bizim qələmə hərəkət etməyə, kağıza o sözləri qəbul etməyə icazə vermir. Bəli, məhz bu böhtanlar camaatın o Həzrətə əziyyət verməsinə səbəb olmuşdu. Bu, məlum və aydın bir məsələdir ki, zəmanə üləmalarının rədd edib iman əhli bilmədiyi şəxsin başına nələr gəlir. Məgər bu Bəndənin də başına eyni şeylər gəlməmişdirmi və

hamı da buna şahid deyilmi? Buna görə də Həzrət Məhəmməd buyurmuşdur: “Mənim çəkdiyim əziyyətləri Allahın heç bir Peyğəmbəri çəkməyib”. Quranda o Həzrətə atılan böhtanların və verilən əziyyətlərin hamısı qeyd olunub. Onları oxuyun ki, Onun zühurunda baş verənlərdən xəbərdar olasınız. Onun vəziyyəti o qədər acınacaqlı idi ki, bir müddət hamı Onunla və Onun əshabələri ilə ünsiyyəti dayandırmışdı. Onunla əlaqəsi olan hər kəs Onun düşmənlərinin ardı-arası kəsilməyən qəddarlığının qurbanı olurdu....

Gör bu gün hər şey necə də dəyişmişdir! Bax gör nə qədər sultanlar o Həzrətin adı qarşısında baş əyirlər, neçə-neçə ölkələr və xalqlar Onun kölgəsinə sığınıb o Həzrətin Dininə mənsub olmaları ilə fəxr edirlər! Minbərlərdən və minarələrdən Onun mübarək adının sədası böyük hörmət və ehtiramla ucalır; və minarələrin yüksəkliklərindən car çəkilərək Onun ümməti Ona ibadət etməyə çağırılır. O Həzrətin kölgəsinə sığınmamış və küfr libasını dəyişməmiş sultanlar belə o inayət Günəşinin böyüklük və əzəmətini təsdiq və etiraf edirlər. Onun hər tərəfdə müşahidə etdiyin dünyəvi hökmranlığı bu cürdür. Bu hökmranlıq Allahın hər bir Peyğəmbərinin sağlığında, ya da O, Öz həqiqi vətəninə ucaldıqdan sonra bərqərar olur...

Bu da məlumdur ki, hər bir Zühurda baş verən dəyişikliklər və təbəddülat qara bulud kimi bəndələrin idrak gözünün İlahi Mahiyyət məşriqindən parlayan Günəşi görüb anlamasına mane olur. Çünki bəndələr illər boyu öz ata-babalarını kor-koranə təqlid edərək, həmən şəritədə müəyyənləşmiş qayda-qanunlar əsasında tərbiyə alırlar. Onlar birdən eşidəndə və görəndə ki, onların öz arasından çıxan və bəşəri meyarlar baxımından onlardan fərqlənməyən bir Şəxs əsrlər boyu onların itaət göstərdikləri, əleyhdarlarını və inkarçılarını kafir, pozucu və azğın bildikləri şəriət ehkamlarını büsbütün ləğv etmək istəyir, onda onlar, əlbəttə, pərdələnəcək və Onun həqiqətini inkar edəcəklər. Bu amillər pərdə və bulud qismində çıxış edir və həmin adamların könüllərinin inqita Səlsəbilindən dadmasına və irfan Kövsərindən su içməsinə mane olur. Onlar bu məsələdən hali olan kimi o Günəşi tanımaqdan elə pərdələnirlər ki, heç bir sorğu-sual etmədən Allah Məzhərini küfrdə günahlandırır və Onun qətlinə fitva verirlər. Əsrlər boyu belə şeylərin baş verdiyini, yəqin ki, eşitmisiniz və bu zəmanədə də onları müşahidə edirsiniz.

Buna görə də əlimizdən gələni etməliyik ki, Qeybinköməyilə bu qara pərdələr və ilahi sınaq buludları bizim o Nurani Camalı görməyimizə mane olmasın və biz Onu yalnız Onun Özü vasitəsilə tanıya bilək.

## Seçmə 14 (↑)

İLAHİ BAHAR GƏLDİ, Ey Uca Qələm, çünki Rəhmanın Bayramı tezliklə gəlir. Qalx, bütün yaradılmışlar içərisində Onun adını elə zikr et və Onu elə təriflə ki, bununla bütün məxluqat yenidən doğulsun və təravətlənsin. Danış və susanlardan olma! Sevinc günəşi Bizim Xürrəm Adımızın üfüqündən parladı, çünki Allahın adlar səltənəti sənin Rəbbinin—Səma Qurucusunun Adı ilə zinətləndi. Bu Ən Əzəmətli Adın gücü ilə ümmətlərin qarşısına çıx və ləngiyənlərdən olma.

Biz sənin Lövhə üzərində dayandığını görürük. Səni İlahi Camalın nurlarımı heyrətə salıb, yoxsa yolunu azmışların bihudə sözləri səni qəmgin edib və hərəkətini dayandırıb? Qoy heç bir şey sənin bu Günü vəsf etməyinə mane olmasın. Bu, elə bir Gündür ki, qüdrət və əzəmət Barmaqları Vüsal Şərabının möhürünü açıb göylərdə və yerdə olanları çağırır. Allahın Gününü müjdə verən nəsim sənin üzərinə əsəndən sonra duruxmaqmı istəyirsən, yoxsa sən Ondan pərdələnmişlərdənsən?

Ey bütün adların Sahibi və səma Qurucusu, aləm üçün hidayət çırağı və aləmdəkilər üçün Günlərin Qədiminin nişanəsi olan Sənin Gününün əzəmətini tanımaqdan pərdələnməmişəm. Əgər mən susuramsa, bu, Sənin xəlq etdiklərinin gözünü kor edən hicabdandır və əgər mən duruxuramsa, bu da Sənin məmləkətində yaşayanların Sənin həqiqətini tanımalarına mane olan pərdələrdəndir. Sən məndə olanları bilirsən, amma mən Səndə olanları bilmirəm. Sən hər şeyi Bilən və hər şeydən Xəbərdarsan. Sənin bütün adlardan üstün olan adına and olsun! Əgər Sənin qaçılmaz və uca hökmün mənə yetişsəydi, mən Sənin cəlal Səltənətində Sənin Qüdrət Dilindən eşitdiyim ən uca Kəlamınla yer üzündə olanları diriləldərdim və onlara Sənin Aydın, Qoruyan və Qəyyum adınla insanların gözündən gizli qalanı aşkara çıxaran nurlu Simanın zühurunun müjdəsini verərdim.

Ey Qələm, bu Gün sən Məndən başqa bir kimsəni görürsənmi?! Hanı yaradılmışlar və onların təzahürləri? Hanı adlar və onların səltənəti? Hanı görünən və görünməyən bütün yaradılmış şeylər? Hanı kainatın gizli qalan sirləri və onun təzahürləri? Bax, bütün xilqət fənaya uğradı! Mənim Əbədi, Parlaq və Əbha Üzümdən başqa heç nə qalmadı.

Bu, elə bir Gündür ki, sənin Mərhəmətli və Ən Səxavətli Rəbbinin Üzünün üfüqündən parlayan İşığın nurlarından başqa heç nə görünməz. Həqiqətən, Biz Öz

qüdrətli və hər şeyi tabeedən hökmümümüzlə bütün ruhları məhv etdik, sonra insanlara Öz fəzlimizin əlaməti olaraq yeni bir məxluq yaratdıq. Həqiqətən, Mən Ən Fəzilətli, Günlərin Qədimiyəm.

Bu, elə bir Gündür ki, Lahut aləmi deyir: "Sən necə də xoşbəxtsən, ey Nasut aləmi, çünki sən Allahın qədəm basdığı yer, Onun əzəmətli taxtının qurulduğu məkan oldun". Cəbərut aləmi isə deyir: "Canım sənə fəda olsun, çünki Rəhmanın Məhbubu yaranmış və yaranacaq şeylərə vəd edilmiş Adının qüdrətilə Öz hökmranlığını sənin üzərində qurdu". Bu, elə bir Gündür ki, bütün ətirli şeylər öz ətrini Mənim bütün məxluqata ətir saçan libasımdan alır. Bu, elə bir Gündür ki, Rəhmanın İradəsi ilə əbədi həyat suları coşub-çağlayır. Ruhunuz və qəlbinizlə ona doğru tələsin, siz ey səma Sakinləri və ondan doyunca için.

De: Əgər siz anlasanız, Naməlumun, Gizlilər Gizlisinin Məzhəri Odur. Əgər siz axtarsanız, O, o Kəsdir ki, gizli xəzinənin Cəvahirini sizin qarşınızda açıb qoymuşdur. O, yaranmışların və yaranacaqların yeganə Məhbubudur. Kaş ki, qəlblərinizi və ümüdlərinizi Ona bağlayaydınız!

Biz Sənin yalvarış səsini eşitdik, Ey Qələm və susmağınla bağlı üzürünü qəbul edirik. Səni bu qədər heyrətə salan nədir?

Bu, Səninlə görüşün məstliyindəndir, ey aləmlərin Məhbubu.

Qalx, məxluqata müjdə ver ki, Rəhman qədəmlərini Rizvana tərəf yönəltdi və ona daxil oldu. Sonra insanları Allahın Öz Cənnətinin Taxtı etdiyi bağa hidayət et. Biz səni bütün bəşərin dirilməsi üçün Özümüzün ən güclü Surumuz etdik.

De: Bu, elə bir Cənnətdir ki, ağaclarının yarpaqları üzərində bəyan şərabı ilə yazılıb: "Artıq gizli olan Kəs qüdrət və hakimiyyətlə zühur etmişdir!" Bu, elə bir Cənnətdir ki, ağaclarının xışıltısı bəyan edir: "Ey göylərin və yerin sakinləri! Əvvəllər heç vaxt aşkar olmayan indi üzə çıxdı. Əzəldən Öz Camalını məxluqatın gözündən gizli saxlayan Kəs indi gəldi". Onun budaqları arasında əsən nəsimin pıçıltısı söyləyir: "Hər şeyin Sahibi gəldi. Hökmranlıq Allaha məxsusdur", onun sularının şırıltısı isə deyir: "Gözlər sevinir, çünki heç kəsin görmədiyi, sirrini heç kəsin açmadığı Kəs Camalının üzündən cəlal örtüyünü götürdü".

Bu Cənnətdən və onun uca hücrələrindən Səma Hurilərinin nidası eşidilir: "Sevin, ey səma əhli, çünki Günlərin Qədiminin barmaqları səmaların göbəyindən Ən Əzəmətli Zəngi Əbha adına səsləndirir. Səxavət əlləri əbədi həyat piyaləsini dolandırmağa başladı. Ona yaxınlaşıb doyunca için. Nuş olsun sizə, ey həsrət təcəssümləri və güclü istək mücəssəmələri!"

Bu o Gündür ki, İlahi Adlar Təzahürü Əzəmət Sarayından çıxıb yerdə və göydə olanlara car çəkdi: "Cənnət piyalələrini və onlardakı dirilik sularını boşlayın, çünki baxın, Bəha əhli mübarək İlahi Hüzura daxil oldu və öz Ehtiyacsız, Ulu Rəblərinin camalının piyaləsindən vüsal şərabını içdi".

Ey Qələm, məxluqat dünyasını unut və bütün adların Sahibi olan Rəbbinin üzünə tərəf dön. Sonra da Əzəl sultanı olan Rəbbinin lütflərinin bəzəyi ilə aləmi zinətləndir. Çünki biz elə bir Günün ətrini duyuruq ki, o gün bütün insanların Məqsudu Özünün ən gözəl adlarının nurunu görünən və görünməyən aləmlərin üzərinə səpdi və onları ən səxavətli nemətlərinin işığına boyadı—o nemətlər ki, onları bütün məxluqatın qüdrətli Mühafizi olan Kəsdən başqa heç kəs saya bilməz.

Allahın yaratdıqlarına xeyirxahlıq və mehribanlıq gözündən savayı başqa bir gözlə baxmayın, çünki Bizim mərhəmətimiz bütün yaradılmış şeyləri bürüyüb, Bizim fəzlimiz göyləri və yeri çulğalayıb. Bu, elə bir Gündür ki, hər şeyin Ən Son Axırı olan Kəsi tanımaqla, Allaha sədaqətli olanlar görüş kövsərindən, Ona yaxın olanlar əbədi yaxınlıq Səlsəbilindən, Onun vahidliyinə inananlar isə Vüsal şərabından içirlər. Həmin gün Əzəmət və Cəlal Dili Onun vasitəsilə söyləyir: "Səltənət Mənə məxsusdur və Mən, haqlı olaraq, onun Sultanıyam!"

Yeganə Məhbubun nidası ilə qəlbləri cəzb edin. De: Əgər siz eşitsəniz, bu, Allahın Sədasıdır. Əgər siz anlasanız, bu, Allahın Vəhy Günəşidir. Əgər siz bilsəniz, bu, Allahın Əmrinin Məşriqidir. Əgər siz insaflı olsanız, bu, Allahın hökmünün Mənbəyidir. Əgər siz görsəniz, bu, aşkar və gizli bir Sirrdir. Ey aləm əhli! Mənim bütün adlardan üstün olan adım naminə malik olduğunuz şeyləri boşlayın, dərinliklərində hikmət və bəyan gövhərləri gizlədilmiş və Mənim Rəhman adımla dalğalanan bu Dənizə baş vurun! Ana Kitabın Sahibi sizə belə göstəriş verir".

Məhbub gəldi. Onun sağ əlində Onun adının möhürlənmiş Şərabı var. Xoşbəxt o kəsdir ki, üzünü Ona tutub həmin şərabdan içir və deyir: “Həmd olsun Sənə, ey Allahın əlamətlərini aşkar Edən!” Qüdrət Sahibi olan Allaha and olsun! Hər bir gizli şey həqiqətin gücü ilə aşkar olmuşdur. Allahın bütün nemətləri Onun fəzlinin bir əlaməti olaraq nazil olmuşdur. Əbədi həyat kövsəri insanlara təklif edilmişdir. Hər bir qədəh Məhbubun əli ilə dolandırılmışdır. Yaxın gəlin və bir an belə durmayın.

Xoş o kəslərin halına ki, inqita qanadlarında Allahın iradəsi ilə bütün məxluqatın fövqündə duran bir məqama uçdular, o kəslər ki, nə üləmaların boş təsəvvürləri, nə də yer üzünün qoşunları onları Onun Əmrindən döndərə bildi. Ey insanlar, sizin aranızda elə bir kəs varmı ki, dünyanı buraxıb bütün adların Sahibi olan Allaha üz tutsun? Elə bir kəs tapılarmı ki, Mənim bütün şeylərdən üstün olan Adımın qüdrəti ilə insanların yanındakıları qoyub gizli və aşkar şeyləri bilən Allahın ona əməl etməyi hökm etdiyi şeylərdən var gücü ilə yapışsın? Beləliklə, Onun nemətləri insanlara nazil oldu, Onun dəlilləri tamamlandı, Onun sübutları mərhəmət üfüqündən işıq saçdı. Yüksək mükafat o kəsə nəsib olacaq ki, bunları qəbul edib deyər: “Həmd olsun Sənə, ey aləmlərin Məhbubu! Ucalsın Sənin adın, ey ariflərin Məqsudu!”

Ən yüksək səadət və xürrəmlik Gününü xatırlayın və sevinin, ey Bəha əhli! O Gün Günlərin Qədiminin Dili danışdı və O, Öz Evindən çıxıb Öz Rəhman adı ilə bütün məxluqata nur saçdığı Yerə yollandı. Allah Özü Bizə şahiddir. Əgər biz o Günün sirlərini açsaq, Qüdrətli, Hər şeyi Bilən və hikmət Sahibi olan Allahın qoruduğu kəslərdən savayı Mülk və Mələkut aləmlərində yaşayanların hamısı huşunu itirər və canını tapşırar.

Allahın ayələri Onun aydın dəlillərini aşkara çıxaran Kəsi elə məst etdi кi, Onun Qələmi daha hərəkət edə bilmədi. O Öz Lövhünü bu sözlərlə başa vurdu: “Məndən başqa Allah yoxdur. Mən Ən Ulu, Ən Qüdrətli, Ən Ali və hər şeyi Bilənəm”.

## Seçmə 15 (↑)

VƏHY QƏLƏMİ BƏYAN edir: “Bu Gün Səltənət Allaha məxsusdur!” Qüdrət Dili söyləyir: “Bu Gün hökmranlıq, həqiqətən, Allaha məxsusdur!” Göylərin Simurqu ölümsüzlük budağında belə oxuyur: “Bütün böyüklüyün əzəməti Vahid və Qadir Allaha məxsusdur!” Mistik Göyərçin əbədi Cənnət bağındakı yuvasından belə tərənnüm edir: “Bu Gün bütün səxavətin mənbəyi Yeganə və Bağışlayan Allahdandır”. Ərş Xoruzu müqəddəslik yuvasında belə banlayır: “Bu Gün ali hökmranlıq Bənzərsiz, Ən Qüdrətli və hər şeyi tabe Edən Allaha məxsusdur!” Bütün şeylərin batini mahiyyəti bütün şeylərdə belə səslənir: “Bu Gün əfv–Yeganə, Şəriksiz, bütün insanların Qüdrətli Qoruyucusu və onların eyiblərini Örtən Allahdandır!”. Şərəf Ruhu Mənim Başımın üstündən səsini ucaldaraq nə bir qələmin, nə də bir dilin təsvirinə sığışmayan yüksəkliklərdən belə söyləyir: “Allaha and olsun, əzəmət və iqtidar sahibi olan Qədim Cövhər zühur etdi. Ondan başqa Allah yoxdur. Odur Güclü, Qüdrətli, Uca, Hikmət Sahibi, hər yeri Bürüyən, hər şeyi Görən, hər şeydən xəbərdar Olan, hamını Qoruyan və əbədi nur Mənbəyi!”

Ey Mənim bəndəm, sən Allahın rizasına və məhəbbətinə elə bir Gündə can atırsan ki, bir neçə bəsirət sahibindən başqa hamı Onun Camalından uzaq düşüb. Qoy Allah Öz mərhəməti sayəsində sənə saxavətli, məhv olmayan və əbədi mükafat versin, çünki sən bütün gözlərin kor olduğu bir gündə Onu axtarırsan. Bunu da bil ki, əgər Allahın hökmü ilə kin və ədavət sahiblərinin əllərindən Bizim başımıza yağan yağışlardan bir damla sənə açıb göstərsək, gecə-gündüz Bizim halımıza ağlayıb sızlayarsan. Kaş yer üzündə Allahın hökmranlıq və qüdrətini bəyan edən bu Zühurda aşkara çıxanları anlayan ədalətli və bəsirətli bir kəs tapılaydı və yalnız Allah xatirinə bunları gizli və açıq şəkildə insanlara çatdırardı ki, onlar da ayağa qalxıb azğınların əlində qalmış bu Məzluma kömək edərdilər.

Bu zaman arxamdan Müqəddəs Ruh səsləndi və dedi: “Söhbəti dəyiş ki, Sənə üz tutanlar qəmgin olmasınlar. Və de: Allahın qüdrəti və mərhəməti sayəsində Mən əvvəllər heç kimdən kömək istəməmişəm və bundan sonra da istəməyəcəyəm. İraqda sürgündə olduğum zaman O, Mənə haqq ilə kömək göstərdi, bütün yer üzü övladları mənimlə mücadilə edərkən, O, Məni qorudu və həmin şəhərdən Məni elə bir əzəmətlə çıxardı ki, bunu inkar edənlərdən və məkrlilərdən savayı heç kəs dana bilməz.

De: Mənim qoşunum Mənim Allaha təvəkkülümdür, Mənim ümmətim Ona etimadımdır, Mənim bayrağım Ona məhəbbətimdir və Mənim munisim ixtiyar Sahibi, Şərəfli və Qüdrətli Hökmdar olan Allahın zikridir”.

Ey Allaha məhəbət yolu ilə gedən kəs, Onun Əmrinin köməyinə qalx və de: “Ey insanlar, bu Gənci dünyanın ötəri şeylərinə və axirət nemətlərinə satmayın. Haqq olan Allaha and içirəm ki, göylərdə və yerdə olan bütün şeylər Onun bir tükünə də dəyməz. Ey insanlar, Onu yanınızda olan gümüşə və qızıla dəyişməkdən çəkinin. Onun məhəbbətini o gün üçün ruhlarınızın sərvəti edin ki, həmən gün Ondan başqa heç bir şey sizə fayda verməz, bütün dayaqlar silkələnər, insanların dərisi soyular və gözləri dəhşətdən bərələr”. De: “Ey insanlar! Allahdan qorxun və Onun Zühurundan təkəbbürlə üz döndərməyin. Üzünüzü yerə qoyub Allaha səcdə edin, sonra da Onu gecə-gündüz tərif edin”.

Qoy sənin qəlbin dünyanın göbəyindən şölələnən bu sönməz Odla elə alovlansın ki, kainatın suları onun atəşini söndürə bilməsin. Sonra öz Rəbbini elə zikr et ki, sənin sözlərinlə Bizim qafil bəndələrimiz oyansın, möminlərin qəlbi isə sevinsin...

## Seçmə 16 (↑)

DE: EY BƏNDƏLƏR, bu Gün bənzərsiz bir Gündür. Ona görə də bənzərsiz bir dil lazımdır ki, aləmin Məqsudunu tərifləməyə qadir olsun və bənzərsiz bir əməl lazımdır ki, Onun dərgahında qəbul edilsin. Bütün insanlar bu Günü arzulayırdılar ki, onun məqamına layiq və ona yaraşan şeylərə nail olsunlar. Xoş o kəsin halına ki, dünyanın işləri onun aləmin Sahibini tanımasına mane ola bilmədi.

İnsanların qəfləti elə bir həddə çatıb ki, nə şəhərin dağılması, nə dağın parçalanması, nə də yerin yarılması onları ayılda bilir. Müqqədəs Kitablardakı işarələr və əlamətlər aşkara çıxıb, daim çağırış sədası ucalır. Buna baxmayaraq Allahın yönəltdiyi kəslərdən savayı hamı qəflət şərabından məstdir.

Hər gün yer üzündə yeni bir bəla baş verir və bu bəlalar getdikcə dərinləşir. "Rəis Surəsi" nazil olandan bu günə kimi nə yer üzündə bir sakitlik bərqərar olur, nə də bəndələr bir rahatlıq tapır: gah mücadilə, gah müharibə, gah da sağalmaz xəstəliklər… Dünyanın xəstəliyi getdikcə tam ümidsizlik həddinə çatır, çünki əsl Təbibin dərdə əlac etməsinə yol verilmir, yalançı həkimlər isə qəbul olunur və sərbəst şəkildə öz işlərini görürlər… İxtilaf tozu qəlbləri bürüyüb və gözləri tutub. Tezliklə onlar Allahın Günündə öz əməllərinin cəzasını görəcəklər. Qadir və Qüdrətli Allahın hökmü ilə hər şeyi Bilən Kəs sizə belə xəbərdarlıq edir.

## Seçmə 17 (↑)

BÖYÜK XƏBƏR OLAN Kəsə and olsun! Rəhman öz şəksiz hökmranlığı ilə gəldi, Mizan-Tərəzi quruldu, yer üzündə olanların hamısı bir yerə toplaşdı. Sur çalındı, bu zaman gözlər dəhşətdən bərəldi, Allahın ayələrinin ətrini duyanlardan və dünyadan əlini üzənlərdən başqa göylərdə və yerdə olanların hamısı lərzəyə gəldi.

Bu, elə bir gündür ki, Yer onda olanların hamısını danışacaq. Günahkarlar onun ağır yükləridir, kaş ki, biləydiniz! Mövhumat Ayı parçalandı və səmanı qatı bir tüstü bürüdü. Biz görürük ki, insanlar Qadir və Qüdrətli Rəblərinin qorxusundan üzüqoylu düşürlər. Carçının sədası ucalır və insanların beli qırılır, Onun qəzəbi çox şiddətlidir. Sol tərəfdəki adamlar ah çəkib ağlayırlar. Sağ tərəfdəki adamlar möhtərəm bir məqamda Rəhmanın əllərindən dirilik Şərabı alıb içirlər və onlar, həqiqətən, şərəfə nail olanlardır.

Yer silkələndi, dağlar yox oldu və mələklər Bizim qarşımızda sıra-sıra düzüldü. Bəndələrin əksəriyyəti məstliyində çaşıb qalmış, onların üzündə qəzəb əlamətləri görünür. Biz beləcə günahkarları bir yerə yığdıq. Biz onların öz bütlərinə doğru tələsdiyini görürük. De: Bu Gün Allahın hökmündən heç kəs qurtula bilməz. Bu, həqiqətən, kədərli bir Gündür. Biz onları yoldan azdıranları onlara göstəririk. Onlar həmən kəslərə baxır, lakin onları tanımırlar. Onların gözləri xumarlanıb, onlar, həqiqətən, kordurlar. Onların dəlili özlərinin iftiralarıdır. Qoruyan, Qəyyum Allah bu iftiraları lənətləmişdir. Şeytan onların ürəklərinə fitnə-fəsad salıb və onlar bu gün qaçılmaz bir əzabdadırlar. Onlar azğınların kitabı ilə şər adamlara doğru tələsirlər. Onların əməlləri belədir.

De: Göy bükülüb, Yer Onun ovcundadır və günahkarların kəkilindən tutulub, amma onlar yenə də dərk etmirlər. Onlar iylənmiş su içirlər, amma bunu anlamırlar. De: Çağırış sədası ucaldı, insanlar qəbirlərindən çıxdılar və qalxıb ətrafa baxırlar. Bəziləri Rəhmanın sarayına doğru tələsdilər, bəziləri üzü üstə Cəhənnəmin oduna düşdülər, bəziləri isə heyrətdən donub qaldılar. Allahın ayələri nazil oldu, amma onlar ondan üz döndərdilər. Onun dəlili zahir oldu, amma onlar ondan qafildirlər. Onlar əylənən vaxt Rəhmanın üzünü görərkən öz üzləri kədərə batdı. Onlar cəhənnəm oduna doğru tələsərək, onu nur hesab edirlər. Allah onların gümanlarından çox ucadır! De: Siz şadlıq etsəniz də, qəzəbdən partlasanız da, səma yarılmış və Allah öz şəksiz

hökmranlığı ilə gəlmişdir. Bütün şeylər belə söyləyir: "Hökmranlıq Qüdrətli, hər şeyi Bilən və hikmət Sahibi olan Allaha məxsusdur!"

Bunu da bil ki, Bizi əzab-əziyyət dolu bir Məhbəsə atıblar və müşriklərin əllərinin törətdiklərindən ətrafımızı zülm qoşunu bürüyüb. Lakin bu Qulam elə bir sevinc içərisindədir ki, heç bir dünyəvi sevinc onunla müqayisə oluna bilməz. Allaha and olsun! Nə zalımların verdiyi əziyyətlər, nə də Onun həqiqətini inkar edənlərin hədələri Onu kədərləndirə bilməz.

De: Bəlalar Mənim Vəhyimin üfüqüdür. Onun üzərində fəzl günəşi parlayır və nə mövhumat buludları, nə də bədxahların gümanları onun ziyasının qarşısını kəsə bilməz.

Öz Ağanın yolu ilə get və Onun bəndələrini xatırla, necə ki, qafillərin etirazları Ona mane ola bilmir və O, qılınc altında da səni xatırlayır… Rəbbinin ətrini ətrafa yay və bircə an belə Onun Əmrinə xidmətində tərəddüd etmə. Bağışlayan və Kəramətli Rəbbinin qələbəsinin elan olunacağı gün yaxınlaşır.

## Seçmə 18 (↑)

DE: BİZ İLAHİ bəyan sularını ərşdən ona görə nazil etdik ki, sizin könüllərinizdə incə hikmət və bilik otları cücərsin. Buna şükr etməyəcəksinizmi? O kəslər ki, öz Rəblərinə ibadət etməkdən boyun qaçırırlar, onlar Onun dərgahında qəbul olunmayacaqlar. Bizim ayələrimiz təkrar-təkrar oxunarkən, onlar təkəbbürdə və ağır günahda israr edir və düşünmürlər. Beləcə kafirlik edənlər qara tüstü altında qalarlar. Qiyamət saatı yetişdi, onlar isə əylənməkdədirlər. Artıq onların kəkilindən tutulub, amma onlar bunu bilmirlər.

Gələcək şey qəflətən gəldi, onlar isə ondan qaçırlar! Labüd olan yetişib, onlar isə ondan üz döndəriblər! Bu, elə bir Gündür ki, hər kəs özündən qaçar, nəinki öz yaxınlarından, kaş ki, anlayaydınız. De: Allaha and olsun! Sur çalındı və insanları qarşımızda huşsuz görürük. Müjdə Verən səsləndi və Carçı nida etdi: “Hökmranlıq Qüdrətli, Qoruyan və Qəyyum Allaha məxsusdur”.

Bu, elə bir Gündür ki, dəhşətdən gözlər bərələr, hər şeyi Bilən və Hikmət sahibi olan Rəbbinin yönəltdiyi kəslərdən başqa yer üzündə olanların hamısı lərzəyə gələr. Rəhmanın nurlu qəlb bəxş etdiyi kəslərdən savayı, hamının üzü qaralar. Gözəl və Şərəfli Allahın camalına açıq baxmaqdan imtina edənlərin gözləri süzülər.

De: Məgər siz Quranı oxumamısınız? Onu oxuyun ki, Həqiqəti tapasınız, çünki bu Kitab həqiqətən də, Doğru Yoldur. Bu, göylərdə və yerdə olanlar üçün Allahın Yoludur. Əgər siz Quranı unutmusunuzsa, Bəyan sizdən uzaq deyil. Onu əlinizə alıb oxuyun ki, Allahın Elçilərinin şikayətləndiyi əməllərdən çəkinəsiniz.

Qəbirlərdən qalxın, nə vaxta qədər yatacaqsınız? Bu, ikinci Sur səsidir, kimi gözləyirsiniz? Bu, sizin mərhmətli Rəbbinizdir, siz isə Ondan üz döndərirsiniz. Yer titrədi və öz yüklərini atdı. Siz yenəmi inkar edirsiniz?! De: Məgər görmürsünüz ki, dağlar yun əlçimi kimi olub, insanlar Onun Əmrinin əzəmətindən lərzəyə gəlib?! Budur, onların evləri xaraba qalıb, onlar özləri isə darmadağın edilmiş qoşuna bənzəyirlər.

Bu, elə bir Gündür ki, Rəhman irfan buludları üzərində aşkar bir hökmranlıqla gəlmişdir. O, bütün əməllərə şahiddir. Onun cəlalını heç nə ilə səhv salmaq olmaz, əgər siz anlasanız. Bütün dinlərin səması parçalandı, irfanın yeri yarıldı və mələklər

göydən endi. De: Bu, qarşılıqlı aldanma günüdür, hara qaçırsınız?! Dağlar dağıldı, səma büküldü, yer Onun ovcundadır kaş bunu biləydiniz! Sizi kim qoruyacaq?! Rəhmandan başqa heç kəs! Qüdrətli, cəlal Sahibi, Səxavətli Allahdan başqa heç kəs. Bütün hamilə olanlar öz yüklərini yerə qoydular. İnsanların və mələklərin bir yerə toplaşdığı bir gündə biz adamların məst olduğunu görürük.

De: Allaha şəkkinizmi var?! Baxın, O, Öz fəzl göyündən, qüdrət və hökmranlıqla gəldi! Onun əlamətlərinə şəkkinizmi var?! Gözlərinizi açıb baxın, budur Onun dəlili! Cənnət sağ tərəfdə, sizin yaxınlığınızdadır; cəhənnəm də şölələnir bu, yandırıcı bir atəşdir. Bizim tərəfimizdən sizə mərhəmət olaraq, cənnətə daxil olun və orada Rəhmanın əlindən dirilik şərabı alıb için.

Nuş olsun sizə, ey Bəha əhli! Allaha and olsun ki, siz şərəfə nail olmusunuz! Bu, Allaha yaxın olanların nail olduğu şeydir. Bu axar su mərhəmətli Rəbbimizin Quranda, sonra isə Bəyanda mükafat olaraq sizlərə vəd etdiyidir. Xoş onu içənlərin halına!

Ey nəzərlərini Mənə dikmiş bəndə! Allaha şükr et ki, Məhbəsdə bu Lövhəni sənə nazil etdi.Və sən bununla insanlara Qüdrətli və hər şeyi Bilən Rəbbinin günlərini xatırlatmalısan. Beləcə Biz hikmət və bəyan suyu ilə sənin imanının bünövrəsini qoyduq. Bu, həmən sudur ki, mərhəmətli Rəbbinin taxtı onun üstündə qurulub. "Onun taxtı suyun üzərindədir". Fikirləş ki, bu sözün mənasını başa düşəsən.Və de: Həmd olsun Allaha—aləmlərin Rəbbinə!



## Seçmə 19-69--Allahın Məzhəri (↑)

## Seçmə 19 (↑)

BƏSİRƏTLİ VƏ İŞIQLI ürək sahiblərinə bəllidir ki, Görünməz Cövhər və İlahi Mahiyyət cismani mövcudluq, yüksəlmək və enmək, girmək və çıxmaq kimi xüsusiyyətlərdən son dərəcə ucadır. Bu Onun şərəfindən çox uzaq olardı ki, insan dili onu layiqincə vəsf etsin və ya insan ürəyi onun sonsuz sirrini dərk etsin. O, əzəldən öz Mahiyyətində görünməz olmuş və olmaqdadır, həmişə də Öz Gerçəkliyində insanların gözlərindən gizli qalacaqdır. “Gözlər Onu dərk edə bilməz, amma O, gözləri dərk edər. O hər şeyə nüfuz edən və hər şeydən xəbərdardır”.

Əzəli Mahiyyəti dərk etmək qapıları məxluqatın üzünə beləcə bağlandığı üçün O sonsuz fəzl Mənbəyi Özünün: “Onun fəzli bütün şeylərdən üstündür” və “Mənim fəzlim bütün şeyləri bürüyür”—hökmlərində deyilən sonsuz mərhəmətinə uyğun olaraq, nurani Müqəddəslik Cövhərlərini ruh aləmlərindən şərəfli insan vücudlarında adamlar arasında zühur etdirdi ki, onlar O dəyişməz Varlığın sirlərini bildirsinlər və Onun fani olmayan Mahiyyətinin lətifliyindən danışsınlar.

Bu Müqəddəs Aynalar və Şərəfli Səhər Şəfəqləri, onların hamısı və hər biri, kainatın Günəşi, onun Mahiyyəti və son Məqsədi olan Kəsin yer üzündə Təcəssümüdürlər. Onların biliyi və qüdrəti Onun biliyindən və qüdrətindən gəlir; Onların hökmranlığı Onun hökmranlığından əxz olunur; Onların Camalının gözəlliyi Onun Camalının

əksidir və onların vəhyi Onun ölümsüz cəlalının yalnız bir əlamətidir. Onlar İlahi biliklərin Xəzinələri, səmavi hikmətin Dəfinələridir. Onların vasitəsilə tükənməz feyz zahir olur, Onlarla heç zaman sönməyən Nur saçılır.

Sönməz cəlal işığını əks etdirən bu müqəddəslik Məbədləri, bu İlkin və Əzəli Aynalar, Görünməzlər Görünməzinin Təzahürləridir. Bu İlahi Məziyyətlər Gövhərlərinin zühuru ilə Allahın elmi və qüdrəti, hakimiyyəti və səltənəti, mərhəməti və hikməti, şərafəti, kəraməti və fəzli kimi bütün adları və sifətləri aşkar olmuşdur.

Elə olmayıb və indi də elə deyil ki, bu sifətlər bəzi Peyğəmbərlərdə olsun, bəzilərində isə yox. Xeyr, Allahın bütün Peyğəmbərləri, Onun sevimliləri, Onun müqəddəs və seçilmiş Elçiləri, istisnasız olaraq, Onun adlarının daşıyıcıları və Onun sifətlərinin mücəssəməsidirlər. Onlar sadəcə vəhylərinin gücü və zahir etdikləri nurun nisbi parlaqlığı ilə fərqlənirlər. Necə ki, buyurur: "Biz bu elçilərin bəzilərini digərlərindən üstün etdik".

Beləliklə, məlum və aydın oldu ki, bütün bu sonsuz adlar və ali sifətlər onun Peyğəmbərləri və Övliyalarında aşkara çıxır—istər bu sifətlərdən bəzisi o nurani Vücudlarda aydın şəkildə təzahür etsin, istərsə də etməsin. Əgər hər hansı bir sifət o İnqita Cövhərlərində açıq-aşkar özünü göstərmirsə, bu, o deməк deyildir ki, Allahın sifətlərinin Məşriqləri və Onun müqəddəs adlarının Xəzinələri həqiqətdə bu sifətlərə malik deyillər. Belə ki, bu nurani Ruhların və bu bənzərsiz Camala malik Simaların hamısına və hər birinə, Allahın hökmranlıq, hakimiyyət və digər bu kimi bütün sifətləri verilir, hərçənd ola bilər ki, onlar yer üzündə bu zahiri əzəmətə malik olmasınlar...

## Seçmə 20 (↑)

YƏQİN BİL Kİ, Görünməz Varlıq Öz Mahiyyətini heç bir qiyafədə təcəssüm etdirib Özünü insanlara göstərə bilməz. O, sözlə təsvir olunan və dərk olunan şeylərdən son dərəcə ucadır və hər zaman belə olmuşdur. Özünün cəlal məqamından O, belə söyləyir: “Həqiqətən, Mənəm Allah, Məndən başqa Allah yoxdur, Mənəm hər şeyi Bilən və Hikmət Sahibi! Mən Özümü insanlara zahir etdirdim və öz əlamətlərimin işığını zühur etdirdim və Mənim Vəhyimin nişanələrinin Məşriqi olan Kəsi aşkar etdirdim və Onun vasitəsilə bütün xilqətə dedirtdim: Ondan başqa Allah yoxdur, O Bənzərsiz, hər şeyi Bilən və hikmət Sahibidir”. İnsanların gözündən əbədi olaraq gizli qalan Kəs yalnız Öz Məzhəri vasitəsilə tanına bilər və Onun Zühuru Missiyasının həqiqətinə Öz Şəxsiyyətindən daha böyük dəlil verə bilməz.

## Seçmə 21 (↑)

EY SALMAN! ƏZƏLİ Varlığa doğru yol hamının üzünə bağlı olmuşdur və bağlı da qalacaqdır. Bir insan anlayışı Onun müqəddəs dərgahına heç vaxt yol tapa bilməz. Amma öz fəzlinin bir əlaməti və inayətinin sübutu olaraq O, ilahi əhədiyyət üfüqündən parlayan Günəşləri insanlar arasında zühur etdirmiş və bu müqəddəs Varlıqların tanınmasını Özünün tanınmasına bərabər tutmuşdur. Onları tanıyan Allahı tanımışdır, Onların çağırışına qulaq verən Allahın Səsinə qulaq vermişdir. Onların vəhyinin həqiqətini təsdiq edən Allahın Özünün həqiqətini təsdiq etmişdir. Və onlardan üz döndərən Allahdan üz döndərmişdir, Onlara inanmayan Allaha inanmamışdır. Onlar göylərlə yer arasında Allahın Yolu, əmr və xilqət səltənətlərində Allahın həqiqətinin Tərəzisidirlər. Onlar Allahın insanlar arasında Məzhərləri, Onun Həqiqətinin dəlilləri və cəlalının nişanələridir.

## Seçmə 22 (↑)

İLAHI ƏMANƏTİN DAŞIYICILARI yer üzünə təzə Əmrin Mücəssəmələri və yeni Müjdənin Açıcıları kimi zühur edirlər. Səmavi Taxtın bu Quşları İlahi İradə səmasından nazil olduğundan və hamısı Allahın dəfedilməz Əmrini çatdırdığından, Onları bir qəlb və bir şəxs saymaq olar. Belə ki, Onların hamısı ilahi məhəbbət piyaləsindən içir və Tövhid Ağacının meyvələrindən qidalanırlar.

Bu Haqq Məzhərləri iki məqama malikdirlər. Birincisi—sırf mücərrədlik və mahiyyətcə birlik məqamıdır. Bu məqamda Onları bir adla adlandırsan və eyni sifətlərlə təsvir etsən, səhv etmiş olmazsan. Necə ki, buyurur: "Biz Onun Elçiləri arasında fərq qoymuruq". Çünki Onların hamısı insanları tövhidə dəvət edir, tükənməz feyz və fəzl Kövsərinin müjdəsini verirlər. Və Onların hamısı peyğəmbərlik xalatına layiq görülmüş, kəramət əbası ilə şərəflənmişlər. Buna görədir ki, Quran nöqtəsi (Həzrət Məhəmməd) buyurur: "Bütün peyğəmbərlər Mənəm!" Və həmçinin buyurur: "Mənəm birinci Adəm, Nuh, Musa və İsa!" Eyni məzmunlu kəlamı İmam Əli də buyurmuşdur. Bu birlik Mücəssəmələrinin mahiyyətcə birliyinə dəlalət edən belə sözlər Əzəli Kəlamın Məcraları və İlahi Elm gövhərlərinin Xəzinələri tərəfindən izhar olunmuş və Kitablarda yazılmışdır. Bu simalar İlahi Hökmün daşıyıcıları və Onun Əmrinin Şəfəqləridir. Bu Əmr isə çoxluq pərdələrindən və say ehtiyacından ucadır. Buna görədir ki, buyurur: "Bizim Əmrimiz birdir". Əmr birdirsə, əlbəttə, Əmrin məzhərləri də bir olmalıdır. Həmçinin Həzrət Məhəmmədin Dininin imamları, o yəqinlik çıraqları buyurmuşlar: "Bizim birincimiz—Məhəmməd, sonuncumuz—Məhəmməd, ortancılımız—Məhəmməddir".

Xülasə, cənabınıza məlum və aydın oldu ki, bütün Peyğəmbərlər Allah Əmrinin mücəssəmələridir ki, müxtəlif libaslarda zühur etmişlər. Əgər incə nəzərlə baxsanız, görərsiniz ki, onların hamısı bir çadırda yaşayır, eyni bir havada uçur, eyni bir taxtda oturur, eyni bir sözü söyləyir və eyni bir Əmri bəyan edirlər. Bu Varlıq Cövhərlərinin, bu hüdudsuz və ölçüsüz Günəşlərin birliyi belədir! Odur ki, əgər bu Müqəddəs Məzhərlərdən biri: "Mən bütün Peyğəmbərlərin qayıdışıyam"—deyə buyursa, o, həqiqətən, doğru söyləyir. Həmçinin hər sonrakı Zühurda əvvəlki Zühurun qayıtmasının doğruluğu da şübhəsizdir...

İkinci məqam—fərqlənmə məqamıdır, xilqət aləminə mənsubluq və bəşəri məhdudluq səviyyəsidir. Bu məqamda Allahın hər bir Məzhəri xüsusi fərdiyyətə, aydın müəyyən olunmuş əmrə, təyin edilmiş zühura və özünəməxsus hədlərə malik olur. Belə ki, hərəsi bir adla adlanır, xüsusi bir əlamətlə tanınır, aydın bir missiya yerinə yetirir və ayrıca bir Vəhy gətirir. Necə ki, buyurur: "Biz bu Elçilərin bəzilərini digərlərindən üstün etdik. Allah bunlardan bəziləri ilə danışmış, bəzilərinin isə dərəcələrini yüksəltmişdir. Məryəm oğlu İsaya aşkar möcüzələr verdik və Onu Müqəddəs Ruhla qüvvətləndirdik". Məhz məqamlardakı və missiyalardakı fərqin nəticəsidir ki, həmin İlahi Bilik Mənbələri müxtəlif kəlamlar və sözlər söyləyirlər. Amma ilahi hikmətin sirlərindən hali olanların nəzərində onların hamısının bəyanları əslində bir Həqiqətin ifadəsidir. İnsanların əksəriyyəti isə sözügedən məqamlardan xəbərsiz olduğu üçün mahiyyətcə bir və eyni olan o Məzhərlərin kəlamlarındakı fərqlərdən narahatlıq və çaşqınlıq keçirirlər.

Xülasə, məlum olmuş və olacaqdır ki, sözlərdəki bütün bu fərqlər məqamlardakı fərqlərdən doğur. Tövhid və yüksək inqita məqamında isə Rəbbanilik, İlahilik, tam Yeganəlik və Sirli Mahiyyət kimi xüsusiyyətlər bu Varlıq Cövhərlərinin hamısına xas olmuş və olmaqdadır, çünki onların hamısı İlahi Zühur ərşində yaşayır və İlahi Sirlər taxtında otururlar. Yəni onların gəlişi ilə Allahın Zühuru baş verir və onların camalından Allahın Camalı aşkar olur. Beləliklə, bu o deməkdir ki, Allahın Özünün nitqi bu İlahi Varlığın Zühurlarının söylədiklərindən eşidilir.

İkinci məqamda—fərdiyyət, fərqlənmə, dünyəvi məhdudluq, xasiyyətlər və meyarlar məqamında isə onlar Allah qarşısında mütləq itaətkarlıq, tam mütilik və misilsiz fədakarlıq nümayiş etdirirlər. Necə ki, buyurur: "Mən Allahın quluyam və mən də sizin kimi bir insanam"...

Əgər bu cahanşümul Məzhərlərdən hər hansı birindən "Mən Allaham!" nidası eşidilərsə, bu, doğrudur və buna heç bir şübhə yoxdur. Axı dəfələrlə sübut edilmişdir ki, onların zühuru, sifətləri və adları ilə yer üzündə Allahın zühuru, Allahın adı və Allahın sifəti aşkar olur. Buna görə də buyurur: "Atdığın zaman sən atmadın, Allah atdı". Və həmçinin: "Sənə beyət edənlər, şübhəsiz, Allaha beyət etmiş olurlar. Əgər onlar: "Mən Allahın Rəsuluyam" nəğməsini oxusalar, bu da doğrudur və buna şəkk-şübhə yoxdur". Necə ki, buyurur: "Məhəmməd sizin kişilərinizdən heç birinin atası deyildir, lakin Allahın rəsuludur". Bu məqamda onların hamısı o Həqiqi Sultan və

Dəyişməz Varlıq tərəfindən göndərilmişlərdir. Əgər onların hamısı: “Mən peyğəmbərlərin Möhürüyəm” deyə nida etsələr, bu da doğrudur və burada şübhəyə yer yoxdur. Çünki onların hamısı bir şəxs, bir qəlb, bir ruh, bir bədən və bir vəhy deməkdir. Və hamısı o Həqiqi Ruhlar Ruhunun və Əzəli Cövhərlər Cövhərinin başlanğıc və sonunun, əvvəli və axırının, zahiri və batininin təzahürləridir. Həmçinin onlar: “Biz Allahın qullarıyıq!” deyə buyursalar, bu da şübhəsiz və mübahisəsiz həqiqətdir. Çünki onlar dünyada bəndəliyin ən yüksək dərəcəsini nümayiş etdirirlər və yer üzündə heç kəs bəndəliyin bu səviyyəsinə çata bilməz. Buna görə də o Varlıq Cövhərləri əbədi və əzəli müqəddəslik dənizlərində qərq olarkən və həqiqi Sultanın mənalar zirvəsinə ucalarkən, öz bəyanlarının Rəbbaniliyin Səsi olmasından və Allahın Özünün Nidası olmasından söz açmışlar.

Əgər diqqətlə baxılsa, aydın olar ki, həmin məqamda onlar özlərini hədsiz yoxluq və fənada hiss etmişlər, Mütləq Varlığın və Fani olmayan Kəsin qarşısında sanki özlərini tamamilə heç bilmişlər. Onlar Özlərini mütləq fani bilmiş və həmin Dərgahda özlərindən söz açmağı müşriklik saymışlar. Çünki bu məqamda azacıq da olsa, özünü xatırlamaq varlığa və müstəqil mövcudluğa dəlalət edir. Bu isə o Dərgahda vüsala yetənlərin nəzərində böyük günahdır. O da qalsın ki, o Hüzurda başqası xatırlansın; qəlb, dil, ürək və ya ruh Məhbubun zikrindən başqa bir işlə məşğul olsun; və ya göz Onun Camalından başqa bir şeyə baxsın; ya da qulaq Onun nəğməsindən savayı bir şey eşitsin; yaxud ayaq Onun yolundan başqa bir yolla getsin...

Bu məqama görə də Onlar, Rəbbaniliyin Səsini və buna bənzər şeyləri özlərinə aid etmişlər, Elçilik məqamında isə Onlar Özlərinin Elçiliklərini izhar etmişlər. Eləcə də hər bir məqamda o məqama uyğun söz demişlər və İlahi Vəhy aləmindən tutmuş xilqət aləminə, İlahi aləmdən tutmuş Mülk aləminə qədər hər şeyi Özlərinə aid etmişlər. Odur ki, onlar İlahilikdən, Rəbbanilikdən, Peyğəmbərlikdən, Elçilikdən, Vəlilikdən, İmamlıqdan və Bəndəlikdən nə buyursalar, hamısı doğrudur və buna şübhə ola bilməz. Beləliklə, Bizim fikrimizi əsaslandırmaq üçün deyilmiş bu sözlər üzərində diqqətlə düşünmək gərəkdir ki, daha Qeyb Məzhərlərinin və Qüds Şəfəqlərinin sözlərindəki fərqlər qəlbi təlaşa salmasın və ağılı çaşdırmasın.

## Seçmə 23 (↑)

ÖTƏN ƏSRLƏR BARƏSİNDƏ düşün. Hər dəfə İlahi kərəm Günəşi Zühur üfüqündə parlayanda, insanlar Onun əleyhinə qalxmış və Onun həqqaniyyətini inkar etməyə başlamışlar. Xalqa öndərlik edən şəxslər hər zaman və həmişə insanların Allahın hüdudsuz nemət Dəryasına üz tutmasına mane olmuşlar. Bax, insanlar Allahın Dostu İbrahimi dövranın ruhanilərinin fitvası ilə necə oda atdılar, Həzrət Musanı, Allahla söhbət Edəni yalan və iftirada ittiham etdilər. İsa, Allahın Ruhu haqqında düşün: hədsiz məhəbbət və şəfqətlə zühur etməsinə baxmayaraq, o Varlıq Cövhərinin, görünən və görünməz aləmlərin Sahibinin əleyhinə elə qiyam etdilər ki, özünə daimi yaşayış yeri tapa bilmədi, hər gün bir yerə getdi və bir məhəllədə məskən saldı. Xatəmi-Ənbiyaya, Həzrət Məhəmmədə—hamının ruhu ona fəda olsun!—diqqət et, gör mübarək tövhid kəlməsini bəyan edəndən sonra bütpərəst və yəhudi ruhaniləri o varlıq Sultanının başına nələr gətirdilər. Əmrimin həqqaniyyətinə and olsun, Allahın Əhdini və Misaqını pozanların, dəlillərini inkar edənlərin və əlamətlərinə etiraz edənlərin Onun başına gətirdiyi müsibətlərə qələm ağlayır və bütün şeylər nalə çəkir. Biz sənə ötənlərdə baş verənləri ona görə nəql edirik ki, anlayanlardan olasan.

Allahın Peyğəmbərlərinin, Elçilərinin və Seçilmişlərinin nə zülm çəkdiklərini eşitdin. İndi düşün ki, bu təqiblərin səbəbi nə olmuş və bunlar nə üçün baş vermişdir. Heç bir vaxt və heç bir Zühur dövründə Peyğəmbərlər düşmənlərin küfründən, zalımların zülmündən, zahidlik və möminlik libasına bürünmüş üləmaların etirazından rahatlıq tapmamışlar. Onlar gecə-gündüz o qədər bəlalarla üzləşmişlər ki, bunu tək haqq Allahın—Onun şərəfi ucalsın—elmindən savayı heç nə ilə hesablamaq mümkün deyil.

İndi bu Məzluma nəzər sal. Onun Əmrinin həqqaniyyətinə aşkar dəlillər şəhadət verdiyi halda; qabaqcadan səhvsiz bir dillə xəbər verdiyi hadisələrin baş verdiyi halda; elm əhli olmamasına, mədrəsələrə getməməsinə və üləmalar arasında olan mübahisələrdə iştirak etməməsinə baxmayaraq, İlahi elmləri və çoxlu bilikləri leysan yağışı kimi bəndələrə nazil edib yağdırdığı halda, gör bu nəsil necə Ondan üz döndərdilər və Onun əleyhinə çıxdılar! Ömrünün əksər hissəsini O, düşmənlərin əlində giriftar oldu. Onun əzabları indi düşmənlərinin belə amansızlıqa Onu atdıqları bu dözülməz Məhbəsdə öz son həddinə çatdı. Allahın köməkliyi ilə əvvəllər və sonralar baş verənlərə iti gözlə və işıqlı qəlblə nəzər sal ki, bu Gün əksər insanların

qafil olduğu şeylərdən agah olasan. Allah eləsin ki, Onun Gününün ətrindən məhrum olmayasan və Onun tükənməz nemətlərindən kənarda qalmayasan, Haqqın inayəti sayəsində bu Gün əzəli Hökmdarın adı ilə aləmdə aşkar olan Böyük Dənizdən doyunca içəsən və Allahın Əmrində dağ kimi möhkəm və sarsılmaz olasan.

Söylə: Pak və ucasan, ey Allah! Sən Öz əzəmətinin təzahürləri qarşısında bütün övliyalara acizliklərini etiraf etdirdin və Öz əbədi günəşinin nurları qarşısında bütün Peyğəmbərlərə faniliklərini təsdiq etdirdin. Səni Cənnətin qapısını açan və Səma sakinlərini şövqə salan adına and verirəm, Öz günündə məni Sənə xidmət etməyə qabil eylə və məni Öz Kitabında buyurduqlarını yerinə yetirməyə müvəffəq eylə! Ya Rəbb, Sən məndə olanı bilirsən, mən isə Səndə olanı bilmirəm. Sən hər şeyi Bilən və hər şeydən Xəbərdarsan!

## Seçmə 24 (↑)

EY TÖVHİD ƏHLİ! Allah Əmrinin Məzhərləri və Onların Vəhylərini müşayiət və bəyan edən əlamətlər arasında ayrı-seçkilik qoymayın. Əgər siz dərk edənlərdən və bu həqiqətə inananlardansınızsa, bilin ki, tövhidin həqiqi mənası budur. Həmçinin əmin olun ki, Allahın bu Məzhərlərinin işləri, əməlləri, xeyr, onlara aid olan hər şey, onların gələcəkdə aşkara çıxaracaqları hər bir şey Allahdan hökm olunmuşdur və Onun İradə və Məqsədinin ifadəsidir. Kim onların özləri və sözləri, onlara nazil olanlar, yaxud onların xasiyyətləri və hərəkətləri arasında azacıq fərq qoyursa, doğrudan da Allaha inanmamış, Onun ayələrini inkar etmiş və Onun Elçilərinin Əmrinə xəyanət etmiş olur.

## Seçmə 25 (↑)

BU AŞKARDIR Kİ, Şərəfli Haqqın Məzhərlərinin yaşadıqları günlər Haqqa Mənsubdur və müəyyən baxımdan onları Allahın günləri adlandırmaq olar. Lakin bu Gün misilsizdir və indiyə kimi gəlib keçmiş başqa günlərdən tamamilə fərqlənir. "Peyğəmbərlərin Möhürü" adı bu Günün çox yüksək məqamını tamamilə açır. Peyğəmbərlik dövrü, həqiqətən də, sona çatmışdır. Əbədi Həqiqət indi gəlmişdir. O, Qüdrət Bayrağını qaldırmış və Öz Vəhyinin nurunu aydın səmadan dünyaya saçır.

## Seçmə 26 (↑)

BƏNZƏRSİZ ŞƏRƏF HÖKMDARI, Hər şeyə Malik Allah məxluqatın anlayışından üstün və bütün insanların idrakından uca bir tərifə layiqdir. Özündən başqa heç kim nə vaxtsa Onun tərifini layiqincə nə söyləyə bilmiş, nə də kimsə nə vaxtsa onun cəlalını lazımınca vəsf edə biləcəkdir. Onun Mahiyyətinin zirvələrinə çatdığını kim iddia edə bilər, ya hansı ağıl Onun dərkolunmaz sirrinin dərinliklərini ölçə bilər? Onun şərəf Mənbəyindən təcəlli edən hər bir nişanəsindən təsəvvürolunmaz cəlalın sonsuz müqəddəslik təzahürləri açılıb, Onun qalibiyyətli qüdrətinin hər zühurundan tükənməz nur dənizləri aşkara çıxıb. Onun Şərəfli səltənətinin ecazkar zühurları gör nə qədər ucadır ki, göylərdə və yerdə olan bütün şeylər Onun ən kiçik parıltısının yanında tam bir heçliyə uğramışlar! Onun üstün qüdrətinin nişanələri gör nə qədər yüksəkdir ki, əvvəli olmayan əvvəldən yaradılmış və ya gələcəkdə sonu olmayan sona qədər yaradılacaq bütün şeylər onun ən kiçik əlamətini dərk etməkdə aciz və gücsüz olmuşlar və olacaqlar! Onun adlarının bütün Mücəssəmələri dodaqları susuzluqdan yana-yana axtarış vadisində Onun Mahiyyətini açmaq üçün dolaşır, Onun sifətlərinin bütün Məzhərləri Müqəddəslik Turunda Öz sirrini açmaq üçün Ona yalvarırlar.

Onun tükənməz mərhəmət dənizinin bir dalğası bütün məxluqatı varlıq bəzəyi ilə zinətləndirib, Onun bənzərsiz cənnətinin bircə nəsimi bütün mövcudata müqəddəslik və şərəf libası əta edib, Onun mütləq və qalibiyyətli iradəsinin dəryasından sıçrayan bir damla sonsuz və intəhasız xilqəti tam yoxluqdan varlıq meydanına gətirib. Onun səxavətinin möcüzələri heç zaman bitməmiş, Onun fəzl və feyzinin axını heç vaxt kəsilməmişdir. O, əzəldən yaratmış və əbədi olaraq da yaradacaqdır.

Hər dövrdə və hər mərhələdə O, Öz ecazkar fitrətinin zühurlarının parlaq işığı ilə bütün xilqəti yeniləşdirir ki, göylərdə və yerdə Onun şərəfinin əlamətlərini əks etdirən bütün varlıqlar Onun Mərhəmət şərabından məhrum olmasınlar və Onun feyz yağmurlarından ümidlərini üzməsinlər. Onun tükənməz fəzlinin möcüzələri gör nə qədər genişdir ki, bütün xilqəti bürüyüb. Belə ki, görünən aləmdə Onun qüdrətinin əlamətlərini bəyan etməyən, Onun müqəddəs adını vəsf etməyən və ya Onun vəhdət günəşinin nurlarını əks etdirməyən bircə zərrə də tapmazsan. O Öz yaratdıqlarını elə əhatəli və kamil şəkildə xəlq edib ki, bütün ağıl və könül sahibləri, onlar nə qədər iti zəkalı və pak olsalar da, Onun ən cılız məxluqunun təbiətini heç vaxt dərk edə

bilməzlər; belə olan təqdirdə o Şərəfli həqiqət Günəşinin, o görünməz və bilinməz Mahiyyətin dərk olunmasından danışmağa dəyməz. Müdriklər müdrikinin anlayışı, ən kamil elm sahibinin biliyi, insan dilinin və ya qələminin etdiyi ən yüksək tərif, bunlar hamısı Onun yaratdıqlarının məhdud ağıllarının məhsuludur və onun çərçivəsindədir .Yüz min Musa axtarış Turunda: “Sən Məni görə bilməzsən!”—nidasından ildırım vurmuş kimi yerində donub qalmış, yüz min İsa yaxınlıq səmasında: “Sən məni dərk edə bilməzsən!”—sözlərini eşidərək, iztiraba düşmüşdür. O əzəldən ülvi bir paklıq və ucalıqla Öz müqəddəs Mahiyyətinin gizli məkanında olmuş, həmişə də hədsiz bir yüksəklik və əlçatmazlıqla Öz Varlığının dərkedilməzlik gizliliyində olacaqdır. Onun əlçatmazlıq Gerçəkliyini dərk etmək üçün yaxınlıq səmasına yüksələnlər yalnız heyrət mənzilinə yetişmiş, Onun vüsal hərəminə yollananlar yalnız acizlik və ümidsizlik vadisinə qədəm qoymuşlar.

Bu cılız zərrə Səni dərk etməyin müqəddəs dənizinin dərinliklərinə baş vurmaq istərkən, necə də heyrətdə qalır, Sənin yaradıcı gücünün təzahürü olan yaratdıqlarında aşkar olan qüdrətinin əzəmətini təsəvvür etmək istərkən, nə qədər aciz olur! Əgər desəm ki, gözlə görünürsən, göz özünü görmür, Səni necə görə bilər?! Əgər desəm ki, qəlblə dərk olunursan, qəlb özündəki gücü dərk etməkdə belə acizkən, Səni necə dərk edə bilər?! Necə deyim ki, Sən tanınırsan? Axı Sən mövcudatın idrakından üstünsən! Və necə deyim ki, Sən tanınmırsan? Axı Sən o qədər aşkarsan ki, bütün kainat Sənin Hüzurunu bəyan edir və Sənin Həqiqətinə şəhadət verir? Əzəldən Sənin fəzl qapıların məxluqatın üzünə açıq və Sənin Hüzuruna yetişmək vasitələri əlçatan olub və Sənin Bənzərsiz Camalının təzahürləri həmişə görünən və görünməz varlıqların üzərində həkk olunub. Bu böyük fəzlə, tam və daimi inayətə baxmayaraq, şəhadət verirəm ki, Sənin müqəddəs və şərəfli məqamın Səndən başqalarının irfanından uca olmuşdur və Sənin ünsiyyət dərgahın Səndən özgələrinin idrakından yüksəkdə duracaqdır. Sənin Özündən başqa heç kəs Sənin mahiyyətini aça bilməz və Sənin fövqəl Zatından başqa heç nə Sənin gizli varlığının sirrini dərk edə bilməz. Nə qədər misilsiz və şərəfli vücudlar Sənin hic-ran və ayrılıq çöllərində Səni tapmadan canlarını qurban vermişlər. Nə qədər müqəddəs və ölümsüz ruhlar Sənin üzünü görmək üçün axtarış səhrasında azmış və çaşıb qalmışlar. Neçə-neçə aşiqlər hədsiz istək və şövqlə fəraq odunun qızmar şölələrindən yanmış, neçə-neçə sadiqlər Sənin üzünün nuruna qovuşmaq ümidilə can vermişlər. Nə həsrətli aşiqlərin ah-naləsi və hönkürtüsü Sənin

müqəddəs dərgahına çatar, nə də Sənin vüsalını axtaranların və müştaqların fəryadı və iniltisi Sənin şərəfli məqamına yetişər.

## Seçmə 27 (↑)

ALLAHIN BİRLİYİNƏ HƏMD olsun və bütün şükrlər Ona olsun, O hökmran Rəbbə, kainatın bənzərsiz və şərəfli Sultanına, O Kəs ki, mütləq heçlikdən xilqətin gerçəkliyini yaratdı, O Kəs ki, yoxluqdan Öz xilqətinin ən incə və lətif cövhərlərini varlıq aləminə gətirdi, O Kəs ki, yaratdıqlarını uzaqlıq və son fanilik zillətindən xilas edərək onları Özünün qüdrət və əbədiyyət səltənətinə qəbul etdi. Və bu, yalnız Onun geniş fəzli, hər şeyi saran mərhəməti sayəsində baş verdi. Əks təqdirdə, bu necə mümkün ola bilərdi ki, xalis heçlik özünün yoxluq halından varlıq aləminə qədəm qoyma dəyəri və qabiliyyəti əldə etsin?

Dünyanı və onda yaşayan və hərəkət edən bütün məxluqatı yaratdıqdan sonra O, Muxtar və Hökmran İradəsindən doğan bir hərəkətlə məxluqat içərisindən Onu tanımaq və sevmək üçün insanı seçdi ki, bu da bütün xilqətin yaradılmasının səbəbi və ilkin məqsədi idi... Belə ki, O, hər bir şeyin batini mahiyyətində Öz adlarından birinin işığını təzahür etdirdi və Öz sifətlərindən birinin cəlalını əks etdirdi. İnsanı isə O, Özünün bütün adları və sifətlərinin məzhəri etdi, onu Özünün güzgüsünə çevirdi, yaradılmış bütün şeylərdən yalnız insanı bu böyük fəzl və daimi mərhəmət üçün seçdi.

İlahi kərəm Günəşinin və səmavi hidayət Mənbəyinin insanın mahiyyətində qoyduğu güclər gizli və örtülüdür, necə ki, şölə və işıq şamın və çırağın mahiyyətində gizlənmişdir. Bu güclərin işığı dünyəvi arzularla tutula bilər, necə ki, aləmi işıqlandıran günəşin parıltısı toz və pasla tutqunlaşıb, qaralmış güzgülərdə pünhan və görünməzdir. Nə bu şam, nə də bu çıraq kənardan kömək olmadan yana bilməz, nə də ki, bu güzgü nə vaxtsa onu örtmüş tozdan xilas ola bilər. Aydındır ki, şölələnən od olmasa, çıraq heç vaxt alışmaz, güzgü pasdan və tozdan təmizlənməyincə, onda parlaq günəşin nə əksi və şəkli görünər, nə də işığı və nuru inikas olunar.

Məxluqatla Haqq, yarananla Əbədi, mümkünlə Mütləq arasında heç bir vəchlə rabitə, əlaqə, uyğunluq və oxşarlıq olmamışdır və yoxdur. Buna görə də O, hər dövrdə və hər əsrdə pak bir Varlığı Mülk və Mələkut aləmlərində zühur etdirir və bu lətif, bu sirli və ilahi Varlığı iki ünsürdən yaradır: maddiyyat aləminə mənsub cismani ünsürdən və Allahın Özünün Ruhani ünsüründən. Eyni zamanda Ona iki məqam bəxş edir. Birincisi, həqiqət məqamıdır ki, bu məkanda Onun səsi Allahın Öz səsidir. Necə ki,

hədisdə buyurur: “Mənimlə Allah arasında müxtəlif hallar var: Mən Oyam, O da Mən, amma Mən—mənəm, O da O!” Həmçinin buyurur: “Qalx, ey Məhəmməd, sevən də Sənsən, sevilən də Sənsən!”. Yenə də buyurur: “Səninlə Onlar arasında heç bir fərq yoxdur, amma Onlar Sənin bəndələrindir”. İkinci məqam—insanlıq məqamıdır. Necə ki, buyurur: “Mən də sizin kimi bir insanam”. Həmçinin: “De: pak və ucasan, ey mənim Rəbbim! Məgər mən göndərilmiş bir insan deyiləmmi?!” Bu İnqita Cövhərləri və işıqlı Mahiyyətlər Allahın hər şeyi əhatə edən əbədi mərhəmətinin vasitəçiləridir. Onlar qüsursuz hidayət işığı ilə yönəldilərək və ən ali hökmranlığa malik olmaqla sözlərinin, ilhamlarının, qüsursuz ilahi feyzlərinin və Vəhylərinin qüdsiyyət yellərinin köməyilə müştaqların könüllərindən və alıcı ruhlardan mülk aləminin qayğı və məhdudiyyətlərinin tozlarını və pasını təmizləmək vəzifəsi ilə göndərilirlər. Onda və yalnız onda insanın mahiyyətində gizlənmiş İlahi Əmanət İlahi Vəhy üfüqündən parlayan nurlu günəş kimi pünhanlıq hicabının və məxfilik pərdəsinin arxa-sın-dan baş qaldırar və onun aşkar olmuş cəlal bayrağı könüllərin və ürəklərin zirvələrində sancılar.

Bu sözlərdən və işarələrdən məlum və aydın oldu ki, Mülk və Mələkut aləmlərində Allahın, hər şeyin hökmran Rəbbinin mərhəmətinin Məzhəri və Vasitəçisi kimi bir Varlığın və Mahiyyətin zühur etməsi labüddür. Hər bir insan həmin Həqiqət Günəşinin təlimləri vasitəsilə onun mahiyyətində qoyulmuş bütün gizli güc-ləri təzahür etdirəcək bir mərtəbəyə çatana qədər yetkinləşir və inkişaf edir. Məhz buna görədir ki, bütün dövrlərdə və zamanlarda peyğəmbərlər və övliyalar yalnız Allahdan olan qüvvə ilə və yalnız Əbədinin aşkara çıxara biləcəyi qüdrətlə insanlar arasında zühur etmişlər.

Və sağlam ağlı olan insan heç vaxt mənasını anlamadığı bir sıra sözlərə görə bu hidayət qapısının bağlı olduğunu zənn etməz, bu günəşlərin və nurların başlanğıcı və sonu olduğunu düşünməz. Çünki bu əbədi feyzdən daha böyük bir feyz olmamışdır və bu tükənməz ilahi mərhəmətdən daha yüksək bir mərhəmət olmayacaqdır. Şübhə yoxdur ki, əgər bu ina-yət və feyz bircə anlığa aləmdən kəsilsə, o, əlbəttə, yox olar. Buna görə də əzəldən Haqqın mərhəmət qapıları dünyanın və məxluqatın üzünə açıq olmuşdur və həmişə də Həqiqət buludundan lütf və səxavət yağışları qabiliyyətlər, mahiyyətlər və fərdiyyətlər torpağına tökülərək, onları feyziyab edəcəkdir. Əzəldən əbədiyyətə qədər Allahın qaydası budur...

## Seçmə 28 (↑)

XOŞ O KƏSİN halına ki, Mənim Əmrimin xidmətinə qalxır və Mənim gözəl Adımın tərifini söyləyir. Mənim qüvvətimlə Mənim Kitabımı al və Əmr edən, Hikmət Sahibi olan Rəbbinin oradakı göstərişlərindən möhkəm yapış.

Bax, ya Məhəmməd, şiə İslamı ardıcıllarının sözləri və əməlləri onun ilk dövrlərinin sevincini və atəşini necə söndürüb, onun işığının ilkin parlaqlığını necə tutqunlaşdırıb. Onun erkən vaxtlarında onlar öz peyğəmbərlərinin, bəşərin Rəbbinin adı ilə bağlı olan hökmlərə hələ sadiq idilər, onda onların müvəffəqiyyəti qırılmaz zəncir halqaları kimi, ardıcıl qələbələr və zəfərlərlə əlamətdar idi. Onlar özlərinin ideal Rəhbərlərinin və Ağalarının yolundan tədricən sapdıqca, Allahın nurundan üz döndərdikcə və Onun tövhidini təhrif etdikcə və diqqətlərini getdikcə daha çox Onun Sözünün qüdrətini sadəcə açan kəslərin üzərində topladıqca, onların gücü zəifliyə, izzətləri zillətə, cəsarətləri qorxuya çevrildi. Onların necə bir böhranlı vəziyyətə gəlib çıxdıqlarına özünüz şahidsiziniz.

Bax, onlar Tövhid Nöqtəsinə necə şəriklər qoşdular. Bax, onların şər işləri bu Qiyamət Günündə, Həqiqət Sözünü—Ona şərəflər olsun—tanımalarına necə mane oldu. Biz ümid edirik ki, bu insanlar bundan sonra özlərini yanlış təsəvvürlər və gümanlardan qoruyacaq və Tövhidin həqiqi mənasına çatacaqlar.

Zühurun Mücəssəməsi həmişə Haqqın canişinidir və Onun adından danışır. O, həqiqətən, Allahın ən gözəl adlarının Günəşi və ən ali sifətlərinin Məşriqidir. Əgər Onun oxşarı və Onun Varlığının bənzəri olsaydı, necə təsdiq etmək olardı ki, Onun İlahi mahiyyəti Birdir və oxşarsızdır və Onun Zatı vahid və bənzərsizdir?! Sənə həqiqətin gücü ilə nazil etdiyimiz üzərində düşün və ariflərdən ol!

## Seçmə 29 (↑)

ALLAHIN İNSANI YARATMAQDA məqsədi onu öz Yaradanını tanımağa və Onun Hüzuruna yetişməyə qadir etmək olmuş və əbədən də belə olacaqdır. Bütün səmavi Kitablar və ilahi mənşəli mötəbər Yazılar bu ülvi mətləbə və ali məqsədə açıq və aydın şəkildə şəhadət verir. Bu hidayət Sübhünə yetişən və Onun müqəddəs dərgahına daxil olan kəs, Allahın yaxınlığına cəzb olunmuş və Onun Hüzuruna nail olmuşdur, bir Hüzur ki, əsl Behiştdir və ən uca cənnət isə sadəcə onun rəmzidir. Onu tanıya bilməyən kəs özünü uzaqlıq səfalətinə məhkum etmiş olur, elə bir uzaqlıq ki, əsl yoxluqdan və cəhənnəm odundan başqa bir şey deyil. Onun taleyi belə olacaq, baxmayaraq ki, zahirən o, yer üzündə yüksək kürsülərdə otura və uca taxtlarda əyləşə bilər.

O Həqiqət Məşriqi, şübhəsiz, sərgərdan ruhları belə uzaqlıqdan xilas etmək və onları Onun dərgahına yaxınlaşdırmağa və Onun hüzuruna çatdırmaq qüdrətinə malikdir. “Əgər Allah istəsə, bütün insanları bir ümmət edər”, lakin Onun əsas məqsədi pak ruhları və inqita etmiş qəlbləri yüksəldərək, öz əsil fitrətləri ilə bu Ən Böyük Dənizin sahilinə çatdırmaqdır ki, bununla Əbhanın Camalını arayanlarla azğınlıq və yanlışlıq məkanına sığınanlar bir-birindən ayrılıb seçilsinlər. Şərəfli və Nurlu Qələmin yazdığı hökm belədir...

Həmçinin, İlahi Ədalət Məzhərlərinin və fəzilət Şəfəqlərinin insanlar arasında zühur edəndə həmişə zahiri qüdrət və dünyəvi hakimiyyət vasitələrinə malik olmamalarını da İlahi Məqsədi canlandıran həmin bu ayırmaq və seçmək niyyətinə aid etmək lazımdır. Belə ki, əgər o Əzəli Cövhər Onda olan bütün gizli şeylərlə zühur edib aşkara çıxsaydı, Öz cəlalını bütün parlaqlığı ilə saçsaydı, Onun qüdrətinə şübhə edən və ya Onun həqiqətini inkar edən bir kəs tapılmazdı. Əksinə, bütün məxluqat Onun nurlarını gördükdə sarsılar və ildırım vurmuş kimi donub qalar, bəlkə də tamamilə fani olardı. Daha bu halda Allaha üz tutanlarla Allahdan üz döndərənlər bir-birindən necə seçilərdi?

Bu mətləb bütün əvvəlki Zühurlarda da aşkara çıxıb və açıqlığı ilə nümayiş olunub…Məhz bu səbəbə görə hər bir dövrdə, yeni Zühur meydana çıxanda və Allahın fövqəl qüdrəti insanların üzərinə inayət buyuranda Ona inanmayanlar əbədi və Bənzərsiz Camalı fani insan qiyafəsində gördüklərindən, Onu tanıya bilmirdilər.

Onlar Onun yolundan çıxır və Onun Allaha yaxınlıq Sidrəsini tərk edirdilər. Onlar hətta möminlərin sıralarını dağıtmağa və Ona inananları məhv etməyə qalxırdılar.

Bax, bu Zühurda da bu cılız və səfehlər sadəlövhcəsinə elə güman ediblər ki, qətllə, qarət və sürgünlə İlahi Qüdrət Əlinin yandırdığı Çırağı söndürə bilərlər və əbədi cəlal Günəşinin nurunun qarşısını almağı bacararlar. Amma onlar bir həqiqətdən necə də qafildirlər ki, bütün bu bəlalar əslində həmin çırağın şölələnməsi üçün tökülən yağ kimidir. Allahın hər şeyi dəyişdirən qüvvəsi belədir. O istədiyi şeyi dəyişər. O, həqiqətən, hər şeyə qadirdir...

Hər zaman Həqiqi Sultanın hökmranlığına baxın, Onun qüdrətinin əlamətlərinə və ali hakimiyyətinə diqqət yetirin. Qulaqlarınızı inkar məzhərlərinin, qəddarlıq və qəzəb mücəssəmələrinin boş sözlərindən təmizləyin. Tezliklə Haqq Allahın bütün yaranmış şeylər üzərində qalib olduğunu və Onun hökmranlığının bütün xilqəti bürüməsinin əlamətlərini görəcəksiniz. O gün siz Ondan başqa hər şeyin unudulduğunun və yox olub tam bir heçə çevrildiyinin şahidi olacaqsınız.

Amma bu da yadda saxlanmalıdır ki, Haqq və Onun Məzhərləri həmişə fitrətən özlərinə xas uca zirvələrdə və yüksək məqamlardadırlar. Xeyr, ucalıq və yüksəklik, əslində Onun sözü ilə yaranmışdır, əgər siz öz gözünüzlə deyil, Mənim gözümlə baxsanız.

## Seçmə 30 (↑)

ALLAH ŞAHİDDİR Kİ, Ondan başqa Allah yoxdur. O, Fəzl Sahibi və Sevimlidir. Səxavət və fəzilət Onun əlindədir. Kimə istəyirsə və nə istəyirsə, bəxş edir. Həqiqətən, O Qadir, Qüdrətli, Qoruyan və Qəyyumdur. Biz o Kəsə iman gətirdik ki, Haqq Allah, Sultanlar Sultanı və Təriflər Sahibi tərəfindən Bab adı ilə zühur etdi. Biz, həmçinin, o Kəsə sadiqliyimizə and içirik ki, Müstəqasda gələcək və o Kəslərə ki, Ondan sonra sonu olmayan sonadək gələcəklər. Biz onların zühurunda Allahın zühurundan və onların batinlərində Onun batinindən başqa bir şey görmürük—əgər siz dərk edənlərdənsinizsə. Onların hamısı Allahın güzgüləridir, belə ki, onlarda Allahın Özündən və Camalından, Allahın Qüdrətindən və Şərəfindən başqa bir şey—əgər siz anlayanlardansınızsa, bunu bilin. Onlardan başqaları—onların, bu Məzhərlərin cəlalını əks etdirən güzgülərdir, Onların Özləri isə İlahi Varlığı əks etdirən İlkin Güzgülərdir—bunu dərk edin. Heç kəs heç vaxt onlardan qaça bilməmişdir və məqsədlərinə çatmaqda heç kəs onlara mane ola bilməz. Bu güzgülər əbədiyyətə qədər bir-birini əvəz edəcək və Günlərin Qədiminin nurunu əks etdirməkdə davam edəcəklər. Eynilə də onların cəlalını əks etdirənlər hər zaman olacaq, çünki Allahın fəzli heç vaxt kəsilən deyil. Bu, təkzibolunmaz bir həqiqətdir...

## Seçmə 31 (↑)

BATİNİ GÖZLƏRİNLƏ BAX və Adəmin Zühurunu Həzrət Babın Zühuru ilə bağlayan ardıcıl Məzhərlər silsiləsi üzərində düşün. Mən Allahın qarşısında şəhadət verirəm ki, bu Zühurların hər biri İlahi İradə və Məqsəddən gəliblər, hər biri xüsusi bir Müjdə gətirib, hər birinə İlahidən nazil olmuş Kitab əmanət edilib və hər birinə qüdrətli bir Lövhün sirlərini açmaq səlahiyyəti verilib. Onların aid olduqları hər bir Vəhyin ölçüsü əvvəlcədən müəyyən edilmişdi. Əgər siz bu həqiqəti dərk edənlərdənsinizsə, bilin ki, bu, həqiqətən, Bizim onlara lütfümüzün bir əlamətidir...

Və davamlı və getdikcə daha çox açılan Vəhy prosesi gəlib Onun bənzərsiz, ən Müqəddəs və Uca Camalının Zühuru mərhələsinə çatanda bu Camal pərdələnməli oldu, O, Özünü min pərdə arxasında gizlətdi ki, layiqsiz və fani gözlər Onun cəlalını görməsin. O, bunu o zaman etdi ki, İlahi Vəhyin nişanələri və əlamətləri Onun üzərinə yağırdı—elə nişanələr və əlamətlər ki, Rəbbdən, Sənin Allahından və bütün aləmlərin Rəbbindən başqa heç kəs onları hesablaya bilməz. Və təyin olunmuş gizlilik müddəti bitən zaman Biz hələ də min-min nur pərdəsinin arxasında qalaraq, bu Qulamın Üzünü bürüyən Cəlalın nurlarından son dərəcə kiçik bir içartı aşkara çıxardıq. Bu zaman Səmaların sakinlərini şiddətli sarsıntı bürüdü və Allah Dərgahına yaxın olanlar üzü üstə düşüb səcdə etdilər. O elə bir şərəflə zühur etdi ki, dünyada Onun misli görünməyib. Belə ki, O şəxsən Özü Onun Əmrini bəyan etmək üçün göylərdə və yerdə olanlar arasında ayağa qalxdı...

## Seçmə 32 (↑)

ALLAHIN DOSTU, HƏZRƏT İbrahim haqqında eşitdiyin həqiqətdir və ona heç bir şübhə yoxdur. Allahın Səsi Ona İsmayılı qurban kəsmək əmrini ona görə verdi ki, Allahın Dinində Onun sədaqəti və Onun Allahdan başqa hər şeydən keçmək cəsarəti insanlara aydın olsun. Onun qurbanlığından Allahın məqsədi yer üzündə yaşayanların azğınlıq və günahlarına görə onu fəda etmək idi. Necə ki, Məryəm oğlu İsa da Şərəfli və Qüd-rətli Haqqdan bu məqamı dilədi. Məhz eyni səbəbdən də Allahın Elçisi Həzrət Məhəmməd Hüseyni fəda etdi.

Heç kəs Haqqın gizli inayətindən və Onun çoxcəhətli fəzlindən agah olduğunu heç vaxt iddia edə bilməz; heç kəs Onun hər şeyi bürüyən mərhəmətini dərk edə bilməz. İnsanlar elə azğın olmuş və elə -günahlar törətmiş, Peyğəmbərlərin və övliyaların başına elə ağır müsibətlər gətirmişlər ki, ona görə bütün aləm əhli əzaba və məhvə layiqdir. Lakin Allahın gizli inayəti, görünən və görünməyən vasitələrin köməyilə onları qorumuş və azğınlığına görə layiq olduğu cəzadan qoruyacaqdır. Bunu ürəyində fikirləş ki, həqiqəti anlayasan və sabitlərdən olasan.

## Seçmə 33 (↑)

BİZİM TƏRƏFİMİZDƏN HÖKM olunmuşdur ki, Allahın Sözü və Onun bütün gizli sirləri, Hər şeyi Bilən və hikmət Sahibi Allahın əvvəlcədən müəyyən etdiyi şərtlərə tam uyğun şəkildə insanlara açılsın. Biz həmçinin əmr etdik ki, onun gizlilik pərdəsi heç nə yox, məhz Onun özü olsun. Bununla biz, həqiqətən, istədiyimizə Qadir olduğumuzu göstərdik. Əgər Sözdə olanların hamısına birdən açılmaq izni verilsəydi, belə bir qüdrətli Vəhyin ağırlığına heç bir insan tab gətirə bilməzdi. Xeyr, yerdə və göydə olanların hamısı qorxu içində ondan qaçardılar.

Allahın Elçisi Məhəmmədə nazil olanlara nəzər sal. Onun daşıdığı Vəhyin ölçüsü Qüdrət və Qüvvət Sahibi tərəfindən əvvəlcədən dəqiq müəyyən edilmişdi. Lakin Onu eşidənlər Onun məqsədini ancaq öz ruhani qabiliyyətlərinə və məqamlarına uyğun olan qədər anlaya bildilər. Buna görə də O, Hikmətin Üzündən yalnız Onun Müjdəsini daşımaq üçün insanların gücü və taqəti çatan qədər pərdəni qaldırdı. Elə ki, insanlar yetkinliyə çatdı, Söz özündə olan gizli gücü aşkar etdi—elə bir güc ki, Qədim Camal 60-cı ildə Əli Məhəmmədin, Babın şəxsində zühur edərkən parlaqlığı ilə aşkar oldu...

## Seçmə 34 (↑)

HƏMD OLSUN O Allaha ki, Öz qüdrəti ilə məxluqatı yoxluq çılpaqlığından xilas etdi və onu həyat libası ilə şərəfləndirdi. Sonra insanların pak gövhərini yaranmışlar arasından seçdi və ona Onu tanımaq və Onun cəlalının əzəmətini əks etdirmək kimi misilsiz bir qabiliyyət əta etdi. Ona bəxş edilmiş bu ikili fərq onun ürəyinin lövhəsindən hər bir boş arzunun pasını sildi və onu Yaradanın onu geyindirmək üçün lütf etdiyi libasa layiq etdi. Bu onun qəlbini cahillik səfalətindən xilas etdi.

Bədənin və canın bəzəndiyi bu geyim insanların rifahının və inkişafının təməlidir. Necə də mübarəkdir o gün ki, onda insan Haqq Allahın fəzlinin və qüdrətinin köməyilə özünü dünyaya və orada olanlara bağlılıqdan xilas edəcək və Bilik Ağacının kölgəsində həqiqi və daimi dinclik tapacaq.

Sənin ürəyinin nəğmə oxuyan bülbülünün avazı dostların qulağına çatdı və Məni sövq etdi ki, sənin suallarına cavab verim və açılmasına icazə verilən sirləri sənə aşkar edim. O xoşagələn məktubda yazılmışdı ki, Peyğəmbərlərin hansı digərlərindən üstündür. Yəqin bil ki, Allahın bütün Peyğəmbərlərinin mahiyyəti bir və eynidir. Onların birliyi mütləqdir. Xaliq Allah buyurur: Mənim Müjdəmi Daşıyanlar arasında heç bir fərq yoxdur. Onların hamısının ancaq bir məqsədi var; Onların hamısının sirri birdir. Onların arasında fərq qoymaq, birini digərindən üstün tutmaq heç vəchlə yolverilməzdir. Hər bir həqiqi Peyğəmbər Öz Əmrini Ondan əvvəl gələn Peyğəmbərlərin Vəhyi ilə təməldə tam eyni tutmuşdur. Ona görə də, əgər kimsə bu həqiqəti dərk etməkdə aciz olarsa və nəticədə boş və yaramaz sözlər danışmağa başlarsa, baxışı iti və anlayışı nurlanmış olan heç kimsə belə mənasız söhbətlərin onun imanında büdrəməsinə izn verməz.

Hərçənd Allahın Peyğəmbərlərinin vəhylərinin bu dünyada ölçüsü fərqlənməlidir. Onların hər biri ayrı bir Müjdənin Daşıyıcısıdır və hər biri xüsusi bir əməllə Özünü aşkar edir. Məhz bu səbəbdəndir ki, Onların aralarında böyüklük-kiçiklik görüntüsü olur. Əslində isə Onlar işığını yer üzünə salan Aya bənzərlər. Baxmayaraq ki, o, hər dəfə bir cür parlaqlıqla doğur, amma onun işığı heç vaxt nə azalar, nə də tükənib qurtarar.

Buna görə də bu aydın və aşkardır ki, onların işığının parlaqlığındakı hər hansı zahiri fərqlənmə o işığın özündən deyil, daim dəyişən dünyanın alıcılığının

dəyişməsindəndir. Qüdrətli və Bənzərsiz Allahın yer üzü insanlarına göndərdiyi hər bir Peyğəmbər zühur etdiyi dövrün tələblərinə hərtərəfli cavab verən bir Müjdə və hərəkətlə meydana çıxır. Öz Peyğəmbərlərini insanlara göndərməkdə Allahın iki məqsədi vardır: birincisi, insan övladını cəhalət zülmətindən xilas etmək və onları irfan işığına yönəltmək. İkincisi isə bəşərin əmin,amanlığını və sakitliyini təmin etmək və bunlara nail olma vasitələrini vermək.

Allahın Peyğəmbərlərinə, vəzifəsi dünyanın və onun xalqlarının rifahı qayğısına qalmaq olan həkim kimi baxılmalıdır ki, parçalanmış bəşərin xəstəliyini birlik ruhu ilə sağaltsınlar. Heç kəsin haqqı yoxdur ki, onların sözlərini şübhə altına alsın və ya davranışını etibardan salsın, zira ancaq onlar xəstəni başa düşür və xəstəliyi düzgün təyin edirlər. Heç bir insan, onun bəsirəti nə qədər iti olsa da, İlahi Təbibin malik olduğu hikmət və bilik səmasına çatmağa ümid edə bilməz. Ona görə, heç də təəccüblü deyil ki, həkimin bu gün yazdığı müalicə onun əvvəl yazdığı ilə uyğun olmaya bilər. Əgər xəstəliyin hər bir mərhələsi ayrı bir ilac tələb edirsə, onda başqa cür necə ola bilər? Eynilə də, hər dəfə Allahın Peyğəmbərləri dünyanı İlahi Bilik Günəşinin şəfəqləri ilə nura boyayanda onlar insanları həmişə Allahın işığına onların zahir olduqları dövrün şərtlərinə uyğun dəvət etmişlər. Beləliklə onlar, cəhalət zülmətini qovmuş və öz biliklərinin nurunu dünyanın üzərinə saçmışlar. Ona görə də, huşyar insanların nəzərləri məhz bu Peyğəmbərlərin batini mahiyyətinə yönəlməlidir, çünki onların tək və yeganə məqsədləri həmişə yol azmışlara yol göstərmək, əzab çəkənlərə rahatlıq vermək olmuşdur. Bu günlər çiçəklənmə və təntənə günləri deyil. Bütün bəşər çoxlu xəstəliklərə düçar olub. Çalışın ki, onun həyatını qüsursuz Təbibin qüdrətli əlinin hazırladığı şəfaverici dərmanla xilas edəsiniz.

İndi isə dinin mahiyyəti barədə sualına dair. Bil ki, müdriklər dünyanı insan bədəninə bənzətmişlər. İnsan bədəninə geyim lazım olduğu kimi, bəşərin də bədəninə ədalət və bilik libası gərəkdir. Onun libası Allahın lütf etdiyi dindir. Elə ki, bu libas öz məqsədini yerinə yetirir, Qüdrət Sahibi onu mütləq təzələyir. Zira hər dövr Allahın işığının yeni miqdarını tələb edir. Hər bir Vəhy onun nazil olduğu dövrün şəraitinə uyğun şəkildə göndərilir.

Bir də keçmişdəki din xadimlərinin sözləri barədə yazmışdınız. Hər bir müdrik və tərifəlayiq insan, şübhəsiz, bu bihudə və faydasız sözlərdən uzaq gəzər. Bənzərsiz Allah bütün insanları eyni bir maddədən yaradıb və onları qalan bütün məxluqatdan

üstün tutub. Ona görə də müvəffəqiyyət və ya uğursuzluq, qazanc və ya itki insanın öz səyindən asılıdır. O nə qədər çox çalışarsa, o qədər də tərəqqi edər. Biz ümid edirik ki, Allahın kərəminin bahar yağmurları həqiqi anlayış çiçəklərini insan ürəklərinin torpağında boy verib cücərdəcək və onları bütün yer üzü çirkabından yuyub təmizləyəcək.

## Seçmə 35 (↑)

DÜŞÜNÜN: SƏBƏB NƏ olmuşdur ki, hər dəfə Rəhmanın məzhərləri zühur edərkən, aləm əhli Onlardan qaçmışlar? Ondan üz döndərməyə və Onun hakimiyyətinə etiraz etməyə onları nə vadar etmişdir? Əgər insanlar İlahi Amirin Qələmindən süzülən bu sözlər üzərində düşünsələr, hamılıqla Allahdan olan bu dəyişməz Vəhyin həqiqətini qucaqlamağa tələsər və Onun təntənə ilə təsdiq etdiyinə şəhadət verərlər. Lakin mövhumat pərdələri Allahın Birliyi Məzhərlərinin və Onun əbədi Şərəf Şəfəqlərinin zühuru günlərində insanlara mane olmuş və olmaqdadır. Çünki həmin günlərdə Əbədi Həqiqət insanların istədikləri və gözlədikləri kimi deyil, Özünün istədiyi kimi zühur edir. Necə ki, buyurmuşdur: “Hər dəfə könlünüzün istəmədiyi bir şeylə gələn Elçiyə təkəbbür göstərmirdinizmi?! Onların bir qismini yalançı saydınız, bir qismini isə qətlə yetirdiniz!”

Əlbəttə, əgər keçmiş zamanlarda və ötən əsrlərdə bu Elçilər insanların uydurduqları mövhumi təsəvvürlərə uyğun şəkildə zühur etsəydilər, heç kəs o müqəddəs Şəxslərin həqqaniyyətini inkar etməzdi. Bütün bu insanlar gecə-gündüz Haqqı zikr etməklə və məbədlərdə Ona səmimiyyətlə ibadət etməklə məşğul olurdular, amma buna baxmayaraq sonda, İlahi əlamətlərin Şəfəqlərini tanımaqdan və Onun aydın dəlillərinin Məzhərlərinin fəzlindən məhrum qalırdılar. Necə ki, bu barədə Yazılarda yazılıb və cənabınız da onların bəzilərindən xəbərdardır.

Məsələn, Məsihin Zühur Dövrünə baxın. O dövrün bütün ruhaniləri Vəd Olunmuş Zühurun intizarında olduqları halda, Ondan üz döndərdilər. Və o dövrün ən bilikli ruhanisi olan Hənnan, eləcə də baş kahin Qəyafa onu küfrdə ittiham edib qətlinə hökm verdilər.

Həmçinin Allahın Rəsulu, Həzrət Məhəmməd—hamının ruhu ona fəda olsun!—zühur edəndə Onun Vəhyinin ilk illərində Məkkə və Mədinə üləmaları Onun əleyhinə qalxdılar və Onun Müjdəsinə etiraz etməyə başladılar, amma qətiyyən elm əhli olmayan kəslər Onu tanıdılar və iman gətirdilər. Bir qədər düşünün: bir kəlmə elm oxumayan həbəş Bilal iman və iqan səmasına ucaldı, amma üləmaların başında gələn Abdullah Übəy nifaq salaraq Ona qarşı çıxdı. Baxın, adi bir çoban Allahın sözlərinin ətrini duyub Yarın məkanına daxil ola bildi və insanların Ağasına qovuşdu, amma özlərinin elm və hikmətləri ilə qürrələnənlər Ondan uzaq düşüb məhrum oldular.

Buna görədir ki, buyurur: "Sizlərdən ən yüksəkdə duran ən aşağıya salınacaq, ən aşağıda duran isə ən yüksəyə qaldırılacaq". Bu məzmunda sözlərə əksər ilahi Kitablarda, həmçinin, Peyğəmbərlərin və Elçilərin kəlamlarında rast gəlmək olar.

Doğrusunu deyirəm, bu Əmr o qədər əzəmətlidir ki, ata oğuldan, oğul atadan qaçır. Həzrət Nuhu və Kənanı yada salın. İnşaallah, bu səmavi ləzzət günlərində gərək Cəlal Sahibi Allahın şirin rayihələrindən və bu ilahi Bahar fəslində Onun fəzl yağmurlarından məhrum qalmayasınız. Bütün biliklərin Məqsədi olan Kəsin adına ayağa qalxın və insanların elmlərindən tam inqita etməklə səsinizi ucaldın və Onun Əmrini bəyan edin. And olsun İlahi Vəhy üfüqünün Günəşinə! Siz ayağa qalxan anda, İlahi biliklər selinin qəlbinizdən axdığını müşahidə edəcək və Onun hikmət möcüzələrini pərdəsiz şəkildə görəcəksiniz. Əgər Rəhmanın bəyanının şirinliyini dadsanız, canınızdan keçər və onu Cananın yolunda fəda edərsiniz.

Kim inana bilər ki, bu Bəndə nə vaxtsa hansısa dünyəvi şöhrət arzusunu xəyalından belə keçirməyib? Onun Adı ilə bağlı olan Əmr bu dünyanın fani şeylərindən çox ucadır. Ona baxın, qərib və zülmün qurbanı olaraq bu böyük məhbəsə düşüb. Düşmənləri Ona hər tərəfdən hücum ediblər və ömrünün sonuna qədər bunu edəcəklər. Ona görə də O, sizə nə söyləyirsə, tamamilə Allah xatirinə söyləyir, bəlkə yer üzü insanları qəlblərini nəfs və ehtiras çirkabından təmizləyələr, onun pərdəsini yırtalar, Haqq olan Allahı tanımaq məqamına yetişələr ən uca məqam ki, hər bir insan ona can ata bilər.

Onların Mənim Əmrimə inanmaları və ya inanmamaları Mənə nə xeyir verər, nə də ziyan vurar. Biz yalnız Allah xatirinə onları dəvət edirik. Həqiqətən, Onun bütün yaranmışlara ehtiyacı yoxdur…

## Seçmə 36 (↑)

BİL Kİ, İNSAN Oğlu ruhunu təslim edəndə bütün xilqət hönkürtü ilə ağladı. Lakin Özünü fəda etməklə, bütün yaradılmışlara yeni qabiliyyət əta edildi. Bunun əlamətləri yer üzünün bütün xalqlarında müşahidə olunduğu kimi, sənin qarşında da aşkardır.

Müdriklərin söylədikləri hikmət, bütün alimlərin aşkara çıxardığı dərin elmlər, bütün sənətkarların yaratdığı sənətlər, bütün sultanların malik olduğu qüdrət—bütün bunların hamısı Onun uca, hər yeri bürüyən və parlaq Ruhunun azad etdiyi canlandırıcı gücün təzahürləridir.

Şəhadət veririk ki, O, aləmə gəldiyi anda məxluqata cəlalının nurunu saçdı. Onun vasitəsilə bütün cüzamlılar cəhalət və inadkarlıq cüzamından sağaldılar. Onun vasitəsilə mənəviyyatsızlar və azğınlar şəfa tapdılar. Onun Qadir Allahdan olan qüdrəti sayəsində bütün korların gözləri açıldı və bütün günahkar qəlblər saflaşdı.

Cüzam bəndə ilə onun Allahı, Rəbb arasında olan pərdə kimi mənalandırıla bilər. Özünü Ondan uzaqlaşmağa imkan verən hər kəs, həqiqətən, cüzamlıdır və o, Qüdrətli, Tərifəlayiq Allahın Səltənətində xatırlanmayacaq. Biz şəhadət veririk ki, Allah kəlamı sayəsində bütün cüzamlılar təmizləndi, bütün əlillər sağaldı, bütün xəstələr şəfa tapdı. O, aləmi təmizləyən Kəsdir. Xoş o kəsin halına ki, nurlu sima ilə Ona üz tutub...

## Seçmə 37 (↑)

XOŞ O KƏSİN halına ki, Allaha və Onun əlamətlərinə inamını təsdiq edər və "Onu etdikləri barədə sorğu-suala tutmaq olmaz" kəlamını qəbul edər. Bu, elə bir etirafdır ki, Allah onu bütün etiqadların bəzəyi və bünövrəsi edib. Əməl sahiblərinin əməllərinin qəbul olunması ondan asıldır. Bu kəlamı gözlərinizin önündə tutun ki, inkarçıların işarələri sizi büdrətməsin.

Əgər O, əzəldən haram olan barəsində halal hökmü versə, yaxud həmişə halal olanı qadağan etsə, heç kəsin Ona etiraz etməyə haqqı yoxdur və kim bu məsələdə bircə anlığa tərəddüd göstərsə, o, günahkar sayılar.

Bu yüksək və təməl həqiqəti qəbul etməyən və bu uca məqama yetişməyən kəsi şübhə külələri silkələr və müşriklərin sözü onu yolundan edər. Həmin əsası qəbul edən kəs isə ən yüksək səbata nail olar. Nə gözəldir bu işıqlı məqam ki, bütün uca Lövhlər onu xatırlamaqla zinətlənmişdir. Allahın sizə bəxş etdiyi təlim budur, elə bir təlim ki, o sizi hər cür şübhə və çaşğınlıqdan xilas edər və bu dünyada və axirətdə sizi nijata yetişdirər. Həqiqətən, O, Bağışlayan və Kəramətlidir...

## Seçmə 38 (↑)

YƏQİN BİL Kİ, İlahi Vəhy işığı hər bir Zühurda insanlara onların ruhani qabiliyyətlərinə bilavasitə uyğun şəkildə lütf edilmişdir. Günəşə nəzər sal. Üfüqdə ilk görünəndə onun şüaları necə də zəifdir. Günortaya yaxın onun istisi və işığı yavaş-yavaş artır və bu zaman bütün məxluqatın onun artan təsirinə uyğunlaşmasına imkan verir. Üfüqdə itənə qədər o tədricən qürub edir və batır.Əgər o malik olduğu işığı bütün nuru ilə birdən-birə aşkar etsəydi, şübhəsiz, bütün yaranmış şeylərə ziyan vurardı..... Eynilə, əgər Həqiqət Günəşi də zühurunun ilk mərhələsində, Qüdrətlinin inayətinin ona əta etdiyi qüdrətin gücü ilə birdən zahir etsəydi, insan anlayışı torpağı viran və məhv olardı, zira nə insan qəlbi bu Vəhyin gücünə davam gətirə bilər, nə də onun işığının şüalarını əks etdirməyə qabil olardı. Qorxaraq və sarsılaraq, onlar məhv olardılar.

## Seçmə 39 (↑)

SƏNİN İDRAKEDİLMƏZ HÖKMLƏRİN və Mənə qismət etdiyin çeşidli müsibətlərin və sınaqların üçün şükrlər olsun Sənə, Ya Rəbb mənim Allahım! Sən bir dəfə məni Nəmrudun əlində qoydun, başqa bir vaxt isə Fironun əsasına izn verdin ki, məni təqib etsin. Onların Mənim başıma gətirdikləri saysız-hesabsız bəlaları yalnız Sən Özünün hər şeyi əhatə edən elminlə və öz iradənlə hesablaya bilərsən. Sən yenə də Məni müşriklərin zindanına saldın, təkcə ona görə ki, Mən Sənin Mələkutunun sevimli sakinlərinə Öz elminlə məni ilhamlandırdığın və Öz qüdrətinin gücü ilə mənasını mənə açdığın görüntüdən bircə kəlmə danışmışdım. Və Sən yenə də hökm etdin ki, kafirlər Mənim başımı kəssinlər. Başqa bir dəfə Məni çarmıxa çəkdin, ona görə ki, Mən insanlara açmişdım, Sənin şərəfli yeganəliyinin gizli cövhərlərini, Sənin hökmran və əbədi qüdrətinin əlamətlərinin bəzi möcüzələrini onlara aşkar etmişdim. Sonrakı dövrdə Kərbəla düzündə necə də acı bəlalar Mənim üstümə töküldü. Sənin bəndələrin arasında Mən necə də tək idim! O torpaqda Mən necə də köməksiz qalmışdım! Bu təhqirlərdən doymayan zalımlar Mənim başımı kəsdilər, başımı nizəyə taxaraq diyarbadiyar kafirlərin qarşısında nümayiş etdirdilər və imansız və inkarçıların yanında qoydular. Sonra isə Mən asıldım və Mənim sinəm düşmənlərimin vəhşi qəddarlığının oxlarına hədəf oldu. Mənim əzalarım güllələrdən deşik-deşik oldu, Mənim bədənim şaqqalandı. Nəhayət, bax, bu Gün, Mənim xəyanətkar düşmənlərim birləşərək Mənim əleyhimə qalxıblar, hər an hiylə qururlar ki, Sənin bəndələrinin qəlbinə Mənə qarşı kin və nifrət zəhəri salsınlar. Bütün gücləri ilə tədbir görürlər ki, məqsədlərinə çatsınlar. Mənim halım ağır olsa da, Ey Allah, Mənim Məhbubum, Mən Sənə şükr edirəm və Mənim Ruhum Sənin razılığın yolunda başıma gələn hər şeyə görə Sənə minnətdardır. Mənə nəsib etdiklərinlə Mən razıyam və nə qədər fəlakətli olsa da, qarşıma çıxan ağrı və bəlaları xoş qəbul edirəm.

## Seçmə 40 (↑)

EY MƏNİM MƏHBUBUM! Öz Ruhunu qəlbimə üfürdün və Məni Məndən aldın. Sonra isə, hökm etdin ki, Məndə Sənin Varlığının ancaq solğun bir surəti müşriklər və bədxahlar qarşısında aşkar olsun. Bax, onlar bu surətdən aldanaraq Mənim əleyhimə qalxmışlar və Mənə etiraz qaldırmışlar. Ona görə də indi Özünü göstər, Ey Mənim Məhbubum və Məni bu halımdan qurtar.

Bunun ardınca bir Səs eşidildi: “Mən bu surəti sevirəm, həqiqətən, bu surət Mənim Məhbubumdur. Mən necə razı ola bilərəm ki, yalnız Mənim gözlərim bu surətə baxsın, yalnız Mənim qəlbim onu tanısın? Öz Camalıma and olsun ki, Sənin Camalınla birdir, Mən Sənin nəinki başqalarının gözünə görünməyini istəmirəm, hətta Mən Sənin öz gözümdən gizli olmağını istəyirəm!”

Elə cavab vermək istəyirdim ki, Lövh tamam oldu və mətləb deyilməmiş, nitqimin dürrü isə açılmamış qaldı...

## Seçmə 41 (↑)

ALLAH ŞAHİDİMDİR, EY insanlar! Mən yatağımda yatmışdım, qəflətən Allahın Nəsimi Mənim üstümdən əsərək Məni yuxudan oyatdı. Onun canlandırıcı Ruhu Məni ayıltdı və Allahın Səsi Mənim dilimlə səsləndi. Məni Allaha qarşı günahda ittiham etməyin. Siz Mənə öz gözlərinizlə deyil, Mənim gözlərimlə baxın. Fəzl Sahibi və hər Şeyi Bilən sizə belə nəsihət edir. Ey insanlar, siz elə zənn edirsiniz ki, Mən Allahın son İradə və Məqsədi üzərində hakimiyyəti Öz əlimdə tutmuşam? Bu cür iddia Məndən nə qədər uzaqdır! Mən buna Qüdrətli, Uca, Hər Şeyi Bilən və Hikmət Sahibi Allahın qarşısında şəhadət verirəm. Allahın Əmrinin son taleyi Mənim əlimdə olsaydı, bir an da olsun, Özümü sizə göstərməyə razı olmazdım, nə də bircə söz belə söyləyərdim. Allah Özü buna, doğrudan, şahiddir.

## Seçmə 42 (↑)

EY İNSAF OĞLU! Gecə çağı bəqa Heykəlinin Camalı vəfanın zümrüd rəngli dağından Sidrətül-Müntəhaya tərəf yönəldi və ağladı, elə ağladı ki, Səma sakinləri və mələklər də Onun naləsindən ağlaşdılar. Sonra bu nalə və fəryadın səbəbi soruşuldu. Cavab verdi: “Aldığım əmrə görə vəfa dağında gözləməkdə idim, lakin yer əhlindən vəfa ətri duymadım. Onda qayıtmaq istədim. Müqəddəs göyərçinlərin yer köpəklərinin pəncəsində çırpındığını gördüm. Bu zaman İlahi Huri hicabsız və örtüksüz ruhani qəsrindən qaçaraq gəldi və onların adlarını soruşdu. Hamısı deyildi, yalnız bir addan başqa. O, israr etdiyi üçün adın birinci hərfi dilə gətirildi”. Bundan hücrələrin sakinləri öz şərəfli məkanlarından bayıra qaçdılar. İkinci hərfə yetişəndə hamı torpağa düşdü. O zaman Allahın yaxınlıq Məqamından nida gəldi: “Bundan artığı caiz deyil!” Həqiqətən, Biz onların etmiş olduqlarına və indi etdiklərinə şahidik.

## Seçmə 43 (↑)

EY MƏNİM QƏDİM Gövdəmdən budaq atmış Əfnan! Mənim Şərəfim və inayətim səninlə olsun! Allahın Əmrinin çadırı necə də böyükdür! O, dünyanın bütün xalqlarını və tayfalarını bürümüş və tezliklə də, bütün bəşəri öz kölgəsinə toplayacaqdır. Sənin xidmət günün gəlmişdir. Saysız-hesabsız Lövhlər sənin üzərinə yağan nemətə şəhadət verir. Əmrin zəfəri naminə ayağa qalx və öz bəyan qoşunun ilə insanların ürəyini fəth eylə. Sən elə işlər görməlisən ki, məzlum və əzilənlərə əmin-amanlıq və rahatlıq gətirsin. Hümmət kəmərini qurşa, bəlkə əsirləri zəncirdən qurtarasan və onları həqiqi azadlığa qovuşdurasan.

Bu gün ədalət öz halına ağlayır və insaf isə zülmün buxovu altında inildəyir. Qəddarlığın qara buludları yer üzünü qaraldıb və onun insanlarını bürüyüb. Biz, Qüdrətli Hökmdarın əmrinə əsasən, şərəf Qələmimizin hərəkəti ilə hər bir insan cisminə yeni həyat üfürmüş, hər sözə yeni güc əta etmişik. Bütün yaradılmış şeylər bu cahanşümul canlanmanın əlamətlərini bəyan edir. Bu Məzlumun qələmindən bəşərə verilən ən böyük, ən şad müjdə budur. Elə isə nədən qorxursunuz, ey dostlar? Sizi kim qorxuda bilər? Azacıq rütubət yetər ki, bu azmış nəslin yarandığı gil parçasını dağıtsın. Sizin sadəcə bir yerə toplaşmağınız bu mövhumata uymuş və faydasız adamların dağılmasına kifayətdir.

Bu gün hər bir ayıq adam asanlıqla təsdiq edər ki, bu Məzlumun qələmindən nazil olan sözlər dünyanın yüksəlişi və millətlərin tərəqqisi üçün ən böyük canlandırıcı vasitədir.

Ey insanlar, qalxın və Allahın Qüdrətinin köməyi ilə əvvəlcə özünüzə qalib gəlin, bəlkə yer üzü yanlış xəyallar və mövhumat bütlərinə sitayişdən təmizləndi, o bütlər ki, onlara sitayiş edən bu biçarələrin ziyana və zillətə düşməsinin səbəbi, həqiqətən, onlar olublar. Bu bütlər insanların yüksəliş və tərəqqi səylərinə mane olurlar. Biz ümid edirik ki, İlahi Qüdrət Əli dada yetişərək, bəşəri bu böyük zillətdən xilas edəcəkdir.

Lövhlərin birində bu sözlər nazil olmuşdur: Ey Allah adamları! Öz hayınızda olmayın, dünyanı islah etmək və insanların ürəyini və qəlbini paklaşdırmaq barədə düşünün. Dünyanın yaxşılaşması gözəl və pak əməllərlə, xoş və bəyənilmiş əxlaqla əldə oluna bilər. Rəşadətli əməllər Əmrin zəfərinə kömək edəcək, mömin əxlaq isə

onun qüdrətini artıracaqdır. Ey Bəha əhli! Paklıq yolu ilə gedin! Bu Məzlumun sizə hökmü və Onun dəfedilməz İradəsinin seçdiyi birinci şey budur!

Ey dostlar, sizə yaraşan budur ki, könül açan bu İlahi Baharda üzərinizə yağan feyz yağışı ilə yuyunub təravətlənəsiniz. Onun əzəmətli cəlal Günəşi sizə nur saçır, Onun intəhasız fəzl buludu üzərinizə kölgə salıb. Özünü bu böyük səxavətdən məhrum etməyən və Məhbubunun gözəlliyini bu yeni libasda tanıya bilən kəsin mükafatı necə də böyükdür. Ehtiyatlı olun, sizi hər an azdırmaq üçün Şeytan pusquda durub. Onun şər niyyyətlərindən qorunun və hər şeyi Görən Allahın adının işığı ilə sizi saran qaranlıqdan xilas olun. Qoy baxışınız dünyanı saran olsun, nəinki yalnız özünüzlə məhdudlaşsın. Şeytan o kəsdir ki, insan övladının ruhani tərəqqisinin yüksəlişinə mane olur və onu saxlayır.

Bu Gün hər kəsə vacibdir ki, bütün millətlərin və ədalətli hökumətlərin tərəqqisini irəlilədən və məqamlarını yüksəldən işlərdən möhkəm yapışsın. Uca Qələmin nazil etdiyi hər bir ayə ilə məhəbbət və birlik qapıları taybatay açılmışdır. Bir az əvvəl Biz demişik və Bizim Sözümüz həqiqətdir: “Bütün dinlərin ardıcılları ilə dostluq və yoldaşlıq ruhunda ünsiyyətdə olun”. İnsanların bir-birindən qaçmasına səbəb olan, ixtilaf və təfriqə doğuran hər nə varsa, bu sözlərin nazil olması ilə ləğv edilmiş və aradan qaldırılmışdır. Allahın İradə səmasından, varlıq dünyasını nəcibləşdirmək və insanların ağlını və qəlbini yüksəltmək məqsədilə o şeylər nazil olmuşdur ki, bunlar, bütün insan nəslinin tərbiyələnməsi üçün ən təsirli vasitədir. Keçmiş millətlərin dilindən və qələmindən çıxanların təmiz cövhəri və ən mükəmməl ifadəsi bu ən qüdrətli Vəhy vasitəsilə Hər Şeyə Malik, Əbədi Allahın İradə səmasından nazil olmuşdur. Keçmişdə nazil olmuşdur: “Vətənə məhəbbət imandandır”. Amma Əzəmət Dili Öz Zühur dövründə belə buyurub: “O kəs fəxr etməsin ki, vətənini sevir, fəxr etsin o kəs ki, dünyanı sevir”. Bu ali kəlamlarla zahir olan güclə O, insanların könül quşlarına təzə bir uçuş öyrətdi, onlara yeni bir istiqamət verdi, Allahın müqəddəs Kitabından məhdudiyyət və təqlidin izini sildi.

Ey Ədalət əhli! İşıq kimi parlayın və Sidrənin alovu kimi şölə saçın. Sizin məhəbbətinizin alovu, şübhəsiz, yer üzünün ədavət aparan xalqları və tayfalarını qovuşdurar və birləşdirər, amma düşmənçilik və nifrətin şiddətli alovu savaş və dağıntıdan başqa bir şeylə nəticələnməz. Allahdan diləyimiz budur ki, Öz yaratdıqlarını Onun düşmənlərinin şərindən qorusun. Həqiqətən, O hər şeyə Qadirdir.

Həmd olsun Haqq olan Allaha ki,—Onun şərəfi ucalsın—Uca Qələmin açarı ilə ürəklərin və könüllərin qapılarını açmışdır. Bu Qələmin nazil etdiyi ayələrdən hər biri, ruhani və müqəddəs həyatın, pak və ləkəsiz əməllərin şərəfini aşkara çıxaran parlaq və işıqlı bir qapıdır. Bizim qaldırdığımız bu nida və bu müraciət heç vaxt bir ölkə və ya bir xalqın faydalanması məqsədi daşımamışdır. Bütün bəşər ona nazil olanlardan və lütf edilənlərdən möhkəm yapışmalıdır. Onda və yalnız onda o həqiqi azadlığa yetişər. Bütün yer üzü Allahın Vəhyinin parlaq cəlalı ilə nurlanmışdır. Altmışıncı ildə, İlahi Hidayət işığını müjdə verən Kəs—bütün xilqət Ona fəda olsun—İlahi Ruhun yeni açılışını bəyan etdi və ondan iyirmi il sonra gəlişi ilə dünyanı bu vədolunmuş cəlalın, bu ecazkar lütfün alıcısına çevirən Kəs gəldi. İndi baxın, bəşərin böyük hissəsi necə Allahın ən uca Sözünü eşidə bilmək qabiliyyətinə malik olmuşdur—o Söz ki, bütün insanların bir araya gəlməsi və ruhani dirçəlişi ondan asılıdır və ona bağlıdır…

Ey Allah adamları, həqiqi və yeganə Dostunuzun nəsihətlərini qəlbinizin qulağı ilə dinləyin. İlahi Kəlam insanların qəlbinə əkilmiş fidana bənzər. Sizə buyrulmuşdur ki, onu hikmət, pak və müqəddəs sözlərin kövsəri ilə bəsləyib böyüdəsiniz ki, onun kökləri bərkisin, budaqları isə fələkləri ötüb keçsin.

Ey yer üzü sakinləri! Bu Ali Zühurun üstünlüyü ondadır ki, Biz, bir tərəfdən insan övladları arasında ixtilaf, fəsad və nifaq doğuran şeyləri Allahın müqəddəs Kitabından sildik, digər tərəfdən isə orada ülfətə, anlayışa və birliyə səbəb olan şeyləri təsbit etdik. Mənim qanunlarıma əməl edənlərin xoş halına!

Dostlara dönə-dönə tövsiyə etmişik və edirik ki, fəsad qoxusu gələn şeylərdən uzağlaşsınlar, xeyr, qaçsınlar. Dünya çaxnaşmadadır və insanların fikirləri isə tam çaşqınlıqda. Qüdrətli Allahdan diləyimiz budur ki, onları Öz ədalət nuru ilə nurlandırsın və onlar üçün bütün hallarda faydalı olanları onlara anlatsın, həqiqətən, O, Ehtiyacsız və Ucadır...

## Seçmə 44 (↑)

EY ÜLƏMA TAYFASI, Allahdan çəkinin, sonra da Qoruyucu və Qəyyum Allahın kitablarının şəhadət verdiyi bu təhsil görməmiş Kəsin Əmrinə insafla yanaşın!.... Bir olan Allahın qəzəbi, tayı və bərabəri olmayan Kəsin qorxusu sizi ayıltmazmı? Axı dünyanın zülm etdiyi bu Məzlum heç vaxt sizinlə və sizin kimilərlə ünsiyyətdə olmayıb, sizin kitablarınızı görməyib, sizin dərs məclislərinizdə oturmayıb. Bu deyilənləri Onun papağı, Onun zülfü, Onun geyimi təsdiq edir. Axı nə vaxta qədər bu insafsızlığınızda israr edəcəksiniz?! Görün ədalət mücəssəməsini harada məskun olmağa məcbur ediblər?! Gözünüzü açın, bəsirət gözü ilə baxın və törətdikləriniz üzərində düşünün, bəlkə Onun Bəyan günəşinin nurlarından məhrum olmayasınız və Onun irfan dəryasındakı payınızdan binəsib qalmayasınız.

Bir çox yüksək rütbəli şəxslər və adi adamlar etiraz edib deyirlər ki, bu Məzlum üləmalar zümrəsindən və ya Peyğəmbərin nəslindən deyil. De: ey insaflı olduqları iddiasında olanlar! Əgər bir qədər düşünsəniz, bu məqamın onlardan son dərəcə yüksək və böyük olduğunu görə bilərsiniz. Qüdrət Sahibi Allahın İradəsi hökm etdi ki, Onun Əmri elə bir nəsildən zühur etsin ki, orada üləmalara, fəqihlərə, ariflərə və ədiblərə xas olan şeylər mövcud deyil.

İlahi Ruhun Nəsimi Onu oyatdı və Ona əmr etdi ki qalxsın və Onun Vəhyini bəyan etsin. O da ayılan kimi ayağa qalxdı və hamını aləmlərin Rəbbi olan Allaha doğru səslədi. Bu sözləri Biz insanların zəifliyi və gücsüzlüyünü nəzərə almaqla nazil etmişik, əks halda Bizim bəyan etdiyimiz Əmr elədir ki, onu nə bir qələm təsvir edə bilər, nər də bir insan düşüncəsi onun böyüklüyünü dərk edə bilər. Ana Kitabın Sahibi buna şəhadət verir.

## Seçmə 45 (↑)

ƏZƏLİ CAMAL ZƏNCİRLƏRLƏ qandallanmağa razı oldu ki, bəşər köləlikdən xilas olsun, böyük Qalada məhbus olmağı qəbul etdi ki, bütün dünya həqiqi azadlığa çıxsın. O, kədər badəsini sonadək içdi ki, yer üzünün bütün insanları daimi sevincə qovuşsun və şadlıqla dolsun. Bu, sənin Rəhman və Rəhim Rəbbinin mərhəmətindəndir. Ey tövhid əhli, Biz zilləti qəbul etdik ki, siz izzətə çatasınız və hər cür çətinliklərə razı olduq ki, siz rifaha yetişəsiniz. Baxın, bütün dünyanı yenidən qurmaq üçün gəlmiş Kəsi müşriklər ən xaraba şəhərdə necə məskun etmişlər...

## Seçmə 46 (↑)

MƏN MƏHBUSLUĞUMDAN KƏDƏRLƏNMİRƏM. Nə də zillətə düşdüyüm üçün və ya düşmənlərin Mənim başıma gətridikləri bəlalara görə məyus oluram. Həyatıma and olsun, bunlar mənim üçün şərəfdir və Allah bu şərəfi Özünün bəzəyi etmişdir. Əgər ariflərdənsinizsə, bunu bilin!

Mənim başıma gətirilən zillət sayəsində məxluqatın izzəti aşkar oldu və mənim giriftar olduğum qəddarlıq nəticəsində Ədalət günəşi özünü zahir etdirdi və insanlara nur saçdı.

Məni kədərləndirən o kəslərdər ki, pozğunluğa qurşanıblar və bununla belə, Mərhəmətli və Tərifli Allahın Dininə mənsub olduqlarını iddia edirlər.

Bəha əhlinə yaraşan odur ki, bu dünya və orada olanlar onlar üçün yox olsun və yer üzündə olan şeylərdən əllərini elə üzsünlər ki, cənnət əhli onların libasından müqəddəslik ətrini duysun və aləm əhli onların üzündə Rəhmanın nurunu görsün, onların vasitəsilə Qüdrətli və Hikmət Sahibi Allahın əlamətləri və nişanələri yayılsın. Allahın Əmrinin gözəl adını zay edərək öz ehtiraslarına tabe olan kəslər isə açıq-aşkar yollarını azmışlar...

## Seçmə 47 (↑)

EY YƏHUDİLƏR, ƏGƏR siz ikinci dəfə Ruhu çarmıxa çəkmək istəyirsinizsə, Allaha and olsun, bu həmən Ruhdur ki, sizin aranızda zühur etmişdir. Elə isə istədiyinizi edin, çünki O öz canını Allahın yolunda qurban demişdir və əgər göylərdə və yerdə olanların hamısı ona qarşı birləşsələr də, o heç kəsdən qorxan deyil. Buna əmin olun!

Ey İncil əhli, əgər siz Allahın Rəsulu Məhəmmədi qətlə yetirmək istəyirsinizsə, Allaha and olsun, bu, Onun Özüdür ki, haqla zühur etmişdir. Elə isə istədiyinizi edin, çünki O, Şərəf səltənətində Məhbubunun görüşünə müştaqdır. Allahın əmri belədir, bunu bilin.

De: Ey Quran əhli, əgər siz Bəyanı nazil edən Əlinin vücudunu asmaq istəyirsinizsə, Allaha and olsun, bu, Onun Məhbubudur ki, başqa adla zühur etmiş və cəlal kölgəsində Allahdan olan mütləq hökmranlıqla gəlmişdir. O, Haqdır, qeybin sirlərini Biləndir və sizdən əvvəlki zühurda etdiyiniz hərəkətləri gözləyir. Bütün şeylər buna şəhadət verir, bunu eşidin.

Ey Bəyan əhli, əgər siz gəlişi Babın dili ilə bəyan olunmuş, zühuru ondan əvvəl Məhəmmədin dili ilə müjdələnmiş , ondan qabaq isə Vəhyi Ruhun (İsanın) dili ilə élan edilmiş Şəxsin qanını tökmək istəyirsinizsə, budur, O sizin qarşınızda köməksiz və hazır durmuşdur. İstədiyiniz kimi onunla rəftar edin.

## Seçmə 48 (↑)

ALLAHA AND OLSUN, əgər bu, Lövhələrdə nazil olanlara zidd olmasaydı, aləmlərin Məhbubunun yolunda mənim qanımı tökənin əlini öpərdim və hətta Allahın mənə verdiyi əmlakdan ona miras təyin edərdim; baxmayaraq ki, bundan ötrü o, Hər Şeyə Malik, Ədalətli və Hikmətli Hökmdar olan Allahın qəzəbinə düçar olar, Onun lənətini qazanar və əbədi əzabına layiq olardı....

## Seçmə 49 (↑)

SONRA BUNU YƏQİN bil ki, bu Qulam özünə nəzər salanda, özünün ən həqir bir varlıq olduğunu görür, amma Ona əta edilmiş güclə Özündən zahir olan nurlara baxanda, özünün gizli və aşkar aləmlərin Sultanı olduğunun şahidi olur. Pak və ucadır o Allah ki, Öz Məzhərini haqq ilə zühur etdirdi və bütün insanlara müraciətini Ona etibar etdi.

## Seçmə 50 (↑)

EY BİXƏBƏRLƏR, QƏFLƏT yuxusundan ayılın və Onun aləmi bürümüş cəlalının nurlarını müşahidə edin! Onun vaxtından tez parlamasını deyənlər nə qədər də düşüncəsizdirlər. Ey bəsirətsizlər, tez ya gec, indi ki Onun parlaq cəlalı şəfəq saçıb, siz baxıb görün, həqiqətənmi bu parıltı baş verib ya yox. Daha onun -tezliyi və gecliyi nə sizin, nə də bu Qulamın əlində deyil. Bunun vaxtını insanların nəzərindən gizli olan İlahi hikmət müəyyənləşdirmişdir. Ey insanlar, Allahın sizə rəva gördüyünə və sizin üçün müəyyən etdiyinə razı olun… Ey Mənə kin bəsləyənlər, Əbədi Hidayət Günəşi Mənə şahiddir: əgər Əmr Mənim əlimdə olsaydı, heç bir halda Özümü aşkara çıxarmazdım, çünki Mənim məlum Adım özünün bu təmiz olmayan və yalançı dillərdə dolaşmağını ar bilir. Amma hər dəfə Mən sakit olub susanda, Ruhül-Qüds sağ tərəfimdə danışıb, Ruhül-Əzəm üzümün qarşısında, Ruhül-Əmin başımın üstündə, Ruhül-Bəha isə köksümdə səsini ucaldıb. İndi əgər təmiz qulaqla dinləsəniz, Mənim bütün əzalarımdan, xeyr, bütün varlığımın zərrələrindən bu sədanı eşidərsiniz: “Ondan başqa Allah yoxdur və Camalı indi aşkar olan Kəs, Onun cəlalının göylərdə və yerdə olanlara təcəllisidir”.

## Seçmə 51 (↑)

EY İNSANLAR! YEGANƏ və haqq olan Allaha and olsun, bu, elə bir Ümmandır ki, bütün dənizlər ondan törəyir və onların hər biri son nəticədə hökmən ona qovuşurlar. Bütün Günəşlər ondan doğur və ona qayıdırlar. Onun qüdrəti sayəsində İlahi Vəhy Ağacları bar verir və Onun meyvələri Peyğəmbərlər qiyafəsində göndərilərək, İlahi Müjdəni hər bir aləmdəki məxluqata çatdırır ki, həmin aləmlərin də sayını hüdudsuz Elmi ilə yalnız Allah hesablaya bilər. Bunu O, Öz Qələmindən nazil olan Sözün bircə Hərfinin köməyi ilə həyata keçirir. Həmin Qələm Onun hidayət barmağı ilə hərəkətə gəlir, onun barmağı isə İlahi həqiqətdən güc alır.

## Seçmə 52 (↑)

DE: EY İNSANLAR, özünüzü Allahın fəzlindən və mərhəmətindən məhrum etməyin. Kim özünü bunlardan məhrum etsə, o, həqiqətən, böyük ziyana uğrayar. Ey insanlar, məgər siz torpağa sitayiş etmək və -Qüdrətli, Səxavətli Rəbbinizdən dönməkmi istəyirsiniz?! Allahdan çəkinin və ziyana uğrayanlardan olmayın. De: Allahın Kitabı Qulamın vücudu ilə zahir oldu. Yaradanların ən gözəli olan Allaha əhsən! Ayıq olun, ey yer əhli, məbada Onun üzündən qaçasınız, xeyr, Onun hüzuruna tələsin və Ona üz tutanlardan olun. Ey insanlar, Allahın yanında günah işlətdiyinizə və Onun Əmrinə ziyan vurduğunuza görə Allahdan bağışlanmağınızı diləyin və cahillərdən olmayın.

Sizi O xəlq etdi, Öz Əmri ilə sizin ruhunuzu bəslədi və Qüdrətli, Uca və Hər şeyi Bilən Kəsi sizə tanıtdırdı. Sizin üçün irfan xəzinələrini O aşkar etdi və sizi Öz dəyişməz, danılmaz və yüksək Əmrində yəqinlik səmasına ucaltdı. Özünüzü Allahın fəzlindən məhrum etməkdən qorxun, öz əməllərinizi puça çıxarmayın və bu ən aşkar, ən uca, ən parlaq və ən cəlallı zühurda Onu inkar etməyin. Sizi yaradan Allahın Əmrinə insafla yanaşın, Ərşdən nazil olana nəzər salın və onun barəsində pak və təmiz qəlblə düşünün. O zaman bu Əmrin həqiqəti sizə göyün ortasında görünən günəş kimi aydın olar və Ona inananlardan olarsınız. De: Onun həqqaniyyətinin ilk və ən əsas dəlili—Onun Özüdür, sonra da Onun Vəhyidir. Bunları dərk etməkdə aciz olanlar üçün O, Öz ayələrini dəlil etmişdir və bu, həqiqətən, Onun aləmdəkilərə mərhəmətinin bir əlamətidir. O, bütün könüllərə Allahın əlamətlərini dərk etmək qabiliyyəti vermişdir və əgər siz Onun bu Əmri barədə ürəyində düşünənlərdənsinizsə, bilməlisiniz ki, bunsuz Onun bəndələrinə göndərdiyi dəlillər natamam olardı. O heç kəsə zülm etməz və bəndələrinə gücləri çatandan artıq bir şeyi əmr etməz. Həqiqətən, O, Rəhmli və Mərhəmətlidir.

De: Allahın Əmrinin cəlalı elə aşkardır ki, nəinki aydın və işıqlı göz sahibləri, hətta yer üzündəki anadangəlmə karlar da onu dərk edə bilər. Anadangəlmə kor günəşi gözü ilə görmür, amma bütün aylarda və illərdə ondan zahir olan hərarəti duyur. Lakin Bəyan əhlindən olan kor, Allaha and olsun, gözünün önündə Günəş nə qədər parlasa da, nə onun parıltısını görür, nə də təsirini və şüalarının istiliyini duyur.

De: Ey Bəyan əhli! Biz sizi dünyadakı insanlar arasından Bizi tanımaqdan ötrü seçdik və sizi Cənnət məkanının sağ tərəfindəki elə bir Yerə yaxınlaşdırdıq ki, orada sönməz Atəş bütün ahənglərdə deyir: “Məndən—Uca və Əzəmətlidən başqa Allah yoxdur!” Ayıq olun, Mərhəmətli Rəbbinizin İradə üfüqündən parlayan və irili-xırdalı hər şeyi öz nuruna boyayan bu Günəşdən özünüzü pərdə arxasında gizlətməyin. Gözlərinizi -təmiz-ləyin ki, onu öz gözlərinizlə görəsiniz: ona başqasının gözü ilə deyil, öz gözünüzlə baxın, çünki Allah heç kəsə gücü çatandan artıq bir yük vermir—Peyğəmbərlərə və Elçilərə belə nazil olmuş və bütün Yazılarda belə yazılmışdır.

Ey insanlar, bu Fəzaya daxil olmağa çalışın ki, Allah onun üçün nə başlanğıc, nə də son müəyyən edib və orada Allahın nidası ucalır və onun üzərindən müqəddəslik və cəlal nəsimi əsir. Bədənlərinizi şərəf Libasından, qəlblərinizi Rəbbinizin zikrindən, qulaqlarınızı Onun ecazkar, əzəmətli, təsirli, fəsahətli və bəlağətli nəğmələrini dinləməkdən məhrum etməyin.

## Seçmə 53 (↑)

EY NƏSİR, EY Mənim bəndəm! Əbədi Haqq olan Allah Mənim şahidimdir, bu Gün Cənnət Qulamı Əbhanın Ölümsüzlük şərabının Piyaləsini əlində tutaraq, hamının başı üstündən baxır və Öz taxtında dayanıb gözləyir ki, kimin gözü Onun cəlalını görəcək və hansı əl tərəddüd etmədən uzanıb həmin Piyaləni Onun bəyaz Əlindən alıb içəcək. Amma hələlik ancaq bir neçəsi Əzəl Sultanının bu bənzərsiz və büllur çeşməsindən içmək şərəfinə nail olub. Və onlar Cənnət bağlarının üstündəki ən uca saraylarda mötəbərlik taxtında əyləşiblər. Allahın həqqaniyyətinə and olsun, nə Onun cəlalını əks etdirən aynalar, nə Onun adlarının məzhərləri, nə də bütün yaranmışlar və yaranacaqlar onlardan üstün ola bilərlər. Əgər arifsinizsə, bunu bilin.

Ey Nəsir! Bu, elə bir Gündür ki, ariflərin irfanı və müdriklərin idrakı onun əzəmətini dərk edə bilməz—o da qalsın ki, Bunun nurundan qafil olanlar və ya Onun cəlalından pərdələnənlər olsun! Əgər gözlərini böyük pərdələrdən təmizləsən, elə bir nemətin şahidi olarsan ki, əvvəli olmayan əvvəldən axırı olmayan axıra qədər ona bənzər, oxşar, uyğun və yaxın olan bir şey görməzsən. Axı Allahın Carçısı olan Kəs hansı tərzdə danışmalıdır ki, pərdə arxasında qalanlar Onun cəlalını tanısınlar?! Möminlər, uca Mələkutda sakin olanlar Mənim Əbha adımla Müqəddəslik Şərabından içərlər, başqaları isə ondan məhrum qalacaqlar.

## Seçmə 54 (↑)

ALLAHIN, MƏNİM MƏHBUBUMUN həqqaniyyətinə and olsun! Mən heç vaxt yer üzündəki insanlara hakim olmaq istəməmişəm. Mənim yeganə məqsədim yalnız Fəzl Sahibi və Bənzərsiz Allah tərəfindən Mənə əmr olunanı insanlara çatdırmaq və bununla da onları dünyəvi olanlardan uzaqlaşdırıb elə bir məqama yüksəltmək olmuşdur ki, Onu nə müşriklər dərk, nə də inkarçılar təsəvvür edə bilərlər.

## Seçmə 55 (↑)

EY “TA” TORPAĞI (Tehran)! O çağları yada sal ki, sənin Rəbbinin taxtı səndə qurulmuşdu və O səni Öz cəlalının nurlarına boyamışdı. Neçə-neçə müqəddəs şəxslər, o yəqinlik rəmzləri sənə olan böyük məhəbbət yolunda canlarını qurban verdilər və sənin xatirinə hər şeylərindən keçdilər. Xoş sənin və səndə yaşayan kəslərin halına! Mən şəhadət verirəm ki, hər bir anlayan qəlb aləmin Məqsudunun ətrini səndən alır. Səndə Görünməz olan üzə çıxdı, pünhan olan səndən car oldu. Qanları sənin qapıların arxasında tökülmüş və sənin torpağına tapşırılmış sədaqətli aşiqlərinin hansını xatırlayım?! Allahın şirin rayihələri səndən kəsilməyib və əbədiyyətə qədər də kəsilməyəcək. Bizim Qələmimiz səni və səndə uyuyan məzlum kişi və qadınları xatırlamaq istədi. Biz inayət əlaməti və ona qarşı vəfa nişanəsi olaraq, onların arasında olan bacımızı xatırlayırıq. Onun taleyi necə də məşəqqətli idi! Necə bir itaətkarlıq halında o, öz Allahına qayıtdı! Bunu hər şeyi əhatə edən Elmimiz sayəsində bizdən başqa heç kəs bilmir.

Ey “Ta” torpağı! Allahın fəzlindən sən indi də Haqq aşiqlərinin məkanı və məskənisən. Onlar bəxtiyardırlar; bu ecazkar günün Sahibi olan Allahın yolunda çəkdikləri əziyyətlər zamanı sənin sığınacağını axtaran hər bir mühacir bəxtiyardır! Xoş o kəslərin halına ki, Haqqı zikr edir, Onun Adını ucaldır və səylə Onun Əmrinə xidmət göstərmək istəyirlər. Əvvəlki kitablarda haqqında söz açılmış şəxslər onlardır. Möminlərin əmiri (Həzrət Əli) onların vəsfində səxavətlə belə buyurub: “Onların xoşbəxtliyi bizim xoşbəxtliyimizdən üstündür”. O doğru söyləyib və Biz də bunu təsdiq edirik. Onların məqamı hələlik gizlidir, lakin İlahi Qüdrətin əli, əlbəttə, pərdəni götürəcək və dünyanın gözlərinin işıqlanmasına və şadlanmasına səbəb olan kəsləri aşkara çıxaracaq.

Şərəfi ucalan Allaha, Əbədi Həqiqətə şükr edin ki, bu ecazkar inayətə layiq görüldünüz və Rəhmanın tərif kəlamı ilə bəzəndiniz. Bu günlərin qədrini bilin və bu Zühura layiq olan işlərdən yapışın. Həqiqətən, O, Nəsihətçi, Şəfqətli və Hər şeyi Bilәndir!

## Seçmə 56 (↑)

EY “TA” TORPAĞI! Heç bir şeydən kədərlənmə! Allah səni bütün bəşərə sevinc mənbəyi etmişdir. Əgər O istəsə, sənin taxtını elə bir şəxsə bəxş edər ki, o, ədalətlə hökmranlıq edər və Allahın canavarların dağıtdığı qoyunlarını bir yerə yığar. Həmin şəxs sevinc və mehribanlıqla üzünü Bəha əhlinə tutar və onlara lütf göstərər. O, Haqqın nəzərində bütün insanların cövhəri sayılar. Və hər zaman Allahın şərəfinə, eləcə də Onun Əmr səltənətində olanların şərəfinə layiq görülər.

Böyük şadlıqla sevin, zira Allah səni Öz nurunun Məşriqi etmişdir, çünki səndə Onun Cəlalının Məzhəri doğulmuşdur. Sənə əta edilmiş bu ada görə sevin—o ad ki, onun vasitəsilə Fəzl Günəşi parlamış, yerə və göyə işıq saçmışdır.

Tezliklə sənin vəziyyətin dəyişiləcək və səndə xalq hakimiyyəti qurulacaq. Həqiqətən, sənin Rəbbin hər şeyi Bilәndir. Onun hakimiyyəti hər şeyi əhatə edir. Rəbbinin mərhəmətinə əmin ol, O Öz lütfkar nəzərlərini səndən çəkməyəcək. O gün yaxınlaşmaqdadır ki, onda sənin iztirabın rahatlığa çevriləcək. Ecazkar Kitabda işlər belə müəyyən olunub...

## Seçmə 57 (↑)

EY MƏHƏMMƏD, MƏNİM hüzurumdan ayrılan zaman Mənim Evimə (Bağdaddakı) yollan və Rəbbinin adından onu ziyarət et. Onun qapısına yaxınlaşarkən dayan və de: "Ey Allahın əzəmətli Evi, hanı o Əzəli Camal ki, Onun sayəsində Allah səni insanların qibləsinə, göylərdə və yerdə olanlara Onu xatırladan əlamətə çevirib?! Ah! Hanı o günlər ki, Ey Allahın Evi, Onun qədəmləri sənin torpağına toxunurdu? Hanı o günlər ki, səndən hər an Rəhmanın nəğmələri ucalırdı? Hanı o bəzəyin ki, ondan bütün məxluqat işıqlanırdı? Hanı o günlər ki, Əzəl Sultanı səni Özünün cəlal taxtına çevirmişdi? Hanı o günlər ki, sən yerlə göy arasında bir nicat çırağı idin və hər səhər-axşam səndən Sübhanın nəsimi əsirdi?!

Ey Allahın Evi, hanı sənin üfüqündən parlayan əzəmət və qüdrət Günəşi ki, Hüzurunun parlaqlığı ilə səni əhatə etmişdi? Hanı ixtiyar sahibi olan Rəbbinin sənin üzərindən saçılan inayət şəfəqləri ki, Öz taxtını sənin divarların arasında qurmuşdu? Nə olub sənə, ey Allahın taxtı? Halını dəyişdirən, təməlini sarsıdan nədir? Sənin qapılarını Səni istəyənlərin üzünə nə bağlaya bilərdi? Nə olub ki, səni belə xaraba görürəm? Eşitmisənmi ki, aləmin Məhbubu düşmənlərin qılıncı altındadır?! Rəbbinin xeyir-duası sənə və sənin Ona vəfadarlığına olsun ki, Onu bürümüş kədər və bəlalar zamanı da Ona sadiq qalmısan!

Şəhadət verirəm ki, sən Onun fövqəl cəlal məskəni və Onun ən təmiz məkanısan. Səndən Cəlal Sahibinin Nəsimi bütün məxluqatın üzərinə əsdi və Cənnət guşələrindəki sadiqlərin könlünü fərəhləndirdi. Bu gün Səma əhli və Adlar Şəhərinin sakinləri sənin başına gələnlərdən kədərlənib göz yaşı tökürlər.

Sən hələ də Qüdrətlinin adları və sifətlərinin məzhəri, yerin və göylərin Sahibinin diqqət Mərkəzisən. İçərisində Allahın əmin-amanlıq vədinin olduğu Sandığın başına gələnlər sənin də başına gəldi. Xoş o kəsin halına ki, xilqətin Sahibinin nə istədiyini Onun sözünün ahəngindən anlayar.

Xoş o kəslərin halına ki, hər zaman Rəhmanın ətirlərini səndən alar, sənin ucalığını etiraf edər, sənin paklığını saxlayar və hər zaman sənin məqamını uca tutar. Allahdan diləyimiz budur ki, səndən qafil olanların və səni tanıyaraq qədrini bilməyənlərin gözlərini açsın ki, onlar səni və səni belə yüksəkliyə qaldıran Kəsi tanısınlar. Bu gün

onlar, doğrudan da, kordurlar və səni tanımırlar. Amma sənin Rəbbin, həqiqətən, Şəfqətli və Bağışlayandır.

Şəhadət verirəm ki, sənin vasitənlə Allah öz bəndələrini imtahan etdi. Xoş o kəslərin halına ki, sənə üz tutdular və səni ziyarət etdilər və vay o kəslərin halına ki, sənin haqqını inkar etdilər, səndən üz çevirdilər, sənin adını alçaltdılar və sənə hörmətsizlik etdilər.

Ey Allahın Evi, əgər müşriklər sənin müqəddəslik örtüyünü təhqir etsələr, kədərlənmə. Allah səni xilqət aləmində Öz zikrinin bəzəyi ilə zinətləndirib—belə bir bəzəyi isə heç vaxt kimsə təhqir edə bilməz. Rəbbinin nəzərləri hər zaman və hər bir şəraitdə sənə dikilib. O səni ziyarət edənlərin, sənin ətrafına dolananların və sənin vasitənlə Onu çağıranların sədasını eşidir. Həqiqətən də, O, Bağışlayan və Rəhmlidir.

İlahi, Sənin fərağından dəyişikliyə uğrayan, Sənin hicranından ağlayan və Sənin günlərində başına gələnlərə göz yaşı axıdan bu Ev vasitəsilə Səndən diləyim budur ki, məni və valideynlərimi, yaxınlarımı və mömin qardaşlarımı bağışla! Ey Adlar Sultanı, Öz səxavətinlə mənim bütün ehtiyaclarımı aradan qaldır, çünki Sənsən Səxavətlilərin ən Səxavətlisi və aləmlərin Rəbbi!”

## Seçmə 58 (↑)

SİRR TORPAĞIN DA (Ədirnəyə) sürgün olduğumuzun ilk ilində bəndəmiz Mehdiyə nazil ediləni xatırla. Biz ona sonralar (Bağdaddakı) Evin başına gələcək hadisə-ləri xəbər vermişdik ki, bundan əvvəl baş vermiş qarət və təcavüz onu kədərləndirməsin. Həqiqətən, Sənin Rəbbin Allah göylərdə və yerdə olan hər şeyi bilir.

Biz ona belə yazmışdıq: "Bil ki, bu, Mənim Evimə qarşı yol verilən ilk təhqir deyil. Bundan əvvəl də zalımların əli ilə belə hərəkətlər olmuşdu. Və həqiqətən, gələcəkdə də o elə alçaldılacaq ki, bütün görən gözlərdən yaş axacaq. Beləcə, Biz sənə o şeyləri çatdırırıq ki, onlar qeyb pərdəsində gizli saxlanılır və Qüdrətli, Tərifli Allahdan başqa heç kəs onlardan agah deyil. Bir müddət keçəndən sonra Allah haqqın gücü ilə onu bütün insanların gözü önündə ucaldacaq. O onu Öz səltənətinin Bayrağı, başına möminlərin dolanacağı Məbəd edəcək. O müsibət günü gəlməzdən qabaq sənin Rəbbin olan Allah belə deyir. Müqəddəs Lövhümüzdə Biz sənə xəbər verdik ki, düşmənlərin əlindən Evin başına gələnlər səni kədərləndirməsin. Həmd olsun Hər şeyi Bilən və Hikmət Sahibi olan Allaha!"

## Seçmə 59 (↑)

HƏR BİR İNSAFLI şəxs həvəslə təsdiq edər ki, bu Məzlum Zühurun əvvəlindən bəri bütün bəşəri Cəlal Məşriqinə çağırıb və pozğunluğu, zülmü, nifrəti və pisliyi qadağan edib. Bununla belə, baxın, zalımın əli nələr törədib! Heç bir qələm bu zülmü təsvir edə bilməz. Baxmayaraq ki, Əbədi Haqq olan Kəsin məqsədi bütün insanlara əbədi həyat bəxş etmək, onların əmin-amanlığını təmin etmək olmuşdur, amma baxın, onlar necə Onu sevənlərin qanını axıtmağa qalxmış və Onun qətlinə fitva vermişlər. Bu zülmün qızışdırıcıları məhz onlardır ki, bu qədər cahildirlər, lakin müdriklərin müdriki kimi tanınırlar. Onlar o qədər kordurlar ki, hədsiz ədavətlə etiraza qalxaraq, elə bir Kəsi aşkar zülmlə möhkəm və məşəqqətli Zindanda məhbus etmişlər ki, aləm özü Onun Qapısının Astanasının xidmətçilərindən ötrü yaradılmışdır. Lakin Qüdrət Sahibi onların və bu "Böyük Müjdə"ni inkar edənlərin istəyinə rəğmən bu Məhbəsi ən uca Cənnətə və Behiştlərin Behiştinə çevirdi.

Bizim əziyyətlərimizi yüngülləşdirə bilən maddi şeylərdən Biz imtina etmədik. Bu Məzlumla ünsiyyətdə olanların hamısı təsdiq edər ki, Bizim müqəddəs dərgahımız həmişə belə maddi şeylərdən uzaq və uca olmuşdur. Lakin zindanda olarkən, biz o şeyləri qəbul etdik ki, müşriklər bizi onlardan məhrum etmək istəyirdilər. Və əgər Bizim adımıza təmiz qızıldan və ya gümüşdən, yaxud bunlardan da qiymətli cəvahiratla bəzədilmiş bir ev tikmək istəyən şəxs tapılsa, biz ona, şübhəsiz, izn verərik. Həqiqətən, O istədiyini edir və istədiyi kimi hökm verir. Və izn verildi ki, bu ərazidə əzəmətli və ehtişamlı binalar ucaldılsın və İordan çayına bitişik olan və onun ətrafında yerləşən zəngin və müqəddəs torpaqlar tək şərəfli Haqqa sitayişə və xidmətə həsr edilsin ki, Uca Qələmin müqəddəs Kitablarda yazdıqları həyata keçsin və aləmlərin Rəbbi olan Allahın bu ən yüksək, ən müqəddəs, ən əzəmətli və ən ecazkar Zühurda istədikləri aşkara çıxsın.

Bundan əvvəl biz demişdik: "Ətəyini genişləndir, ey Yerusəlim!" Ürəyinizdə bunu düşünün, ey Bəha əhli, sonra da Şərh edən və aşkar Rəbbinizə şükr edin!

Əgər Allahdan başqa heç kəsə məlum olmayan sirlər aşkara çıxsaydı, bütün bəşər xalis və kamil ədaləti müşahidə edərdi. Heç kəsin şübhə etməyəcəyi tam bir yəqinliklə hamı Onun hökmlərindən yapışar və onları yerinə yetirərdi. Biz, həqiqətən Öz Kitabımızda azğınlıqdan üz döndərib paklıq və xeyirxahlıq yolunu tutanlara çoxlu

xeyir və bol mükafat müəyyən etdik. Həqiqətən, O, ən Böyük Mükafatlandıran və Kərəm Sahibidir.

## Seçmə 60 (↑)

MƏHBUSLUĞUM MƏNİM ÜÇÜN zillət deyil, əksinə, Canıma and olsun, o mənim üçün izzətdir. Məni zillətə salan o dostların davranışıdır ki, sözdə Məni sevdiklərini deyirlər, əməldə isə Şeytana qulluq edirlər. Doğrudan da, onlar ziyana uğrayanlardır.

Bu Zühur üçün təyin olunmuş vaxt yetişəndə və dünyanın Günəşi olan Kəs İraqda parlayanda O, Öz ardıcıllarına dünyəvi şeylərdən təmizlənməyi əmr etdi. Bir çoxları ehtiraslara uyub əmrdən boyun qaçırdılar, bir çoxları da möminlik yolunu tutdular və düz yola hidayət olundular.

De: dünyəvi arzularının arxasınca düşən və bu dünyanın şeylərindən yapışan kəs Bəha əhlindən deyil. Mənim həqiqi bəndəm o kəsdir ki, əgər qızılla dolu vadiyə daxil olsa, ondan bulud kimi yan ötüb keçər və nə dönüb arxaya baxar, nə də dayanar. Bilin ki, o mütləq Mənə mənsubdur. Səma sakinləri onun libasından müqəddəslik ətri duyar... Və əgər onun qarşısına ən yaxşı şəkildə bəzənmiş gözəl və cazibədar bir qadın çıxarsa, o zərrə qədər də onun gözəlliyinə ehtiras gözü ilə baxmaz. Belə bir kəs, doğrudan da, ləkəsiz paklıqdan yaranmışdır.

De: dünyəvi arzularının arxasınca düşən və bu dünyanın şeylərindən yapışan kəs Bəha əhlindən deyil. Mənim həqiqi bəndəm o kəsdir ki, əgər qızılla dolu vadiyə daxil olsa, ondan bulud kimi yan ötüb keçər və nə dönüb arxaya baxar, nə də dayanar. Bilin ki, o mütləq Mənə mənsubdur. Səma sakinləri onun libasından müqəddəslik ətri duyar... Və əgər onun qarşısına ən yaxşı şəkildə bəzənmiş gözəl və cazibədar bir qadın çıxarsa, o zərrə qədər də onun gözəlliyinə ehtiras gözü ilə baxmaz. Belə bir kəs, doğrudan da, ləkəsiz paklıqdan yaranmışdır. Əzəli Qələm Qüdrətli və Səxavətli Rəbbinizin adından sizə belə təlim verir...

## Seçmə 61 (↑)

DÜNYA İZTİRAB İÇİNDƏDİR və onun həyəcanı günbəgün artmaqdadır. Onun üzü özbaşınalığa və dinsiz-liyə doğrudur. Onun halı elə olacaq ki, indi onu demək məsləhət deyil. Onun özbaşınalığı hələ çox davam edəcək və təyin olunmuş vaxt yetişəndə qəfildən elə bir şey meydana çıxacaq ki, bəşərin əzaları titrəyəcək. Onda və yalnız onda İlahi Bayraq ucalacaq və Cənnət Bülbülü öz nəğməsini oxuyacaq.

## Seçmə 62 (↑)

MƏNİM DƏRDLƏRİMİ, QAYĞI və həyəcanlarımı, sınaq və kədərlərimi, dözülməz əsarətimi, tökülən göz yaşlarımı, acı iztirablarımı və bu uzaq məmləkətdə indiki məhbusluğumu yada sal. Ey Mustafa, Allah Özü Mənə şahidlik edir. Əgər Əzəli Camalın başına gələnləri sənə danışsaydılar, səhraya üz tutar və ucadan hönkürüb ağlayardın. Sən hədsiz dərddən başına döyər və ilan vurmuş kimi qışqırıb nalə çəkərdin. Allaha şükr et ki, biz sənin Qadir və Qüdrətli Rəbbinin iradə səmasından Bizə nazil olan gizli hökmlərin sirrini sənə açmadıq.

Allahın həqqaniyyətinə and olsun! Hər səhər yatağımdan qalxanda, Mən qapımın qarşısına toplaşmış dəstə-dəstə bəlalar görmüşəm. Və hər axşam yatmağa hazırlaşanda düşmənlərimin amansız qəddarlığından ürəyimin düçar olduğu iztirabdan o qana dönüb. Hər dəfə Əzəli Camal bir tikə çörək kəsəndə, bu, yeni müsibətlə müşayiət olunub və hər dəfə O, bir qurtum su içəndə, ona ağır imtahanların əzabı qarışıb. Onun hər bir addımının önündə gözlənilməz fəlakətlər ordusu gedir, Onun ardınca isə üzücü dərdlər qoşunu irəliləyir.

Mənim qismətim belədir, ürəyində bu barədə düşün. Amma hər halda Allahın İradəsi ilə Bizim üstümüzə leysan kimi yağan müsibətlərə görə qəlbini kədərlənməyə qoyma. Öz istəklərini Allahın razılığına tabe et, çünki Biz heç vaxt Onun istədiyindən başqa bir şey istəməmişik və Onun hər bir qaçılmaz hökmünü sevinclə qarşılamışıq. Ürəyini sakitləşdir və heç nədən qorxma. Və üzücü çaşqınlıq içərisində olanların yolu ilə getmə.

## Seçmə 63 (↑)

EY NƏZƏRLƏRİNİ MƏNİM üzümə dikən şəxs! Mənim doğma şəhərimin qaraltısını uzaqdan gördüyün zaman dayan və de: Ey "Ta" torpağı! Mən sənin yanına zindan tərəfdən Qoruyan və Qəyyum Allahın xəbəri ilə gəldim. Ey aləmin anası və bütün millətlərin arasında nur mənbəyi, mən sənə Rəbbinin inayətinin müjdəsini verirəm və səni Əbədi Həqiqət olan Kəsin, qeybləri bilən Haqqın adından salamlayıram. Şəhadət verirəm ki, Gizli Ad və Qeyb Xəzinəsi səndə askara çıxdı. Yaranmış və yaranacaq bütün şeylərin sirri səndə açıldı.

Ey "Ta" torpağı! Adların Ağası Öz əzəmətli məqamında səni xatırlayır. Sən Allahın Əmrinin Məşriqi, Onun Vəhyinin çeşməsi və Ən Böyük Adın məzhərisən—o Ad ki, ondan ürəklər və könüllər titrədi. Səndə nə qədər məzlum kişilər və qadınlar, zülmün qurbanları Allah yolunda şəhid oldular və sənin torpağın altında necə də qəddarlıqla dəfn edildilər ki, möhtərəm bəndələr onların halına göz yaşı tökdülər.

## Seçmə 64 (↑)

BİZ BİR UCA cənnət Məkanını (Tehran), mübarək və nurlu bir şəhəri xatırlamaq istədik – bir şəhər ki, orada Məhbubun ətri səpildi, Onun əlamətləri yayıldı, Onun cəlalının dəlilləri aşkara çıxdı, Onun bayraqları sancıldı, çadırları quruldu və Onun hikmətli əmrləri açıldı.

Bu elə bir şəhərdir ki, orada vüsal ətri yayıldı və onun vasitəsilə aşiqlər Onun yaxınlığına cəzb olundular, müqəddəslik və gözəllik Məkanına yaxınlaşa bildilər. Xoş o yolçunun halına ki, bu şəhərə tərəf yol alıb, ona varid olub və Lütfkar, Tərifəlayiq Rəbbinin inayət feyzindən vüsal şərabı içib.

Ey istəkli torpaq, mən Allahdan olan müjdə ilə sənin yanına gəlmişəm, sənə Onun fəzl və mərhəmətinin müjdəsini verir və Onun adından səni salamlayıram. Həqiqətən, O Fəzilətli və Səxavətlidir. Xoş o kəsin halına ki, Sənə üz tutdu və səndə aləmlərin Rəbbi olan Allahın dərgahının ətrini duydu. Onun nuru sənə yayıldı və Onun şərəfi səni bürüdü, çünki Allah səni öz bəndələri üçün cənnətə, peyğəmbərlərə və elçilərə nazil etdiyi Kitablarda haqqında Özünün xatırladığı müqəddəs və mübarək torpağa çevirdi.

Ey nurlu torpaq, səninlə "Ondan başqa Allah yoxdur!" bayrağı dalğalandı və səninlə "Həqiqətən, Mən qeybləri bilən Haqqam!" bayrağı ucaldı. Sənə daxil olan hər bir kəs səninlə və Mənim Ağacımdan törəmiş sakinlərlə fəxr etməlidir, onlar bu Ağacın yarpaqları, Mənim şərəfimin əlamətləridirlər ki, Mənim ardımca gedirlər və Mənim aşiqlərimdir və ən yüksək qətiyyətlə üzlərini Mənim nurlu məqamıma tutublar.

## Seçmə 65 (↑)

SONRA XATIRLA O zamanı ki, Sən şəhərə (İstanbula) varid oldun. Sultanın vəzirləri elə zənn etdilər ki, Sən onların qayda-qanunlarını bilmirsən və cahillərdənsən. De: Bəli, Rəbbimə and olsun ki, Mən Allahın səxavət göstərərək, Mənə öyrətdiyi şeylərdən başqa bir söz də bilmirəm. Biz, əlbəttə, bunu təsdiq və etiraf edirik.

De: Əgər sizin qayda-qanunlarınız özünüz tərəfindən müəyyən edilibsə, Biz heç vaxt onlara tabe olmarıq. Hikmət Sahibi və hər şeydən Xəbərdar olan Allah Mənə belə bir əmr edib. Allahın gücü və qüdrəti sayəsində Mən indiyə qədər belə olmuşam, bundan sonra da belə olacağam. Həqiqətən, bu, haqlı və doğru yoldur. Əgər sizin qayda-qanunlarınız Allah tərəfindən müəyyən edilibsə və siz doğru danışanlardansınızsa, onda dəlilinizi gətirin. De: Biz onların Sənə yaxmaq istədikləri və Sənə etdikləri hər şeyi hər bir insan əməlinin, o nə qədər cüzi olsa da, yazılımış olduğu Kitabda yazmışıq.

De: Ey vəzirlər, siz gərək Allahın qanunlarına tabe olub öz qayda-qanunlarınızdan əl çəkəsiniz və doğru yolla gedənlərdən olasınız. Əgər siz ariflərdənsinizsə, bilin ki, bu sizlərə malik olduqlarınızdan daha xeyirlidir. Əgər siz Allahın hökmünə tabe olmasanız, sizin əməllərinizin kiçicik bir hissəsi də Onun tərəfindən qəbul olunmaz. Tezliklə siz fani həyatınızda etdiklərinizin nəticəsini görəcək və tutduğunuz əməllərə görə cavab verəcəksiniz. Həqiqətən, bu, doğru və yəqin bir şeydir.

Sizdən də böyük olan neçə-neçə bəndələr keçmişdə sizin kimi əməllər törətdilər və hamısı torpağa döndülər və onların barəsində nə hökm çıxarılacaqdısa, çıxarıldı. Əgər siz Allahın Əmri barədə düşünməsəniz, mütləq onlara qoşulacaqsınız və elə bir məkana daxil olacaqsınız ki, orada özünüzə nə bir köməkçi tapacaqsınız, nə də bir himayədar. Həqiqətən, orada siz həyatınız boyu etdiklərinizin, Allahın Əmrinə qarşı xətalarınızın, Onun aşkar bir səmimiyyətlə sizə üz tutan övliyalarına təkəbbür göstərməyinizin hesabını verəcəksiniz.

Bu sizlərsiniz ki, onların barəsində məşvərət etmisiniz, öz nəfsinizin hökmündən yapışmısınız, Qoruyan və Qüdrətli Allahın hökmünü tərk etmisiniz.

De: Doğrudanmı siz öz üsul və niyyətlərinizi tutub Allahın hökmlərini bir kənara atırsınız?! Həqiqətən, bununla siz özünüzə və digər bəndələrə zülm edirsiniz. Kaş bunu anlayaydınız. De: Əgər sizin qanunlarınız ədalətə əsaslanırsa, nə üçün siz öz istəyinizə uyğun gələndən yapışır, nəfsinizə zidd olanı isə qəbul etmirsiniz? Belə olan halda siz hansı haqla hakimlik edə bilərsiniz?! Məgər sizin qanununuz budurmu ki, öz əmrinizlə yanınıza gələn Kəsə əzab verir, inkar edərək heç bir kömək göstərmir və hər gün ağır bir əziyyətə salırsınız? Halbuki, O, bircə an da itaətsizlik göstərməyib və bunu bütün İraq sakinləri, eləcə də hər bir bilən kəs təsdiq edər.

Mühakimənizdə insaflı olun, ey vəzirlər, hansı günaha görə Bizi sürgün etdiniz, hansı təqsirə görə Bizi uzaqlaşdırdınız?! Halbuki Biz sizə üz tutduq, amma siz Bizi qəbul etməkdən imtina etdiniz. Allaha and olsun, sizin etdiyiniz bu zülm elə böyük zülmdür ki, yer üzündə heç bir zülm onunla müqayisəyə gəlməz. Qüdrətli Allah Özü buna şahiddir...

Bilin ki, bu dünya, onun zinəti və dəbdəbəsi ötüb keçəcək. Allahın Səltənətindən başqa heç nə qalmayacaq, o Səltənət ki, Qoruyan, Şərəfli və Qüdrətli Hökmdara məxsusdur. Sizin dövranınız bitəcək, sizi məşğul edən şeylər, sizin insanlar qarşısında öyündüyünüz şeylər keçib gedəcək və Onun Mələkləri sizi elə bir yerə çağıracaq ki, orada bütün məxluqatın əzaları titrəyər, zalımların bədəni torpaqda sürünər. Orada siz fani -həya-tınızda qazandıqlarınız barədə sorğu-suala tutular və etdiklərinizin cəzasını alarsınız. Bu, elə bir gündür ki, mütləq sizin üçün gələr və elə bir saatdır ki, onu saxlamaq olmaz. Hər şeyi Bilənin və doğru Söyləyənin Dili buna şəhadət verir.

## Seçmə 66 (↑)

EY ŞƏHƏR (İSTANBUL) əhli, Allahdan çəkinin, insanlar arasında ixtilaf törətməyin. Şeytanın ardınca getməyin. Həyatınızın bu az qalmış günlərində Haqq Allahın yolu ilə gedin. Sizin dövranınız mütləq bitəcək, necə ki, sizdən əvvəlkilərin dövranı keçdi. Və siz torpağa dönəcəksiniz, necə ki, sizin ata-babalarınız torpağa döndülər.

Sonra bilin ki, Mən bir olan Allahdan başqa heç kəsdən qorxmuram, Ondan başqa heç kəsə təvəkkül etmirəm, Ondan başqa heç kəsə pənah aparmıram və Onun Mənim üçün istədiyindən başqa bir şey istəmirəm. Həqiqətən, Mənim muradım Odur—əgər ariflərdənsinizsə, bunu bilin. Mən ruhumu və cismimi aləmlərin Rəbbi olan Allaha fəda etmişəm. Allahı tanıyan kəs Ondan başqasını tanımaz. Allahdan qorxan kəs yer üzündə olanların hamısı birləşib onun əleyhinə qalxsalar da, Ondan savayı heç kəsdən qorxmaz. Mən Onun Əmr etdiyindən başqa bir söz demirəm, Allahın gücü və qüvvəti sayəsində yalnız Haqq yolu ilə gedirəm. Həqiqətən, O, doğruları mükafatlandıracaq.

Sonra, ey bəndə, şəhərə daxil olduğun zaman gördüklərini söylə, qoy bu xatirə yer üzündə qalsın və inananlar üçün bir xəbərdarlıq olsun. Şəhərə varid olduğumuz zaman Biz onun başçılarını və böyüklərini bir yerə yığışıb palçıqla oynayan uşaqlar kimi gördük. Biz onların arasında yetkin bir şəxs tapmadıq ki, Allahın Bizə öyrətdiklərini ona öyrədək və ya Bizim hikmətimizin ecazkar sözlərini ona çatdıraq. Buna görə də Biz daxili gözlərimizlə onların halına ağladıq, çünki onlar qadağan olunmuş işlər tuturdular və nə üçün xəlq edildiklərindən tamamilə qafil idilər. Bizim şəhərdə şahidi olduğumuz budur və bunu Kitabımızda yazdıq ki, onlara və qalan bəşərə xəbərdarlıq olsun.

De: Əgər siz bu dünyanı və onun bər-bəzəyini arzulayırdınızsa, gərək onları analarınızın bətnində olduğunuz dövrdə istəyəydiniz, çünki o zaman siz anbaan onlara yaxınlaşırdınız—əgər ağıllısınızsa, bunu bilin. Digər tərəfdən isə, siz doğulub boya-başa çatdıqca dünyadan uzaqlaşaraq torpağa yaxınlaşırdınız. Onda nə üçün sayılı günləriniz qaldığı halda və fürsəti fövtə verdikdən sonra siz özünüz üçün dünya malı toplamağa bu qədər hərissiniz?! Belə olan halda, ayılmayacaqsınızmı, ey qafillər!?

Allah xatirinə danışan bu Bəndənin nəsihətlərinə qulaq asın. O, həqiqətən, sizdən heç bir şey istəmir və Allahın hökmü ilə razılaşaraq, tamamilə Onun İradəsinə tabe olur.

Ey insanlar, sizin ömrünüzün çoxu keçib və yalnız bir necə gününüz qalıb. Elə isə öz yanınızdan uydurduğunuz və tutduğunuz şeyləri boşlayın və Allahın hökmlərindən elə möhkəm yapışın ki, Allahın sizin üçün istədiklərinə çatasınız və doğru yolla gedənlərdən olasınız. Dünya malına və yer üzü bər-bəzəklərinə sevinməyin və onlara güvənməyin. Ulu və Əzəmətli Allahın zikrinə güvənin. Tezliklə Allah sizin əlinizdə olanları fənaya uğradar. Allahdan qorxun, öz qəlbinizdə Allahın əhdini unutmayın və pərdə arxasında qalanlardan olmayın.

Məbada, Allaha və Onun dostlarına qarşı təkəbbür göstərəsiniz. Təvazökarlıqla o möminlərin cərgəsinə qoşulun ki, onlar Allaha və Onun ayələrinə iman gətirmişlər, qəlbləri ilə Onun birliyinə, dilləri ilə Onun yeganəliyinə şəhadət verir və Onun izni olmadan danışmırlar. Beləcə, Biz sizə ədalət naminə nəsihət verir və həqiqət naminə xəbərdarlıq edirik ki, bəlkə siz ayılanlardan olasınız.

Özünüzə rəva görmədiyinizi insanlara rəva görməyin və özünüz üçün istəmədiyiniz şeyi başqası üçün istəməyin. Əgər riayət etsəniz, bu, ən yaxşı nəsihətdir.

Aranızda olan o üləmalara və aləmlərə hörmət qoyun ki, dediklərinə əməl edirlər, Allahın müəyyənləşdirdiyi hədləri gözləyirlər və Allahın Kitabındakı hökmlərə əsasən hökm verirlər. Bilin ki, onlar yerdə və göydə olanlar üçün hidayət çıraqlarıdır. Aralarındakı üləmaların və alimlərin hörmətini saxlamayanlar və qədrini bilməyənlər özlərini Allahın onlar üçün təyin etdiyi nemətdən uzaqlaşdırırlar.

De: Gözləyin, Allah da Öz nemətini sizdən kəsər. Heç bir şey Allahın elmindən gizli qala bilməz. O göylərin və yerin sirlərindən agahdır. Onun elmi hər şeyi əhatə edir. Etdiklərinizə, edəcəklərinizə və Bizim başımıza gətirdiklərinizə baxıb sevinməyin, çünki bununla sizin məqamınız yüksəlməz, əgər öz əməllərinizə yəqinlik gözü ilə nəzər salsanız, bunu bilərsiniz. Bunların nəticəsində Bizim məqamımızın alçalmasına da qadir ola bilməzsiniz, əksinə, məruz qaldığımız bəlalara dözdüyümüzə görə Allah Bizim mükafatlarımızı artırar. O, həqiqətən, səbrlə dözənlərin mükafatını artırandır.

Bilin ki, sınaqlar və müsibətlər əzəldən Allahın seçilmişləri və dostlarının, Ondan başqa hər şeydən inqita edənlərin, yəni dünyanın ticarətinə və alverinə uymayıb

Qüdrətlinin zikrini unutmayanların, O danışmayınca danışmayanların və Onun hökmlərinə əməl edənlərin nəsibi olub. İndiyə qədər Allahın qoyduğu qayda belə olub və bundan sonra da belə olacaq. Xoş o səbrlə dayananların halına ki, bütün əzablara və çətinliklərə dözərək heç nədən şikayət etmir və səbrlə itaət yolu ilə gedirlər...

Tezliklə Allah elə bir tayfanı meydana çıxaracaq ki, onlar Bizim günlərimizi və başımıza gələnlərin hamısını xatırlayacaq və günahsız yerə açıq-aşkar Bizə zülm edənlərdən Bizim haqqımızı tələb edəcəklər. Allah, əlbəttə, Bizə zülm edənlərin həyatı üzərində hakimdir və onların etdiklərindən agahdır. Onlar mütləq, Allahın qarşısında duracaq və günahlarına görə onları cəzalandıracaq. Həqiqətən, O, intiqam alanların ən amansızıdır.

Beləcə, Biz sizə Haqq Allahın hekayətlərini danışdıq və indiyə qədər Allahın buyurduqlarını çatdırdıq ki, bəlkə siz Ondan əfv diləyəsiniz, Onun qarşısında tövbə edib Ona doğru qayıdasınız, öz əməllərinizi dərk edib yuxudan oyanasınız, qəflətdən qalxasınız, itirdiklərinizin əvəzini əldə edib yaxşılardan olasınız. Kim istəyirsə, Mənim sözlərimi qəbul etsin, kim istəmirsə, üz döndərsin. Mən yalnız Allahın Əmrinə qarşı borcunuzda etinasızlığınızı sizə xatırladıram ki, bəlkə Mənim xəbərdarlığıma qulaq verənlərdən olasınız. Elə isə Mənim sözlərimi eşidin, Allaha doğru qayıdaraq, Onun qarşısında tövbə edin ki, Allah öz fəzli sayəsində sizə rəhm etsin, günahlarınızdan keçsin və səhvlərinizi bağışlasın. Həqiqətən də, Onun mərhəmətinin böyüklüyü qəzəbinin şiddətindən üstündür və Onun fəzli keçmişdə və gələcəkdə varlıq libasına bürünənlərin hamısını əhatə edir.

## Seçmə 67 (↑)

BU ZÜHURDA ELƏ şeylər aşkara çıxdı ki, əvvəllər heç görünməmişdi. Müşriklər bunu görəndə donquldanaraq dedilər: "Bu, Allaha qarşı yalan uydurmuş bir sehrbazdır". Bilin ki, onlar atılmış tayfadır.

Ey Əzəli Qələm, İraqda baş verənləri insanlara çatdır. O zaman üləmalar dəstəsinin Bizim yanımıza göndərdiyi elçidən danış ki, gəlib hüzura yetişdi və müxtəlif elmlərdən sual verdi. Biz fitrətən malik olduğumuz elmlə ona cavab verdik. Həqiqətən, sənin Rəbbin qeybdə olanları Biləndir. O dedi: "Biz şəhadət veririk ki, Sənin bu malik olduğun elmə heç kəs yetişə bilməz. Lakin bu, insanların sənə aid etdikləri məqamı təsdiqləmək üçün kifayət deyil. Əgər Sən doğru deyirsənsə, elə bir şey et ki, yer üzündə olanların hamısı onun kimisini etməkdə aciz olsunlar". Sənin Şərəfli və Mehriban Rəbbinin hüzurunda məsələ dəqiq belə oldu.

Ona deyildi: "Bax, gör nə görürsən?!" Onda o, ildırım vurmuş kimi donub qaldı. Özünə gələndə isə dedi: "Şərəfli və Tərifəlayiq Allaha iman gətirdim!" Ona deyildi: "Öz tayfanın yanına get və söylə: ürəyinizdən keçəni istəyin, çünki O istədiyi hər şeyə qadirdir. Yaranmışlar və yaranacaqlar Onu aciz edə bilməzlər". De: "Ey üləmalar tayfası, istədiyiniz bir məsələdə razılığa gəlin, sonra onu Rəbbinizdən, mərhəmətli Allahdan diləyin. Əgər O, Öz qüdrəti sayəsində sizin istəyinizi yerinə yetirərsə, Ona iman gətirin və Onun həqqaniyyətini dananlardan olmayın". O, dedi: "İndi irfanın dan yeri işıqlandı və Rəhmanın dəlili tamamlandı". O, ayağa durdu və Şərəfli, Sevimli Allahın Əmrinə əsasən onu göndərənlərin yanına qayıtdı.

Bir neçə gün keçdi, amma o, geri dönmədi. Nəhayət, başqa bir elçi gəldi və bizə xəbər verdi ki, o tayfa öz istədiyindən imtina edib. Həqiqətən, onlar alçaq bir tayfadır. İraqda məsələ belə oldu və dediklərimə Özüm şahidəm. Bu məsələ hər tərəfə yayıldı, lakin heç kəs bunu anlamadı. Bizim hökmümüz belə oldu, kaş ki, bunu bilərdiniz.Canıma and olsun! Ötən əsrlərdə də ilahi əlamətlər diləyən kəslərə Biz həmin əlamətləri göstərdikdən sonra belə, Allaha qarşı küfr etmişlər. İnsanların əksəriyyəti elə də qafil qalıb. Amma o kəslər ki, gözləri irfan nuru ilə açılmışdır, onlar Rəhmanın ətrini duyar və Onun həqiqətini qəbul edərlər. Bilin ki, onlar həqiqətən səmimi olanlardır.

## Seçmə 68 (↑)

EY MƏNİM AĞACIMIN Meyvəsi və Onun Yarpağı! Mənim şərəfim və mərhəmətim sənə nəsib olsun! Başına gələnlərdən kədərlənmə. Əgər Həyat Kitabına nəzər salsan, əlbəttə, sənin qəm və qüssəni dağıdan və narahatlığını aparan şeyləri müşahidə edərsən.

Ey Mənim Meyvəm, qəzavü-qədərlə bağlı Həqiqi Hökmdarın iki cür hökmü mövcuddur. Onların hər birini qəbul etmək və itaət etmək lazımdır. Biri labüd əcəldir, digəri isə xalq arasında deyildiyi kimi, qəfil əcəldir. Birinciyə bütünlüklə təslim olmaq gərəkdir, çünki o, qaçılmazdır. Hərçənd Haqq onu dəyişdirməyə və saxlamağa qadir olmuşdur və qadirdir. Amma bunun zərəri əvvəlki haldan da böyük olur. Odur ki, Allahın İradəsi ilə razılaşmaq və inamla Ona təslim olmaq yaxşıdır. Qəfil əcəlin isə dua və münacat vasitəsilə qarşısını almaq mümkündür. İnşaallah, Mənim Meyvəm və yanındakılar ondan qorunacaqlar.

De: Ey Allah, mənim Allahım! Sən mənim əllərimə Özünün bir əmanətini etibar etmişdin, indi isə Öz iradənlə onu geri aldın. Sənin bu kənizin "nə üçün belə oldu?" və "niyə bu baş verdi?" deyə bilməz, çünki Sən bütün hərəkətlərində Bəyənilənsən və Sənin əmrlərinə itaət olunmalıdır. Ya Rəbb, Sənin bu kənizin ümidini Sənin fəzlinə və səxavətinə bağlayıb. Ona elə şeyləri qismət elə ki, onu Sənə yaxınlaşdırsın və Sənin aləmlərinin hamısında ona xeyir versin. Sən Bağışlayan və Kəramətlisən. Səndən başqa Allah yoxdur, Sən Əzəli Hökmdarsan.

Ya Rəbb, mənim Allahım! Xeyir-dua ver o kəslərə ki, insanların gözü qarşısında Sənə məhəbbətin şərabını içdilər, Sənin düşmənlərinin istəyinə rəğmən Sənin birliyini etiraf etdilər, Sənin yeganəliyinə şəhadət verdilər və öz inamlarını onda iqrar etdilər ki, bununla Sənin məxluqatın arasında zülm edənlərin əzaları titrədi, Sənin məmləkətlərində fironluq edənlər lərzəyə düşdü. Şəhadət verirəm ki, Sənin səltənətin fənaya uğramaz və Sənin İradən dəyişməz. Sənə üz tutanlara və Sənin İpindən yapışan kənizlərinə Öz səxavət dənizinə və fəzilət Asimanına yaraşan şeyləri qismət eylə!

Sən o Kəssən ki, Özünü zənginlik Rəbbi bəyan etmisən, bəndələrini isə yoxsul və möhtac kimi qərar vermisən. Necə ki, buyurmusan: "Ey iman gətirənlər, siz Allaha

ehtiyacı olan yoxsullarsınız, Allah isə Ehtiyacsız və Tərifəlayiqdir”. Madam ki, Mən öz yoxsulluğumu və Sənin zənginliyini etiraf edirəm, onda məni Öz nemətlərinin şərəfindən məhrum etmə. Həqiqətən, Sən Ali Qoruyan, Hər şeyi Bilən və Hikmət Sahibisən!

## Seçmə 69 (↑)

ÖZÜNÜ “ZA”(ZƏNCAN) torpağında fəda etmiş Əşrəfin anasının hərəkətini yada sal. Bil ki, o, Qadir və Qüdrətli Allahın dərgahındakı həqiqət taxtındadır.

Müşriklər onu haqsız olaraq zülm ilə qətlə yetirmək istəyəndə, anasını onun yanına göndərdilər ki, ona nəsihət versin, bəlkə o, tövbə edib imanından dönə və aləmlərin Rəbbi olan Allaha qarşı küfr edənlərin yolu ilə gedə.

O, oğlu ilə üzbəüz olarkən, elə sözlər dedi ki, Haqq aşiqlərinin və səma sakinlərinin könülləri sızlayıb ağladı. Həqiqətən, sənin Rəbbin Mənim söylədiklərimi bilir. O, Özü Mənim dediklərimə şahiddir.

O üzünü oğluna tutub dedi: “Oğlum, ey doğma oğlum, özünü Rəbbinin yolunda fəda eylə! Məbada göylərdə və yerdə olanların səcdə etdikləri Kəsə qarşı imanına xəyanət edəsən. Ey oğlum, düz yolunla get və Rəbbinin Əmrində səbatlı ol. Aləmlərin Məhbubunun hüzuruna çatmağa tələs”.

Ona Mənim salavatım, mərhəmətim, tərifim və şərəfim nəsib olsun! Onun oğlunun qan bahası şəxsən Mənim boynumadır. O indi Mənim əzəmət və cəlal sarayımdadır. Uca qəsrlərdəki hurilər, eləcə də Mənim Behiştimin əhli və Müqəddəslik Şəhərlərinin sakinləri onun üzündən nur alırlar. Kim onu görərsə, söyləyər: “Bu, kəramətli Allahın nəcib mələyindən başqa bir kəs deyildir”...



## Seçmə 70-99--Ruh və Onun Ölümsüzlüyü (↥)

## Seçmə 70 (↥)

BU ƏN ƏZƏMƏTLİ, bu yeni Dünya Nizamının təsirindən dünyanın tarazlığı pozulub, məxluqatın gözünün bənzərini görmədiyi bu misilsiz, bu ecazkar Quruluşun təsirindən bəşərin müvazinətli həyatı kəskin dəyişikliyə uğrayıb.

Mənim sözlərimin dənizinə baş vurun ki, bəlkə onun sirlərini aça və dərinliklərində gizlənmiş hikmət gövhərlərini aşkar edəsiniz. Diqqət edin ki, bu Əmrin həqiqətini qəbul etməkdə tərəddüd etməyəsiniz–elə bir Əmr ki, onun vasitəsilə Allahın səltənət və qüdrəti aşkara çıxmış, Onun hökmranlığı bərqərar olmuşdur. Sevinc şüaları saçan üzlə Ona doğru tələsin. Bu, Allahın dəyişməz dinidir, keçmişdə əzəli, gələcəkdə əbədi. Qoy axtaran kəs ona çatsın, kim ki, axtarmaq istəmir, bilsin ki, Allah Özünə Kifayətdir və yaratdıqlarına ehtiyacı yoxdur.

De: Bu, Allahın Əlində olan qüsursuz Tərəzidir, onda göylərdə və yerdə olanlar çəkilir və onların qisməti müəyyən olunur, bu həqiqətə inanan və onu qəbul edənlərdən olasınız. De: Bütün dövrlərdəki dəlillər onunla sübuta yetdi—bunu yəqin bilin! De: Onunla bütün yoxsullar varlandı, bütün alimlər elm öyrəndi və axtaranlar Allahın dərgahına yüksəlməyə qabil oldu. Məbada onu aranızda ixtilaf səbəbi edəsiniz. Qüdrətli və Mehriban Rəbbinizin Əmrində tərpənməz dağlar kimi möhkəm olun.

## Seçmə 71 (↑)

EY YER ƏHLİ, Mənim camalımın günəşi qürub edəndə və Mənim varlığımın səması görünməz olanda, təşvişə düşməyin. Mənim Əmrimi irəli aparmaq və Mənim Sözümü insanlar arasında ucaltmaq üçün ayağa qalxın. Biz hər zaman sizinləyik və həqiqətin gücü ilə sizi qüvvətləndirəcəyik. Biz, həqiqətən, Qüdrət Sahibiyik. Hər kəs Məni tanısa, Mənə xidmət etmək üçün elə qətiyyətlə ayağa qalxar ki, göylərin və yerin qoşunları onu məqsədindən döndərə bilməz.

İnsanlar yuxuya gediblər. Əgər ayılsalar, ürəkdən hər şeyi Bilən və hikmət Sahibi olan Allaha doğru tələsərlər və Ağalarının onları öz yanında olan bircə kəlmə ilə xatırlaması üçün əllərində olan hər şeyi, hətta dünyanın bütün xəzinələrini belə kənara atarlar xilqətin gözlərinin heç vaxt görmədiyi və Onun Özündən başqa heç kəsə açılmamış Lövhədə gizli olan elmləri bilən və aləmləri qoruyan Kəs sizə belə xəbər verir. Onları ehtiraslarının məstliyi elə bürüyüb ki, aləmin Ağasını görmürlər, halbuki Onun nidası hər tərəfdən ucalır: “Məndən—Qüdrət və Hikmət Sahibindən başqa Allah yoxdur!”

De: Malik olduğunuz şeylərə görə sevinməyin; axşam onlar sizindir, səhər isə onlara başqası sahib olacaq. Hər şeyi Bilən və hər şeydən Agah olan Allah sizə belə xəbərdarlıq edir. De: Təsdiq edə bilərsinizmi ki, malik olduğunuz şeylər əbədidir və əminlikdədir?! Rəhmana and olsun ki, yox! Əgər siz insaf əhlisinizsə, bilin ki, sizin həyatınızın günləri yellər kimi ötüb keçər, sizdən əvvəlkilərin büsatı pozulduğu kimi, sizin də izzətinizin büsatı pozular. Düşünün, ey insanlar! Hanı keçmiş günləriniz, hanı ötən əsrləriniz?! Xoş o günlərə ki, Allahın zikri ilə keçdi və o çağlara ki, Hikmət -Sahibinin tərifinə sərf olundu! Canıma and olsun, nə -qüdrətlilərin cah-cəlalı qalacaq, nə varlıların sərvəti, nə də zalımların şövkəti! Hamısı Onun bir sözü ilə tezliklə fənaya uğrayacaq. Həqiqətən, O, Müqtədir, Qadir və Qüdrətlidir. İnsanların malik olduqları şeylərin onlara faydası yoxdur, onlara faydası olan şeylərə isə etinasızdırlar. Tezliklə onlar yuxudan ayılacaqlar və Qüdrətli, Tərifəlayiq Rəbblərinin günlərində itirdiklərini tapa bilməyəcəklər. Əgər onlar anlasalar, adlarının Ərşdə xatırlanması üçün malik olduqları şeyləri qurban verərlər. Bil ki, onlar ölülərdən sayılırlar.

## Seçmə 72 (↑)

DE: EY İNSANLAR, Mənim Hüzurumun səltənəti görünməz olanda və Mənim bəyan dənizimin dalğaları sakitləşəndə, sizi iztirab bürüməsin. Mənim sizin aranızda zühurumda bir hikmət, qeyb olmağımda isə başqa bir hikmət var. Bunu Bənzərsiz və Hər şeydən Xəbərdar olan Allahdan başqa kimsə bilməz. Həqiqətən, Mən sizi öz cəlal səltənətimin üfüqündən görürəm və Mənim Əmrimin zəfərinə köməyə qalxanlara Səma sakinlərinin qoşunu və sevimli mələklərin ləşkəri ilə yardım edərəm.

Ey yer əhli! Əbədi Haqq olan Allah Mənə şahiddir ki, sizin ixtiyar sahibi olan Rəbbinizin nitqinin şirinliyindən daşlardan duru və həzin sular axmaqdadır, siz isə bundan xəbərsizsiniz. Malik olduğunuz şeylərdən əl çəkin, sonra da inqita qanadlarında xilqətin fövqünə yüksəlin. Qələminin hərəkəti ilə insanları dəyişdirən məxluqatın Sahibi sizə belə əmr edir.

Anlayırsınızmı, Əbha Rəbbiniz sizi hansı üfüqdən çağırır?! Bilirsinizmi, Adlar sahibi olan Rəbbiniz sizə hansı Qələmlə əmr edir?! Canıma and olsun ki, yox! Əgər siz bunu bilsəydiniz, dünyanı tərk edib bütün qəlbinizlə Məhbuba doğru can atardınız. Və Onun sözü sizi elə bir şövqə salardı ki, bundan Böyük Aləm həyəcana gələrdi—qalsın ki, bu kiçik aləm. Beləcə Mənim fəzlimin nişanəsi olaraq, inayətimin səmasından kəramət yağışları yağdı ki, siz şükr edənlərdən olasınız...

Ehtiyatlı olun ki, nəfsiniz və ehtirasınız aranıza təfriqə salmasın. Bir əlin barmaqları və bir bədənin əzaları kimi olun. Əgər siz yəqinlik hasil edənlərdənsinizsə, Vəhy Qələmi sizə belə nəsihət verir.

Allahın mərhəmətinə və lütflərinə diqqət yetirin. Həqiqətən, O sizin üçün faydalı olan şeyləri əmr edir, halbuki Onun aləmdəkilərə ehtiyacı yoxdur. Nə sizin bəd əməlləriniz Bizə ziyan vura bilər, nə də sizin yaxşı işlərinizin Bizə xeyri var. Biz yalnız Allah xatirinə sizi dəvət edirik. Bütün anlayış və bəsirət sahibləri buna şəhadət verərlər...

## Seçmə 73 (↑)

BU AYDIN VƏ aşkardır ki, Allahın bütün adları və sifətlərinin, xeyr, aşkar və gizli bütün yaradılmış şeylərin məzhərlərinin mahiyyəti üzərindən pərdələr götürülərsə, onlarda Allahın Əlamətindən başqa bir şey qalmaz—o əlamət ki, Allahın Özü onlarda əmanət qoymuşdur. Bu əlamət Sənin Rəbbin , göylərin və yerin Rəbbi olan Allahın istədiyi qədər onlarda qalacaqdır. Əgər belə bir nemət bütün yaradılmış şeylərə əta edilmişdirsə, onda yaradılışı və mövcudluğu bütün xilqətin məqsədi olan möminin məqamının üstünlüyü özlüyündə aydındır. Və "iman" sözü əvvəli olmayan əvvəldən axırı olmayan axıra qədər olduğu və olacağı kimi, mömin də daim diri olmuş və olacaqdır. Onun ruhu həmişə də Allahın Məşiyyəti ətrafında dövr edəcəkdir. O, Allah durduqca duracaq, Allah qaldıqca qalacaq, Allahın Zühuru ilə üzə çıxacaq və Allahın əmri ilə gizli olacaqdır. Və bu aydındır ki, Əbədiyyət üfüqündə ən uca saraylar Allaha və Onun əlamətlərinə iman gətirənlərin məskənidir. O müqəddəs məkana ölüm heç vaxt yol tapa bilməz. Beləcə, Biz sənə Rəbbinin əlamətlərindən bəzilərini çatdırdıq ki, Ona məhəbbətində səbat göstərəsən və bu həqiqəti dərk edən ariflərdən olasan.

## Seçmə 74 (↑)

ALLAHIN AĞZINDAN ÇIXAN hər bir kəlməyə elə bir qüvvə əta edilmişdir ki, insan bədəninə yeni həyat bəxş edər, əgər siz ariflərdənsinizsə, bunu bilin. Yer üzündə gördüyünüz bütün ecazkar şeylər Onun uca və ali İradəsi, Onun qəti və ecazkar Məqsədi ilə meydana çıxmışdır. Onun ağzının üfüqündən sifətlərindən birini insanlara bəyan edərək "Yaradıcı" adının günəşi parlayan zaman elə bir qüvvə hasil oldu ki, sonrakı bütün əsrlərdə insan əlinin yaradacağı bütün sənətləri meydana gətirdi. Bu, şəksiz bir həqiqətdir. Və bu söz bütün məxluqata nur saçar-saçmaz, bunun bütün yaranmış şeylərdə olan canlandırıcı gücü belə sənətlərin yaranması və kamilləşməsi üçün dünyəvi vasitə və alətləri meydana çıxardı. Əgər siz yəqinlik hasil edənlərdənsinizsə, bunu bilin. Gördüyünüz bütün ecazkar sənətlər hamılıqla bu Adın aşkara çıxmasının bilavasitə nəticəsidir və bundan sonra elələri meydana gələcək ki, indiyədək onların haqqında eşitməmisiniz. Allahın Lövhlərində belə hökm olunmuşdur və bəsirət sahiblərindən başqa bunu heç kəs anlamaz. Eynilə də nitq üfüqündən Mənim "Hər şeyi Bilən" Adımın günəşi parlayan anda, bütün yaradılmış şeylər bu Addan öz imkanları və qabiliyyətləri çərçivəsində elə güc qazanarlar ki, bununla ən ecazkar elmlər haqda bilikləri açar və zaman keçdikcə Qüdrətli və Hər şeyi Bilən Allahın əmri ilə bunları nümayiş etdirərlər. Bunu yəqin bil ki, hər bir adın təzahürü İlahi qüvvənin bu cür üzə çıxması ilə müşayiət olunur. De: Allahın ağzından çıxan hər bir hərf hərflərin anasıdır, eləcə də, İlahi Vəhyin Çeşməsi olan Kəsin söylədiyi hər bir söz sözlərin anasıdır və Onun Lövhü də lövhlərin Anasıdır. Xoş bunu anlayanların halına.

## Seçim 75 (↑)

MƏNİM ADIMLA GÖZÜNÜZÜ tutan qalın pərdələri cırın, tövhidin gücü ilə təqlid bütlərini sındırın. Sonra isə Rəhmanın müqəddəs razılıq cənnətinə daxil olun. Qəlbinizi Allahdan savayı hər şeydən təmizləyin, Onun geniş və əzəmətli Əmrinin vətənində və Onun ulu və qüsursuz hökmranlığının kölgəsində rahatlığın şirinliyini dadın. Nəfsani arzular hicabı ilə özünüzü pərdələməyin, çünki Mən hər bir kəsi kamil şəkildə xəlq etmişəm ki, yaradıcılığımın kamilliyi aydın olsun. Bu o deməkdir ki, hər kəs özlüyündə Sübhanın Camalını dərk etmək qabiliyyətinə malik olmuşdur və olacaqdır. Əgər o, bu məqama çatmaq qabiliyyətinə malik olmasaydı, məsuliyyət onun üzərindən götürülərdi. Böyük Qiyamət zamanı Allahın qarşısında bir nəfərdən soruşulanda ki, nə üçün Mənim Camalıma iman gətirməyib Məndən üz çevirdin, əgər o bütün aləm əhlinə istinad edərək: “Heç kəsin qəbul etmədiyini və hamının üz döndərdiyini görüb onların ardınca getmişəm və əbədi Camaldan uzaq düşmüşəm”— desə, bu üzr heç vaxt eşidilməz və qəbul olunmaz. Çünki heç kəsin imanı başqasından asılı olmamışdır və olmayacaqdır.

Vəhyin sirlərindən biri də budur ki, onu bütün səmavi Kitablarda möhtəşəm Qüdrət dili ilə nazil etmiş və Qüvvət qələmi ilə yazmışam. Elə isə indi bir qədər düşünün ki, zahiri və batini gözünüzlə bu uca və əbədi lövhədə qətiyyətli və təkidli müraciətlə nazil etdiyim hikmətlərin incəliklərini və səmavi biliklərin cövhərlərini görüb dərk edəsiniz və özünüzü ən yüksək məskəndən, Sidrətül-müntəhadan, qüdrət və şərəf məkanından uzaqlaşdırmayasınız.

Haqqın əlamətləri günəş kimi bəndələrin yaratdıqlarında açıq-aşkar nur saçır. Onun işlərindən heç biri Ondan başqasının işinə bənzəməz. Onun elminin məşriqindən elm və məna günəşləri parlayar, Onun Qələminin cənnətindən Rəhmanın ətirli yelləri əsər. Xoş bunu anlayanların halına!..

## Seçmə 76 (↑)

EY MƏNİM BƏNDƏM, Ulu və Əlçatmaz Rəbbinin Ərşindən Sənə göndərilən vəhyi eşit! Ondan başqa Allah yoxdur. O, məxluqatı yaratdı ki, Özünü—Rəhimli və Rəhmanı tanısınlar. Və bütün millətlərin şəhərlərinə Öz Elçilərini göndərdi ki, onlar insanlara Onun razılığı cənnətinin müjdəsini versinlər və onları daimi əmin-amanlıq Sığınacağına, əbədi müqəddəslik və uca şərəf Məqamına yaxınlaşdırsınlar.

İnsanların bir qismi Allahın Nuru ilə hidayət olunaraq Onun hüzuruna yetişdilər və itaət əlindən əbədi dirilik şərbəti içib Onu, həqiqətən, tanıyan və iman gətirənlərdən sayıldılar. Onların bir qismi isə etiraza qalxaraq ən Qüvvətli, Qüdrətli və Hikmət Sahibi Allahın nişanələrini inkar etdilər.

Beləcə əsrlər keçdi və zaman gəlib günlərin Ağasına yetişdi, həmin gün Bəyan Günəşi mərhəmət üfüqündən parladı və Şərəf Sahibinin Camalı əzəmətli Əlinin, Babın şəxsində işıq saçdı. O Özünü aşkar edər-etməz, hamı etiraza qalxdı. Onlardan bir qismi Onu Qüdrətli və Günlərin Qədimi Allaha qarşı iftira deyən bir şəxs kimi dandılar. Başqa bir qismi Onu dəli adlandırdı ki, bunu da üləmalardan biri Mənim hüzurumda söylədi və Mən özüm bunun şahidiyəm. Bir başqaları isə Onun Allahın Səsi olmasını qəbul etməyərək etiraz etdilər və Ona Qüdrətlinin sözlərini oğurlayıb mənasını təhrif edən və öz sözlərinə qarışdıran biri kimi damğa vurdular. Onların ağzından çıxan bu sözlərə görə Əzəmət Gözləri acı göz yaşları tökür, onlar isə öz yerlərində oturub şadlanmaqdadırlar.

O dedi: "Ey insanlar, Allah Mənim şahidimdir, Mən sizin Rəbbiniz və ulu babalarınızın Rəbbi olan Allahdan Vəhy ilə gəlmişəm. Ey insanlar, malik olduğunuz şeylərə diqqət yetirməyin. Allah tərəfindən nazil olan şeylərə nəzər salın. Həqiqətən, bu sizə bütün yaradılmışlardan daha xeyirlidir—əgər arifsinizsə, bunu bilin. Ey insanlar, Allahın sizin yanınızda olan dəlil və sübutlarına bir daha nəzər salın və onları bu Gün nazil olan Vəhylə müqayisə edin ki, həqiqət, qüsursuz həqiqət aydın və aşkar əlamətlərlə sizə bəlli olsun. Ey insanlar, Şeytanın ardınca getməyin, Rəhmanın dininə itaət edin və möminlərdən olun. Əgər insan Allahın Vəhyini tanıya bilməsə, ona nə fayda verər?! Heç nə. Buna Mən Özüm şahidəm. Qüdrətli, Hər şeyi Bilən və Hikmət Sahibi".

Onun nəsihətləri çoxaldıqca, onların ədavəti də artırdı. Nəhayət, Onu şərəfsiz bir qəddarlıqla qətlə yetirdilər. Zalımlara Allahın lənəti olsun.

Az sayda insan Ona iman gətirdi. Bəndələrimizin az bir hissəsi şükr edəndir. O bütün Lövhələrində, hətta hər bir gözəl sətrində onlara vəsiyyət etdi ki, zühur vaxtı göylərdə və yerdə xəlq olunmuş heç bir şeyə təslim olmasınlar. Və dedi: "Ey insanlar, Mən özümü Onun Zühurundan ötrü zahir etdim və Öz Kitabım Bəyanı məhz Onun Əmrinin isbatı üçün nazil etdim. Allahdan çəkinin və Quran əhli Mənə etiraz etdiyi kimi, siz də Ona etiraz etməyin. Onun sorağını eşidən kimi, Ona doğru can atın və Onun nazil etdiklərindən yapışın. Ondan başqa heç kəs sizə fayda verməz, xeyr, hətta sizdən əvvəl olanların şəhadət verdiklərini birincisindən sonuncusuna qədər göstərsəniz belə".

Və bir neçə il ötdükdən sonra İlahi hökmün səması parçalandı və Əlinin (Həzrət Babın) Camalı, həqiqətən, Adlar buludunda başqa bir libasla gəldi. O zaman elə bu insanlar bəd niyyətlə nuru bütün xilqəti bürüyən Kəsin əleyhinə qalxdılar. Onlar Onun əhd-peymanını qırdılar, Onun həqiqətini inkar etdilər, Onunla çəkişməyə başladılar, Onun əlamətlərini qüsurlu saydılar, dəlillərini yalan sandılar və müşriklərdən oldular. Axırda Onu qətlə yetirmək fikrinə düşdülər. Azmış qafillərin işi belə olur.

Lakin özlərinin aciz olduqlarını gördükdə, hiyləyə əl atdılar və hər an yeni bir hiylə qurdular ki, Allahın Əmrinə ziyan vursunlar və onu təhqir etsinlər. De: Vay sizin halınıza! Allaha and olsun! Bununla siz özünüzü rüsvay edirsiniz. Sizin mərhəmətli Rəbbinizin aləmdəkilərə ehtiyacı yoxdur—heç nə Onun malik olduqlarını nə artıra bilər, nə də azaldar. İman gətirdinizsə, özünüz üçündür, küfr etdinizsə, özünüzə qayıdar. Onun Əbasının ətəyini müşriklər heç vaxt çirkləndirə bilməz.

Ey Allaha iman gətirmiş bəndə! Qüdrətli Allahın həqqaniyyətinə and olsun! Əgər Mən başıma gələnləri danışsam, ürəklər və ağıllar buna dözməz. Allah Özü buna şahiddir. Sən özünü qoru və onların arxasınca getmə. Rəbbinin Əmri barəsində səylə düşün. Rəbbini başqalarının köməyi ilə deyil, Onun Özünün vasitəsilə tanı, çünki başqası heç vaxt sənə kifayət etməz və əgər sən dərk edənlərdənsə, buna bütün yaradılmış şeylər şəhadət verir.

Qüdrətli və Şərəfli Rəbbinin izni ilə pərdə arxasından çıx, yerlə göy arasında olanların gözləri qarşısında Ulular Ulusu Rəbbinin adı ilə Ölməzlik Piyaləsini al və onu iç—ləngiyənlərdən olma! Allaha and olsun, Piyalə sənin dodaqlarına toxunanda, Səma sakinləri nida edər: “Nuş olsun sənə, ey Allahın yolunda yəqinlik hasil edən bəndə!” Əbədiyyət Şəhərinin sakinləri söyləyər “Xoş sənin halına, ey Onun məhəbbət Piyaləsindən içən kəs!” Böyüklük dili isə belə nida edər: “Müjdə olsun sənə, ey bəndə, sən elə bir şərəfə nail oldun ki, ona yalnız göylərdə və yerdə olan bütün şeylərdən əlini üzmüş, əsl inqita mücəssəmələri nail olurlar!”

## Seçmə 77 (↑)

İNDİ İSƏ SƏNİN insanın yaradılışı barədə sualına dair. Bil ki, bütün insanlar Qoruyan və Qəyyum Allahın fitrəti ilə yaradılmışdır. Hər bir kəsin imkanları Allahın qüdrətli və qorunan Lövhələrində yazılan miqdarda müəyyən olunub. Lakin sizin malik olduğunuz hər şey ancaq sizin öz iradənizlə aşkara çıxır. Sizin öz əməlləriniz bunun həqiqətinə şəhadət verir. Məsələn, Bəyanda insanlara qadağan olunmuş şeyə nəzər salın. Allah bu Kitabda Öz hökmü ilə istədiyini halal edib və Özünün hökmran qüdrəti ilə istədiyini haram buyurub. Buna o Kitabda yazılanlar şahidlik edir. Məgər siz bunu təsdiq etməyəcəksiniz? Lakin insanlar bunu bilə-bilə, Onun qanununu pozurlar. Əgər insaf əhlisinizsə, deyin, bunlardan hansı Allaha aiddir, hansı sizin özünüzə? De: Bütün yaxşı əməllər Allahdandır, bütün pis işlər isə sizin özünüzdəndir. Məgər bunu bilmirsiniz? Əgər siz anlayansınızsa, bu, bütün Lövhələrdə nazil olub. Bəli, Allah sizin əməllərinizi onlar aşkara çıxdıqdan sonra bildiyi kimi, aşkara çıxmazdan əvvəl də bilir. Həqiqətən, Ondan başqa Allah yoxdur. Bütün xilqət və hökm Ona məxsusdur. Hər şey Ona agahdır və hər şey Onun müqəddəs və gizli Lövhələrində yazılmışdır. Lakin Onun hər şeyi öncədən bilməsi insanların əməllərinin səbəbi ola bilməz, necə ki, sizin müəyyən bir şeyi qabaqcadan bilməyiniz və ya onun olmasını istəməyiniz onun baş verməsinin səbəbi deyil və ola da bilməz.

## Seçmə 78 (↑)

XİLQƏTİN BAŞLANĞICI HAQQINDA sualın barədə. Bil ki, xilqət əzəldən olub və həmişə də olacaq. Onun əvvəlinin başlanğıcı olmayıb və axırının da sonu yoxdur. “Xaliq” adı özlüyündə “məxluq”un olmasını tələb edir və eləcə də “Rəbb” adı “tərbiyələnən”in mövcudluğunu nəzərdə tutur.

Keçmişin Peyğəmbərlərinə aid edilən: “Allah var idi, lakin Onu tanıyan bir məxluq yox idi”, “Rəbb var idi, lakin sitayiş edən yox idi” və digər bu kimi kəlamlara gəldikdə isə, onların mənası həmişə aydın olmuşdur və heç vaxt da yanlış anlaşılmamalıdır. Məhz bu həqiqətə Onun nazil etdiyi bu kəlamlar da şəhadət verir ki: “Allah var idi, Onunla heç bir şey yox idi və O həmişə olduğu kimi qalacaq”. Hər bir bəsirət sahibi təsdiq edər ki, indi Rəbb zühur etmişdir, lakin Onun cəlalını etiraf edən yoxdur. Bu o deməkdir ki, Onun dərgahı Ondan başqa hər kəsin əlinin yetməsindən və anlamasından ucadır. Fani dünyada ifadə olunan və ya anlaşılan heç nə, onun fitrətinə uyğun olaraq qoyulmuş məhdudiyyəti heç vaxt aşa bilməz. Haqq isə bunlardan ucadır. O, əzəldən belə olub. Ona heç zaman bir bərabər və ya şərik, nə qoşulub, nə də qoşula bilər. Nə bir qələm Onu təsvir edə bilər, nə də bir dil Onu vəsf edə bilər. O, əbədi olaraq Özündən başqa hər şeydən hədsiz uca olaraq qalacaq.

Məsələn, ali Məzhərin zühuru anına diqqət yetir. O Əzəli Mahiyyət özünü tanıtdırmazdan və Allahın Kəlamı ilə danışmazdan qabaq artıq Onu tanıyan bir kəsin olmadığı dünyada hər şeyi Biləndir. O həqiqətən, məxluqu olmayan Xaliqdir. Zira, Onun Vəhyindən dərhal əvvəlki anda hər bir məxluqun ruhu Ona təslim olar. Bu, həmən gündür ki, onun barəsində buyurur: “Bu Gün hökmranlıq kimə məxsusdur?” Və buna cavab verən bir kəs tapılmaz!

## Seçmə 79 (↑)

ALLAHIN ALƏMLƏRİ BARƏDƏ sual vermişdin. Bil ki, həqiqətən, Allahın saysız-hesabsız aləmləri vardır və onların sonu yoxdur. Onları hər şeyi Bilən və Hikmət Sahibi olan Allahın özündən başqa heç kəs saya və əhatə edə bilməz. Yuxu barəsində fikirləş. Əgər fikirləşsən, görərsən ki, o, insanlar arasında Allahın ən böyük əlamətidir. Məsələn, gecə yuxuda bir şey görürsən və bir ildən, iki ildən, yaxud bundan çox və ya az müddətdən sonra həmən yuxu eynilə çin olur. Əgər yuxuda gördüyün aləmlə sənin olduğun bu aləm eyni olsaydı, yuxuda gördüyün hadisə elə onun baş verdiyi zaman bu dünyada da baş verməliydi və bu belə olsaydı, sən də bunun şahidi olmalıydın. Belə olmadığı üçün də, buradan belə hasil olur ki, yaşadığın dünya yuxuda gördüyün dünyadan fərqli və ayrıdır. Yuxuda gördüyün dünyanın nə əvvəli var, nə də sonu. Əgər desən ki, bu aləm sənin özündəndir və onda olanlar Şərəfli və Qüdrətli Allahın əmri ilə orada gizlənir, haqlısan. Eləcə də desən ki, ruh yuxu zamanı bütün dünyəvi məhdudiyyətlərin fövqünə qalxaraq və dünyəvi bağlılıqlardan özünü təmizləyərək Allahın köməyi ilə bu aləmin batini mahiyyətində gizlənmiş başqa bir aləmdə seyrə çıxır, bu da doğrudur. Həqiqətən, Mən deyirəm, Allahın bu aləmdən başqa aləmləri və bu xilqətdən başqa xilqətləri vardır. Və Onun bütün bu aləmlərdə təyin etdiyi şeylərə hər şeyə Nüfuz edən və hər şeyi Bilən Allahın Özündən başqa kimsə nə nüfuz edə, nə də hesabını bilər. Sənə deyilənlər üzərində düşün ki, sənin Rəbbin və aləmlərin Rəbbi olan Allahın məqsədini anlayasan. Bu sözlərdə İlahi Hikmətin sirləri gizlənib. Biz ona görə təfsilata varmadıq ki, sözümüzlə yarananların əməlləri nəticəsində Bizi kədər bürüyüb. Əgər Bizim Səsimizi eşidənlərdənsinizsə, bunu bilin...

## Seçmə 80 (↑)

Sən Məndən soruşursan ki, cismani ölümdən sonra Allahın Peyğəmbərləri və Onun övliyalarından başqa, digər insan övladında onun bu dünyadakı fərdiyyət, şəxsiyyət, idrak və şüuru qalır, yoxsa itib gedir? Əgər onların qaldığını fərz etsək, onda necə olur ki, sağlığında, məsələn, bayılma və ya ağır xəstəlik nəticəsində insanın əqli qabiliyyətləri zədələndikdə, o, şüurunu və idrakını itirir? Bədənin tərkibinin və ünsürlərinin yox olduğu ölümdən sonra şəxsiyyət və şüurun qaldığını necə təsəvvür etmək olar ki, onların mövcudluğunu təmin edən vasitələr büsbütün dağılıb sıradan çıxır?

Cənabınıza məlum olsun ki, ruh bədənin və ya əqlin bütün qeyri-sabitliklərindən ucadır və onlardan asılı deyil. Xəstədə müşahidə olunan zəiflik bədənlə ruhun arasında olan müxtəlif maneələrdən doğur və hər hansı bədən xəstəlikləri ruha təsir etmir. Məsələn, çırağa diqqət yetirin: o yanır və işıq saçır, lakin arada bir maneə olduqda, onun nurunun qarşısı kəsilsə də, o azalmayan parlaqlıqla işıq saçmaqda davam edir. Eləcə də xəstəlik zamanı müxtəlif maneələr xəstənin bədənində ruhun qüdrət və qüvvətinin aşkara çıxmasına əngəl törədərək, onu gizli saxlayır. Lakin ruh bədəni tərk etdikdən sonra yer üzündə misli-bərabəri olmayan bir qüdrət, qüvvət və güc kəsb edir. Bütün incə, pak və müqəddəs ruhlar böyük qüdrət və hədsiz sevinc içərisində olacaqlar.

Əgər çıraq dəmir örtüyün içərisində olarsa, kənardan onun işığı qətiyyən görünməz, halbuki, o öz yerində işıq saçmaqda davam edir. Eynilə də buludun arxasındakı Günəşə diqqət yetirin. O öz yerində parlayıb işıq saçır, lakin bulud qarşısını kəsdiyi üçün onun nuru zəif görünür. İnsanın ruhu həmin günəşə, yer üzündəki qalan bütün şeylər isə onun bədəninə bənzədilə bilər. Bədən bütünlüklə o nurun işığı və ziyası ilə işıqlanır və ondan güc alır, amma bu, o vaxta qədər davam edir ki, müxtəlif maneələr aranı kəsməsin. Onların arasında maneə yarandıqdan sonra günəşin nuru zəif görünməyə başlayır.

Yenə də günəşə baxın, o zaman ki, o tamamilə buludların arxasında qalır, onun işığı zəif olur. Halbuki yer onun nuru ilə işıqlanır. Nə buludların olması, nə də onların yoxluğu heç cür günəşin nuruna təsir etmir. İnsan ruhu da bir günəşdir ki, bədəni nurlandırır və bədən ondan güc alır. Buna belə də baxmaq lazımdır.

Həmçinin hələ ağacın özündə olan meyvənin zəifliyini göz önünə gətirin. Ağacdan çıxmazdan əvvəl o, ağacda mövcud olsa da, o qədər zəif olur ki, qətiyyən görünmür. Əgər kimsə ağacı parça-parça etsə, həmin meyvədən əsər-əlamət tapmaz. Amma ağacdan çıxdıqdan sonra o, ecazkar gözəllik və böyük mükəmməlliklə görünməyə başlayır, necə ki, bu, bütün meyvələrdə müşahidə olunur. Elə meyvələr də var ki, yalnız ağacdan dərildikdən sonra tam yetişir.

## Seçmə 81 (↑)

RUH VƏ İNSAN öləndən sonra onun yaşaması haqqında sual vermişdin. Bu həqiqəti bil ki, bədəndən ayrıldıqdan sonra ruh elə bir görkəmdə Allahın hüzuruna yüksəlir ki, nə qərinələr və əsrlərin dəyişiklikləri, nə də bu dünyanın fəlakətləri və hadisələri onu dəyişdirə bilər. Və Allahın Mələkutu, Onun səltənəti, hökmranlığı, qüdrəti və hakimiyyəti durduqca, o da qalar. Və onda Allahın əlamətləri və sifətləri təzahür edər və Onun inayət və lütfləri aşkar olar. Bu məqamı, onun ülviyyət və ucalığını təsvir etməyə Qələmin qüdrəti çatmır. Mərhəmət Əli onu elə bir şərəfli məqama daxil edər ki, bunu heç bir sözlə anlatmaq və dünyada olan şeylərlə təsvir etmək mümkün deyil. Xoş o ruhun halına ki, insanların şühbələrindən pak bir halda bədəndən çıxar. Belə bir ruh öz Yaradanının İradəsi ilə hərəkət edib uca Cənnətə daxil olar. Yüksək Behiştin sakinləri olan Hurilər onun ətrafına toplaşar, Allahın Peyğəmbərləri və övliyaları onunla ünsiyyət etmək istər. O ruh onlarla sərbəst şəkildə söhbət edər və aləmlərin Rəbbi olan Allahın yolunda başına gələnləri onlara danışar.

Əgər bir kəs ərşin və yerin Rəbbi olan Allahın aləmlərində onun üçün müəyyən olunanlardan agah olsa, dərhal bu ən uca, ən yüksək, ən müqəddəs və ən şərəfli məqama çatmaq şövqü ilə alışıb yanar... İndi də fars dilində eşit. Ey Əbdülvəhhab, sənə Mənim şərəfim nəsib olsun! Sən ruhun əbədi yaşaması barədə sual vermişdin. Bu Məzlum onun əbədi yaşamasını təsdiq edir. Həm də onun necəliyini soruşmuşdun. Ruhun ölümdən sonrakı təbiəti nə təsvir edilə bilər, nə də onu bütünlüklə insanların gözü qarşısında açmaq caizdir. Peyğəmbərlər və Elçilər yalnız insanları haqqın doğru yoluna istiqamətləndirmək üçün gəlmişlər. Onların Vəhylərindən məqsəd bu olmuşdur ki, bəndələr tərbiyə alsınlar və dünyalarını dəyişərkən, tam paklıq, müqəddəslik və saflıq halətində Ulu Rəfiqin hüzuruna yollansınlar. Allaha and olsun, belə ruhların işığı dünyanın tərəqqisinə və insanların məqamının yüksəlməsinə səbəb olur. Onlar varlıq dünyasının mayası, dünyadakı möcüzələrin və sənətlərin başlıca səbəbləridir. Onların sayəsində buludlardan yağış yağar və yer öz bəhrəsini verər. Hər şeyin səbəbi, hərəkətverici qüvvəsi və canlandırıcı əsası olmalıdır. Bu ruhlar və inqita təcəssümləri varlıq dünyasının ali hərəkətverici gücü olmuşlar və olacaqlar. Bu aləmlə o aləmin fərqi ana bətni ilə bu dünyanın fərqi kimidir.

Xülasə, ruh bədəndən ayrılıb Allahın Hüzuruna çatanda, əbədi yaşamağa və o aləmdə qalmağa layiq olan bir görkəm alar. Bu əbədi yaşayış—zamanca əbədilikdir, mahiyyətcə əbədilik deyil, çünki bir səbəbə bağlıdır. Mahiyyətcə əbədilik heç nədən asılı olmur və bu da yalnız Şərəfli Haqqa məxsusdur. Xoş bunu anlayanların halına! Əgər sən Peyğəmbərlərin əməlləri barədə düşünsən, tam yəqinliklə təsdiq edərsən ki, bu aləmdən başqa da aləmlər vardır. Uca Qələmdən nazil olmuş "Hikmət Lövhəsi"ndə yazıldığı kimi, yer üzünün əksər müdrikləri və alimləri əsrlər boyu İlahi Kitablarda nazil olanları qəbul və təsdiq ediblər. Hətta təbiətə əsaslanan materialistlər öz yazılarında Elçilərin hikmətinə şəhadət vermiş və yazmışlar ki, Elçilər məhz bəndələri tərbiyə etmək məqsədilə cənnətdən və cəhənnəmdən, savabdan və əzabdan bəhs etmişlər. Elə isə diqqət yetirin ki, bəşəriyyətin əksəriyyəti inam və baxışlarından asılı olmayaraq, Peyğəmbərlərin aliliyini tanıyır və üstünlüklərini etiraf edirlər. Bəziləri o Xalis Cövhərlərə hikmət mücəssəmələri deyirlər, bəziləri də onları Allahın adından Danışan Şəxslər hesab edirlər. Əgər bu şəxslər Allahın aləmlərinin yalnız bu aləmdən ibarət olduğunu düşünsəydilər, düşmənlərin əhatəsinə düşməyə razı olardılarmı? Heç bir insanın düşmədiyi və ya şahidi olmadığı bəla və məşəqqətlərə həvəslə qatlaşardılarmı?

## Seçmə 82 (↑)

RUHUN TƏBİƏTİ BARƏDƏ sual vermişdiniz. Bilin ki, ruh—Allahın əlamətidir və elə bir səmavi cövhərdir ki, bütün elm sahibləri onun mahiyyətini dərk etməkdə və bütün irfan əhli onun sirrini anlamaqda acizdir. Ruh—yaradıcısı olan Allahın ucalığından söz açan, Onun cəlalını etiraf edən, Onun həqiqətindən yapışan və Ona səcdə edən ilk şeydir. Əgər o, Allaha sədaqətli olsa, onda Onun nurunu əks etdirəcək və sonda Ona qayıdacaq. Amma əgər o, öz Yaradıcısına sədaqətli qalmasa, onda nəfs və ehtirasın qurbanı olacaq və son nəticədə, onların girdabında batacaq.

Bu Gün insanların şübhə və mövhumatına uymayıb Əbədi Haqdan üz döndərməyən, üləmaların hay-küyünün və əmirlərin hökmünün Onun Müjdəsini tanımağa mane olmasına izn verməyən şəxs bütün insanların Rəbbi olan Allahın nəzərində Onun ən böyük əlamətlərindən sayılar və həmin şəxsin adı Uca Qələmlə İlahi Kitaba yazılar. Xoş belə ruhun həqiqi məqamına varanın və onun şərəfini və məziyyətini anlayanın halına!

Ruhun inkişaf mərtəbələri, o cümlədən, ehtiraslı, çılğın, ilhamlanmış, xeyirxah, rahatlanmış, ilahi razılığa nail olmuş və digər bu kimi ruhlar barədə keçmişin kitablarında çox sözlər yazılmışdır. Uca Qələm bu mərtəbələri şərh etmək istəməmişdir və istəmir. Bu Gün Allaha itaət göstərən və ona sığınan hər bir ruh bütün adlarla şərəfləndirilər və bütün məqamlara layiq görülər.

İnsan yatanda onun ruhu haqqında demək olmaz ki, o fitrətən hansısa zahiri mənbənin təsirinə məruz qalır. İlkin halında və ya mahiyyətində o hər hansı dəyişikliyə məruz qalmır. Onun işindəki hər hansı dəyişiklik xarici səbəbdən baş verir. Onun ətrafında, anlayışında və qavrayışındakı hər bir dəyişikliyi məhz bu xarici amillərə aid etmək lazımdır.

Gözə diqqət yetirin. O, yaradılmış bütün şeyləri görə bilir, lakin cüzi bir maneə üzündən bu qabiliyyətdən məhrum olur. Ucadır o Kəs ki, bu səbəbləri yaratdı və yüksəkdir o Kəs ki, bütün işləri onlardan asılı elədi. Dünyada olan şeylərin hər biri Onu tanımağın qapısıdır, Onun hökmranlığının əlamətidir, Onun Adlarının təzahürüdür, Onun əzəmətinin rəmzi və qüdrətinin nişanəsidir və Onun doğru yoluna aparan cığırdır...

Həqiqətən, Mən deyirəm, ruh mahiyyət etibarilə Allahın əlamətlərindən biri və Onun sirləri içərisində bir sirrdir. O, Qüdrət Sahibinin böyük bir əlamətidir və ilahi aləmlərdən xəbər verən bir carçıdır. Onda elə bir şey gizlənib ki, hazırkı aləm onu dərk etmək qabiliyyə-tinə malik olmamışdır və malik deyildir. İndi nəzər sal Özünün bütün qanunlarına sirayət edən Allahın Ruhunun təzahürünə və onu Ondan üz döndərən ehtiraslı təbiətlə müqayisə et ki, Ona qarşı çıxır, insanları Adlar Sahibindən uzaqlaşdırır, onları şəhvət və pozğunluğa təhrik edər. Bil ki, həqiqətən, beləlləri açıq-aşkar ziyandadırlar...

Və bir də soruşmuşdun ki, ruh bədəndən ayrıldıqdan sonra onunla nə baş verir. Bu həqiqəti bil ki, əgər insanın ruhu Allahın yolu ilə getmişsə, o, mütləq, Ona qayıdacaq və Məhbubun cəlalına qovuşacaq. Allahın həqqaniyətinə and olsun! O elə bir məqama yetişəcək ki, onu qələm təsvir, dil isə tərif edə bilməz. Allahın Əmrinə sədaqətli qalan və Onun Yolunda dönmədən gedən ruh, süud etdikdən sonra, elə bir qüvvə kəsb edər ki, Qüdrətlinin yaratdığı bütün aləmlər ondan feyz alar. Belə bir ruh Kamil Ruhun və İlahi Mürəbbinin əmri ilə, xalis bir maya olar ki, varlıq dünyasını cana gətirər, bu dünyanın möcüzə və sənətlərini meydana çıxaran güc hasil edər. Xəmirə nəzər salın—onun mayaya ehtiyacı var. İnqita təcəssümü olan ruhlar da aləmin mayasıdırlar. Bu barədə düşün və şükr edənlərdən ol!

Bu məqamlardan və eləcə də ruhun tərəqqisində bu mərtəbələrdən Bizim Lövhələrimizdə müəyyən qədər bəhs olunub. Həqiqətən, Mən deyirəm, ruh hər cür giriş və çıxışdan üstün olan bir əlamətdir. O sakitdir, amma yenə də uçur; o hərəkətdədir, eyni zamanda da dayanır. O həm şərtiliklər aləminə, həm də əvvəli və axırı olmayan aləmə şəhadət verir. Sizin yatarkən gördüyünüz yuxu, bir çox illər keçdikdən sonra, gözləriniz qarşısında çin olur. Baxın ki, yuxuda gördüyünüz dünyanın möcüzəsi nədir. Allahın hikməti və onun çoxlu təzahürləri barədə düşün...

Allahın ecazkar əlamətlərinə bax və xilqətin xüsusiyyətləri və əlamətləri üzərində düşün. Xatəmi-ənbiya (Həzrət Məhəmməd) buyurub: "İlahi, mənim sənə olan heyrətimi çoxalt!"

Maddi aləmin sonu barəsində sualına gəldikdə isə bu məsələnin anlaşılması müşahidəçilərin baxışından asılıdır. Bir mənada o, sonludur, başqa bir mənada isə bundan üstündür. Haqq əzəldən olub və həmişə də olacaq. Xilqət də həmçinin, nə

əvvəli olub, nə də sonu olacaq. Sadəcə, yaranmış hər şey müəyyən bir səbəbdən asılıdır. Bu gerçəklik özlüyündə, şübhə yeri qoymadan Yaradanın birliyini sübut və təsdiq edir.

Bir də göy cisimləri barədə sual vermişdin. Onların təbiətini başa düşmək üçün əvvəla, aydınlaşdırmaq lazımdır ki, keçmiş və sonrakı kitablarda göy cisimlərindən və səmadan danışarkən nəyi nəzərdə tutmuşlar və həmçinin onların maddi aləmlə əlaqəsi və ona təsiri hansı şəkildə həyata keçir. Bütün ürəklər belə bir çaşdırıcı mövzudan heyrətə gəlmiş, bütün ağıllar onun sirrindən mat-məəttəl qalmışlar. Bir olan Allahdan başqa heç kəs bu məsələdən agah deyil. Bu Yerin həyatını neçə-neçə minilliklər boyu müşahidə edən alimlər bu müddət ərzində planetlərin nə qədər olduğunu və yaşını hesablaya bilməmişlər. Bu insanların irəli sürdükləri nəzəriyyələr baxışlarda nə qədər fərqlər yaradıb. Bil ki, hər bir sabit ulduzun öz planetləri və hər bir planetin öz məxluqatı var—hesablayanlar onları saymaqda acizdir.

Ey nəzərlərini Mənim üzümə dikən kəs! Bu Gün Cəlal Üfüqü öz şəfəqini yayıb və Uca Allahın nidası yüksəlib. Əvvəllər Biz Lövhələrdə nazil etmişik ki, bu gün heç kəs üçün öz Rəbbinə sual vermək günü deyil. Allahın Cəlal Məşriqinin səsləndirdiyi Nidasını eşidən hər kəsə yaraşan odur ki, ayağa qalxsın və desin: "Ləbbeyk, ləbbeyk, ey Adların Sahibi! Ləbbeyk, ləbbeyk, ey Səma Qurucusu Şəhadət verirəm ki, Sənin zühurunla Allahın kitablarında gizli olanlar nazil oldu və Peyğəmbərlərin Yazılarında yazılanlar yerinə yetdi!"

## Seçmə 83 (↑)

İNSANIN MAHİYYƏTİNDƏKİ İLAHİ əmanətə—düşünmə qabiliyyətinə diqqət yetir. Məsələn, özünə nəzər sal—onda görərsən ki, səndə olan hərəkət və sükunət, iradə və istək, eləcə də eşitmə və görmə, iybilmə və nitq qabiliyyətləri, digər zahiri və batini duyğular onun sayəsində mövcuddur. Və bunlar bu qabiliyyətə o qədər bağlıdır ki, əgər onun bədənlə əlaqəsi kəsilsə, bütün bu duyğular təsirini itirər və fəaliyyətdən qalar. Və bu, tamamilə aydın və məlumdur ki, qeyd olunan qabiliyyətlərin mövcudluğu Bənzərsiz Sultanın təzahürünün əlaməti olan düşünmə qabiliyyətindən asılıdır və onunla şərtlənmişdir və həmişə də belə olacaqdır. Belə ki, onun görünməsi ilə bütün bu adlar və sifətlər meydana gəlir, onun itməsi ilə onların hamısı yox olub fənaya uğrayır.

Belə olan halda əgər deyilsə ki, o, görmə qabiliyyəti ilə birdir, bu, qətiyyən düzgün olmaz, çünki görmə qabiliyyətinin özü onun vasitəsilə yaranır və onun sayəsində mövcud olur. Yaxud eşitmə qabiliyyətinin əqldən güc aldığını düşünərək deyilsə ki, o, eşitmə qabiliyyətidir, bu da mənasız olardı.

Eləcə də insanın vücudunda müşahidə olunan böyüklü-kiçikli digər adlar və sifətlər hamılıqla ona tabedir. Bütün bu müxtəlif adlar və görünən sifətlər həmin ilahi əlamətin vasitəsilə meydana gəlir və aşkara çıxır. O isə öz mahiyyəti baxımından bütün bu adlardan və sifətlərdən son dərəcə üstündür, hətta ondan başqaları onun cəlalı qarşısında bir heçdir və unudulmağa layiqdir.

Əgər sonsuzluğa qədər əvvəlki və sonrakı ağılların əldə etdikləri və ya edəcəkləri bəhrələrdən bütün zəkan və idrakınla faydalanmaqla bu ilahi və lətif Cövhər, Şərəfli və Əbədi Varlığın bu təzahürü barədə düşünsən, təbii ki, onun mahiyyətini dərk etməkdə və məziyyətini anlamaqda özünün aciz və gücsüz olduğunu görərsən. Əgər özündə olan bu Cövhərin dərk edilməsində öz -aciz-lik və gücsüzlüyünün şahidi oldunsa, əlbəttə, özünün və bütün məxluqatın Bənzərsiz Mahiyyəti və sönməz Şərəf Günəşini tanımaqda aciz olduğunu batini və zahiri gözünlə görərsən. Bu məqamda öz acizliyini etiraf etmək bəsirət baxımından bəndənin idrakının ən yüksək səviyyəsi və bəndələrin yetkinliyinin ən son həddidir...

## Seçmə 84 (↑)

HAQQIN BÜTÜN YARADILMIŞLARDAN pak və üstün olduğuna şahid ol. Bütün kainat Onun cəlalını əks etdirir, amma O Özü hər şeydən müstəqil və ucadır. Tövhidin əsl mənası budur. Əbədi olan Kəs elə bir Qüdrətdir ki, Onun şərtsiz hökmranlığı hər şeyə hakimdir və Onun surəti mövcudatın güzgüsündə əks olunur. Bütün mövcudat Ondan asılıdır və Ondan güc alır. Budur tövhidin mənası və məqsədi! Budur onun təməl ehkamı.

Mövhumata uymuş bəzi şəxslər öz təsəvvürlərində bütün şeyləri Haqqa şərik etmişlər, bununla belə özlərini tövhid əhli saymışlar. And olsun Haqqa ki, bu şəxslər kor-koranə təqlid əhli olmuşlar və olacaqlar və Allah anlayışını çərçivə və məhdudluğa salanların sırasında sayılacaqlar.

Tövhid—“bir”i “bir” bilməkdir və onu bütün ədədlərdən üstün tutmaqdır, daha “iki”ni “bir” saymaq deyil. Həqiqi inanan o kəsdir ki, ikiliyi vahidlə səhv salmır, heç bir çoxluğun Allahın təkliyi haqqında anlayışına kölgə salmasına izn vermir, İlahi Varlığı Onun Öz təbiəti etibarilə, say məhdudiyyətindən üstün olan bir Varlıq kimi qəbul edir.

Tövhidə inamın mahiyyəti odur ki, haqqın Zühurunun Şəfəqini görünməz, əlçatmaz və dərkolunmaz Mahiyyət ilə bir biləsən, bu mənada ki, heç bir şərh, izah və işarə olmadan birincinin hərəkətlərinin, əməllərinin, əmrlərinin və qadağalarının bütün cəhətlərdən Allahın Özünün İradəsi ilə olduğunu düşünəsən. Budur tövhidə, həqiqətən, inananın çatmağa ümid etdiyi ən son məqam! Xoş bu məqama çataraq, dönməzlərdən olanların halına.

## Seçmə 85 (↑)

EY MƏNİM BƏNDƏLƏRİM! Yaxşı olar ki, bu könül oxşayan Baharda üzərinizə yağan ilahi leysan yağışı ilə qəlbinizi yuyub təravətləndirəsiniz. Onun əzəmətli cəlal Günəşi işıq saçır və Onun sonsuz fəzl buludu kölgə salıb. Belə böyük bir səxavətdən özünü məhrum etməyənin, Məhbubunun gözəlliyini bu yeni libasda görüb tanıyanın mükafatı necə də böyükdür!

De: Ey insanlar, Allahın Çırağı yanır, onu itaətsiz-liyinizin şiddətli küləkləri ilə söndürməyin. Bu Gün qalxmaq və Rəbbiniz Allahı tərif etmək və ucaltmaq günüdür. Bədəninizin qayğısına qalıb qəlbinizi çirkaba bulaşdırmaqla məşğul olmayın. Əhrimən pusquda dayanıb, ayıq olun. Onun hiyləgər tələsindən qorunun və bir olan Allahın adının işığı ilə özünüzü zülmətdən xilas edin. Yara diqqət yetirin, özünüzə yox!

De: Ey yolunu azmışlar, Müjdəçi müjdə verdi ki—və Onun söylədiyi ancaq həqiqətdir—Yar gəlir. Budur O gəlib, nə üçün süstlük və məyusluq göstərirsiniz? O Pak və Gizli Kəs pərdəsiz gəlmişdir, niyə pərişan olmusunuz? Əvvəl və Axır, Hərəkət və Sükunət aşkara çıxıb. Bu Gün Əvvəl Axırda görünür, Hərəkət Sükunətdən doğur. Bu hərəkət bütün məxluqat boyu Pərvərdigarın kəlamının hərarətindən yarandı. Bu hərarəti duyan hər bir kəs Yarın yanına tələsdi. Kim duymadısa, elə məyus oldu ki, bir daha ayağa qalxmadı. Hikmətli o şəxsdir ki, bu dünya və onda olanlar onun Bu Günün işığını görməsinə mane olmadı, insanların boş danışıqları onu möminlikdən uzaqlaşdırmadı. Ölü, həqiqətən, o kəsdir ki, bu Vəhyin xoş səhərində bu könül oxşayan nəsimdən oyanmadı. Əsir, doğrudan da, o kəsdir ki, Ali Xilaskarı tanımadı və ruhunun tamah zindanında əzilmiş və aciz halda sərgərdan qalmasına imkan verdi.

Ey bəndələr, kim bu Çeşmədən içdisə, əbədi Həyata qovuşdu, kim içmədisə, ölülər cərgəsinə qoşuldu. De: Ey bədxahlar, tamahınız sizi Ehtiyacsızın şirin sədasını eşitməkdən uzaq saldı. Tamahdan əl çəkin ki, Onun İlahi işinin sirrini anlayasınız. O, bütün cəlalı ilə dünyanı işıqlandıran Günəş tək parlaq və aşkardır.

De: Ey nadanlar, sizi şiddətli bəlalar gözləyir və onlar sizi qəfil tutacaq! Çalışın ki, onlar sovuşsun və sizə ziyan vurmasın. Əzəmətli cəlalı ilə gələn Allahın uca adını tanıyın. Hər şeyi Bilən, Hər şeyin Sahibi və Hamını Qoruyan Odur.

## Seçmə 86 (↑)

İNDİ DƏ RUHLARIN bədəni tərk etdikdən sonra bir-birindən xəbər tutmasına dair sualın barədə. Bil ki, Qırmızı Gəmidə məskən salan Bəha əhlinin ruhları bir-biri ilə əlaqədə və ünsiyyətdə olar, bir yerdə oturar, bir məqsədə doğru gedər, birgə yüksələrlər və beləcə, bir ruh kimi olarlar. Həqiqətən, onlar bilən, görən və anlayandırlar. Hər şeyi Bilən və Hikmət Sahibi olan Allahın əmri ilə belə müəyyən olunmuşdur.

İlahi Gəmidə məskən salan Bəha əhli hamılıqla bir-birinin əhvalından xəbərdar olar, bir-birilə əlaqə saxlayar, həmsöhbət və munis olarlar. Lakin bu məqama çatmaq ruhların yəqinlik səviyyəsindən və əməllərindən asılıdır. Bir səviyyədə və bir məqamda duran ruhlar bir-birinin qabiliyyətlərindən, keyfiyyətlərindən, dərəcə və məziyyətlərindən tam agah olarlar. Aşağı dərəcədə olanlar isə özlərindən yüksəkdə duran ruhların səviyyələrindən və məqamlarından lazım olduğu qədər xəbər tutmazlar. Rəbbinin yanında hərənin öz qismət payı var. Xoş o kəsin halına ki, Allaha üz tutub və ruhu Hökmlü, Qüdrətli, Bağışlayan və Rəhmli Allaha doğru uçana qədər Ona məhəbbətində dönməz olub.

Kafirlərin ruhuna gəldikdə isə, Canıma and olsun, onlar son anda nə itirdiklərini anlayar və ağlayıb yalvarar, Allahın qarşısında müti olarlar. Onların ruhları bədənlərindən çıxdıqdan sonra da bu hala düşərlər.

Bu, kifayət qədər məlum və aydındır ki, hər bir kəs öləndən sonra öz hərəkətlərindən və əməllərindən agah olacaq. İlahi Qüdrət üfüqündə parlayan Günəşə and olsun ki, həmən anda Haqqın ardınca gedənləri təsvirəgəlməz bir sevinc və şadlıq bürüyər. Günaha batanlar isə ağlasığmaz qorxuya, iztiraba və dəhşətə düşərlər. Xoş o kəsin halına ki, imanın əbədi və ləziz şərabını Dinlər Sahibinin lütf və inayət əlindən alıb içdi...

Bu gün Allahın dostları Zühura və onun üzə çıxardıqlarına nəzər salmalıdırlar. Bir çox keçmiş rəvayətlərin əsası olmamışdır və yoxdur. Və əvvəlki nəsillərin dərk etdiklərinin və kitablarında yazdıqlarının əksəriyyəti nəfsin istəklərindən irəli gəlmişdir. Gördüyünüz kimi, insanların Allah kəlamına verdiyi şərhlərin və təfsirlərin çoxu həqiqətdən uzaqdır. Necə ki, bu, pərdə götürüləndən sonra məlum və aydın oldu

və onlar özləri də təsdiq etdilər ki, Allah kəlamından bir kəlməni belə dərk etməmişdilər.

Bunları deməkdə məqsəd odur ki, əgər Allahın dostları qəlblərini və qulaqlarını əvvəllər eşitdiklərindən təmizləsələr və bütün diqqətlərini Əmrin Məzhərinə və Onun aşkara çıxardıqlarına yönəltsələr, bu, Allahın yanında ən çox bəyənilən bir iş olar...

Həmd elə və şükr edənlərdən ol! Mənim tərəfimdən Allahın Öz məhəbbətinə layiq gördüyü və məqsədlərinə yetişdirdiyi dostlara salam yetir. Həmd olsun Allaha— aləmlərin Rəbbinə!

## Seçmə 87 (↑)

BİR DƏ SUAL vermişdin ki, nə üçün tarix kitablarında bəşərin Atası Adəmdən əvvəlki peyğəmbərlər və o zamanın sultanları barədə bir şey yazılmayıb. Belə bir yazının yoxluğu onların mövcud olmamasına dəlalət etməmişdir və etmir. Uzun müddət keçdiyinə və yerdə baş verən dəyişikliklərə görə bu barədə məlumatlar qalmamışdır.

Bundan əlavə, Adəmdən əvvəl indi insanlar arasında yayılmış yazı qaydaları və şəkilləri mövcud deyildi. Elə vaxt olub ki, insanların yazı sənətindən, ümumiyyətlə, anlayışları olmayıb və başqa üsullardan istifadə olunub. Lazımi qaydada izahat üçün bunu təfsilatı ilə danışmaq lazım gələr.

Adəmdən sonrakı dəyişikliklərə diqqət yetirin. Əvvəllər yer üzündə indi məlum və məşhur olan dillər və indi istifadə olunan qaydalar mövcud deyildi. İnsanlar indiki dillərdən fərqlənən bir dildə danışırdılar. Dillərin müxtəlifliyi Babilistan adı ilə məşhur olan yerdə meydana çıxdı. Buna görə də o yer “Babilistan” adlandı ki, bunun da mənası “dillərin müxtəlifliyinin yarandığı yer” deməkdir.

Bundan sonra Suriya dili insanlar arasında nüfuz qazandı. Əvvəllər ilahi Kitablar bu dildə nazil olunurdu. O vaxta qədər ki, Xəlil ər-Rəhman (Həzrət İbrahim) İlahi nurla varlıq üfüqündə göründü. O, Həzrət İordan çayını keçərkən bir dildə danışdı ki, bu da “ibrani” adlandı. Xəlil ər-Rəhman çayı keçdiyi zaman həmin dildə danışdığından ona “ibrani” adı verildi ki, bu da “keçid dili” deməkdir. Bundan sonra ilahi Kitablar və Müqəddəs Yazılar ibrani dilində nazil oldu. Bir müddət keçdikdən sonra isə o, ərəb dili ilə əvəz olundu...

İndi görün ki, Adəmdən sonra dildə, nitqdə və yazı qaydalarında bu qədər dəyişikliklər olubsa, Adəmdən əvvəlki zamanda dəyişikliklər daha böyük olmuşdur.

Bu sözləri deməkdə məqsəd odur ki, əzəldən Haqq öz ülvi ucalığında və əlçatmaz yüksəkliyində Özündən başqasının zikrindən üstün olub və həmişə də belə olacaq. Xilqət də həmişə olmuşdur, Şərəfli Birlik Məzhərləri və Əbədi Qüdsiyyət Şəfəqləri də əvvəli olmayan çağlardan göndərilmiş və insanları tək Haqqa dəvət etmişlər. Lakin dünyada baş verən dəyişikliklər və təbəddülatlar nəticəsində onların adları və onların həyatı haqqında məlumatlar bizə gəlib çatmamışdır.

Müəyyən Kitablarda Tufandan söz açılır. Həmin hadisə zamanı yer üzündə olan bütün şeylər suya qərq olub—istər tarix kitabları, istərsə də digər şeylər. Həmçinin çoxlu fəlakətlər baş verib ki, bu da bir sıra hadisələrin izinin itməsinə səbəb olub. Bütün bünlardan əlavə, yer üzündə mövcud olan tarix kitablarında ziddiyyətlər müşahidə olunur. Müxtəlif millətlərin yazılarında dünyanın yaşı və tarixi barədə müxtəlif -sözlər deyilib və müxtəlif hadisələr qələmə alınıb. Bəziləri bu tarixin səkkiz min il, bəziləri isə daha artıq, on iki min il olduğunu deyirlər. Hər kəs Cukun kitabına baxsa, kitablar arasında nə qədər fərq olduğundan hali olar.

Allahın istəyi budur ki, nəzərlərini bu Ən Böyük Məhzərə dikəsən, bütün bu ziddiyyətlərə və məlumatlara fikir verməyəsən.

## Seçmə 88 (↑)

ƏGƏR SİZ ARİFLƏRDƏNSİNİZSƏ, bilin ki, ədalətin əsası və mənbəyi zühur günü Allahın Mahiyyətinin Məzhəri tərəfindən əmr olunanlarda təcəssüm etmişdir. De: Həqiqətən, o, yerlə göy arasında ədalətin qüsursuz tərəzisidir. Onun qanunu yerdə və göylərdə olanları qorxuya salsa belə, həmin qanun açıq-aşkar ədalətdir. İnsanların qanundan qorxuya və təlaşa düşməsi ana südündən ayrılan körpənin ağlamasına bənzər—əgər görənlərdənsinizsə bunu bilin. Əgər insanlar Allahın Vəhyinin məqsədini anlasaydılar, qorxuya düşməzdilər, əksinə, sevinər və şükr edənlərdən olardılar.

## Seçmə 89 (↑)

ALLAH KƏLAMININ ZAVALA uğramadığını yəqin etdiyin kimi, Onun mənalarının da heç zaman tükənmədiyini yəqin bil. Bu mənalar yalnız onu şərh etmək üçün təyin olunanların və onun sirlərinin xəzinəsi olan kəslərin yanındadır və yalnız onlar onun çoxtərəfli hikmətlərini dərk edə bilərlər. Və o kəslər ki, Müqəddəs Yazılara baxıb onlarda Allahın insanlar arasında Nümayəndəsinin hökmranlığına etiraz etmək üçün bir şey axtarırlar, onlar, doğrudan da, ölüdürlər—yerisələr də, danışsalar da, yeyib-içsələr də, diri deyillər.

Ah, kaş ki, dünya Mənə inanardı! Əgər Adlar Sahibi olan Rəbbinin öyrətdiklərindən Bəhanın qəlbində gizli saxlananlar aşkara çıxarsa, yer üzündə olanlar ildırım vurmuş kimi donub qalarlar.

Çoxlu mənalar var ki, onlar sözlərin libasına sığmır. Və onlardan bir çoxu ifadəyə gəlmir—onları nə bəyan etmək olur, nə də onlara işarə etmək. Bir çoxlarını isə vaxtı yetişmədiyi üçün söyləmək mümkün deyil. Necə ki, bu barədə deyilib: “Hər bildiyini deyə bilməzsən, hər dediyinin vaxtı çatmayıb və hər vaxtı çatanı adamlar dinləməyə hazır deyil”.

Bu mənalardan elələri də var ki, Bizim biliyimizin nurunun xəzinələri olan və gizli fəzlimizi qəbul edən kəslərin irfanına uyğun olaraq açıla bilər. Allahdan diləyimiz budur ki, səni bütün biliklərin Mənbəyi olan Kəsi tanımağa müvəffəq eyləsin və səni bütün dünyəvi elmlərdən ayırsın, zira “Bütün elmlərin Məqsədini tapdıqdan və tanıdıqdan sonra elm axtarmaq məzəmmətə layiq bir işdir”. Elmin Mənbəyindən və Mədənindən yapış ki, heç bir dəlili və nurlu kitabı olmadan elm iddiasına düşənlərə ehtiyacın qalmasın.

## Seçmə 90 (↑)

GÖYLƏRDƏ VƏ YERDƏ olan bütün şeylərdə ilahi adlar və sifətlər öz təzahürünü tapır. Belə ki, hər bir zərrədə o Həqiqi Günəşin nuru açıq-aşkar görünür, sanki həmin nur olmasa, Mülk aləmində heç bir şey varlıq libasına bürünməz və mövcudluq şərəfinə layiq bilinməz. Hər bir zərrədə neçə-neçə bilik günəşləri parlayır və hər bir qətrədə neçə-neçə hikmət dənizləri dalğalanır. Xüsusən, insan mövcudatın içərisində bu xalata bürünüb və bu şərafətlə seçilib. Belə ki, bütün ilahi adlar və sifətlər insanın xüsusiyyətlərində ən kamil və ən üstün bir şəkildə təzahür edir. Və bütün bu adlar və sifətlər onda cəmlənmişdir. Buna görədir ki, buyurub: "İnsan Mənim sirrimdir və Mən də onun sirriyəm". Bütün səmavi Kitablarda və İlahi Səhifələrdə bu yüksək və incə mətləbə dəlalət edən çoxsaylı ayələr yazılmış və qeyd olunmuşdur. Necə ki, buyurur: "Biz Öz əlamətlərimizi həm xarici aləmdə, həm də onların öz daxilində mütləq göstərəcəyik". Və başqa bir məqamda buyurur: "Sizin özünüzdə də Allahın əlamətləri vardır, məgər görmürsünüz?!" Digər bir məqamda isə buyurur: "Allahı unudan kəslərdən olmayın, çünki o da belələrinə özlərini unutdurdu". Necə ki, Əbədiyyət Sultanı (Həzrət Məhəmməd)—görünməz sarayda olanların ruhu Ona fəda olsun!—buyurur: "Özünü tanıyan Rəbbini tanıyar".

Xülasə, bu sözlərdən məlum olur ki, bütün şeylər, öz mahiyyətləri ilə İlahi adlardan və sifətlərdən danışır və onların hər biri öz qabiliyyəti çərçivəsində Allahın tanınmasına doğru yol göstərir və Onu nişan verir. Belə ki, Onun sifətləri və adlarının təzahürləri o qədər güclüdür ki, bütün görünən və görünməz şeyləri bürümüşdür. Buna görədir ki, buyurur: "Səndən başqasında Səndən olmayan zühur qüdrəti olsaydı, o Sənə məzhər olardımı?! Kordur o göz ki, Səni görmür". Yenə də Əbədiyyət Sultanı buyurur: "Elə bir şey görmədim ki, onda və ondan əvvəl və sonra Allahı görməyim". Kümeyl rəvayətində isə deyilir: "Əzəl sübhündə bir nur parladı—onun şüaları bütün insanlara nüfuz etdi". İnsan məxluqatın ən şərəflisi və ən kamili olduğu üçün başqaları ilə müqayisədə İlahi əlamətlərin ən güclü dəlili və ən böyük ifadəsidir. İnsanların ən kamili, ən üstünü və ən ləyaqətlisi isə Həqiqət Günəşinin Məzhərləridir—Onlardan başqa hər şey Onların iradəsi ilə mövcuddur və Onların mərhəməti sayəsində hərəkət edir...

## Seçmə 91 (↑)

BU ƏMRİ İSBAT edən dəlillərdən biri də budur ki, hər bir Vəhy və Zühur Dövründə Görünməz Mahiyyət Öz Məzhərində bəşər qiyafəsində zühur edərkən, bir sıra tanınmayan, dünyaya bağlılığı və mənsəbi olmayan insanlar Peyğəmbərlik Günəşinin ziyası ilə nurlanaraq, hidayət Ayının işığında doğru yolu tapır və Allahın Hüzuruna yetişirdilər. Buna görədir ki, zəmanənin üləmaları və dövranın varlıları onlara istehza və rişxəndlə yanaşırdılar. Necə ki, həmin yolunu azmışların dilindən buyurur: “Onun (Həzrət Nuhun) tayfasının kafir əyanları” dedilər: “Biz Səni yalnız özümüz kimi bir insan sayır, elə ilk baxışda təkcə aramızdakı səfillərin Sənə uyduğunu görürük. Və sizin bizdən üstün olduğunuzu da görmürük. Əksinə, biz sizi yalançı hesab edirik” Beləcə, etiraz edib o müqəddəs Məzhərlərə deyirdilər: “Sizin ardınızca yalnız bizim aramızda olan səfillər gedirlər ki, onlar da heç bir diqqətə layiq deyillər”. Məqsədləri bunu söyləmək idi ki, tayfanın üləmaları, varlıları və tanınmış adamları sizə iman gətirməyiblər. Bu və buna bənzər dəlillərlə onlar haqlı olan Kəsin yalan danışdığını sübut etməyə çalışırdılar.

Amma bu ən parlaq Zühurda və ən əzəmətli Səltənətdə bir sıra böyük üləmalar, mükəmməl fəzilət sahibləri və yetkin fəqihlər Onun dərgahına yetişərək yaxınlıq və vüsal piyaləsindən içdilər, hədsiz inayətə nail oldular və Cananın yolunda dünyadan və bütün yaranmışlardan keçdilər...

Onların hamısı Zühur Günəşinin sayəsində doğru yolu tapıb Onun həqiqiliyini təsdiq və etiraf etdilər. Belə ki, onların əksəriyyəti mal-dövlətindən və əhli-əyalından keçdi və Cəlal Sahibinin razılığını qazandı. Onlar Məhbubdan ötrü canlarını qurban verdilər, bütün malik olduqlarını Ona fəda etdilər. Belə ki, onların sinələri düşmən güllələrinə hədəf oldu, onların başları müşriklərin nizələrinin bəzəyinə çevrildi. Elə bir torpaq qalmadı ki, bu inqita mücəssəmələrinin qanını içməsin, elə bir qılınc qalmadı ki, onların boynunu vurmasın. Onların əməlləri sözlərinin doğruluğuna ən yetərli sübutdur. Məgər Yarın yolunda bu cür canlarından keçən və öz fədakarlıqları ilə dünyanı heyrətə salan həmin müqəddəs şəxslərin şəhadəti bu bəndələr üçün kifayət etmirmi?! Məgər bu, dini bir dirhəmə satan, əbədiyyəti faniliyə dəyişən, yaxınlıq Kövsərini şor bulaqlarla əvəz edən, xalqın malını ələ keçirməkdən özgə istəkləri olmayan bir çox bəndələrin sözlərini inkar etmək üçün kifayət deyilmi?!

Göründüyü kimi, onlar hamılıqla dünyanın bər-bəzəyinə uymuş və Ulu Rəbbdən uzaq düşmüşlər.

İndi özünüz insaf edin: sözləri ilə əməlləri bir olan, zahirləri ilə batinləri uyğun gələn, öz hərəkətləri ilə ağılları mat qoyan, dəyanətləri və bədənlərinin dözümü ilə qəlbləri heyrətə salan o şəxslərin şəhadəti eşidilib qəbul olunmalıdır, yoxsa nəfsin istəyi olmadan bir an belə nəfəs almayan, yanlış gümanlar qəfəsindən qurtula bilməyən bu inkarçıların şəhadəti?! Axı bunlar zülməti sevən yarasalar kimi gündüzlər yalnız fani dünyanın nemətlərini əldə etmək üçün başlarını yataqdan qaldırırlar, gecələr isə alçaq işlərin tədbirini görməyincə, rahatlıq tapmırlar; bunlar nəfsin istəklərinə uyaraq, ilahi təqdiri unudublar, gündüzlər qazanc dalınca qaçır, gecələr isə cismani istəklərini ödəməklə məşğul olurlar. Hansı şəriətdə və hansı məzhəbdə caizdir ki, bu cür məhdud şəxslərin etirazına qoşularaq, Haqqın rizası naminə öz canlarından, mallarından, adlarından, sanlarından, şöhrətlərindən və şanlarından keçən kəslərin sözlərini qəbul və təsdiq etməkdən boyun qaçırasan?!..

Onlar necə də eşq və məhəbbətlə, şövq və həyəcanla canlarını Sübhanın yolunda fəda etdilər! Bu ki hamıya aydın və bəllidir! Belə olan halda bu Əmri necə kiçiltmək olar?! Hansı əsrdə belə əzəmətli Əmr zahir olub?! Əgər bu əshabələr də Allahın yolunda mücahid sayılmasalar, onda daha kim mücahid sayılmalıdır?! Məgər onlar şöhrət, dövlət və sərvətmi istəyirdilər?! Onların Haqqın rizasından özgə məqsədləri var idimi?! Əgər həmin əshabələr bütün bu qəribə əlamətləri və heyrətamiz hərəkətləri ilə birlikdə yanlış yolda -olublarsa, onda daha kim haqlı olduğunu iddia etməyə layiqdir?! And olsun Allaha, əgər insanlar İlahi Vəhyin sirləri üzərində düşünsələr, onların bu hərəkətləri yer üzündə olanların hamısı üçün yetərli bir sübut və danılmaz bir dəlildir. “Zülm edən kəslər isə hansı fəlakətlə üzləşəcəklərini tezliklə biləcəklər”...

İndi bu sədaqətli şəhidlərə diqqət yetirin ki, Kitabın aydın mətni onların doğruluğunu təsdiq edir. Siz gördünüz ki, onların hamısı canını, malını, əhli-əyalını və malik olduğu bütün şeyləri fəda etdilər və Cənnətin uca qəsrlərinə yüksəldilər. Ola bilərmi ki, bu uca şəxsiyyətlərin və fədakar kəslərin bu yüksək və əzəmətli Əmri təsdiq edən şəhadəti məqbul sayılmasın, amma qızıldan ötrü dinlərindən keçən, başçı olmaq naminə bütün bəşərin Rəhbərindən qaçan bu dəstənin bu aşkar nuru inkar edən şəhadəti qəbul olunsun?! Halbuki bütün insanlar artıq onları tanımışlar və dərk

etmişlər ki, onlar Allahın dini yolunda nəinki canlarından, mallarından və digər şeylərindən, hətta dünyəvi mənsəblərinin bir zərrəsindən belə keçməzlər...

## Seçmə 92 (↑)

ALLAHIN KİTABI AÇIQDIR və Onun Kəlamı bəşəri Ona tərəf səsləyir. Lakin ondan yapışan və onun yayılması üçün çalışan kəslər gözə dəymir—kiçik bir dəstədən savayı. Həmin kiçik dəstəyə aləmin pasını təmiz qızıla çevirə bilən İksir əta edilmiş və onlar Adəm övladının sağalması üçün ən düzgün dərman verilməklə vəzifələndirilmişlər. Əbədi həyat bu ən qiymətli, ən ecazkar və ən uca Əmrin qəbul edilməsinə bağlıdır.

Ey Allahın dostları, bu Məzlumun sədasını eşidin və İlahi Əmrin yüksəlişinə səbəb olan işlərdən yapışın! Həqiqətən, O istədiyi kəsi doğru yola yönəldər. Bu, elə bir Əmrdir ki, onun sayəsində zəiflər qüvvət bəzəyi ilə görünər, yoxsullar sərvət çələngi ilə zinətlənər.

Dostluq və birlik ruhu ilə bir-birinizlə məsləhətləşin və qiymətli ömrünüzü dünyanın islah edilməsinə, Əzəl hökmdarının Əmrinin yayılmasına sərf edin. Həqiqətən, O hamıya yaxşı işlər görməyi əmr edir və insanın məqamına əksiklik gətirən bütün şeyləri qadağan edir...

[v]

## Seçmə 93 (↑)

BİL Kİ, BÜTÜN yaradılmış şeylər Allahın təzahürünün əlamətidir. Hər bir şey öz səviyyələri çərçivəsində və müəyyən bir məqamda Allahın əlamətləri olmuş və həmişə olacaqdır. Nurlu Sultanın adlar və sifətlər səltənətində təzahür etdiyi məqamda bütün şeylər Onun cəlalının nişanəsinə çevrilir. Bu təzahür o qədər ümumi və əhatəlidir ki, bütün kainatda Onun şəfəqini əks etdirməyən heç bir şey tapılmaz. Bu halda əlamətlərdən savayı bir şey görünmədiyi üçün yaxınlıq və uzaqlıq barədə təsəvvürlərə yer qalmır...Əgər Allahın qüdrət Əli şeylərdən Onun əlaməti olmaq xüsusiyyətini alsa, dünyada heç bir şey gözə dəyməz.

Gör sənin Pərvərdigarın nə qədər pak və müqəddəsdir, Onun səltənəti və hökmranlığı necə də əzəmətlidir! Əgər Onun qoy Onun şəni ucalsın!—adları və sifətlərinin təzahürləri olan məxluqat və mövcudat onlara əta edilmiş məziyyətlə müəyyən bir məqamda yaxınlıq və uzaqlıq anlayışlarından yüksəkdə durursa, gör onları yaradanın Özünün Mahiyyəti nə qədər ucadır?...

Şairin: "Yar mənə məndən yaxındır; Qəribə burasıdır ki, mən Ondan uzağam"—beytini hansı məqsədlə yazdığı barədə düşün... Haqq buyurub ki, Mən insana onun şah damarından da yaxınam. Buna görə də şair deyir: baxmayaraq ki, Məhbubun təzahürü mənə şah damarımdan da yaxındır və mən də bu məqamı yəqin bilir, bu rütbəni təsdiq edirəm, bununla belə, mən Ondan uzağam. Yəni Rəhmanın qərar tutduğu yer və Rəbbin təzahür etdiyi taxt olan qəlb öz Yaradıcısının zikrindən qafildir və başqaları barədə düşünməklə məşğuldur, Ondan uzaq düşərək, dünyaya və onun çirkabına meyl edir.

Lakin bu da yadda saxlanmalıdır ki, Haqq özlüyündə yaxınlıq və uzaqlıq məfhumlarından yüksəkdə durur. O, bu məqamlardan ucadır və Onun bütün şeylərlə əlaqəsi dərəcə tanımır. Bəzilərinin yaxınlığı və ya uzaqlığı onların Məzhərlərin özlərinə münasibətdə yaxınlıq və uzaqlığı deməkdir.

Bu, aydın bir məsələdir ki, qəlb—Rəhmanın təzahür etdiyi taxtdır. Necə ki, keçmiş müqəddəs bəyanlarda bu məqamı nazil etmiş və o cümlədən buyurmuşuq: "Mən yerə və göyə sığmaram, lakin Mənə inanan və Mənim Əmrimə sədaqətli qalan bəndəmin qəlbinə sığaram". Rəbbin zühur etdiyi yer və Rəhmanın nur saçdığı məkan olan qəlb

bir çox hallarda o Nur Sahiblərindən və o təzahür Çeşmələrindən qafil olur. Bu cür qəflətdə olarkən, o, Haqdan uzaqdır və ona “uzaq” deyilməsi düzgündür. Haqqın Hüzurundan qafil olmadıqda isə qəlb Haqqa yaxınlaşır və ona “yaxın” adı yaraşır.

Buna da diqqət yetir ki, insan bir çox hallarda hətta özündən də qafil olur, lakin Haqq özünün hər şeyi əhatə edən elmi ilə daim onu xatırlayır, parlaq Cəlalının aşkar işığını həmişə onun üstünə saçır. Buna görə də O, təbii ki, ona onun özündən də yaxın olmuş və olacaqdır. Çünki O hər şeyi Bilən, hər şeyi Görən və hər şeyi Əhatə edəndir, fani insan isə yol azandır və özündə olan sirlərdən bixəbərdir...

Bütün şeylərin Allahın əlamətləri olması barədə sözlərimizdən belə təsəvvür yaranmasın ki, Allah eləməsin, xeyirxah və ya zalım, müşrik və ya mömin olmasından asılı olmayaraq, bütün insanların Allahın nəzərində məqamı birdir. Yaxud da İlahi Varlıq—Onun adı ucalsın və Şərəfi yüksəlsin—ilə məxluqat arasında birbaşa əlaqə və rabitə mövcuddur. Necə ki, bəzi cahillər öz yanlış xəyallarının səmasına ucaldıqdan sonra tövhidi belə mənalandırmışlar: bütün şeylər Haqqın əlamətləridirsə, deməli, onlar arasında heç bir fərq yoxdur. Bəziləri isə bundan da qabağa gedərək, əlamətləri Haqqa şərik etmiş və Ona bənzətmişlər. Sübhanallah! Həqiqətən, O təkdir və Vahiddir, O Öz Mahiyyətində yeganədir, öz sifətlərində yeganədir! Ondan başqaları nəinki Onun Özünün, hətta Onun adlarından birinin, Onun sifətlərindən birinin təzahürü qarşısında bir heçdir.

And olsun Rəhman adıma ki, Uca Qələm bu sözləri yazarkən iztirab keçirir və titrəyir. Allahın əbədi və sahilsiz Dəryasının dalğaları və ləpələri yanında bir damla nə qədər kiçik və əhəmiyyətsizdir?! Əzəli Varlığın yaradılmamış və deyilməmiş cəlalı qarşısında müvəqqəti və fani şeylər necə də heçdir?! Bu cür fikirlərə və sözlərə görə böyük Allah bizi bağışlasın. De: Ey insanlar, mövhumi şeylərin Qəyyumla nə əlaqəsi və məxluqatın Xaliqlə nə oxşarlığı ola bilər?! Axı bunlar Onun Qələminin təsiri ilə yaranmışlar və həmin təsirin özü də bütün şeylərdən müqəddəs, pak və ucadır.

Bu məqamdan keç və İlahi əlamətlərin bir-birinə münasibət məqamına diqqət yetir: Günəş ilahi əlamətlərdən biridir. Məgər onu zülmətlə bir məqamda görmək olarmı?! Haqq olan Allaha and olsun ki, yox! Qəlbini toz basanlardan və gözləri əyri görənlərdən başqa heç kəs bunu söyləməz. De: Özünüzə diqqət yetirin. Dırnağlarınız

da, gözləriniz də sizə məxsusdur. Məgər onların hər ikisi sizin üçün eyni məqama və eyni dəyərəmi malikdir?! Əgər “Bəli!“ söylənilərsə, de: Şərəfli Rəbbinizə yalan danışırsınız, çünki bunlardan birincisini kəsib atır, ikincisini isə canınız kimi əziz tutursunuz.

Rütbə və məqamı aşmaq caiz deyil, səviyyələri -gözləmək lazımdır, yəni hər bir şeyi öz məqamında görmək gərəkdir.

Bəli, mənim hər şeyə nüfuz edən Adımın Günəşi bütün şeylərə saçanda, hər bir şeydə təyin olunmuş miqdarda xüsusi bir təsir və fərqli bir məziyyət əmələ gəldi. Necə ki, məsələn, zəhər öldürücü bir şey olsa da, öz məqamında onun müsbət təsirə və faydaya malik olduğu müşahidə edilir. Şeylərdəki bu təsir gücü həmin mübarək Adın təsirindəndir. Pakdır adların və sifətlərin Xaliqi! Qocalmış və qurumuş ağacı oda atın və təzə-tər Ağacın kölgəsində məskən salıb onun meyvələrindən dadın.

İlahi Məzhərlərin zamanında insanların çoxu bu cür nalayiq sözlər söyləmişlər. Necə ki, ilahi Kitablarda və səmavi Səhifələrdə bütün bunlar təfsilatı ilə nazil olmuşdur.

Tövhid—bütün şeylərdə Əbədi Haqqın təzahürünün əlamətini görməkdir, xilqəti Xaliqə bərabər tutmaq deyil.

Məsələn, “Rəbb” adının günəşinin bütün şeylərdə nur saçmasına diqqət yetirin. Belə ki, bütün şeylərdə bu adın təzahürünün əlamətləri müşahidə edilir və hamının tərbiyəsi ondan asılıdır. Tərbiyə də iki cürdür. Biri bütün şeyləri əhatə edir, yəni Allah hamını tərbiyələndirir və ruzi verir. Buna görə də O, Özünü “Aləmlərin Rəbbi” adlandırmışdır. Digəri isə yalnız bu Adın kölgəsində bu əzəmətli zühura daxil olan kəslərə məxsusdur. Ondan kənarda qalan şəxslər isə bu məqamdan məhrum olmuş və bu Ən Böyük Adın mərhəmət səmasından nazil olan Birlik süfrəsindən uzaq düşmüşlər. O şəxslərlə bu şəxslər arasındakı uçurum necə də böyükdür? Əgər pərdə qaldırılarsa, bütün məxluqat, Allaha üz tutaraq Onun məhəbbəti naminə aləmdən əlini üzənlərin məqamlarını bütün parlaqlığı ilə görər və ildırım vurmuş kimi donub qalar.Tövhid əhli, deyildiyi kimi, bu iki tayfada həmin iki Adın təzahürünü müşahidə edər, çünki bu təzahür olmazsa, hər şey məhv olar.

Həmçinin “Vahid” Adının Günəşinin parıltısına diqqət yetir. O bütün şeylərə nur saçıb, yəni bütün şeylərdə Allahın birliyinin əlaməti özünü göstərir. Belə ki, bütün

şeylər Haqdan söz açır, Onun hökmranlığına, Onun vahidliyinə və Onun qüdrətinə dəlalət edir. Bu təzahür—Onun mərhəmətidir ki, hər şeyi bürüyüb. Lakin müşriklər bu təzahürdən qafildirlər, buna görə də yaxınlıq və görüş hüququndan məhrum olmuşlar. Göründüyü kimi, bütün müxtəlif millətlər Onun vahidliyini təsdiq edir, Onun yeganəliyini etiraf edirlər. Əgər bu insanlarda Allahın vahidliyinin əlaməti olmasaydı, onlar heç vaxt mübarək: “Ondan başqa Allah yoxdur”—kəlamını qəbul etməzdilər. Bununla belə, onlar həqiqətdən necə də qafil və uzaqdırlar və Ali Məzhəri tanımadıqları üçün Allahın yanında tövhid əhlindən sayılmırlar. Müşriklərdə müşahidə olunan İlahi Varlığın təzahür əlaməti müəyyən mənada tovhid əhlinin saçdığı nurun inikasıdır. Bunu bəsirət sahiblərindən başqa kimsə anlamaz, Tövhid əhli isə bu Adın ilkin məzhərləridir. Məhz onlar İlahi əlin təklif etdiyi piyalədən İlahi Birlik şərabı içmiş və Allaha doğru üz tutmuşlar. Bu müqəddəs şəxslərlə o uzaq düşmüş kəslər arasındakı məsafə necə də böyükdür.

İnşaallah, sən iti gözlə baxıb bütün şeylərdə Əzəl Sultanının təzahürünün əlamətini müşahidə edərsən və o ən müqəddəs və ən pak Mahiyyətin bütün şeylərdən uca və üstün olduğunu görərsən. Allahın vahidliyinə və yeganəliyinə inamın əsası və cövhəri budur. “Allah vardı və Ondan başqa heç kim yox idi”. İndi də O necə vardısa, elədir. Ondan başqa Allah yoxdur. Odur Yeganə, Vahid, Qüdrətli, Ulu və Əzəmətli!

## Seçmə 94 (↑)

İNDİ DƏ SƏNİN iki Allahın mövcudluğuna dair sualların barədə. Çəkin, çəkin, Rəbbin olan Allaha şərik qoşma! O, əzəldən vahid, yeganə, bənzərsiz, dəyişməz, pak, əbədi, daimi və qəyyumdur. O, Mülk aləmində heç kəsi Özünə şərik tutmayıb, Onun vəziri, bənzəri, əvəzi və oxşarı yoxdur. Dünyanın bütün zərrələri buna şəhadət verir, eləcə də uca məkandakı nurlu üfüqdə olanlar və adları Ərşdə xatırlananlar bundan söz açırlar.

Allahın Özünün Özü üçün şəhadət verdiyinə sən də özlüyündə şəhadət ver ki, Ondan başqa Allah yoxdur, Ondan savayı hər şey Onun əmri ilə yaranıb, Onun izni ilə qurulub, Onun hökmünə tabedir, Onun şərəfli yeganəliyinin sübutları qarşısında bir heçdir, Onun şərəfli birliyinin təzahürləri önündə puçdur.

Həqiqətən, O əzəldən və həmişə Öz Mahiyyəti baxımından vahiddir, Öz sifətlərinə görə bənzərsizdir, öz əməlləri baxımından misilsizdir. “Oxşar” sözü yalnız Onun xəlq etdiklərinin vəsfində, “şərik” anlayışı yalnız Onun bəndələrinin təsvirində işlədilə bilər. Onun Özü isə xəlq etdiklərinin vəsfindən üstündür, çünki O, ucalıq zirvəsində və əlçatmazlıq yüksəkliyində təkdir. Aləmdəkilərin könül quşları, nə qədər yüksəyə uçsalar da, Onun tanınmaz Mahiyyətini tanımağın müqəddəs zirvəsinə doğru qalxa bilməzlər. O, məxluqatı yaratdı və onun əmrinin bircə kəlməsi ilə mövcudat meydana gəldi. Onun İradəsinin barmaqları ilə hərəkətə gələn Qələmdən süzülmüş bir kəlmə ilə yaranan şey Onun şəriki və mücəssəməsi ola bilərmi?! O elə ucadır ki, heç kəsin işarəsi ilə göstərilməz və heç kimin idrakı ilə dərk olunmaz. Ondan başqa hamı Onun qapısını kəsdirən yoxsuldur, Onun qüdrətinin təzahürü qarşısında acizdir, onun Səltənətində bir quldur. Onun isə aləmdəkilərə ehtiyacı yoxdur.

Abidlə Məbud, məxluqatla Xaliq arasında yaranan bəndəlik əlaqəsi Onun insanlara mərhəmətindən doğur, onların buna haqqı olmalarından irəli gəlmir. Bütün yəqinlik hasil edənlər və bəsirət sahibləri buna şəhadət verir.

## Seçmə 95 (↑)

SƏNİN PƏRVƏRDİGARININ VƏ aləm əhlinin Pərvərdigarının Kitabında nemətin tükənməz səviyyələri müəyyən olunub və həmişə də olacaq. İnsana bəxş edilmiş ilk və başlıca nemət ağıldır və ondan məqsəd Şərəfli Haqqı tanımaqdır. Bu bəxşiş insana hər şeyin həqiqətini anlamaq qüvvəsi verir, ona düzgün yol göstərir və bütün xilqətin sirlərini açmağa kömək edir. Rütbəcə ikinci nemət görmə qabiliyyətidir, çünki ağıl gözün şahidliyi vasitəsilə bilgi əldə edir. Eləcə də eşitmə, duyma və sair bu kimi nemətlər insan vücudunda görünür və müşahidə olunur. Ucadır, ucadır qadir Allah ki, bu qabiliyyətləri insan vücudunda xəlq etmiş və aşkara çıxarmışdır.

Onların hər birində Şərəfli Haqqın əzəmət, qüdrət, qüvvət və vüsətinin əlamətləri üzə çıxır və müşahidə olunur. Bütün bədəni bürüyən lamisə qüvvəsi barədə düşün. Eşitmə və görmə qabiliyyətlərinin müəyyən bir məkanı olduğu halda, lamisə qüvvəsinin məkanı bütün bədəndir. Onun əzəməti necə də yüksəkdir və səltənəti necə də böyükdür!

Bu deyilənlər insanın məqamına xasdır. Lakin bütün nemətlərdən ən üstünü, təbiətcə fənaya uğramayan və Allahın Özünə məxsus olan nemət İlahi Vəhy nemətidir. Xaliqin insana əta etdiyi hər bir nemət, bu istər maddi olsun, istərsə də ruhani, ondan doğur. Əslində ilkin Səmavi Süfrə O olub və O da olacaq. Allahın ən əzəmətli dəlili, Onun həqiqətinin ən güclü sübutu, Onun ən kamil nemətinin əlaməti, ən üstün mərhəmətinin nişanəsi, ən yüksək inayətinin sübutu və ən böyük fəzilətinin rəmzi odur. Bu Gün Onun Zühurunu qəbul edən hər bir kəs Allahın ən uca nemətinə nail olar.

Rəbbinin bu böyük kəramətinə şükr elə və de: Həmd olsun Sənə, ey ariflərin Məqsudu!

## Seçmə 96 (↑)

UCA QƏLƏM FASİLƏSİZ olaraq çağırır, lakin onu eşidən necə də azdır. Dünyanın müxtəlif bər-bəzəkləri Adlar səltənətinin sakinlərini özünə məşğul edib, halbuki görən və eşidən hər bir kəs onun faniliyinə şəhadət vermişdir və verir.

Bu əsrdə bütün yer əhli arasında yeni bir həyat çağlamaqdadır, lakin hələ heç kəs bunun səbəbini tapmayıb və hərəkətverici qüvvəsini anlamayıb. Görürük ki, Qərb əhalisi əslində heç bir faydası olmayan cılız bir şeydən yapışıb, özü də onun meydana çıxıb yüksəlməsi yolunda minlərlə canı qurban vermiş və verməkdədir. İran əhalisi isə sədası, ülviyyəti və əzəməti bütün aləmi bürümüş bu möhkəm və sarsılmaz Əmrin zühuruna baxmayaraq, ölgün və solğun bir haldadır.

Ey dostlar, sizə əta edilmiş məziyyətlərin qədrini bilin və sizin üçün müəyyən olunmuş uca məqama biganə olmayın. Çəkdiyiniz zəhmətləri onun-bunun mövhumi təsəvvürləri ilə hədər etməyin. İrfan səmasının ulduzları və sübh çağının nəsimləri sizsiniz. Hamının həyatının asılı olduğu axar sular sizsiniz. Kitabın hərfləri sizsiniz. Tam birlik və ittifaqla səy göstərin ki, Allahın Gününə yaraşan şeyə nail olasınız. Doğrusunu deyirəm: fəsad, çəkişmə və ağlın ikrah etdiyi şeylər insanın şəninə layiq olmamışdır və layiq deyildir. Bütün qüvvənizi Allahın Əmrinin təbliğinə sərf edin. Kim bu uca məqama layiqdirsə, özü bu işə başlasın, bunu edə bilməyən isə bütün binaların təməlini sarsıdan, dağları parçalayan və insanları mat qoyan bu Əmri yaymaqdan ötrü özünə bir vəkil tutsun. Əgər bu Günün məqamı aşkarlanarsa, insanlar onun bir anlıq cəlalından pay almaq üçün yüz min candan keçərlər, o ki qaldı bu dünya və onun fani sərvətləri ola.

Bütün işlərə hikmətlə yanaşın və ondan möhkəm yapışın. İnşaallah, hamınız Allahın istədiyini yerinə yetirər və Onun sevimlilərinin məqamını anlamağa nail olarsınız ki, Onun xidmətində dayanır və Ona tərif söyləyirlər. Onlara Allahın şərəfi, göylərdə və yerdə olanların şərəfi, yüksək behiştdə və uca cənnətdə olanların şərəfi nəsib olsun!

## Seçmə 97 (↑)

BƏZİ MÜŞRİKLƏRİN BU ölkənin insanlarına təlqin etdiyi şübhələrdən biri də budur ki, qızıl misə çevrilə bilərmi? De: And olsun Rəbbimə ki, bəli! Lakin onun elmi Bizim yanımızdadır. Biz kimə istəsək, yanımızdakı elmi öyrədərik. Kimin buna şübhəsi varsa, qoy Rəbbi olan Allahdan diləsin ki, bunu ona göstərsin və ona yəqinlik bəxş etsin. Əgər siz anlayansınızsa, bilin ki, misin qızıla çevrilməsi özlüyündə qızılın da misə çevrilməsi üçün kifayətedici bir sübutdur. Bütün filizlər çəki, görünüş və maddə baxımından bir-birinə çevrilə bilərlər, lakin onun elmi Bizim yanımızdakı Gizli Kitabdadır.

## Seçmə 98 (↑)

DE: EY ÜLƏMA tayfası! Allahın Kitabını öz yanınızda olan qaydalar və elmlərlə ölçməyin, çünki O, məxluqat arasında Haqqın tərəzisidir. İnsanların yanında olan şeylər bu böyük tərəzidə çəkilər, həm də onun çəki ölçüsü onun öz meyarı ilə yoxlanar—bunu bilin!

Mənim inayət gözüm sizin halınıza ağlayır, çünki siz gecə-gündüz, səhər-axşam çağırdığınız Kəsi tanımadınız. Ey insanlar, ağ üzlərlə və işıqlı könüllərlə o mübarək və qırmızı Məkana üz tutun ki, orada Sidrətül-Müntəha car çəkir: “Həqiqətən, Məndən—Qoruyan və Qəyyumdan başqa Allah yoxdur!”

Ey üləma tayfası! Sizlərdən kiminsə qüdrəti çatarmı ki, kəşf və irfan meydanında Mənə rəqib olsun, yaxud hikmət və bəyan səhnəsində Mənimlə yarışsın?! Mərhəmətli Rəbbimə and olsun ki, yox! Dünyada olanların hamısı fanidir, bu isə Qüdrətli və Sevimli Rəbbinizin üzüdür.

Ey insanlar, Biz elmləri bütün elmlərin Məqsədini tanımaqdan ötrü müəyyən etdik, siz isə onu bütün gizli işləri aşkara çıxaran Kəsin nuru qarşısında özünüz üçün bir pərdəyə çevirdiniz. Əgər siz bu bəyan günəşinin doğduğu üfüqü tanısaydınız, bütün insanlardan və onların malik olduqlarından əl çəkib bu mübarək cəlal Taxtına üz tutardınız.

De: Bu, elə bir səmadır ki, orada Ana Kitab saxlanılır—bunu anlayın. Bu, O Kəsdir ki, Onun sayəsində Qaya dilə gəldi və Sidrə mübarək torpaqda ucalan Tur dağında nida etdi: “Hökmranlıq—Hər şeyin Sahibi, Qüdrətli və Mehriban Allaha məxsusdur!”

Biz mədrəsələrə getməmişik və sizin yazdıqlarınızı oxumamışıq. Eşidin, bu Ümmi sizi Əbədi Allaha doğru dəvət edir. Əgər siz başa düşsəniz, bu sizə yer üzünün bütün xəzinələrindən xeyirlidir...

## Seçmə 99 (↑)

DÜNYANIN BÜTÜN BÖLGƏLƏRİNDƏ imanın gücü və bünövrəsi zəifləyib—Onun sağaldıcı dərmanından başqa heç nə onu bərpa edə bilməz. Allahsızlıq pası insan cəmiyyətini daxildən yeyir—Onun qüdrətli Vəhyinin İksirindən başqa nə onu təmizləyə və cana gətirə bilər? Ey Həkim, məgər insanda o qüdrət varmı ki, maddənin bölünməz və kiçik bir zərrəsinə elə bir təsir göstərsin ki, o xalis qızıla çevrilsin?! Belə bir dəyişmə çətin və müşkül görünür, amma şeytani qüvvəni səmavi gücə çevirmək bundan da çətindir ki, bu qüdrətə də ancaq Biz malikik. Belə bir dəyişiklik etməyə qadir olan Qüvvə İksirdən də böyükdür. Bu uca məqam və bu qüdrət isə yalnız Allah kəlamına məxsusdur.



## Seçmə 100-121--Dünya Nizamı və Ən Böyük Sülh (↑)

## Seçmə 100 (↑)

BİRLİK CARÇISI İLAHİ Məqamdan nida edir: Ey dostlar, Mənim müqəddəs ətəyimi dünyanın palçığına bulaşdırmayın, nəfsinizin və ehtirasınızın ardınca getməyin. And olsun Əmr üfüqünün Günəşinə ki, bütün parlaqlığı ilə bu Məhbəsin səmasından işıq saçır! Bütün xilqətin Qibləsinə üz tutanlar bu gün görünən və görünməz bütün şeylərdən pak və təmiz olmalıdırlar. Əgər Mənim Əmrimin təbliğinə qalxarlarsa, onlar İxtiyar Sahibinin nəsimi ilə hərəkətə gəlməli və yüksək qətiyyətlə, tamamilə Ona yönəlmiş fikirlə, xalis inqita və tam təmənnasızlıq ürəyi ilə, dünyadan və onun faniliyindən arınmış bir qəlblə hər yana üz tutub Onun rayihəsini yaymalıdırlar. Bu şəxslərin yol azuqəsi Allaha təvəkkül, libasları isə Ulu və Nurlu Rəbblərinə məhəbbət olmalıdır. Belə olduqda onların sözlərinin təsiri olar.

Bu Gün nəzərlərini nəfsin istəklərinə və fani dünyanın sərvətlərinə dikən şəxslərlə Bizim aramızdakı uçurum necə də böyükdür. Əksər vaxtlar Rəhmanın məkanında dünya malı olmamışdır və onun ətrafına fırlananlar böyük ehtiyac çəkmişlər. Bununla belə, Uca Qələmin məşriqindən dünya malından danışan və ya ona zərrəcə də olsa, işarə edən bir kəlmə də çıxmamışdır. Kim Müqəddəs Məkana bir hədiyyə göndərməyə müvəffəq olubsa, O Öz fəzlinin əlaməti olaraq onu qəbul edib, baxmayaraq ki, əgər Biz yer üzünün bütün sərvətinə yiyələnmək istəsək, heç kimin

“niyə?” və “nə üçün?” deməyə cürəti çatmaz. Bundan qəbahətli bir iş ola bilməz ki, Haqqın adından insanlar arasında dilənçilik edəsən.

Cənabınız və Əbədi Həqiqətin əshabələri bütün insanları yer üzü şeylərinə bağlılıqdan pak olmağa və hədsiz müqəddəsliyə dəvət etməlidir ki, Onun dostlarından Əbhanın köynəyinin ətri duyulsun.

Varlılar isə yoxsullara diqqət yetirməlidirlər, çünki Allahın yanında səbr edən yoxsulların məqamı böyükdür. Canıma and olsun ki, Allahın bəxş etdiyindən başqa, bu məqamla müqayisə ediləcək bir məqam yoxdur! Xoş o yoxsulun halına ki, səbr edər və öz yoxsulluğunu gizli saxlar və o varlının halına ki, varını möhtaca verər və onları özündən üstün tutar.

Allahınköməkliyi ilə yoxsullar da çalışmalı və -həyatları üçün ruzi qazanmalıdırlar. Bu, elə bir məsələdir ki, bu əzəmətli zühurda hər bir kəsə vacib buyurulub və Allahın yanında gözəl əməllərdən sayılır. Kim buna əməl edərsə, əlbəttə, Qeybdən ona kömək yetişər, çünki Allah Öz fəzli sayəsində istədiyi kəsi varlı edər. Həqiqətən, O hər şeyin üzərində hakimdir...

Ey Əli, Allahın dostlarına de ki, insanlığın ilkin şərti insafdır və bütün işlər ondan asılıdır. Bu Məhbusun çəkdiyi əziyyətlər və müsibətlər barədə bir qədər düşünün—O, bütün ömrü boyu düşmənlərin əlində əsir olub, Allaha məhəbbətin yolunda hər gün yeni bir bəla ilə üzləşib və nəhayət, o səbrlə o qədər dözüb ki, Allahın Əmri bəndələr arasında ucalıb. İndi əgər bir kəs öz yanlış xəyalları ilə gizli və aşkar şəkildə insanlar arasında təfriqə salmaqla məşğul olarsa, onu insaf əhlindən saymaq olarmı?! Aləmlərə hökmran olan Allaha and olsun ki, yox! Canıma and olsun, Allahın Əmri üçün və bilmədiklərini deyən, anlamadıqlarını özlüyündə təsəvvür edən kəslərdən ötrü Mənim könlüm ağlayır və gözlərim yaş tökür.

Bu Gün hamı İsmi-Əzəmə üz tutmalıdır—Ondan başqa pənah aparılası sığınacaq yoxdur—və bütün insanları birləşdirməlidir. Əgər bir şəxs Allahın sonsuz dəryasının sahillərindən insanların uzaq düşməsinə və bəşəri ölçülər çərçivəsində zühur edən bəyənilmiş və bəlli Vücuddan başqa bir şeyə üz tutmasına səbəb olan sözlər söyləyərsə, hətta o ən yüksək məqama malik olsa da, bütün məxluqatın şəhadətinə görə, o, Rəhmanın ətirli nəsimindən məhrum olar.

De: İnsaflı olun, ey anlayışlı qəlb sahibləri! Kimdə insaf yoxdursa, onda insanlıq da yoxdur. Haqq bütün insanlardan və onların qəlbində olanlardan xəbərdardır. Haqqın səbrliliyi insanların cürətlənməsinə səbəb olub, çünki O, vaxtından əvvəl pərdəni cırmır, Onun mərhəməti üstün olduğundan qəzəbinin təzahürlərinin qarşısını alır. Buna görə də əksər insanlar gizlində törətdikləri işlərdən Haqqın xəbərsiz olduğunu düşünürlər. Yox, and olsun Hər şeyi Bilən və Hər şeydən Xəbərdar olan Allaha ki, hər şey Onun elminin güzgüsündə dəqiqliyi ilə aşkar, aydın və bəllidir. De: Həmd olsun Sənə, ey zəiflərin və acizlərin eyiblərini Gizlədən! Şükr olsun Sənə, ey qafillərin Sənə qarşı günahlarını Bağışlayan!

Biz mövhumatı insanlara qadağan etdik ki, bütün elmlərin Mənbəyi və Məqsədi olan Sultanı və onun üzə çıxardıqlarını tanısınlar. Hal-hazırda onların mövhumat və xurafat əsiri olduqlarını görürük. Canıma and olsun, onlar mövhumata bürünüblər, amma bunu anlamırlar. Onların dedikləri də mövhumatdır, amma bunu dərk etmirlər.

Allahdan diləyimiz budur ki, Öz fəzlini insanlara əta etsin və bütün insanları Onu və özlərini tanımağa müvəffəq eyləsin. Canıma and olsun, Onu tanımağa nail olan kəs Onun məhəbbətinin fəzasında uçar və aləmdəkilərdən əlini üzüb yer üzündə olan heç bir şeyə məhəl qoymaz—o da qalsın ki, öz nəfsinin hökmü ilə Allahın izn vermədiyi şeyləri danışanlara.

De: Bu Gün—Onun səsini eşitmək günüdür. Məzlumun Sədasını dinləyin, Haqqın adını ucaldın, Onun zikrinin bəzəyi ilə zinətlənin, Onun məhəbbətinin nuru ilə qəlbinizi işıqlandırın. Budur qəlblərin açarı və bütün varlıqların qəlblərinin cilası! Və Allahın İradəsinin barmağından süzülənlərə göz yuman kəs açıq-aşkar qəflətdədir. İmanın şərti sülh və düzlükdür, ixtilaf və fitnə-fəsad deyil.

Doğru söyləyən və Allahın Əmanətini daşıyan Kəs tərəfindən sənə əmr olunanı insanlara çatdır. Sənə Mənim şərəfim nəsib olsun, ey Mənim adımı çəkən, nəzərlərini Mənim dərgahıma dikən və Xeyirxah Rəbbinin tərifini söyləyən!

## Seçmə 101 (↑)

HƏR BİR SƏMAVİ Kitabdan, xeyr, hər bir İlahi ayədən məqsəd odur ki, insanlar düzlük və anlayışla tərbiyə alsınlar, bu da bəndələrdən hər birinin və hamısının rahatlığını və əmin-amanlığını təmin etsin. Qəlbə rahatlıq gətirən, insanın böyüklüyünü artıran və onu razı salan hər bir iş Allah tərəfindən qəbul olunacaqdır. İnsan öz yüksək təyinatını yerinə yetirməyə çalışarsa, onun çata biləcəyi məqam necə də yüksəkdir! Hətta ən zəlil bir məxluqun düşmədiyi, lakin insanın düşə bildiyi tənəzzül uçurumu necə də dərindir! De: Ey dostlar, bu Günün sizə verdiyi imkanı qənimət bilin və özünüzü ülvi dənizin bol feyzlərindən məhrum etməyin! Haqdan istəyim odur ki, bu Mübarək Gündə hamını pak və təmiz əməl bəzəyi ilə zinətləndirsin. Həqiqətən, O istədiyini Edəndir.

## Seçmə 102 (↑)

EY BƏNDƏLƏR, SİZƏ doğrusu deyilir, doğrusunu eşidin. Haqq—Onun şəni daha da yüksəlsin!—insanların qəlbini hər zaman istisna olaraq Özününki bilib və həmişə də belə olacaq. Ondan başqa hər şeyi—qurunu və dənizi, sərvəti və zinəti hökmdarların, sultanların və əmirlərin ixtiyarına qoyub. Belə ki, əzəldən bəri "O istədiyini edər" bayrağı Onun Zühurlarının önündə dalğalanmış, parlamış və işıq saçmışdır. Bu gün insanlara lazım olan şey hökumətə itaət etmək və hikmətdən yapışmaqdır. Həqiqətən də, yer üzündə insanların mühafizəsini, rahatlığını və əmin-amanlığını təmin etmək səlahiyyəti hökumətin qüdrətli əlindədir. Haqq belə istəmiş və belə müəyyən etmişdir... Ümid edirik ki, hökmdarlardan biri Allah xatirinə bu məzlum və əzilmiş ümmətin köməyinə qalxacaq və bununla da əbədi xatirəyə və daimi duaya nail olacaq. Allah bu ümmətə vacib buyurub ki, ona kömək edənə yardımçı olsun, xidmət göstərsin və əhdinə vəfa eyləsin. Mənim ardımca gedənlər bütün hallarda Mənim Əmrimin qələbəsi naminə qalxanlara kömək etməli və hər zaman ona sədaqətli və vəfalı qalmalıdırlar. Xoş Mənim nəsihətimə qulaq asıb, ona əməl edənlərin halına. Vay Mənim istəyimə etinasız qalanın halına.

## Seçmə 103 (↑)

ALLAH HƏQİQƏTİ SÖYLƏYƏN dili ilə Özünün bütün Lövhələrində bu sözləri bəyan edib: “Mən o Kəsəm ki, Əbha məqamında qərar tutmuşdur”.

Haqq olan Allaha and olsun! Bu əzəmətli, müqəddəs, qüdrətli və mükəmməl məqamının ucalığından O hər şeyi görür, hər şeyi eşidir və bu an belə nida edir: Xoş sənin halına, ey Cavad, çünki sən əvvəllər heç kəsin yetişmədiyi bir şeyə nail oldun. And olsun Haqqa ki, səni gördükdə, Uca Cənnət əhlinin gözləri sevindi, lakin insanlar bundan büsbütün qafildirlər. Əgər Biz sənin məqamın barədə həqiqəti açıqlasaq, insanların qəlbini heyrət bürüyər və onlar yerlərində donub qalarlar, fani şan-şöhrət sahiblərinin isə nitqi tutular və onlar bunu eşitməkdən qorxaraq yerə yıxılar və əlləri ilə qulaqlarını tutarlar.

Dünya malına uyaraq, Ulu Allahın zikrini unudanlara baxıb kədərlənmə. And olsun Haqqa! Elə bir gün gələcək ki, onlar Qüdrət Sahibinin şiddətli qəzəbinə düçar olacaqlar. Həqiqətən, O, Qadir, Qüdrətli və Qüvvətlidir. O, yer üzünü onların çirkabından təmizlər və onu Özünə yaxın olan bəndələrə miras verər.

De: Ey insanlar, sizin diliniz tutulsun və gözləriniz kor olsun, çünki siz ilahi Yusifi çox ucuz qiymətə satdınız. Ey bədbəxtlər və yolunu birdəfəlik azmışlar, məgər siz elə zənn edirsiniz ki, sizin hökmünüz Ondan və Onun Əmrindən üstündür?! Bu, necə də həqiqətdən uzaqdır! Qüdrətli, Uca və Böyük Allahın Özü buna şahiddir.

Tezliklə Onun qəzəbinin tufanı sizi bürüyər və cəhənnəmin külü başınıza tökülər. Aləmin fani şeylərini və bər-bəzəyini toplayan kəslər Allahdan üz döndərmişlər və həm bu dünyanı, həm də axirəti əldən vermişlər. Çox çəkməz ki, Allahın qüdrətli Əli onları malik olduqlarından məhrum edər və Öz nemətlərinin əbasını onlardan alar. Tezliklə onlar özləri bunu görəcəklər və sən də bunun şahidi olacaqsan.

De: Ey insanlar, bu dünyanın fitnə-felinə uyub yolunuzu azmayın, çünki dünya və onda olan bütün şeylər Onun İradəsinin ovcundadır. O Öz lütfünü kimə istəyirsə, bəxş edir və kimdən istəyirsə, geri alır. O, İxtiyar Sahibidir. Əgər Onun nəzərində dünyanın bir dəyəri olsaydı, öz düşmənlərinin hətta xardal toxumu qədər də dünyaya yiyələnməsinə heç vaxt imkan verməzdi. Onun Əmrinə qarşı etdiklərinizə görə O sizin dünyəvi işlərin çirkabına bulaşmağınıza şərait yaradır. Əgər siz

anlayanlardansınızsa, bu, əslində sizin könüllü olaraq özünüz üçün seçdiyiniz cəzadır. Məgər siz Allahın nəzərində alçaq və faydasız olan şeylərdən ləzzətmi alırsınız?! Halbuki, O, bu şeylərlə şübhə edənlərin qəlbini sınağa çəkir.

## Seçmə 104 (↑)

DE: EY YER əhli, doğrusunu bilin ki, sizi qəfil bir bəla gözləyir və ağır bir cəza izləyir. Güman etməyin ki, sizin törətdikləriniz Mənim nəzərimdən qaçıb. Camalıma and olsun ki, sizin bütün əməlləriniz Uca Qələmlə yaşıl Lövhələrdə qeyd edilib.

## Seçmə 105 (↑)

EY HÖKMDARLAR TAYFASI, hər şeyin Sahibi gəldi. Hökmranlıq Qoruyan və Qəyyum Allaha məxsusdur. Ayıq olun, Allahdan başqa heç nəyə ibadət etməyin və işıqlı könüllərlə üzünüzü Adlar Sahibi olan Rəbbinizə tutun. Bu, elə bir Əmrdir ki, yanınızda olanlar onunla müqayisəyə gəlməz—bunu anlayın.

Biz görürük ki, siz başqaları üçün yığdığınız şeylərə görə sevinirsiniz və Mənim Qorunan Lövhələrimdən savayı heç kəsin saya bilməyəcəyi aləmlərdən özünüzü uzaq salmısınız. Dünya malına bağlanmağınız sizi son məqsəddən yayındırıb. Bu, sizə yaraşmır—bunu bilin. Qəlblərinizi dünya ehtirasından təmizləyib yerin və göyün Qurucusu olan Rəbbinizin səltənətinə doğru tələsin; O Rəbbinizin ki, dünyada zəlzələlər qopardı və hər şeyi atıb Gizli Lövhədəki əmrləri tutan kəslərdən başqa bütün qəbilələri ağlatdı.

Bu, elə bir Gündür ki, onda Kəlim Günlərin Qədiminin nuruna qərq oldu və dənizləri dolduran Piyalədən vüsalın saf suyunu içdi. De: Haqq olan Allaha and olsun, Tur dağı Zühur Şəfəqinin ətrafına fırlanır və Ruh ilahi səltənətdən nida edir: “Özünüzü silkələyin, ey yer üzünün qürur övladları və Ona tərəf tələsin!” Bu, elə bir Gündür ki, Allahın dağı (Kərmel) Onun görüşünə can atır, Sion isə belə söyləyir: “Vəd yerinə yetdi və Uca, Qüdrətli və Sevimli Allahın Lövhələrində yazılanlar aşkara çıxdı”.

Ey hökmdarlar tayfası, nurlar Məkanında ən Böyük Qanun nazil oldu və İradə Sahibi tərəfindən bütün gizli işlər aşkara çıxarıldı, bununla da Qiyamət yetişdi, Ay parçalandı və bütün qaçılmaz əmrlər şərh olundu.

Ey hökmdarlar tayfası, siz bir qulsunuz. Hökmdarlar hökmdarı ən gözəl bəzəyi ilə zühur etmişdir və sizi Özünün—Qoruyan və Qəyyumun yanına çağırır. Ehtiyatlı olun ki, təkəbbür sizi Zühur Məşriqindən məhrum etməsin və bu dünyanın şeyləri sizinlə Səma Qurucusu arasında pərdəyə çevrilməsin. Bütün ümmətlərin Məqsudunun xidmətinə qalxın—O sizi Öz yanında olan bircə kəlmə ilə xəlq etmiş və sizi yaranmış və yaranacaq bütün şeylər üçün Öz hökmranlığının rəmzləri etmişdir.

And olsun Allaha ki, Biz sizin məmləkətlərinizi tutmaq istəyində deyilik. Biz könülləri tutmaq üçün gəlmişik. Bəhanın nəzərləri məhz onlara dikilib. Əgər siz anlasanız, buna Adlar Səltənəti şəhadət verir. Öz Mövlasının ardınca gedən kəs

dünyadan bütünlüklə üz çevirər. O halda belə bir uca məqam tutan Kəsin inqitası necə böyük olar! Saraylarınızı buraxın, sonra da İlahi Səltənətə üz tutun. Bu, axirətdə və dünyada sizə fayda verər. Bilin ki, Cəbərut Sahibi bunu təsdiq edir.

Xoş o hökmdarın halına ki, Mənim Səltənətimdə Mənim Əmrimin köməyinə qalxar və Məndən başqa hər şeydən əlini üzər. Həqiqətən, o, Allahın Bəha əhli üçün hazırladığı Qırmızı Gəminin əshabələrindən sayılar. Hamı ona ehtiram bəsləməli, onu uca tutmalı və ona kömək etməlidir ki, o mənim görünən və görünməz aləmlərdə olanları Qoruyan Adımın açarları ilə şəhərləri fəth etsin. Belə bir hökmdar bir növ bəşəriyyətin gözüdür, məxluqatın alnında parlayan bəzəkdir, bütün dünya üçün nemət çeşməsidir. Ey Bəha əhli, malınız və canınızla ona kömək edin!

## Seçmə 106 (↑)

HƏR ŞEYİ BİLƏN Həkimin əli dünyanın nəbzi üzərindədir. O, dərdi görür və qüsursuz hikməti ilə dərman verir. Hər günün öz müşkülü var, hər başın öz sevdası. Bugünkü dərdin bir dərmanı var, sabahkının başqa bir dərmanı. Yaşadığınız günün dərdlərinə baxın və onun ehtiyac və tələblərindən danışın.

Biz aydın görürük ki, dünyanı böyük və sonsuz dərdlər bürüyüb. Biz onu xəstəlik yatağında üzülmüş və ümidi kəsilmiş halda sızıldayan görürük. Xudpəsəndlik şərabından məst olan kəslər qüsursuz İlahi Həkimi onun yanına buraxmayıblar. Baxın, onlar özlərini də, bütün insanları da necə çətin bir vəziyyətə salıblar. Nə xəstəliyin səbəbini bilirlər, nə də dərmanı tanıyırlar. Onlar düzü əyri sanıblar və dostu düşmən biliblər.

Bu Məhbusun sədasını eşidin. Ayağa qalxıb deyin, bəlkə yatanlar yuxudan ayıldı. De: Ey ölülər! Allahın Bəxşiş əli Dirilik Suyu paylayır. Tələsin və onu alıb doyunca için. Bu Gün dirilən kəs heç zaman ölməz və bu Gün ölən kəs heç zaman dirilməz.

## Seçmə 107 (↑)

SİZİN MƏRHƏMƏTLİ RƏBBİNİZ istəyir ki, dünyada olan bütün insanlar vahid ruh və vahid bədən kimi olsunlar. Məxluqatın gözünün bənzərini görmədiyi bu günlərdə tələsin və Allahın fəzli və mərhəmətindən öz qismətinizi əldə edin. Xoş o kəsin halına ki, Allahın yanında olanlara çatmaq ümidi ilə öz yanındakıları boşlayar. Şəhadət veririk ki, o, şərəfə nail olanlardandır...

## Seçmə 108 (↑)

BİZ SİZİN ÜÇÜN bir vaxt təyin etmişik, ey insanlar. Əgər vaxt tamam olarsa və siz üzünüzü Allaha doğru çevirməzsinizsə, onda O hər yandan sizi cəzalandırar və hər tərəfdən sizə əzab küləkləri göndərər. Rəbbinizin cəzası şiddətli olur!

## Seçmə 109 (↑)

EY KAMAL, BU Gün Allahın ən mərhəmətli lütfü ilə insanın yetişə biləcəyi məqamlar hələ gizli saxlanılır, çünki varlıq aləmi onun aşkar edilməsi üçün lazımi qabiliyyətə malik olmamışdır və malik deyildir. Lakin tezliklə, belə bir lütfün gizli saxladığı güclər Onun əmri ilə insanlara açılar. Hətta bütün millətlərin qoşunları ona qarşı çıxsa, dünyanın hökmdarları Onun Əmrini məhv etməyə çalışa da, Onun qüdrətini sarsıda bilməz. O, həqiqəti danışar və hamını Bənzərsiz və Hər şeyi Bilən Allaha doğru çağırar.

Bütün insanlar hər zaman inkişaf edən təməddünü irəlilətmək üçün yaradılmışlar. And olsun Qüdrətli Allaha, yer üzündəki yırtıcı heyvanlar tək işlər tutmaq insana yaraşmayıb və yaraşmır. İnsana layiq olan işlər mərhəmət, məhəbbət, şəfqət və bütün aləm əhlinə qarşı dözümlü olmaqdır. De: Ey dostlar, bu saf Kövsər Adlar Sahibinin inayət barmağından süzülür. İçin və Onun adı ilə başqalarına da içirdin qoy yer üzünün başçıları tam yəqinliklə bilsinlər ki, Əbədi Haqq nədən ötrü gəlib və onlar nə üçün xəlq olunublar...

## Seçmə 110 (↑)

HƏZRƏT MÖVCUD BUYURUR: “Allah Əmrini və Onun Dinini canlandıran təməl məqsəd bəşər aləminin maraqlarının qorunması və onun birliyinin irəlilədilməsi, insanlar arasında ittifaq, məhəbbət və ülfət ruhunun bəslənməsidir; Onu düşmənçilik və ya nifaq səbəbinə çevirməyin. Budur düz Yol, möhkəm və sarsılmaz təməl. Bu təməl üzərində qurulan şeyi dünyanın hadisələri tərpətməz və zamanın gərdişi dağıda bilməz”. Ümidvarıq ki, yer üzünün üləmaları və əmirləri birləşərək dünyanı islah etməyə və onu sağaltmağa qalxacaqlar. Qoy onlar onun ehtiyacı üzərində diqqət və şəfqətlə düşünüb məsləhətləşdikdən sonra indi xəstə olan dünyanın bədəninə tədbir dərmanı ilə şəfa bəxş etsinlər... Başçılar bütün işlərdə orta həddi gözləməlidirlər. Çünki mötədilliyi aşan hər bir iş faydalı təsir ölçüsündən məhrum olur. Məsələn, azadlıq, təməddün və digər bu kimi şeylər mərifət əhli tərəfindən bəyənilsə də, orta həddi keçdikdə, ziyanlı nəticələr verir… İnşaallah, yer üzünün başçılarının və müdrik şəxslərin səyləri sayəsində aləm əhli onlara xeyir verən şeylərdən agah olar. Bəşərin bu özbaşınalığı nə vaxta qədər davam edəcək? Haqsızlıq nə vaxta qədər hökm sürəcək? İnqilab və təşvişlər nə vaxta qədər baş verəcək? İxtilaf cəmiyyəti nə vaxta qədər təlaşa salacaq? Əfsus ki, hər tərəfdən ümidsizlik yelləri əsməkdədir, insan nəslini parçalayan və iztiraba salan qarışıqlıq və çəkişmələr günbəgün artmaqdadır. Hərc-mərclik əlamətləri müşahidə olunur, çünki indi mövcud olan nizamın acınacaqlı dərəcədə qüsurlu olması görünür. Şərəfli Haqqdan diləyim budur ki, yer əhlini ayıltsın, axırını xeyirə calasın və məqamlarına layiq şeylərə nail olmağa yardım etsin.

## Seçmə 111 (↑)

EY YER ÜZÜNÜN rəqabət aparan xalqları və tayfaları! Birliyə doğru üz tutun və qoy onun nuru sizin üzərinizə saçsın. Bir yerə toplaşın və Allah xatirinə ixtilaf doğuran şeyləri aradan qaldırın ki, bütün aləm ən böyük Günəşin nuruna boyansın, insanlar bir şəhərə daxil olub bir taxtda otursunlar. Bu Məzlumun həyatının ilk günlərindən indiyə qədər deyilənlərdən özgə nə bir məqsədi olub, nə də bir başqa arzusu olacaq. Şübhə yoxdur ki, dünyanın xalqları, hansı irqdən və ya dindən olurlarsa olsunlar, bir səmavi Mənbədən ilham alır, bir Allahın əmrini yerinə yetirirlər. Dövrün tələbinə görə, əmrlər və hökmlər müxtəlif olub, insanların itaətsizliyindən doğan bəzilərindən başqa, hamısı Allah tərəfindən göndərilib və Onun İradə və Məqsədinin ifadəsi olub. Qalxın və yəqinlik əli ilə sizlərin arasında ixtilaf səpən mövhumat bütlərini sındırıb tökün. Sizi bir-birinizə yaxınlaşdıran və birləşdirən şeylərdən tutun. Budur Ana Kitabdan nazil olan ən uca Söz! Əzəmət Dili Öz cəlal məqamından buna şəhadət verir.

## Seçmə 112 (↑)

NEÇƏ İLLƏRDİR Kİ, nə yer üzü sakitlik bilir, nə də onun əhalisi. Onu gah müharibələr viran edir, gah da qəfil və gözlənilməz fəlakətlər əzaba salır. Bədbəxtlik və iztirab dünyanı bürüyüb, buna baxmayaraq heç kəs bir dayanıb fikirləşmir ki, bunun səbəbi və mənbəyi nədir.

Əgər həqiqi Nəsihətçi bir öyüd sözü deyibsə, onu fəsad cəhdi kimi yozublar və həmin nəsihəti qəbul etməyiblər. Mat qalırsan ki, nə deyəsən və nə ərz edəsən. İki nəfər tapılmaz ki, həqiqətən, zahirdə və batində bir olsun. Bütün dünyada təfriqə və fitnə əlamətləri mövcud və aşkardır, baxmayaraq ki, hamı birlik və ittifaq üçün xəlq olunub.

Həzrət Mövcud buyurur: “Ey dostlar, birlik çadırı qurulmuşdur, bir-birinizə yadlar kimi baxmayın. Hamınız bir ağacın meyvələri və bir budağın yarpaqlarısınız”. İnşaallah, ədalət nuru parlayar və dünyanı haqsızlıqdan təmizləyər. Əgər Şərəfli Haqqın hakimiyyətinin rəmzləri olan hökmdarlar və sultanlar səy göstərib bütün yer əhlinə xeyir verən işlərə başlasalar, insan övladları arasında ədalətin hökmranlığı bərqərar olar və onun işığı bütün dünyanı tutar.

Həzrət Mövcud buyurur: “Dünyanın sabitliyi və nizamının binası iki sütun—cəza və mükafat sütunları üzərində qurulub və bu iki sütun ona həmişə dayaq olmaqda davam edəcək”… Başqa bir məqamda isə buyurur: “Ey əmirlər tayfası! Dünyada ədalət və hikmətdən güclü qoşun yoxdur... Xoş o hökmdarın halına ki, yürüş zamanı qarşısında hikmət bayrağı, arxasında isə ədalət qoşunları irəliləyir. Həqiqətən, o, insanlar arasında sülhün alnını zinətləndirən bəzək, əmin-amanlığın üzüdür. Həqiqətən də, əgər ədalət günəşi zülm buludundan xilas olub işığını insanların üzərinə salsaydı, dünya tamamilə başqa bir dünyaya dönərdi”.

## Seçmə 113 (↑)

EY ŞAHIN ŞƏHƏRDƏKİ (İstanbuldakı) səfiri, məgər sən elə güman edirsən ki, Allahın Əmrinin taleyi Mənim əlimdədir? Yaxud Mənim həbs olunmağımla, alçaldılmağımla, hətta ölümüm və fənaya uğramağımla Allahın Əmrinin yolu dəyişilə bilər?! Sənin özlüyündə zənn etdiyin səhvdir və sən yanlış xəyala düşənlərdənsən. Həqiqətən, Ondan başqa Allah yoxdur. O Öz Əmrini aşkar edər, Öz dəlilini yüksəldər və Öz İradəsini yeridib elə bir məqama ucaldar ki, nə sənin əlin, nə də bütün Ondan üz döndərənlərin əlləri ona çatmaz və ya ona ziyan vura bilməz.

Məgər sən elə zənn edirsən ki, Onun İradə etdiklərini poza bilərsən və ya Onun hökmünə və hökmranlığına mane ola bilərsən, yaxud da göylərdə və yerdə olanların hamısının Onun Əmrinə qarşı çıxmağa qüdrəti çatar?! And olsun Əbədi Haqqa ki, yox! Yaranmışlardan heç biri Onun Məqsədinə mane ola bilməz. Elə isə bu zənnindən əl çək, çünki güman heç vaxt həqiqəti əvəz edə bilməz. Səmimiyyətlə tövbə et və üzünü Allaha doğru çevir, o Allah ki, səni xəlq etdi, sənə ruzi verdi və səni sənin dinini daşıyanların səfiri eylədi.

Sonra bunu bil ki, O, göylərdə və yerdə olanları bir kəlmə əmri ilə xəlq etmişdir. Belə olduqda, Onun hökmü ilə yaranan şey necə Onun əleyhinə qalxa bilər?! Allah sizin zənn etdiyinizdən pak və ucadır, ey ədavət əhli! Əgər bu Əmr, həqiqətən, Allahdandırsa, onda heç kəsin ona mane olmağa qüdrəti çatmaz; əgər Allahdan deyilsə, o zaman sizin üləmalarınızın və onların havasına oynayıb etiraz edən kəslərin ona gücü yetər.

Məgər sən keçmişdə fironun tayfasından olan bir möminin söylədiyini eşitməmisənmi?! Onu Allah insanlar arasından seçib onlara göndərdiyi və Müjdəsini etibar edərək aləmdəkilərə Öz mərhəmətinin əlamətinə çevirdiyi peyğəmbərinə hekayət etmişdir. O, belə dedi və Onun söylədiyi həqiqətdir: “Nə üçün “Mənim Rəbbim—Allahdır!” deyən kişini öldürürsünüz? Halbuki, o, Rəbbiniz tərəfindən aydın dəlillərlə gəlmişdir. Əgər o, yalançıdırsa, onun yalanı özünə qalar; əgər doğruçudursa, onun sizi xəbərdar etdiklərinin bəzisi başınıza gələr”. Bunu Allah qüsursuz Kitabında Öz Sevimlisinə nazil etmişdir.

Amma siz Onun əmrinə qulaq asmadınız, hökmünü eşitmədiniz, Kitabda nazil olan nəsihətlərini rədd etdiniz və Ondan uzaqlaşıb azanlardan oldunuz. Hər ay və hər il neçə-neçə bəndələr sizin günahınız üzündən qətlə yetirildilər. Siz öz günlərinizdə o qədər zülmlər törətdiniz ki, məxluqatın gözü onların bənzərini görməyib və səlnaməçilərdən heç biri onların oxşarı barədə xəbər verməyib! Sizin zülmünüz nəticəsində neçə-neçə südəmər körpələr anasız və atasız qaldı, nə qədər atanın övladı qətlə yetirildi, ey zalımlar tayfası! Nə qədər bacı qardaşının fərağında hönkürüb ağladı və soldu, nə qədər qadın ərsiz və arxasız, yalnız qaldı!

Sizin zülmünüz o həddə qədər yüksəldi ki, siz üzünü Ulu və Əzəmətli Allahın üzündən heç zaman döndərməyən Kəsi qətlə yetirdiniz. Barı siz Onu insanlardan bəzilərinin bəzilərini öldürdüyü kimi öldürəydiniz. Yox, siz onu elə bir vəziyyətdə qətlə yetirdiniz ki, bunun bənzərini insanların gözü görməyib. Onun halına göylər ağladı, Allaha yaxın kəslərin ürəkləri -sızladı. Məgər O sizin Peyğəmbərinizin Övladı deyildimi? Məgər O sizin aranızda Peyğəmbərin nəslinə mənsubluğu ilə tanınmırdımı?! Elə isə nə üçün siz Onunla əvvəllər heç kəsin heç kəsə etmədiyi bir şəkildə rəftar etdiniz?! And olsun Allaha, varlığın gözü sizin kimisini görməyib! Siz Peyğəmbərinizin övladını öldürdükdən sonra sevinc içərisində öz yerlərinizdə oturub şadlıq etdiniz. Siz əvvəllər sizin kimi hərəkət edənlərə lənət oxuyurdunuz, amma öz qəddarlığınızdan qafil idiniz.

İndi özünüz insaf edin: məgər sizin pisləyib lənətlədiyiniz kəslər sizin etdiklərinizdən başqa bir şeymi etmişdilər?! Onlar öz Peyğəmbərlərinin övladını necə qətlə yetirmişdilərsə, siz də öz Peyğəmbərinizin övladını eləcə öldürdünüz. Onlar nə törətmişdilərsə, siz də onu törətdiniz. Sizinlə onlar arasında nə fərq var, ey fəsad əhli?!

Siz Onu qətlə yetirdiyiniz zaman Onun ardıcıllarından biri qisas almaq üçün ayağa qalxdı. Onu heç kəs tanımırdı və onun işi hamıdan gizli idi. Nəticədə o oldu ki, əvvəlcədən təyin olunmuşdu. İndi siz buna görə heç kəsi günahlandırmamalısınız, əksinə, əgər insaf əhlisinizsə, özünüzü qınamalısınız.Yer üzündə sizin etdiyinizi etmiş bir kəs varmı? Aləmlərin Rəbbinə and olsun ki, yox!

Bütün hökmdarlar və sultanlar öz Peyğəmbərlərinin və Rəsullarının nəslinə ehtiram bəsləyirlər—bunu anlayanlardan olun! Siz isə heç kəsin heç vaxt etmədiyi kimi

hərəkət etdiniz və elə işlər tutdunuz ki, bundan ariflərin ciyərləri yandı. Bununla belə, siz ayılmadınız və nə etdiyinizi anlamadınız.

İş o yerə gəlib çatdı ki, heç bir günahımız və aşkar bir suçumuz olmadan Bizim əleyhimizə qalxdınız. Məgər sizi yaradan, sizi fərqləndirən, sizə güc verən və sizi özlərini Ona təslim edənlərə qoşan Allahdan qorxmursunuzmu?! Nə vaxta qədər siz ayılmayacaqsınız?! Nə zamana qədər düşünməkdən imtina edəcəksiniz! Nə vaxtadək yuxudan və qəflətdən ayılmayacaqsınız! Və nə zamandək həqiqətdən qafil olacaqsınız?!

Özlüyünüzdə bir düşünün: Bütün bu hərəkətləriniz və əməllərinizlə siz Allahın odunu söndürə və Onun Vəhyinin nurunu yox edə bildinizmi?! O nuru ki, əbədiyyət dənizinin sakinlərini işıqlandırdı və tövhid əhlinin ürəklərini cəzb etdi. Məgər bilmirsinizmi ki, Allahın Əli sizin əlinizdən üstündür, Onun dəyişməz Hökmü sizin tədbirinizdən güclüdür, O öz bəndələrinin başı üzərində Hakimdir, Öz Əmri ilə hər şeyə Qalibdir, istədiyini edər və etdiyinə görə sorğu-sual olunmaz, istədiyi kimi hökm verər və O, Qadir və Qüdrətlidir?! Əgər siz bunu yəqin bilirsinizsə, nə üçün öz əməllərinizdən əl çəkib sakitləşmirsiniz və hər gün öz zülmünüzü təzələyirsiniz?!

Siz hər gün yeni insafsızlıq edirsiniz və Mənimlə indi də keçmişdə etdiyiniz kimi rəftar edirsiniz. Hərçənd Mən heç vaxt sizin işlərə qarışmamışam. Heç zaman sizə müxalif olmamışam və sizin qanunlarınıza etiraz etməmişəm. Baxın, siz Məni bu ucqar yerdə necə məhbus etmisiniz. Amma bunu bil və yəqin et ki, sizin və müşriklərin əllərinin törətdikləri belə işlər Allahın Əmrini və Onun qaydasını heç vaxt dəyişdirə bilməz, necə ki, əvvəllər də dəyişdirməmişdi.

Sonra bunu bilin, ey İran əhli! Əgər siz Məni qətlə yetirsəniz, Allah bir başqasını Mənim məqamıma qaldırar—bu, Allahın əvvəllər də özünü göstərmiş qaydasıdır və siz Onun qaydasında nə bir dəyişiklik, nə də bir təbəddülat görərsiniz. Siz Allahın Öz torpağındakı nurunu söndürməkmi istəyirsiniz?! Allah sizin bu istəyinizi rədd edir. Siz özlüyünüzdə bəyənməyib nifrət etsəniz də, O, Öz nurunu tamamlayar.

Sən də, ey səfir, bir anlığa özlüyündə düşün və özün insaf elə: hansı günahıma görə sən Şahın vəkillərinin yanında Mənə böhtan atdın, nəfsinin ardınca gedərək həqiqəti təhrif etdin və iftiraçılardan oldun? Halbuki, sən Mənimlə ünsiyyətdə olmamısan,

Mən də səninlə. Biz səni yalnız bir dəfə atanın evində Hüseynin (ə) müsibətləri xatırlanan günlərdə görmüşdük. Belə məclislərdə də imkan olmur ki, kimsə ağzını açıb nə isə desin, bununla da onun fikirləri və əqidəsi anlaşılsın. Əgər sən doğruçusansa, bunu təsdiq edərsən. Mən bundan başqa məclislərdə olmamışam ki, sən Məni görəsən və fikirlərimi biləsən, yaxud da başqaları Məni görsün. Bununla belə, sən necə Məndən eşitmədiyin bir söz barədə fitva verdin? Eşitməmisənmi ki, Qüdrətli və Şərəfli Allah buyurub: “Sizi salamla qarşılayana “Sən mömin deyilsən!” söyləməyin. Və səhər-axşam Rəbbini çağıraraq, Onun üzünü görmək istəyənləri yanınızdan qovmayın”. Sən Kitabın hökmünü pozmusan, amma bundan sonra da ozünü möminlərdən sayırsan.

Bununla belə, Allaha and olsun, mənim qəlbimdə nə sənə, nə də bir başqasına qarşı kin yoxdur, hərçənd siz Mənim başıma elə müsibətlər gətirmisiniz ki, tövhid əhlindən heç kəs onlara dözməzdi. Mənim işim yalnız Allahın əlindədir və Mənim təvəkkülüm yalnız Onadır. Tezliklə sizin günləriniz və bu gün aşkar qürur içərisində olanların əyyamı ötüb keçər. Və tezliklə siz Allahın hüzurunda cəm olub öz əlinizlə törətdiklərinizə görə sorğu-suala tutular və cəzalanarsınız. Necə dözülməz olar zalımların məkanı!

And olsun Allaha! Əgər sən nə etdiyini anlasaydın, öz halına ağlayaraq qaçıb Allaha sığınardın və ömrün boyu yalvarardın ki, Allah səni bağışlasın, çünki O, Səxavətli və Kəramətlidir. Lakin sən bütün zatınla, qəlbinlə və cisminlə dünya malına bağlandığın üçün ruhun bədənindən ayrılana kimi buna müvəffəq olmayacaqsan. O zaman sən Bizim təlqin etdiklərimizi anlayacaqsan və bu əməllərinin, istər böyük, istərsə zərrədən də kiçik olan bütün məxluqatın işlərinin cüzi bir qisminin belə ötürülmədiyi Kitaba yazıldığının şahidi olacaqsan. Elə isə Mənim nəsihətimə qulaq as, qəlbinin qulağı ilə Mənim dediklərimi eşit, Mənim sözlərimdən qafil olma, Mənim həqiqətimi rədd edənlərdən olma. Sənə verilmiş şeylə öyünmə. Qoruyan və Cəlal Sahibi Allahın Kitabında nazil olana nəzər sal: “Onlar nəsihətləri unutduqları zaman bütün şeylərin qapılarını onların üzünə açdıq”. Eləcə də Biz sənin və sənin kimilərin üzünə dünyanın və onun bəzəklərinin qapılarını açdıq. İndi bu mübarək ayənin sonunda nazil olanları gözlə—Qüdrət və Hikmət Sahibinin verdiyi bu vədə yalan çıxmaz.

Mən bilmirəm, siz hansı yolu seçmisiniz və hansı yolla gedirsiniz, ey ədavət əhli! Biz sizi Allaha doğru çağırırıq, sizə Onun Gününü xatırladırıq, sizə Onunla görüşün

müjdəsini veririk, sizi Onun dərgahına yaxınlaşdırırıq, sizə Onun ecazkar hikmətini çatdırırıq, siz isə bizi qovursunuz, yalançı dillərinizlə söylədiklərinizlə Bizi küfrdə ittiham edirsiniz və Bizə qarşı tədbir tökürsünüz! Biz Allahın Öz səxavəti sayəsində Bizə bəxş etdiyini sizə göstərəndə isə deyirsiniz: "Bu, açıq-aşkar sehrdən başqa bir şey deyildir". Keçmişdəki elə sizin kimi olan ümmətlər də eyni sözləri demişdilər—bunu anlayın. Beləcə siz özünüzü Allahın feyzindən və -fəzlindən məhrum etdiniz və bundan sonra onu tapa bilməzsiniz—o vaxta qədər ki, Allah Bizimlə sizin aranızda hakimlik edər və O, hakimlərin ən yaxşısıdır.

Sizlərdən biri dedi: "Bu, O Kəsdir ki, Özlüyündə Allahlıq iddiasına düşüb". And olsun Allaha ki, bu, ən böyük bir böhtandır. Mən yalnız bir bəndəyəm və Allaha, Onun ayələrinə, Peyğəmbərlərinə və mələklərinə iman gətirmişəm. İndi də Mənim dilim, qəlbim, zahirim və batinim şəhadət verir ki, Allahdan başqa Allah yoxdur, Ondan başqa hər şey Onun Əmri ilə xəlq olunub, Onun İradəsi ilə yaranıb. Ondan başqa Allah yoxdur. Odur xəlq edən, ayağa qaldıran, dirildən və öldürən! Mən yalnız Allahın Öz səxavəti sayəsində Mənə bəxş etdiyi neməti söyləyib aşkar etmişəm. Əgər bu, Mənim günahımdırsa, Onda Mən günahkarların ən birincisiyəm. Və Mən öz ailəmlə birlikdə sizin əlinizdəyəm, nə istəyirsinizsə, edin, durmayın. Bəlkə bu yolla Mən Rəbbim Allahın yanına qayıdam və elə bir məqama yetişəm ki, ora sizin üzlərinizdən xalidir. Bu, Mənim ən istəkli arzum və ən atəşli niyyətimdir. Allah Mənim halımdan, həqiqətən, xəbərdardır və Ona hər şey aşkardır.

Ey səfir, özünün Allahın hüzurunda olduğunu düşün, çünki sən Onu görməsən də, O səni, həqiqətən, görür. Sonra Bizim Əmrimizə insafla bax. Əgər insaf əhlisənsə, söylə, hansı günahımıza görə Bizim əleyhimizə qalxdın və insanlar arasında Bizə iftira söylədin? Biz şahın əmri ilə Tehrandan çıxdıq, onun icazəsi ilə İraqa yollandıq və ora çatıb orada qaldıq. Əgər Mən onun qarşısında müqəssir idimsə, niyə Məni buraxdılar? Əgər müqəssir deyildimsə, niyə səninlə bir dinə inanaların heç birinin başına gətirilməyən müsibətləri Bizim başımıza gətirdiniz?! İraqa varid olduqdan sonra Biz dövlətin əmrini pozan bir iş tutmuşuqmu? Kimsə Bizim ittihama layiq hərəkətimizin şahidi olubmu? Oranın əhalisindən soruş ki, həqiqət sənə aydın olsun.

Biz on bir il orada qaldıq. Nəhayət, sizin səfiriniz ora gəldi. Həmən səfir ki, qələm onun adını belə çəkmək istəmir. O, şərab içirdi, günah və pis əməllər törədirdi, özü pozğun idi, İraqı da pozurdu. Əgər sən aydınlaşdırmaq istəyib soruşsan, Bağdad

əhalisinin əksəriyyəti bunu təsdiq edər. O, nahaq yerə insanların malını əllərindən alırdı, Allahın bütün əmrlərini unudaraq, Onun qadağan etdiyi işlərlə məşğul olurdu. Beləcə o, nəfsinin və ehtirasının ardınca gedərək, Bizim əleyhimizə çıxdı və zalımların yolunu tutdu. Sənə göndərdiyi məktubda o Bizim haqqımızda böhtanlar yazdı, sən də heç bir dəlil və aşkar sübut olmadan onun dediklərini qəbul etdin və onun yolu ilə getdin. Sən heç aydınlaşdırmadın, axtarıb araşdırmadın ki, yalan doğrudan, haqq batildən ayrılsın və sən də onlara işıqlı gözlə baxasan. Sən onun necə bir insan olması haqqında İraqda olan səfirlərdən, eləcə də, şəhərin valisindən və onun müşavirindən soruş ki, həqiqəti biləsən və agahlardan olasan.

Allah Bizə şahiddir! Biz heç bir şeydə onun və başqalarının əleyhinə çıxmamışıq, bütün hallarda Allahın hökmlərinə tabe olmuşuq və fəsad əhli olmamışıq. O, Özü də bunu təsdiq edər. Lakin o istəyirdi ki, öz adını ucalara qaldırmaq və məşhur olmaq üçün Bizi tutub İrana qaytarsın. Necə ki, sən də həmin məqsədlə bu günahı törətdin. Hər şeyin Sahibi olan və hər şeyi Bilən Allahın yanında sizin hər ikiniz bərabərsiniz.

Biz bu sözləri sənə ondan ötrü demirik ki, Bizim ağır halımızı yüngülləşdirəsən, yaxud kiminsə yanında Bizim üçün vasitəçilik edəsən. Aləmlərin Rəbbinə and olsun ki, yox! Biz bütün bu işləri ona görə şərh etdik ki, sən öz əməllərini anlayasan və Bizim başımıza gətirdiklərini daha heç kəsin başına gətirməyəsən, səni və bütün şeyləri xəlq edən Allahın qarşısında tövbə edəsən, bundan sonra bəsirətli olasan—bu, sənə malik olduqlarından və qısa müddətli səfirliyindən daha xeyirlidir.

İnsafsızlığa göz yummaqdan çəkin. Qəlbinlə üzünü ədalətə doğru tut. Allahın Əmrini dəyişdirməyə çalışma və Kitabda nazil olanlara diqqət yetir. Heç bir işdə öz nəfsinə tabe olma, Əzəli və Səxavətli Rəbbin olan Allahın hökmünə tabe ol. Tezliklə sən torpağa dönərsən və nə özün qalarsan, nə də həyatında səni sevindirən şeylər. Uca Həqiqətin dili belə söyləyir.

Nə üçün Allahın əvvəlki xəbərdarlığını yada salıb xatırlayanlardan olmadın? O deyib və Onun dediyi haqqdır: “Biz sizi ondan (torpaqdan) yaratdıq, ona da qaytaracağıq və bir daha ondan çıxaracağıq”. Yüksək və alçaq rütbəli olmasından asılı olmayaraq, bütün yer əhli üçün Allahın müəyyən etdiyi budur. Torpaqdan yaranan, ona qayıdan və yenidən ondan çıxan kəsə yaraşmaz ki, Allahın və onun övliyalarının önündə təkəbbür göstərsin, onların qarşısında öyünsün və hədsiz qürur içərisində olsun.

Əksinə, sən və sənin kimilər gərək özlərini tövhid Məzhərlərinə təslim etsinlər və o möminlərin qarşısında təvazökarlıq göstərsinlər ki, onlar Allah xatirinə hər şeylərindən keçiblər və bəndələrin qəlbini özünə bağlayan, onları Şərəfli və Tərifəlayiq Allahın yolundan uzaqlaşdıran şeylərdən əllərini üzüblər. Beləcə, biz sizə və Allaha təvəkkül edən kəslərə xeyirli olan şeyləri çatdırdıq...

## Seçmə 114 (↑)

AGAH OL, EY Sultan (Əbdüləziz), həqiqəti söyləyən Allahın sənə əta etdiklərindən bir şey istəməyən və Haqq yolunda dönməz olan Kəsin sözlərini eşit! O, səni Rəbbin Allaha doğru dəvət edir, sənə düzgün yolu, həqiqi xoşbəxtliyə aparan nicat yolunu göstərir ki, sən nicat tapanlardan olasan.

Ehtiyatlı ol, ey hökmdar, öz ətrafına elə vəkilləri yığma ki, yalnız nəfslərinin ardınca gedirlər və əmanəti arxalarına ataraq, aşkar bir xəyanət yolunu tuturlar. Allah sənə qarşı necə saxavətli olubsa, sən də başqalarına o cür səxavətli ol, insanları və onların işlərini belə vəkillərin əllərinə tapşırma. Allahdan qorx və vicdanla hərəkət edənlərdən ol. Ətrafına o vəkilləri topla ki, onlardan iman və ədalət ətri gəlir, sonra işlər barəsində onlarla məşvərət edib ən yaxşısını seç və səxavətlə hərəkət et.

Bil və yəqin et ki, Allaha inanmayan kəsdə etibar və sədaqət olmaz. Bu, aydın bir həqiqətdir, şübhəsizdir. Allaha xəyanət edən kəs sultana da xəyanət edər. Onu şər əməldən heç nə çəkindirməz, qonşusuna xəyanət etməkdən onu heç nə saxlamaz, onu düz əmələ heç nə sövq etməz.

Ayıq ol, işlərin cilovunu əlindən buraxma, sənin etibarına layiq olmayan bu vəkillərə etibar etmə və qafillərdən olma. Ürəklərini başqasına bağlamış kəslərdən uzaqlaş, öz işlərini və müsəlmanların işlərini onların ixtiyarına vermə, qurdları Allahın qoyunlarına çoban etmə, Onun sevimlilərini düşmənlərin əlinin altında qoyma. Allahın Əmrinə xəyanət edən kəslərdən etibar və dəyanət umma, onlardan gen gəz və özünü bərk-bərk qoru ki, onların hiylələrindən sənə zərər toxunmasın. Belələrindən üz döndər və Cəlal Sahibi, Səxavətli Rəbbin olan Allaha üz tut. Kim özünü tamamilə Allaha təslim edərsə, Allah da onunla olar, kim Ona təvəkkül etsə, Allah onu bütün zərərlərdən və bütün məkrli bədxahların şərindən qoruyar.

Əgər sən Mənim sözlərimi eşitsən və nəsihətlərimə qulaq assan, Allah səni elə bir məqama ucaldar ki, yer üzündə olanların heç birinin hiyləsi sənə çatmaz və sənə zərər toxundurmaz. Ey hökmdar, qəlbin və vücudunla Allahın qaydalarına tabe ol və zalımların yolu ilə getmə! İşlərin cilovunu öz ovcunda və qüdrətli əlində saxla, bütün işləri özün araşdır, heç bir şeydən qafil olma, həqiqətən, bunun böyük xeyri var.

Rəbbin olan Allaha şükr elə ki, səni yer üzündə seçərək müsəlmanların sultanı etmişdir. Sən Allahın Öz ecazkar səxavəti və kəraməti sayəsində sənə bəxş etdiklərinin qədrini bilməlisən və hər an Ona şükr etməlisən. Sənin Rəbbinə şükrün o ola bilər ki, Onun dostlarını sevəsən, bəndələrini hifz edəsən və xainlərdən qoruyasan ki, heç kəs onlara zülm etməsin. Sonra sən insanlar arasında Allahın hökmünü yerinə yetirməli və Allahın şəriətində qətiyyətli olmalısan.

Əgər sən öz rəiyyətin arasında ədalət çaylarını axıtsan, Allah görünən və görünməz qoşunlarla sənə kömək göstərər və işlərində sənə yardımçı olar. Həqiqətən, Ondan başqa Allah yoxdur, əmr və xilqət aləmləri Ona məxsusdur, sadiqlərin əməlləri Ona qayıdar.

Xəzinələrinə arxayın olma, Rəbbin olan Allahın -fəzlinə arxalan. Bütün işlərində Ona güvən və təvəkkül edənlərdən ol. Allahdan kömək istə və Onun sərvəti ilə zənginləş, çünki göylərin və yerin xəzinələri Onun yanındadır. O, istədiyinə əta edər, istəmədiyini məhrum edər. Ondan başqa Allah yoxdur, Odur Ehtiyacsız və Tərifəlayiq! Hamı Onun mərhəmətinin qapısı önündə yoxsuldur, Onun qüdrətinin zühuru qarşısında zəifdir, hamı Onun lütfünü diləyir.

İşlərində ifrata varma, xidmətçilərin arasında ədalətlə rəftar et, onlara ehtiyacları olan qədər ver—o qədər vermə ki, özlərinə sərvət toplasınlar, özlərini və evlərini bəzəsinlər, lazımsız işlərə xərcləyib israfçı olsunlar. Onlar arasında orta həddi gözləyib ədalətlə davran: elə et ki, bəziləri ehtiyac içində, bəziləri də sərvət içində olmasın. Bu, açıq-aşkar bir ədalətdir.

Nəcibləri və şərəfə layiq olanları yaramazların əlinin altında qoyma və alçaqları şərəflilərə başçı eləmə. Necə ki, Biz şəhərdə (İstanbulda) bunun şahidi olduq və buna şəhadət veririk. Şəhərə daxil olduğumuz zaman Biz bəzilərini dəbdəbə və sərvət içərisində, bəzilərini isə açıq-aşkar yoxsulluq və zillət içərisində gördük. Bu, sənin səltənətinə layiq deyil və sənin şəninə yaraşmır.

Mənim nəsihətimi eşit və insanlar arasında ədalətli ol ki, Allah bütün aləmdə sənin adını ədalətlə ucaltsın. Rəiyyəti pis hala qoymaq hesabına öz vəkillərinə firavanlıq vermə. Yoxsulların və möminlərin səhər naləsindən qorx və onlar üçün şəfqətli bir sultan ol, çünki onlar sənin yer üzündəki xəzinəndir. Sən özün öz xəzinəni səni

soymaq istəyənlərin əlindən qorumalısan. Onların işlərini və əhvalını hər il, hətta hər ay araşdır ki, öz vəzifələrinə laqeyd qalanlardan olmayasan.

Allahın qüsursuz Tərəzisini gözlərin önündə qur, özünü elə bir məqamda tut ki, sanki Onu görürsən və sonra da hər gün, hətta hər an öz əməllərini həmin tərəzidə çək. Haqq-hesab günü gəlməmiş özündən hesabat istə. Həmən gün Allahın qorxusundan heç kəs ayaq üstə dura bilməz və qafillərin ürəkləri titrəyər.

Hər bir sultan gərək səxavətdə günəş kimi olsun—bütün şeyləri bəsləsin və bütün haqqı çatanlara öz haqqını versin. Bu isə onun özündən doğmur, Qüdrətli və Qadir Allah belə müəyyən etmişdir. Sultan bulud kimi öz mərhəmətini bəndələrə paylamalıdır, necə ki, bulud Ali Fərman Verən və hər şeyi Bilən Allahın əmrinə əsasən, mərhəmət yağışını bütün yer üzünə səpir.

Ehtiyatlı ol, öz işlərini heç kəsə etibar etmə—heç kəs sənin vəzifələrini sənin özün kimi icra edə bilməz. Beləcə, Biz sənə hikmətli sözləri izah edirik və sənə o şeyləri çatdırırıq ki, səni zülm solundan ədalət sağına döndərər və sənə Onun işıqlı yaxınlıq dənizinin yolunu göstərər. Bütün bunlar səndən əvvəl hakimiyyətdə olmuş hökmdarların getdiyi yoldur, o hökmdarlar ki, təbəələri arasında ədalətlə rəftar etmiş və dönmədən ədalət yolu ilə getmişlər.

Sən yer üzündə Allahın kölgəsisən. Elə isə bu uca və böyük məqama layiq olan tərzdə hərəkət et. Əgər sən Bizim dediklərimizə və öyrətdiklərimizə əməl etməsən, bu uca və şərəfli məqamı itirmiş olarsan. Öz qəlbinlə Allaha doğru qayıt, onu dünyadan və dünyanın bər-bəzəyindən təmizlə və Allahdan başqa heç kəsin məhəbbətinin oraya daxil olmasına imkan vermə. Əgər başqasının məhəbbətini oraya daxil etsən, Allahın təzahürünün nurları ona işıq saçmaz, çünki Allah heç kəsdə iki qəlb yaratmayıb. Bu, əzəli Kitabda da nazil olub. Madam ki, Allah insana bir qəlb verib, sən də gərək ona iki məhəbbəti daxil etməyəsən. Elə isə Allahın məhəbbətindən yapış və Ondan başqasının məhəbbətindən üz döndər ki, Allah səni Öz Birlik dənizinə qovuşdurub tövhid əhli etsin. Allah Mənim şahidimdir, bütün bunları sənə təlqin etməkdə məqsədim yalnız budur ki, sən fani şeylərdən uzaqlaşıb əbədi Cəbərut aləminə daxil olasan və Allahın izni ilə orada hökm edənlərdən olasan...

Ey hökmdar, and olsun Allaha, Məni təqib edənlərdən sənə şikayət etmək istəmirəm, çünki Mən çəkdiyim əziyyətlər və dərdlər barədə O Allaha şikayət edirəm ki, Bizi və onları xəlq edib və Bizim məqamımızı yaxşı bilir və hər şey Onun nəzəri altındadır. Mənim istədiyim yalnız budur ki, əməllərinin nəticəsi barədə onlara xəbərdarlıq edim və onlar Bizə etdiklərini başqa heç kəsə etməsinlər və Mənim xəbərdarlığıma diqqət yetirsinlər.

Hər tərəfdən Bizi əhatə edən bəlalar, məhrumiyyətlər və çətinliklər mütləq ötüb keçəcək, eləcə də onların rahatlığı və içərisində olduqları firavanlıq keçib gedəcək. Bu, bir həqiqətdir və yer üzündə heç kəs bunu inkar edə bilməz. Tezliklə Bizim bu zillət torpağında sakin olmağımız da, onların izzət taxtında oturmaları da ötüb keçəcək və Allah Bizimlə onlar arasında hakimlik edəcək, çünki O, hakimlərin ən yaxşısıdır.

Biz bütün başımıza gələnlərə görə Allaha şükr edirik, Onun Bizim üçün müəyyən etdiklərinə və edəcəklərinə səbrlə dözmüşük və dözəcəyik. Mən Ona təvəkkül etmiş və Öz Əmrimi Onun ixtiyarına buraxmışam. Həqiqətən, O, səbr edənlərin və Ona təvəkkül edənlərin mükafatını verəcəkdir. Əmr və xilqət aləmləri Ona məxsusdur. O kimi istəsə ucaldar, kimi istəsə alçaldar və etdiklərinə görə sorğu-suala tutulmaz. Həqiqətən, O, Cəlal Sahibi və Qadirdir.

Ey sultan, sənin hüzuruna ərz etdiklərimi eşit! Zalımların zülmünün qarşısını al, onların əllərini müsəlmanların başı üstündən uzaqlaşdır. And olsun Allahın həqqaniyyətinə, qələm Bizim başımıza gələnləri yazanda qəmgin olmaya bilməz, tövhid əhli bunları dinləməyə tab gətirməz. Bizim əzablarımız elə bir yerə çatıb ki, hətta düşmənlərimiz və eləcə də bütün bəsirət əhli Bizim halımıza ağlayır. Halbuki, Biz insanları sənə üz tutmağa çağırır və onlara sənin kölgənə sığınmağı əmr edirdik ki, sən tövhid əhli üçün bir qala olasan.

Ey sultan, məgər Mən nə vaxtsa sənin qanunlarını pozmuşam?! İraqda səni təmsil edən vəzirlərindən biri bir sübut gətirə bilərmi ki, Mən sənə itaətsizlik göstərmişəm?! Aləmlərin Rəbbinə and olsun ki, yox! Biz nə sənə, nə də onlara bir göz qırpımı qədər də asi olmamışıq və başımıza indiyə qədər gələnlərdən daha böyük bəlalar gəlsə belə, inşaallah, bundan sonra da asi olmarıq.

Biz gecə-gündüz, səhər-axşam Allaha dua edirik ki, səni Ona itaət göstərməyə və Onun hökmlərini yerinə yetirməyə müvəffəq eyləsin, səni şeytanların qoşunlarından hifz etsin. İndi necə istəyirsənsə, sənə və sənin sultanlığına necə yaraşırsa, eləcə də hərəkət et, amma istədiyin və istəyəcəyin bütün işlərdə Allahın hökmünü unutma və de: Həmd olsun Allaha—aləmlərin Rəbbinə!..

## Seçmə 115 (↑)

EY ZƏBİH, ƏMR Qələmindən nazil olan ilahi lövhələrin əksəriyyətində Allahın bütün dostlarına bu sözləri vəsiyyət etmişik: müqəddəs ətəyi qadağan olunan əməllərin palçığına və bəyənilməyən xasiyyətlərin tozuna bulaşdırmayın. Həmçinin vəsiyyət etmişik ki, Lövhələrdə nazil olanlara diqqət yetirin. Əgər insanlar Rəhmanın Qələminin məşriqindən parlayan ilahi vəsiyyətləri qəlblərinin qulağı ilə dinləsəydilər və onları eşitməyə nail olsaydılar, indi yer üzündə olanların əksəriyyətinin Onun hidayət bəzəyi ilə zinətləndiyini müşahidə edərdiniz. Lakin nə müəyyənləşdirilmişdisə, o da oldu.

İndi Əzəli Varlığın Dili bir daha bu bəyaz Vərəq vasitəsilə bu Böyük Məhbəsdən buyurur: Ey Haqqın dostları, nəfs və ehtirasın dar biyabanından çıxıb müqəddəs Birlik fəzalarına tələsin və paklıq və qüdsiyyət bağçalarında məskən salın! Qoy sizin əməllərinizin ətrindən bütün yer üzündə olanlar şərəfli Birlik dənizinə üz tutsunlar.

Dünyanın işləri, onlara aid məsələlər və dünyəvi rəhbərlər barədə danışmaq qətiyyən caiz deyil. Şərəfli və Qüdrətli Haqq dünyəvi hakimiyyəti hökmdarlara bəxş edib. Heç kəsə məmləkət başçılarının rəyinə müxalif olan bir iş tutmaq icazəsi verilməyib. Özü üçün isə O, bəndələrin könül şəhərlərini seçib. Və bu Gün Haqqın dostları açarlara bənzərlər. İnşaallah, onların hamısı İsmi-Əzəmin gücü ilə həmin şəhərlərin qapılarını açarlar. Budur Haqqa kömək göstərmək ki, onun barəsində Sabahları İşıqlandıranın Qələmi ilə Onun bütün Kitab və Lövhələrində yazılıb!

Həmçinin onlar insanlarla mehribancasına davranmalı və o qədər yüksək müqəddəslik, paklıq, düzlük və ədalət nümayiş etdirməlidirlər ki, bütün insanlar onları bəndələr arasında Allahın etibarlı şəxsləri saysınlar. İndi özün bax: Haqqın əmrlərinin quşları hansı səmada uçurlar, o zəif şəxslər isə hansı məqamda məskən salıblar. Xoş o kəslərin halına ki, yəqinlik qanadlarında mərhəmətli Rəbbinin Qələminin göstərdiyi səmaya uçarlar.

Ey Zəbih, Haqqın əməllərinə nəzər sal və de: Böyükdür, necə böyükdür Onun qüdrəti ki, bütün aləmləri əhatə edib! Ucadır, nəhayətsiz ucadır Onun paklığı ki, bütün məxluqatın əli Ona yetişmir! Eşq olsun, eşq olsun Onun məzlumluğuna ki, ondan yaxınların qəlbinə od düşür!

Düşmənlərin əlində saysız-hesabsız bəlalara mübtəla olmağımıza baxmayaraq, Biz Allahın istədiklərini bir-bir yer üzünün bütün başçılarına çatdırdıq. Qoy bütün ümmətlər bilsinlər ki, bəlalar Əzəli Varlığın Qələminin qarşısını kəsə bilməz, çünki o, çürümüş sümüklərə surət bəxş edən Allahın izni ilə hərəkət edir.

İndi bu əzəmətli işlə əlaqədar yaxşı olar ki, dostlar xidmət kəmərini möhkəm bağlasınlar, fikirlərini Allahın Əmrinin zəfərinə kömək edən şeylərdə toplasınlar və alçaq və ikrah doğuran işlərlə məşğul olmasınlar. Əgər haqqın aşkara çıxan işlərinə və əməllərinə bir qədər diqqət yetirsən, üzünü torpağa qoyub deyərsən: "Ey Rəbblərin Rəbbi, şəhadət verirəm ki, Sən varlığın Mövlası, görünən və görünməz şeylərin Tərbiyəçisisən. Şəhadət verirəm ki, Sənin qüdrətin bütün kainatı bürüyüb, yer üzünün qoşunları Səni qorxuda bilməz və bütün millətlərin və xalqların gücü məqsədini yerinə yetirməkdən Səni saxlaya bilməz. Şəhadət verirəm ki, Sənin, dünyanın canlanmasından, onun xalqlarının birləşməsindən və nicat tapmasından özgə bir istəyin yoxdur!"

İndi bir qədər düşünün ki, Haqqın dostları necə davranmalı və hansı məqamlara uçmalıdırlar. Hər zaman öz Mərhəmətli Rəbbindən xahiş et ki, onları Onun istədiklərini etməkdə müvəffəq eyləsin. Həqiqətən, O, Qüdrətli, Şərəfli və Hər şeyi Biləndir.

Ey Zəbih, bu Məzlumun düşdüyü məhbusluq Ona heç bir ziyan vurmamışdır və vura da bilməz. Nə də qarət, əsirlik və hətta Onun şəhidliyi, zahirən alçaldılması Ona zərər vura bilər. Ona ziyan vuran Haqqın dostlarının törətdiyi əməllərdir ki, onları Haqqa mənsub edirlər. And olsun aləmlərə hökmran olan Kəsə ki, Mənə ziyan vuran budur! Ən böyük ziyan odur ki, hər gün Bəyan əhlindən kimsə bir iddiaya düşür. Bəziləri Mənim Budaqlarımdan birinə tərəfdarlıqlarını bəyan etmiş, bəziləri də müstəqil şəkildə öz iddialarını qaldırır və istədikləri kimi hərəkət edirlər.

Ey Zəbih, Əzəmət Dili buyurur: And olsun Həqiqəti söyləyən Varlığıma! Bu ən böyük Zühurla bütün Zühurlar ən yüksək və son həddinə çatdı. Ondan sonra zühura iddia edən kəs yalançı və iftiraçıdır. Allahdan diləyimiz budur ki, onu bu iddiadan dönməyə müvəffəq eyləsin. Əgər o, tövbə edərsə, Allah onun tövbəsini qəbul edər. Əgər dediyində israr edərsə, Allah rəhmsiz bir kəsi onun üstünə göndərər. Həqiqətən, O, Qüdrətli və Qadirdir!

Bax gör, Bəyan əhli bunu dərk etməyib ki, Mənim əvvəlki Məzhərim və Camalımın Müjdəçisi nə buyurubsa, Mənim Zühurumu nəzərdə tutaraq və Mənim Əmrimi elan edərək buyurub. Yoxsa, and olsun Haqq olan Varlığa ki, O buyurduqlarından bir kəlməni də söyləməzdi. Bu cahillər Ulu və Ehtiyacsız Allahın Əmrini oyuncaq sanıblar, hər gün bir xəyala düşür və bir biyabanda dolaşırlar. Əgər Əmr onların dediyi kimi olsaydı, Rəbbinin Əmri necə ərşdə sabit qərar tuta bilərdi?! Fikirləş və axtaranlardan ol! Fikirləş və duyanlardan ol! Fikirləş və dönməzlərdən ol! Fikirləş və əminlərdən ol! Əgər bütün insanlar heç kəsin heç vaxt etmədiyi və heç kəsin dərk edə bilmədiyi bir şeyə iddia etsələr belə, onlara fikir vermə və onları arxada buraxıb aləmlərin Qibləsinə üz tut!

Canıma and olsun, bu Əmr böyükdür, çox böyükdür! Və bu Gün əzəmətlidir, çox əzəmətlidir! Xoş o kəsin halına ki, aləmi bir kənara atıb üzünü Öz nuru ilə göyləri və yerdəkiləri işıqlandıran Üzə tərəf tutar!

Ey Zəbih, iti göz və möhkəm ürək gərəkdir və misdən ayaq lazımdır ki, nəfs qoşununun təhrikləri önündə büdrəməsin. Budur qəti hökm ki, Əzəl Sahibinin iradəsi ilə İsmi-Əzəmin qələmindən süzülüb nazil oldu. Onu göz bəbəyi kimi qoru və şükr edənlərdən ol! Gecə-gündüz Haqqın Əmrinə xidmət elə və Ondan başqa hər şeydən əlini üz. Canıma and olsun, bu Gün gördüyün şeylər mütləq fənaya uğrayacaq. Əgər sən öz Mövlanın Əmrində dönməz olsan, məqamın son dərəcə uca olacaq. Sənin bütün məşğuliyyətin Onun qarşısındadır və sənin son məkanın Onun yanında olacaq.

## Seçmə 116 (↑)

EY XRİSTİAN HÖKMDARLARI! Məgər eşitməmisiniz ki, Ruh (Həzrət İsa) söyləyib: “Mən gedirəm və yenə gələcəyəm”. Elə isə nə üçün O, buludların kölgəsində gəldiyi zaman Onun camalını görmək üçün Ona yaxınlaşmadınız və Onun hüzuruna çatıb şərəfə nail olmadınız? Başqa bir məqamda isə O deyib: “Haqqın Ruhu gəldiyi zaman sizə doğru yolu göstərəcək”. Amma O, haqq ilə gələrkən, siz Ona üz tutmadınız, nəfsinizin istəyi ilə əylənməkdə davam etdiniz, Onu qarşılayıb hüzuruna yetişmədiniz ki, Onun öz dilindən Allahın ayələrini eşidəsiniz və Qüdrət, Cəlal və Hikmət Sahibi olan Allahın hikmətindən agah olasınız. Beləcə, siz öz könüllərinizi Allahın nəsimindən və öz ürəklərinizi onun ətrindən məhrum etdiniz. Ehtiraslar vadisində sərgərdan qalmaqda davam etdiniz. Siz və sizin malik olduqlarınız mütləq fənaya uğrayacaq və siz, əlbəttə, Allahın yanına qayıdaraq, bütün məxluqatın toplaşdığı yerdə həyatınız boyu etdiklərinizə görə sorğu-suala tutulacaqsınız...

Ey hökmdarlar, iyirmi ildir ki, hər gün bizə yeni bir bəla üz verir. Əgər siz eşidənlərdənsinizsə, bilin ki, bizim başımıza gələnlər bizdən əvvəl heç kəsin başına gəlməyib. Belə ki, bizi öldürdülər, qanımızı tökdülər, əmlakımızı əlimizdən aldılar, hörmətdən saldılar. Siz bunların əksəriyyətini eşitdiniz, lakin qarşısını almadınız. Halbuki, siz gərək zalımların zülmünə mane olasınız, insanlar arasında ədalətlə hökmranlıq edəsiniz və bununla da öz ədalətinizi bütün bəşərin içərisində nümayiş etdirəsiniz.

Allah insanların ixtiyarını sizin əlinizə onun üçün verib ki, siz onlar arasında ədalətlə hökm edəsiniz, məzlumların haqqını qoruyasınız və zalımları cəzalandırasınız. Əgər siz Allahın Kitabında əmr olunanlara əməl etməsəniz, sizin adlarınız Onun yanında ədalətlə xatırlanmaz—bu isə, həqiqətən, ən böyük bir ziyandır. Məgər siz öz nəfsinizin hökmünə tabe olub Ulu, Uca, Qalib və Qüdrətli Allahın hökmündən çıxmaqmı istəyirsiniz?! Yanınızda olanları boşlayın və Allahın sizə əmr etdiklərindən yapışın, sonra da Ondan mərhəmət gözləyin—doğru yol budur!

Bizim halımıza nəzər salın, bizə dəyən ziyana və zərərə diqqət yetirin və bircə an da bizdən qafil olmayın. Sonra bizimlə düşmənlərimiz arasında ədalətlə hökm eləyin—bu, aşkar bir xeyirdir. Beləcə Biz sizə öz əhvalatımızı və başımıza gələnləri nəql etdik ki, Bizim ziyanımızı yüngülləşdirəsiniz və əzablarımızı aradan qaldırasınız. Kim

istəyirsə, yüngülləşdirsin, kim istəmirsə, bilsin ki, Rəbbimiz ən yaxşı köməkçi və yardımçıdır.

Ey Bəndə, Sənə dediklərimizi bəndələrə çatdır, heç kəsdən qorxma və tərəddüd edənlərdən olma. Tezliklə Allah göylərdə və yerdə olanlar arasında Öz Əmrini ucaldar və Öz dəlilini yüksəldər. Elə isə bütün işlərdə Rəbbinə təvəkkül et və üzünü Ona tut, sonra da inkarçılardan üz döndər. Rəbbin olan Allahın köməyi və yardımı ilə kifayətlən. Əgər sultanlardan heç biri Sənə üz tutmasa belə, Biz Özümüzə vəd etmişik ki, Mülk aləmində Sənin zəfərini təmin edəcək və Əmrimizi bütün insanlar üzərində ucaldacağıq.

## Seçmə 117 (↑)

HƏZRƏT MÖVCUD XALQLARIN əmin-amanlıq və rahatlığının və aləmin abadlığının ilkin şərti və səbəbi barədə bir yerdə buyurur: "Labüd məsələ budur ki, yer üzündə böyük bir məclis qurulsun, hökmdarlar və sultanlar həmin məclisdə Böyük Sülhün əsasının qoyulması üçün yollar və vasitələr barədə müzakirələr aparsınlar. Onun da yolu budur ki, böyük dövlətlər dünyanın rahatlığı üçün öz aralarında möhkəm sülhə can atsınlar. Əgər bir hökmdar başqa bir hökmdarın üstünə qalxsa, hamılıqla birləşib onun qarşısını alsınlar. Belə olan surətdə öz ölkə və şəhərlərini qorumaq üçün lazım olan miqdarı çıxmaq şərtilə, dünyanın hərbi sursata və nizami orduya ehtiyacı qalmaz". Budur xalqın, hökumətin və məmləkətin rahatlığının şərti! İnşaallah, Allahın mərhəmətli və Qüdrətli Adının güzgüsü olan hökmdarlar və sultanlar bu məqama nail olar və dünyanı zülmün hökmranlığından qoruyarlar.

Çox çəkməz ki, dünyadakı bütün insanlar bir dil və bir yazı ilə bəzənərlər. O zaman hər kəs hansı şəhərə yollansa, özünü evindəki kimi hiss edər. Bu işlər lazım və vacibdir. Hər bir bəsirət və anlayış sahibi çalışmalıdır ki, deyilənlər gerçəklik və mövcudluq səhnəsinə qədəm qoysun… Bu gün insan o kəsdir ki, özünü bütün bəşər nəslinə xidmətə həsr edir. Həzrət Mövcud buyurur: "Xoş o kəsin halına ki, yer üzü xalqlarının xidmətinə qalxır". Başqa bir məqamda isə buyurur: "O kəs fəxr etməsin ki, vətənini sevir, fəxr etsin o kəs ki, bütün dünyanı sevir". Həqiqətən də, dünya bir vətəndir, yer üzündə olan insanlar isə onun vətəndaşları.

## Seçmə 118 (↑)

EY HÖKMDARLAR, ALLAHDAN çəkinin və Allahın müəyyən etdiyi hədləri aşmayın. Kitabda sizə Əmr edilənləri yerinə yetirin və onlardan kənara çıxmayın. Ehtiyatlı olun, heç kəsə xardal dənəsi qədər də zülm etməyin və ədalət yolu ilə gedin—bu, həqiqətən də, doğru yoldur.

Öz aranızda sülh yaradın və əsgərlərinizi azaldın ki, bununla da məsrəflərinizi azaldıb rahatlıq və sakitlik tapasınız. Əgər aranızdakı ixtilaflara son qoysanız, yalnız şəhərlərinizi və ölkələrinizi qorumaq üçün lazım olan miqdardan savayı, çoxlu qoşunlara ehtiyacınız qalmaz. Allahdan çəkinin, heç bir şeydə mötədilliyi aşmayın və israfçılardan olmayın.

Biz bilirik ki, siz hər gün məsrəflərinizi artırırsınız və onların yükünü rəiyyətinizin üzərinə qoyursunuz. Bu onların çəkə biləcəklərindən xeyli artıqdır və aşkar bir zülmdür. İnsanlar arasında ədalətlə davranın və yer üzündə ədalət mücəssəmələrindən olun! Əgər insaflısınızsa, bilin ki, sizə və sizin şəninizə yaraşan budur.

Ehtiyatlı olun ki, sizə pənah gətirən və sizin kölgənizə sığınan kəslərə zülm etməyəsiniz. Allahdan qorxun və mömin bir həyat sürün. Öz qüdrətinizə, əsgərlərinizə və xəzinələrinizə güvənməyin, sizi yaradan Allaha arxalanın, bütün işlərinizdə Ondan kömək diləyin—kömək yalnız Ondandır, O istədiyi şəxsə göylərin və yerin qoşunları ilə kömək göstərər.

Sonra bilin ki, yoxsullar sizin aranızda Allahın əmanətləridir. Ehtiyatlı olun, Onun əmanətlərinə xəyanət etməyin və onlara zülm edib xəyanətkarlardan olmayın. Siz Onun əmanəti barədə elə bir Gündə mütləq sorğu-suala tutularsınız ki, o Gün ədalət tərəzisi qurular, bütün haqqı çatanlara haqları verilər, bütün varlıların və yoxsulların əməlləri həmin tərəzidə çəkilər.

Əgər siz bu Lövhdə misilsiz və aydın bir dillə sizə verdiyimiz nəsihətlərə qulaq asmasanız, hər tərəfdən sizi əzab bürüyər və Allahın ədalətli hökmü sizin əleyhinizə səslənər. O zaman sizin Ona müqavimət göstərməyə gücünüz çatmaz və öz acizliyinizi etiraf edərsiniz. Elə isə özünüzə və bəndələrə rəhminiz gəlsin, onlar arasında Allahın uca və müqəddəs Lövhədə hökm etdiklərinə əsasən hakimlik eləyin.

Həmin Lövhədə O hər bir şeyin həddini müəyyənləşdirib, bütün şeyləri təfsilatı ilə izah edib və onu yəqinlik hasil edən bəndələr üçün bir xəbərdarlığa çevirib.

Bizim Əmrimizi araşdırın və Bizim başımıza gələnləri aydınlaşdırın, sonra da Bizimlə düşmənlərimiz arasında hakimlik edərək ətrafındakı insanlara ədalətlə davrananlardan olun. Əgər siz zalımın zülmünə mane olmasanız və məzlumun haqqını müdafiə etməsəniz, bəndələr arasında hansı haqqla öyünə bilərsiniz? Onda nə ilə fəxr edə bilərsiniz? Yoxsa, siz yediklərinizlə, içdiklərinizlə, xəzinələrinizə yığdığınız sərvətlə, yaxud qırmızı və sarı daşlardan, qiymətli və parlaq ləl-cəvahiratdan ibarət olan zinətlərinizlə fəxr edirsiniz?! Əgər bu fani əşyalarla fəxr etmək mümkün olsaydı, onda gərək torpaq sizin qarşınızda öyünəydi, çünki hər şeyi müəyyənləşdirən qadir Allahın hökmünə əsasən, bütün bunları sizə məhz o bağışlayır və əta edir. Allah bunların hamısını torpağın bətnində yerləşdirib və Öz fəzli sayəsində sizin üçün aşkara çıxarır. Elə isə öz halınıza baxın və əgər anlayanlardansınızsa, görün, nə ilə fəxr edirsiniz!

Yox, and olsun yaranmışların səltənətini ovcunda saxlayan Kəsə! Siz yalnız onunla fəxr edə bilərsiniz ki, özünüz Allahın hökmlərindən möhkəm yapışasınız, Onun qanunlarına ürəkdən tabe olasınız, heç kəsin Allahın hökmlərindən uzaqlaşmasına imkan verməyəsiniz və səbatla doğru yolla gedəsiniz...

## Seçmə 119 (↑)

EY ƏMİRLƏR TAYFASI! Nə üçün bulud kimi Günəşin üzünü örtüb onun işıq saçmasına mane olursunuz? Uca Qələmin sizə verdiyi nəsihətləri eşidin ki, bunun sayəsində həm siz, həm də yoxsullar və kimsəsizlər rahatlıq tapsınlar. Allahdan diləyirik ki, hökmdarların yer üzündə sülh yaratmasına yardım göstərsin. Həqiqətən, O istədiyini etməyə qadirdir.

Ey hökmdarlar tayfası! Biz görürük ki, siz hər il məsrəflərinizi artırır və bunu rəiyyətin boynuna qoyursunuz. Bu isə böyük bir zülmdür. Bu Məzlumun ahından və göz yaşlarından qorxun, rəiyyətin boynuna taqətlərindən artıq yük qoymayın, özünüzə saraylar ucaltmaqdan ötrü onları soymayın, özünüzə rəva bildiyinizi onlara da rəva görün. Əgər siz anlayansınızsa, bununla Biz sizə faydası olan şeyləri bəyan edirik. Belə ki, onlar sizin xəzinələrinizdir. Məbada Allahın hökm etmədiklərini onlara hökm edəsiniz və məbada onları oğruların əlinə tapşırasınız. Siz onlara hökmranlıq edirsiniz, onlardan yeyirsiniz, onların sayəsində qalib gəlirsiniz, bununla belə, onlara təkəbbürlə baxırsınız. Həqiqətən, bu, qəribə, çox qəribə bir işdir!

Əgər siz Böyük Sülhü bir kənara atırsınızsa, onda bu Kiçik Sülhdən yapışın ki, bəlkə onun vasitəsilə sizin və sizin kölgənizdə olanların vəziyyəti bir qədər yaxşılaşdı.

Ey əmirlər tayfası! Öz aranızda sülh yaradın ki, ölkələrinizi və ərazilərinizi qorumaqdan ötrü lazım olan miqdardan savayı, əsgərlərə və silah-sursata ehtiyacınız qalmasın. Hər şeyi Bilən və Etibarlı Kəs tərəfindən verilən nəsihəti qulaqardına vurmaqdan çəkinin.

Birləşin, ey hökmdarlar tayfası, əgər anlayansınızsa, bilin ki, bununla sizin aranızdakı ixtilaf yelləri sakitləşər, rəiyyətiniz və ətrafınızda olan kəslər rahatlıq tapar. Əgər sizlərdən biri digərinə hücum edərsə, hamınız onun əleyhinə qalxın, zira bu, aşkar bir ədalətdir.

## Seçmə 120 (↑)

EY HƏR BİR diyardakı məclis üzvləri! Əgər siz axtaranlardansınızsa, dünyanı və onun halını yaxşılaşdıracaq şeylər barədə tədbir tökün və müzakirələr aparın. Baxın, dünya insan bədəninə bənzəyir: o, sağlam və kamil şəkildə xəlq olunub, amma müxtəlif və çeşidli səbəblərdən onu xəstəliklər və bəlalar bürüyüb. Onun halı bir gün də yaxşılaşmayıb, əksinə, xəstəliyi daha da ağırlaşıb, çünki o öz nəfslərinin atına minərək sərgərdan qalan və yolunu azan bacarıqsız həkimlərin ixtiyarında olub. Və əgər müəyyən bir əsrdə onun əzalarından biri mahir həkimin sayəsində yaxşılaşıbsa da, digər əzaları əvvəlki halda qalıb. Beləcə, Hər şeyi Bilən və Hikmət Sahibi olan Allah sizi agah edir.

Bu gün isə Biz onun təkəbbür şərabından elə məst olmuş adamların əli altında olduğunu görürük ki, onlar nəinki bu ecazkar və əzəmətli Əmri, hətta öz xeyirlərini də anlamırlar. Əgər onlardan kim isə onu sağaltmağa səy göstəribsə, onun məqsədi yalnız bundan aşkar və ya gizli şəkildə faydalanmaq olub və niyyətinin layiqli olmaması onun sağaltmaq və şəfa vermək qabiliyyətini zəiflədib.

Rəbbin bütün dünyanın sağalması üçün müəyyən etdiyi ən təsirli dərman və ən güclü vasitə bütün dünya xalqlarının bir ümumi Əmrdə, Vahid bir Dində birləşməsidir. Bu isə yalnız və yalnız mahir, kamil və Allahdan ilham alan Təbibin sayəsində mümkün ola bilər. Canıma and olsun, həqiqət budur və ondan savayı hər şey açıq-aşkar azğınlıqdan başqa bir şey deyildir...

## Seçmə 121 (↑)

DE: EY ƏDAVƏT əhli! Qəzəbinizdən ölün! Cəlal Günəşi Əmr üfüqündən parladı və öz ziyası ilə bütün varlıq aləmini işıqlandırdı, siz isə onun ziyasından özünüzü pərdələdiniz və qafillərdən oldunuz. Elə isə özünüzə rəhminiz gəlsin, artıq həqqaniyyətini qəbul etdiyiniz Kəsə qarşı kafirlik etməyin və həddini aşanlardan olmayın.

Haqq olan Allaha and olsun, əgər siz bu Əmri inkar etsəniz, bütün dünya sizə gülər və rişxənd edər, çünki siz insanlar arasında öz Əmrinizin doğruluğunu isbat etmək üçün Qoruyan, Qüdrətli, Şərəfli və Hər şeyi Bilən Allahın ayələrini dəlil gətirdiniz, amma növbəti dəfə Onun Vəhyi əzəmətli səltənətlə nazil olanda, Onu inkar etdiniz. Vay sizin halınıza, ey qəflət əhli!

Məgər siz özlüyünüzdə elə zənn edirsiniz ki, Günəşin ziyasının qarşısını ala, ya onun parlaqlığını söndürə bilərsiniz?! Yox, canıma and olsun ki, əgər siz və sizdən əlavə göylərdə və yerdə olan bütün məxluqat Ona qarşı birləşsəniz də, buna gücünüz və qüdrətiniz çatmaz. Allahdan qorxun, öz əməllərinizi batil etməyin. Allahın kəlamını eşidin və pərdə arxasında qalanlardan olmayın. De: And olsun Allaha! Mən gəlişimlə Özüm üçün bir şey istəməmişəm. Mən yalnız Allahın və Onun Əmrinin qələbəsini istəmişəm, Onun Özünün dediklərimə şahid olması kifayətdir. Əgər siz gözlərinizi -təmizləsəniz, görərsiniz ki, Mənim əməllərim sözlərimi təsdiq edir, sözlərim isə əməllərimə dəlildir.

Sizin gözləriniz kordur! Məgər siz Allahın qüdrət və səltənətini görmürsünüzmü?! Onun əzəmət və böyüklüyünü anlamırsınızmı!? Vay sizin halınıza, ey şər və ədavət əhli! Mənim sözlərimi eşidin və bircə an da durmayın! Rəhmanın Camalı sizə belə əmr edir, bəlkə siz yanınızda olanlardan əl çəkib elə bir səmaya ucalasınız ki, oradan bütün aləm əhlinin Onun Əmrinin kölgəsinə sığındığının şahidi olasınız.

De: Bu gün Allahın şiddətli qəzəbindən və qarşısıalınmaz hökmündən qaçmaq üçün heç kəsə bir yer, bir sığınacaq və ya bir pənah tapılmaz—Onun Əmrinin kölgəsindən başqa! Bu, Onun Vəhyidir ki, Qulamın qiyafəsində zühur edib. Bu parlaq, şərəfli və ecazkar görkəmə görə həmd olsun Allaha!

Özünüzü Məndən başqa hər şeydən azad edin, sonra da üzünüzü Mənim üzümə tutun, çünki bu, sizə malik olduqlarınızdan daha xeyirlidir. Allahın Dili Mənim sözlərimin doğruluğuna Mənim həqiqəti söyləyən, hər şeyi əhatə və hər şeyə nüfuz edən Sözümlə şəhadət verir.

De: Siz elə düşünürsünüz ki, sizin Onun Əmrini qəbul etməyinizin Ona bir faydası var? Yaxud sizin üz döndərməyinizlə O ziyana uğrayar? Qalibiyyətli, Əlçatmaz və Uca Zatıma and olsun ki, yox! Adların və onların səltənətinin pərdələrini cırın! And olsun Camalıma, Adlar Sultanı gəlmişdir. O Kəs ki, əvvəli olmayan əvvəldən Öz əmri ilə adları O yaratmışdır və bundan sonra da necə istəsə, onları O yaradacaqdır. Həqiqətən, O Qüdrət və hikmət Sahibidir!

Ehtiyatlı olun, bədənlərinizi İlahi hidayət libasından məhrum etməyin. Sonra Cənnət qılmanlarının başınız üstündə dolandırdığı piyalədən için. Belə əmr edir sizə o Kəs ki, sizə qarşı özünüzdən də mərhəmətlidir və sizdən nə əcr, nə də mükafat istəyir. Onun mükafatı yalnız o Kəsdəndir ki, Onu haqq ilə göndərdi, Onu seçdi, Onu cəmi məxluqatdan ötrü Öz Dəlilinə çevirdi və Onu bütün əlamətlərlə zühur etdirdi. Elə isə nəzərlərinizi Ona doğru çevirib Əzəli Varlığın Dilinin sizə dediklərini eşidin ki, bəlkə həqiqətdən agah oldunuz. Məgər siz ata-babalarınızdan və birinci Adəmə qədər gedib çıxan əcdadlarınızdan belə bir şey eşitmisinizmi ki, bir Kəs Əmr buludları üzərində açıq-aşkar və üstün hökmranlıqla gəlsin, Onun sağında Allahın Mələkutu, solunda Onun Əzəli Cəbərutu, önündə isə Qüdrətli, Qabiliyyətli və Qadir Allahın qoşunları hərəkət etsin və O hər an elə ayələr söyləsin ki, ariflərin könülləri onları anlamaqda aciz qalsın, amma Onun dedikləri Allah tərəfindən olmasın?! Elə isə ayılın və əgər özünüzü doğruçu və alicənab sanırsınızsa, həqiqəti söyləyin, xalis həqiqəti.

De: Bizim açdığımız ayələr, bundan əvvəlki Vəhydə Əliyə (Həzrət Baba) nazil olanlar qədər çoxdur. Əgər kimsə Ruhun dediklərinə şübhə edirsə, qoy Bizim hüzurumuzda hazır olsun və Bizim Allahdan nazil olan ayələrimizi eşidərək iddiamızın aydın dəlilinə gözü ilə şahid olsun.

De: Allahın həqqaniyyətinə and olsun! Allahın neməti tamamlandı, Onun Sözü yerinə yetdi, Üzü işıq saçdı, səltənəti bütün xilqəti bürüdü, Əmrinin cəlalı aşkar oldu və səxavəti bütün insan aləminin üzərinə yağdı.



## Seçmə 122-166--Fərdin Vəzifələri və Həyatın Ruhani Mənası (↑)

## Seçmə 122 (↑)

İNSAN—ƏN BÖYÜK tilsimdir. Lakin lazımi təlim-tərbiyənin olmaması onu fitrətən malik olduqlarından məhrum edib. Allah onu bir kəlmə ilə xəlq etdi, digər kəlmə ilə təlim Mənbəyinə doğru istiqamətləndirdi, başqa bir kəlmə ilə də onun məqam və taleyini qorudu. Həzrət Mövcud buyurur: “İnsana qiymətli daşlarla zəngin bir mədən kimi bax. Ancaq təlim-tərbiyə nəticəsində ondakı cəvahirat üzə çıxar və bəşəriyyət ondan fayda götürər”. Əgər bir kəs Allahın Müqəddəs İradə səmasından nazil olan Kitablara bəsirət gözü ilə nəzər salıb fikirləşsə, asanlıqla dərk edər ki, onların məqsədi bütün insanlara vahid bir ruh kimi baxmaqdır ki, bütün qəlblərdə “Hökmranlıq Allaha məxsusdur!” möhürü həkk olunsun və İlahi inayət, fəzl və mərhəmət nuru bütün bəşəri bürüsün.

Şərəfli Haqq Özü üçün heç nə istəməyib—nə aləmin itaətindən Ona bir xeyir dəyər, nə də insanların üz döndərməsindən Ona bir ziyan yetişər. Hər an Bəyan Səltənətinin Quşu bu sözləri söyləyir: “Hər şeyi sənin üçün istəmişəm, səni isə Özüm üçün!” Əgər dövranın üləmaları yer üzündəki insanların məhəbbət və birlik ətrini duymasına imkan versələr, o zaman ariflər həqiqi azadlığın nə olduğunu anlayarlar və əsl rahatlığa, mütləq əmin-amanlığa qovuşarlar. Əgər yer üzü bu məqamın Günəşi ilə nurlansa, onda bu sözlər öz təsdiqini tapar: “Sən onda nə bir eniş görərsən, nə də bir yoxuş!”

  

## Seçmə 123 (↑)

HANI SİZDƏN ƏVVƏL yaşamış nəsillər, ya ölkələrində olan ən yaxşı və ən gözəl şeylərlə əhatə olunmuş kəslər?! İbrət alın, ey insanlar və yolunu azanlardan olmayın!

Tezliklə sizdən başqaları gələr, sizin mallarınızı ələ keçirər və sizin evlərinizdə sakin olar. Mənim sözlərimi eşidin və cahillərdən olmayın!

Hər kəs özü üçün elə bir şey seçməlidir ki, heç kəs onu ələ keçirə bilməsin və bütün hallarda onun öz əlində qalsın. And olsun Allaha, əgər siz ariflərdənsinizsə, bilin ki, bu, Allahın məhəbbətidir.

Özünüzə elə evlər tikin ki, yağışlar və sellər onları dağıda bilməsin və onlar sizi zamanın hadisələrindən qorusun. Belə öyrədir sizi bu tənha Məzlum!

## Seçmə 124 (↑)

HƏR CÜR MƏHDUDİYYƏTDƏN uzaq və mövcudatın idrakından üstün olan ecazkar Birlik Əbədi Varlığın şərəfli dərgahına necə də yaraşır! O əzəldən və həmişə Öz müqəddəs və şərəfli məkanında olub və əbədi olaraq da Öz istiqlal və cəlal məqamında qalacaqdır. Onun pak Mahiyyəti yaranmışların idrakından nə qədər ehtiyacsız olmuşdur və nə qədər də yerin və göylərin sakinlərinin tərifindən uca və yüksək olacaqdır!

Sonsuz səxavətinin ucalığı və hədsiz kəramətinin yüksəkliyi sayəsində O, görünən və müşahidə olunan bütün şeylərdə Öz irfanının əlamətini əmanət qoyub ki, heç bir şey öz imkanı və mərtəbəsi çərçivəsində Onu tanımaqdan məhrum qalmasın. Həmin əlamət—xilqət aləmində onun Camalının güzgüsüdür. Və bu ən yüksək və ən uca güzgünün təmizlənməsi üçün nə qədər çox səy və cəhd göstərilsə, onun adları və sifətlərinin təzahürləri, Onun elm və əlamətlərinin görüntüləri həmin güzgüdə bir o qədər aydın görünər və əks olunar. İş o yerə çatar ki, hər bir yaradılmış şey öncədən müəyyən olunmuş məqamına uyğun öz gücünü zahir edər, öz həddini və imkanlarını bilər və ondan "O, həqiqətən, Allahdır və Ondan başqa Allah yoxdur!" həqiqətinə şəhadət nidası eşidilər...

Bu güzgü mənəvi cəhdlər və ruhani səylər nəticəsində bu dünyanın çirkablarından və şeytani təsəvvürlərdən təmizlənib ilahi qüdsiyyət bağçasına və əbədi ünsiyyət məkanına yaxınlaşa və qovuşa bilər. Lakin hər bir işin öz vaxtı və hər meyvənin öz fəsli var, ona görə də bu inayətin təzahürü və bu səxavətin baharı Allahın Günlərinə təsadüf edir. O, bütün günlərə onların mahiyyətinə uyğun olaraq, Öz fəzlinin möcüzələrindən bir pay bəxş etsə də, Zühur Günləri üçün müdriklərin idrakına sığmayan bir məqam müəyyənləşdirib. Belə ki, əgər göylərdə və yerdə olanların qəlbləri bu daimi sevinc günlərində o solmaz İlahi Şərəf Günəşinin qarşısında dayanıb Ona diqqət yetirsələr və Onun İradəsinə tabe olsalar, hamılıqla özlərinin müqəddəsləşməsinin, Onun işığından nurlanmasının və Onun fəzli ilə saflaşmasının şahidi olarlar. Necə də ucadır bu fəzl ki, heç bir fəzl ondan üstün ola bilməz! Necə də ucadır bu inayət ki, dünyada onun bənzəri və xilqətdə onun oxşarı ola bilməz! Necə də ucadır O—Ona aid edilən sifətlərdən və Onun haqqında deyilənlərdən!

Buna görədir ki, həmin günlərdə heç kəsin heç kəsə ehtiyacı olmayıb və olmayacaq. Artıq aşkarlığı ilə göründüyü kimi, o ilahi Gündə Rəbbin dərgahının qasidləri elə bir elm və hikmətlə dilə gəlmişlər ki, həmin müqəddəs və pak şəxslərdən başqa heç kəs, lap min il təlim və təhsillə məşğul olsa da, onun bir sözündən belə agah olmamışdır və olmayacaqdır. Odur ki, İlahi Həqiqət Günəşinin zühur etdiyi günlərdə Allahın dostları heç bir elmə ehtiyac duymamış və möhtac olmamışlar, əksinə, elm və hikmət çeşmələri onların öz qəlbləri və fitrətlərindən fasiləsiz olaraq axmış və çağlamışdır.

## Seçmə 125 (↑)

EY MƏNİM QARDAŞIM! Əzəl Sultanını dərk etmək yoluna axtarış qədəmini qoymaq istəyən mücahid şəxs hər şeydən əvvəl gizli ilahi sirlərin aşkara çıxdığı məkan olan qəlbini kəsb edilmiş elmlərin qara tozlarından və şeytani istəklərin izlərindən büsbütün təmizləməli və pak etməlidir. Bundan başqa, Əzəli Məhbubun daimi məhəbbət məbədi olan sinəsini tamamilə saflaşdırmalıdır. Həmçinin ürəyini su və torpaq dünyasına bağlılıqdan, yəni kölgə kimi ötəri akslərin və keçəri surətlərin hamısına bağlılıqdan xilas etməlidir. O qəlbini elə təmizləməlidir ki, orada sevgi və nifrət izləri qalmasın və beləliklə, sevgi onu kor-koranə yanlışlığa meyllendirməsin, yaxud nifrət onu həqiqətdən -uzaqlaşdırmasın. Necə ki, bu gün insanların əksəriyyəti məhz bu iki səbəbdən Əbədi Üzdən və İlahi Mənalar Həzrətindən uzaq düşmüşlər və çobansız azğınlıq və unutqanlıq çöllərində sərgərdandırlar.

Həmin şəxs hər zaman Haqqa təvəkkül etməli və insanlardan üz döndərməlidir. Torpaq dünyasından əl çəkməli və Rəbblər Rəbbinə bağlanmalıdır. Özünü heç kəsdən üstün tutmamalı, lovğalıq və təkəbbürü qəlbinin lövhəsindən silməlidir. Dözüm və səbrə könül verməli və susmağı özünə şüar etməli və mənasız danışıqdan qaçmalıdır, çünki dil—közərən oddur, çox danışmaq isə öldürücü zəhərdir. Adi od bədənləri, dilin odu isə ruhları və könülləri yandırır. Birincinin təsiri ancaq bir qədər sürər, ikincinin təsiri isə bir əsr qalar.

O şəxs həmçinin qeybəti azğınlıq saymalı və heç vaxt ona aludə olmamalıdır, çünki qeybət qəlbin yanan çırağını söndürər və ruhun həyatını məhv edər.

Aza qane olmalı və çox istəmək fikrindən daşınmalıdır. Bu dünyadan inqita edənlərlə yoldaşlığı qənimət bilməli, acgöz və təkəbbürlü kəslərdən gen gəzməyi nemət sanmalıdır. Səhərlər zikrlə məşğul olmalı və var qüvvəsi ilə o Yarı axtarıb tapmağa çalışmalıdır. Məhəbbət və zikr odu ilə qəfləti yandırmalı, Allahdan başqa hər şeyin yanından şimşək tək ötüb keçməlidir. Binəsiblərə əl tutmalı, yoxsullardan öz səxavətini əsirgəməməlidir. Nəinki dili olan insanlara, hətta dilsiz-ağızsız heyvanlara qarşı da mehriban olmalıdır. Canını Canandan əsirgəməməlidir və xalqın tənəsindən qorxub Haqdan uzaqlaşmamalıdır. Özünə rəva görmədiyini başqasına da rəva görməməli, etməyəcəyi şey üçün söz verməməlidir. Şər iş törədənlərdən tam qətiyyətlə yan keçməli və onların bağışlanmasını diləməlidir. Günahkarların günahı

üzərindən əfv qələmi çəkməli və onlara həqarətlə baxmamalıdır, çünki heç kəsin aqibəti məlum deyil. Nə çox günahkarlar ölüm anında iman cövhərinə yetişib əbədiyyət şərabını içər və Səma Sakinlərinə qoşular. Və nə çox itaətkarlar və möminlər ruhları bədənlərindən çıxan zaman dəyişilər və cəhənnəmin dibinə vasil olar.

Xülasə, bütün bu inandırıcı sözlərdən və qətiyyətli göstərişlərdən məqsəd odur ki, həqiqəti axtaran yolçu Allahdan başqa hər şeyi fani bilməli və Məbuddan başqa hər şeyi bir heç sanmalıdır.

Və bunlar ali şəxslərin xüsusiyyətləri və ruhanilərin keyfiyyətləridir ki, Elnül-yəqin yolu ilə gedən mücahidlər üçün lazım olan şərtlər kimi xatırlandı. Həqiqəti axtaran yolçu yalnız bu vacib məqamlara yetişdikdən sonra ona "mücahid" demək doğru olar. Elə ki, o "Bizdən ötrü cihad edənlər" sırasına qoşular, şübhəsiz, o zaman "onlara Öz yollarımızı göstərərik" müjdəsini alar.

Və elə ki, onun qəlbində axtarış, səy, şövq, vəfa, eşq, valehlik, cazibə və sevgi çırağı yanar və Birlik dənizindən məhəbbət nəsimi əsər, həmin vaxt şəkk və şübhənin azdırıcı zülməti yox olar və elm və yəqinlik nurları onun bütün vücudunu bürüyər. O anda Gizli Müjdəçi, Ruhun müjdəsi ilə İlahi Şəhərdən sübh şəfəqi tək parlayar və irfan surunun səsi ilə ürəyi, qəlbi və ruhu qəflət yuxusundan oyadar. Və əbədi Müqəddəs Ruhun inayətləri və nemətləri ona yeni həyat bəxş edər. Belə ki, o özünün yeni göz, yeni qulaq, təzə qəlb və ürək sahibi olduğunu görər, kainatdakı aydın əlamətlərə və insan qəlbindəki nişanələrə diqqət yetirər, Allahın ecazkar gözü ilə baxıb hər bir zərrənin Eynül-yəqin və Nurül-yəqin məqamlarına qovuşmaq üçün açılmış qapı olduğunun şahidi olar və hər şeydə İlahi Vəhyin sirlərini və əbədi Zühurun əlamətlərini seyr edər.

And olsun Allaha, əgər hidayət yolu ilə gedən və möminlik mərtəbələrinə yetişmək istəyən kəs bu uca və ülvi məqama qovuşarsa, Haqqın rayihəsini ən uzaq məsafələrdən duyar və İlahi hidayətin nurlu sabahının bütün şeylərin məşriqindən açıldığını dərk edər. Hər bir zərrə və hər bir şey onu Məhbubuna və İstəklisinə doğru istiqamətləndirər. O elə ayıq olar ki, haqq ilə batili günəşlə kölgə kimi bir-birindən seçər. Məsələn, əgər Haqqın nəsimi dünyanın Şərqindən əssə və o da həmin vaxt dünyanın Qərbində olsa, şübhəsiz onu hiss edər. Eləcə də Haqqın bütün

əlamətlərini—onun ecazkar kəlamlarını, yüksək işlərini və parlaq əməllərini başqalarının işlərindən, əməllərindən və əlamətlərindən fərqləndirər. Necə ki, sərraf ləli adi daşlardan və hər bir insan yazı payızdan, istini soyuqdan seçə bilir. Canın burnu dünyanın və məxluqatın zökəmindən xilas olan kimi o, şübhəsiz, Cananın ətrini ən uzaq məsafələrdən duyar və həmin ətrin təsiri ilə Həzrət Mənnanın Yəqinlik Şəhərinə varid olar.

Və o ruhani şəhərdə Həzrət Sübhanın hikmətinin möcüzələrini müşahidə edər. Həmin şəhərdəki Ağacın yarpaqlarının xışıltısından o, bütün gizli elmləri eşidər, həmin şəhərin torpağından Rəbblər Rəbbinin zikrini və tərifini zahiri və batini qulağı ilə dinləyər, “qayıdış”ın və “yenidən dirilmən”in sirlərini öz gözləri ilə görər.

Adlar və Sifətlər Sultanının əmri ilə o Şəhərə nəsib olmuş əlamətlər, nişanələr, təzahürlər və görüntülər barədə nə deyim?! Bu Şəhərə yetişmək yanğını su olmadan aradan qaldırır, Allaha məhəbbəti odsuz alovlandırır. Onun hər bir otunda dərkedilməz Hikmətin sirləri gizlənib, hər gülünün budağında min bülbül şur və şövq ilə oxuyur. Onun ecazkar lalələrindən Musanın odunun sirri aşkar olur və pak nəsimlərindən İsanın Müqəddəs Ruhunun ətri duyulur. Burada qızılsız sərvət, ölümsüz əbədiyyət bəxş olunur. Onun hər yarpağında bir cənnət gizlənir və hər qəsrində min hikmət saxlanır.

Allahı axtarmaq yolunda hünərlə cəhd edənlər Ondan başqa hər şeydən əllərini üzdükdən sonra bu Şəhərə o qədər öyrəşirlər ki, bir an ondan ayrılmağı ağıllarına belə gətirimirlər. Onlar qəti dəlilləri bu məclisin Sünbülündən eşidir, aydın sübutları ondakı Gülün camalından və onun Bülbülünün avazından əxz edirlər. Bu şəhər aşağı-yuxarı hər min ildə bir dəfə təzələnir və bəzənir...

Həmin şəhər Allahın Sözüdür ki, hər bir dövrdə və zühurda göndərilir. Məsələn, Musanın dövründə bu, Tövrat idi, İsanın zamanında—İncil, Məhəmməd Rəsulullahın dövründə Quran idi, indiki əsrdə Bəyandır, Allahın göndərəcəyi Kəsin dövründə isə Onun Öz Kitabı olacaq ki, əvvəlki bütün Kitablar ona istinad etmişlər və o, cəmi Kitablardan üstündür.

## Seçmə 126 (↑)

BİZ HARAYA SÜRGÜN olunsaq da və başımıza nələr gəlsə də, Allah adamları tam qətiyyət və əminliklə nəzərlərini Uca Üfüqə dikməli, dünyanın islahı və ümmətlərin təlim-tərbiyəsi ilə məşğul olmalıdırlar. Bizim başımıza nə gəlibsə və nə gələcəksə, Əmrin yüksəlişinə səbəb olub və olacaq. Elə isə Allahın Əmrini tutun və ondan yapışın, çünki o, Əmr və Hikmət Sahibi tərəfindən nazil olub. Biz hədsiz şəfqət və mərhəmətlə aləm əhlini onlara xeyirli olan şeylərə yönəltdik və yol göstərdik.

Aləmin Ən Uca Üfüqündən parlayan Həqiqət Günəşinə and olsun ki, Allah adamlarının dünyanı abadlaşdırmaq və nəcibləşdirməkdən, insanları saflaşdırmaqdan özgə məqsədi olmayıb və yoxdur. Onlar bütün insanlarla dürüst və səmimi davranmışlar, zahirləri batinləri ilə eyni olub, batinləri də zahirlərini əks etdirib. Onların inandıqları Əmrin həqiqəti gizli və pünhan deyil. Bu həqiqətlər bütün insanların gözü qabağında aşkar və aydındır. Onların əməllərinin özü bu sözləri təsdiq edir.

Bu Gün hər bir göz sahibi Bu Zühur sübhünün nurlarını müşahidə edə bilər, hər bir qulaq sahibi Turda Danışanın nidasını eşidə bilər. İlahi Mərhəmət dənizinin dalğaları elə yüksəyə qalxıb ki, Allahın Əlamətlərinin Məşriqi və Dəlillərin Məzhəri pərdəsiz və açıq şəkildə bütün məzhəblərin və xalqların nümayəndələri ilə oturub-durur və ünsiyyət saxlayır. Neçə-neçə insanlar Bizim Hüzurumuza pis niyyətlə daxil olub, oranı sədaqətli və sevgili dost kimi tərk etmişlər. Fəzilət qapısı hamının üzünə açıqdır. Biz zahirdə günahkarlar və itaətkarlarla eyni cür ünsiyyət saxlayırıq ki, bəlkə bəd əməl sahibləri sonsuz bəxşiş dəryasından agah olalar. Bizim Səttar adımızın işığı elə yayılır ki, pislər də özlərinin yaxşılardan sayıldığını güman edirlər. Bizi axtaranlardan heç kəs məyus olmur, Bizə üz tutanlardan heç biri Hüzurumuza yetişməkdən məhrum edilmir...

Ey dostlar, Onun nəzərində bəyənilmiş əxlaq və gözəl əməllərlə Şərəfli Haqqa kömək göstərin. Bu Gün Allaha kömək etmək istəyən hər bir kəs özündə olana deyil, Allahın yanında olana diqqət yetirməlidir, öz mənfəəti barədə deyil, Allahın itaət olunmalı adının yüksəlişi barədə düşünməlidir. Öz qəlbini nəfsin istəklərindən və ehtiraslarından pak etməlidir, çünki qalibiyyətin silahı və zəfərin ilkin şərti Allahdan çəkinməkdir. Allahdan çəkinmək bir zirehdir ki, Əmrin bədənini qoruyar və bir

qalxandır ki, Allah adamlarına qələbə gətirər. O bir bayraqdır ki, daim müzəffər olub və o bir gücdür ki, heç bir qüvvə ona rəqib ola bilməz. Onun sayəsində Allaha yaxın kəslər Qoşunların Rəbbi olan Allahın izni ilə könül şəhərlərini fəth və məftun etmişlər...

## Seçmə 127 (↑)

DE: EY İNSANLAR, əgər siz Allahı tanımaq və Onun qüdrətini dərk etmək istəyirsinizsə, Mənə yalnız Mənim gözümlə baxın. Siz dünya durduqca Mənim Əmrim barədə düşünsəniz də və Hökmran, Qadir, Həmişəyaşar və Hikmət Sahibi olan Allahın əbədiyyəti boyunca şeylər üzərində fikirləşsəniz də, bundan özgə bir yolla Məni tanıya bilməzsiniz. Beləcə Biz Əmrimizin həqiqətini bəyan etdik ki, bəlkə insanlar qəflətdən qalxdılar və ariflərdən oldular.

Baxın o kəslərin halına ki, hamısı Mənim Özümü və əhli-əyalımı Allahın yolunda və onların imanını qorumaqdan ötrü fəda etməyimin şahidi olmuşlar və yaxşı bilirlər ki, bütün insanların qorxudan titrədiyi və onların özlərinin də dostlardan və düşmənlərdən üzlərini gizlədərək canlarını qorumaqla məşğul olduqları zaman Mən düşmənlərin arasında idim.

Bununla belə, Biz Əmri izhar etdik və elə bir məqama çatdırdıq ki, ürəklərində Qulama kin bəsləyən müşriklərdən başqa hamı Allahın səltənətini və Onun qüdrətli hökmranlığını etiraf etdi. Bütün məxluqatı əhatə edən bu Zühura və aləmdə misli görünməmiş bu Nura baxmayaraq, Bəyan əhli Mənə etiraz etdi. Onlardan bəziləri doğru yoldan üz döndərib iman gətirdikləri Kəsi inkar etdilər və Qüdrətli, Qoruyan, Ulu və Əzəmətli Allaha itaətsizlik göstərdilər. Bəziləri də doğru yolun astanasında duruxaraq Allahın Əmrinin həqiqiliyini o kəsin təsdiq etməsinə bağladılar ki, o Mənim bir sözümlə yaranmışdır. Beləcə, onların əməlləri hədər getdi, amma bunu anlamadılar. Onlardan biri isə Allahı özü ilə müqayisə edərək adlara elə aldandı ki, Mənimlə açıq mübarizəyə qalxdı, Mənim qətlimə fitva verdi və özünün günahkar olduğu şeyləri Mənə aid etdi.

İndi Mən dərdimə və kədərimə görə Məni xəlq edən və Məni göndərən Kəsə şükr edirəm. Və Mənim üçün müəyyən etdiklərinə, tənhalığıma və Ondan -uzaqlaşanların əlində giriftar olmağıma görə Ona həmd edirəm. Mən Allaha təvəkkül edərək, başıma gələn bəlalara dözmüşəm və dözəcəyəm. Və Ona dua edərək deyirəm: “Ya Rəbb, bəndələrini Öz səxavət və bəxşiş dərgahına doğru hidayət eylə, onları öz fəzlinin və lütflərinin möcüzələrindən məhrum etmə, çünki onlar Sənin aləmi bürüyən mərhəmətinlə onlar üçün nə etdiyini bilmirlər. Ya Rəbb, onlar zahirən zəif və köməksiz, daxilən yetimdirlər, Sən isə Kəramətli, Fəzilətli, Ulu və Əzəmətlisən! İlahi,

onlara qəzəblənmə, müəyyən vaxta qədər onlara Öz mərhəmətinin möcüzələrinə layiq olan şəkildə yanaş, bəlkə onlar Sənə doğru qayıdıb Sənə qarşı törətdikləri əməllərə görə bağışlanmalarını dilədilər. Həqiqətən, Sən Bağışlayan və Mərhəmətlisən!..”

## Seçmə 128 (↑)

DE: EY İNSANLAR! Məgər özünü Mərhəmətli Rəbbinə mənsub edən kəsə şeytan əməlləri törətmək yaraşarmı?! And olsun Sübhanın Camalına ki, yox! Əgər siz ariflərdənsinizsə, bunu bilin.

Qəlblərinizi dünya sevgisindən, dillərinizi Ondan başqasının zikrindən, vücudunuzu Onu görməyinizə mane olan və sizi nəfsin istədiklərinə yaxınlaşdıran bütün şeylərdən təmizləyin. Allahdan qorxun, ey insanlar və möminlik yolu ilə gedənlərdən olun!

De: Ey insanlar, əgər siz dediklərinizə əməl etmirsinizsə, onda sizinlə o kəslərin arasında nə fərq var ki, "Bizim Rəbbimiz Allahdır" dedilər, amma O, müqəddəslik buludları üzərində onların yanına gələndə Ona qarşı küfr edib inkarçılardan oldular?! Özünüzü dünyadan və onun bər-bəzəyindən xilas edin. Onlara yaxınlaşmaqdan çəkinin, çünki onlar sizi günaha və pis əməllərə sövq edir və sizin doğru və şərəfli Yolla getməyinizə mane olur.

Bilin ki, "dünya" sözündən məqsəd sizin öz Yaradanınızdan qafil olmağınız və Ondan başqasına bağlanmağınızdır, "axirət"in mənasi isə Şərəfli və Bənzərsiz Allaha yaxınlaşmağınız deməkdir. Bu Gün sizi Allah sevgisindən uzaqlaşdıran bütün şeylər dünya deməkdir. Onlardan qaçın ki, nicat tapanlardan olasınız. Heç bir şeyin təsiri ilə Allahdan uzaqlaşmayan kəsin yer üzünün zinətləri ilə bəzənməsinin və onda olan nemətlərdən faydalanmasının ziyanı yoxdur, çünki Allah göylərdə və yerdə olan bütün şeyləri tövhid əhli olan bəndələri üçün yaradıb. Ey insanlar, Allahın sizə halal etdiklərindən yeyin və özünüzü Onun ecazkar nemətlərindən məhrum etməyin. Sonra Ona təşəkkür edin, təriflər söyləyin və şükr edənlərdən olun.

Ey evini tərk edib Allahın hüzurunu axtaran kəs! Rəbbinin sözlərini insanlara çatdır, bəlkə bu, onların nəfsin və ehtirasın ardınca getməsinə mane oldu və onlara Ulu və Əzəmətli Allahı xatırlatdı. De: Ey insanlar, Allahdan qorxun, qan tökməkdən əl çəkin, heç kəslə ədavət saxlamayın və yaxşılardan olun! Yer üzündə sülh bərqərar olduğu zaman fitnə-fəsad törətməkdən çəkinin və yolunu azanların ardınca getməyin.

Sizlərdən öz Mövlasının Əmrini təbliğ etmək istəyən kəs, qoy hər şeydən əvvəl, özünü tərbiyə etsin ki, onun nitqi eşidənlərin qəlbini cəzb etsin, əks-təqdirdə onun sözləri həqiqəti axtaranların ürəklərinə təsir göstərməz. Məbada, ey insanlar, o

kəslərdən olmayın ki, insanları yaxşı işlər görməyə çağırır, özləri isə bunu unudurlar. Beləlilərinin yalanını öz ağızlarından çıxan sözlər, eləcə də şeylərin həqiqətləri və Allaha yaxın mələklər aşkar edərlər.

Əgər belə bir insanın sözü bir kəsə təsir bağışlayırsa da, bu, onun özündən deyil, Qüdrət və Hikmət Sahibinin müəyyən etdiyi kimi, Allahın Sözlərinin təsirindən irəli gəlir. Allahın yanında o, bir çırağa bənzəyir ki, bəndələr ondan işıq alar, o isə öz-özünə yanar və sönüb qurtarar.

De: Ey insanlar, bəndələr arasında özünüzü və Əmri hörmətdən salan işlər tutmayın və pozuculuq etməyin. Ağlınızın qəbul etmədiyi şeylərə yaxın düşməyin. Günah işlətməkdən çəkinin, çünki bu, Kitabda sizə haram buyurulub. O Kitabda ki, ona Allahın bütün günahlardan təmizləyib müqəddəs etdiyi kəslərdən başqa kimsə toxuna bilməz.

Özünüzə və insanlara qarşı ədalətli olun, elə edin ki, Mənim sadiq bəndələrim arasında sizin əməllərinizdən ədalət əlamətləri aşkara çıxsın. İnsanların malına xəyanət etməkdən çəkinin və onlar arasında etibar qazanın. Allahın Öz fəzli sayəsində sizə verdiklərindən yoxsulları məhrum etməyin, çünki O, xeyriyyəçilik edənə əvəzini verər və öz malından keçənlərə payladıqlarından iki dəfə artıq mükafat verər. Həqiqətən, Ondan başqa Allah yoxdur. Bütün xilqət və səltənət Ona məxsusdur. O, kimə istəyirsə əta edir, kimi istəyirsə məhrum qoyur. O, Bağışlayan, Səxavətli, Qüdrətli və Kəramətlidir. De: Allahın Əmrini təbliğ edin, Ey Bəha əhli, zira Allah Öz Əmrinin təbliğini hər kəsə vacib buyurub və bunu əməllərin ən üstünü edib.

Bu iş isə yalnız təbliğ edənin Qoruyan, Şərəfli və Qadir Allahı tanımasından sonra məqbul sayılar. Və O, təbliğin sözlə həyata keçirilməsini müəyyən edib, başqa yolla yox! Ulu və Hikmət Sahibi olan Allahın səltənətindən əmr belə nazil olub. Kiminləsə mübahisə etməkdən çəkinin, əksinə, gözəl sözlər və bəlağətli nəsihətlərlə Əmri ona çatdırın. Əgər qəbul edərsə, bu, onun özü üçündür: qəbul etməzsə, ondan uzaqlaşın və üzünüzü Allahın müqəddəs nurlu dərgahına doğru tutun.

Dünya və onda olan şeylər üstündə heç kəslə -çəkişməyin, çünki Allah dünyanı dünya əhlinin ixtiyarına buraxıb. Və dünyadan yalnız bəndələrin qəlbini istəyib ki, onları da

vəhy və kəlam qoşunları ilə fəth edər. İlahi hökm Lövhəsində Hökm edən və Hər şeyi Bilən Allah tərəfindən Bəhanın barmaqları ilə əmr belə yazıldı.

## Seçmə 129 (↑)

EY ALLAH YOLUNUN yolçusu!! Allahın mərhəmət dəryasından öz qismətini al və özünü onun dərinliklərində gizlənmiş şeylərdən məhrum etmə. Onun xəzinələrindən pay alanlardan ol. Bu dəryadan bircə qətrə, göylərdə və yerdə olanların üzərinə səpilsə, Qüdrətli, Hər şeyi Bilən, Hikmət Sahibi Allahın kəraməti ilə onları zəngin etməyə kifayət edər. Təmənnasızlıq əlləri ilə ondan götür və bütün yaradılmışların üzərinə səp ki, onlar bəşəri məhdudiyyətlərdən xilas olub, Allahın qüdrətli taxtına, bu müqəddəs və nurlu Məkana yaxınlaşsınlar.

Əgər onu təklikdə etməli olsan, kədərlənmə! Rəbbin ilə kifayətlən, Onun ruhu ilə ünsiyyət bağla və şükr edənlərdən ol! Öz Mövlanın Əmrini göylərdə və yerdə olanların hamısına çatdır. Əgər kimsə sənin çağırışına cavab versə, Ruh tərəfindən sənə təlqin olunmuş Rəbbin Allahın hikmət cəvahirlərini ona aç və həqiqi inananlardan ol. Əgər kimsə üz çevirsə, sən də ondan üz döndər və sənin Rəbbin və aləmlərin Rəbbi olan Allaha təvəkkül eylə.

Haqq olan Allaha and olsun! Bu gün kim öz Rəbbinin adını zikr etməkdən ötrü ağzını açsa, Mənim Hikmət Sahibi olan və Hər Şeyi Bilən adımın səmasından İlahi ilham qoşunları ona nazil olar. Və oun üzərinə hər biri əlində xalis nur piyaləsi ilə Səma Sakinləri enər. Şərəf və Qüdrət Sahibi tərəfindən Əmr səltənətində belə müəyyən olunmuşdur.

And olsun Allaha, Müqəddəs Pərdənin arxasında elə seçilmiş bəndələr gizlədilib ki, onlar yerdə zühur edərək Əmrə kömək göstərəcəklər və əgər bütün insan nəsli onlarla müharibəyə qalxsa da, heç kəsdən qorxmayacaqlar. Onlar göylərdə və yerdə olanların -gözləri qarşısında ayağa qalxıb ən uca səslə Qüdrətli Allahı zikr edəcəklər və insanları Şərəfli və Tərifəlayiq Allahın yoluna dəvət edəcəklər. Onların arxasınca get və heç kəsdən qorxma. Və o kəslərdən ol ki, dünyanın iğtişaşı onları Yaradanın yolunda kədərləndirməz və -camaatın tənəsi onları çəkindirməz.

Allahın Lövhələri və Əlamətləri ilə Mənə iman gətirənlərin yanına get və onlara Müqəddəs Cənnətin müjdəsini ver. Sonra müşriklərə xəbərdarlıq et. De: Ey insanlar, and olsun Allaha, mən sizin yanınıza Cəlal Taxtı tərəfdən Qüdrətli, Ulu və Əzəmətli Allahın xoş xəbəri ilə gəlmişəm. Və sizin Rəbbiniz və keçmiş ata-babalarınızın Rəbbi

olan Allahın dəlilini əlimdə -tutmuşam. Siz onu Peyğəmbərlərin və Rəsulların yanınızda olan dəlilləri əsasında Haqq Tərəzisində çəkin. Əgər onun Allah tərəfindən göndərilmiş həqiqət olduğunu görsəniz, onunla mücadilə etməkdən çəkinin, əməllərinizi zay etməyin və müşriklərdən olmayın. Bu, Allahın əlamətləridir ki, haqq gücü ilə nazil oldu və bununla da Onun Əmrinin gerçəkliyi yer üzündə bərqərar oldu, müqəddəslik bayraqları göylərlə yer arasında ucaldı.

De: bu, möhürlü və sirli bir Səhifədir ki, Allahın dəyişməz Hökmü onda gizli saxlanmış və onda Müqəddəs Barmağın yazdığı və açılmaz sirr pərdəsinə bürünmüş sözlər yazılmışdır və Əzəli Varlıq və Qüdrət Sahibinin fəzlinin bir əlaməti olaraq indi nazil olmuşdur. Orada Biz səma və yer əhlinin taleyini müəyyən etmiş və əvvəldən axıradək bütün elmləri yazmışıq. Heç bir şey Onun elmindən gizli qalmaz, yaranmışların və yaranacağların işləri Onu aciz qoya bilməz. Əgər -ariflərdənsinizsə, bunu bilin.

De: Allahın Vəhyi, şübhəsiz, təkrarlandı və Biz Qüdrət Əlimizi göylərdə və yerdə olanların hamısının üstünə açdıq, Öz böyük sirrimizdən olduqca kiçik bir hissəni xalis yaranmışlara aşkar etdik. O zaman Tur əhli Bizim Sinamıza yayılan bu Qırmızı Nurun parıltısı önündə həlak oldu. Beləcə, Rəhmanın Camalı dəlil -buludları üzərində gəldi və Qüdrət və Hikmət Sahibi olan Allahın hökmü ilə əmr icra olundu.

De: Ey Behişt Hurisi, Uca Səma sakini! Müqəddəs qəsrdən çıx, necə istəyirsənsə, parlaq ipəkdən Əbədiyyət Libasına və Bəha adına naxışlı Nur Əbasına bürün! Sonra Ulu və Uca Rəbbinin ərşi tərəfdən yüksələn şirin və ecazkar nəğmələri dinlə! Sonra Hurilər bəzəyi ilə niqab üfüqündən çıx və bəndələri öz bəyaz üzünün nurlarından məhrum etmə! Əgər yer və səma əhlinin ah-naləsini eşitsən, kədərlənmə. Qoy onlar fəna torpağında ölsünlər və yox olsunlar, çünki onların ürəklərində kin-küdurət alovu şölələnir. Sonra yerdə və göylərdə olanlar arasında Adlar və Sifətlər hökmdarı olan Rəbbinin zikrində ən gözəl nəğmələr oxu! Biz sənin işini belə müəyyən etdik, çünki Biz hər şeyə qadirik.

Məbada, Paklıq Cövhəri olan Vücudundan nur libasını çıxarasan. Əksinə, yaranmışlar səltənətində hər zaman Onun əbədiyyət bəzəklərini artır ki, Sənin sayəndə Allahın zinəti bütün şeylərdə aşkara çıxsın və aləmdəkilərə Sənin Rəbbinin mərhəməti tam şəkildə şamil olsun.

Əgər bir kəsdən Rəbbinə məhəbbətin ətrini duysan, özünü onun yolunda fəda elə, çünki Biz səni bundan ötrü xəlq etmişik və bu barədə Səninlə əbədiyyət aləmində yaxınlarımızın yanında əhd-peyman bağlamışıq. Ehtiras əhlinin atdığı güman oxlarından sızlama, onları öz ixtiyarına burax, çünki onlar şeytanların göstərişlərinə tabe olurlar.

Yer və səma əhli arasında ucadan söylə: Haqq olan Allaha and olsun. Mən elə bir Səma Hurisiyəm ki, Bəha Məni Əbha adının qəsrində xəlq etdi və Səma Sakinlərinin yanında Məni adlar bəzəyi ilə zinətləndirdi. Mən ismət pərdələrinin arxasında saxlanırdım və dünya əhlinin nəzərlərindən gizli idim. O zaman Mən Rəhmanın əmin-amanlıq məkanından ecazkar bir Avaz eşitdim və müşahidə etdim ki, bütün cənnət əhli həmin avazı eşitmək şövqü ilə hərəkətə gəlib və onun Sahibini görmək istəyir. Beləcə, Biz Əbədiyyət Dili ilə “Qəyyumül-əsma”da nazil etdiklərimizi şirin bir avazla bu aydın Lövhədə də nazil etdik.

De: O, Öz hökmranlığına uyğun olaraq, nəyi istəyirsə, hökm edir, Öz iradəsinə əsasən, necə istəyirsə, buyurur. Və O, istədiyinə və buyurduğuna görə sorğu-suala tutulmaz, çünki O, İxtiyar, Qüdrət və Hikmət Sahibidir.

Allaha və Onun hökmranlığına qarşı çıxan kəslər öz ehtiraslarının əsiri olanlardır. Onlar cəhənnəmdəki yerlərinə qayıdarlar. İnkarçıların yeri necə də əzablıdır!..

## Seçmə 130 (↑)

SƏRVƏTİN OLANDA SƏXAVƏTLİ ol, yoxsulluğunda isə şükr elə. Başqalarına münasibətdə etibarlı ol, qoy alnın açıq, üzün ağ olsun. Kasıblar üçün xəzinə, varlılar üçün nəsihətçi ol. Köməyə çağırana cavab ver və öz vədinə sadiq ol. Mühakiməndə insaflı, nitqində ehtiyatlı ol. Heç kəslə ədalətsiz davranma, hamıya qarşı mehriban ol. Zülmətdə çıraq ol, qəmginlərə sevinc gətir, susuzlara dəniz ol, sənə pənah gətirənlərə havadarlıq et, məzlumlara kömək göstər, onların əlindən tut və arxa ol. Əməllərində bütov və dürüst ol. Qəriblərə vətən, xəstələrə şəfa, sığınacaq istəyənlərə qala ol. Korlara göz ol, azanlara yol göstər. Həqiqətin üzünə gözəllik, etibarın alnına bəzək, əxlaqın evinə dirək, aləmin bədəninə nəfəs, ədalət qoşunlarına bayraq və məziyyət üfüqünə nur ol. İnsan ürəyinin torpağına düşən şeh, elm dəryasında üzən gəmi ol. Səxavət səmasının günəşi, hikmətin başının tacı, nəsillərin alnının işığı, itaətkarlıq ağacının meyvəsi ol.

## Seçmə 131 (↑)

ƏZƏL HÖKMDARININ QƏLƏMİ həmişə dostları xatırlamaqla məşğuldur və daim hərəkətdədir. Gah ondan mərhəmət çayları axır, gah da aydın Kitab nazil olur. O, bənzərsizdir və heç kəs bəyanda ona bərabər ola bilməz. O, əzəldən ucalıq və əzəmət minbərində oturaraq, bütün bəşər üçün ehtiyaclarını ödəyən nəsihətlər və xeyirli məsləhətlər söyləyir.

Haqq şahiddir və Onun yaratdıqları da təsdiq edər ki, Mən bir an da Özümü gizlətməmişəm və Özümü onların ziyanlarından qorumağa çalışmamışam. Aləm əhlinin gözü qarşısında ayağa qalxaraq Məni razı salan şeyləri buyurmuşam. Mənim məqsədim dünyanı islah etmək və insanları rahat görməkdir. Bəşərin rifahı, onun sülhü və əmin-amanlığı onun birliyi tam bərqərar olmayınca mümkün deyil. Bu birlik isə ancaq Uca Qələmin nəsihətlərinə diqqət verməklə yarana bilər.

Onun sözləri dünyanı birlik nuru ilə işıqlandırar, Onun zikri məhəbbət odunu alovlandıraraq onlarla Onun cəlalı arasında maneə törədən pərdələri və hicabları yandırar. Bir mömin əməl elə bir gücə malikdir ki, torpağı belə fələklərdən yuxarı keçirər. O, hər bir düyünü açar və itirilmiş gücü geri qaytarar.

Ey Allah adamları! Paklaşın, paklaşın! Mömin olun, mömin olun De: Ey Allah adamları, Əzəli Haqqın qələbəsi, Onun köməkçisi və qoşunları Kitablarda və Lövhələrdə gün kimi aydın və aşkar göstərilib. Bu qoşunlar pak əməllərdən və Allahın nəzərində bəyənilmiş xasiyyətlərdən ibarət olmuşdur və olacaqdır. Bu Gün bir kimsə Bizim Əmrimizə köməyə qalxsa və gözəl əxlaq və düzlük qoşunlarını özünə köməyə çağırsa, şübhəsiz, bu əməlin təsirləri hər tərəfdə özünü göstərər və bütün aləmdə aşkara çıxar...

## Seçmə 132 (↑)

Haqqın—Onun şərəfi daha da yüksəlsin—Özünü insanlara zahir etməkdə məqsədi budur ki, insan mədəninin dərin qatlarında gizli qalmış həqiqət və məna cövhərlərini aşkara çıxarsın.

Bu Gün Allahın Dini və OnunVəhyinin cövhəri budur ki, müxtəlif məzhəblər və çoxsaylı təriqətlər ədavətə səbəb olmasınlar. Bütün bu qaydalar, qanunlar, möhkəm və mətin yollar bir Mənbədən aşkara çıxıb və bir Məşriqdən parlayıb. Bütün bu müxtəlifliklər onların bəyan edildiyi vaxtın və zamanın, əsrin və dövranın tələbinə görə meydana çıxıb.

Ey Bəha əhli, hümmət kəmərini möhkəm bağlayın ki, bəlkə insanlar arasında məzhəb çəkişmələri və münaqişələrinə son qoyuldu və bunların izi aradan qaldırıldı. Allaha və Onun bəndələrinə məhəbbət naminə bu böyük və əhəmiyyətli Zühura köməyə qalxın. Dini təəssübkeşlik və ədavət dünyanı yandıran bir alovdur və onu söndürmək çox çətindir. Yalnız Allahın qüdrətli Əli insanları bu dəhşətli bəladan xilas edə bilər...

Bu kəlam Bəyan taxçasında yanan çırağa bənzər: Ey aləm əhli, hamınız bir ağacın meyvələri və bir budağın yarpaqlarısınız. Hədsiz məhəbbət, birlik, səmimiyyət və mehribanlıqla davranın. And olsun Həqiqət Günəşinə, birliyin nuru o qədər güclüdür ki, bütün aləmi işıqlandırıb nura boyayar. Hər şeydən agah olan Haqq bu sözlərin doğruluğuna şahid olmuşdur və şahiddir.

Cəhd edin ki, bəşəriyyəti qorumaq və hifz etmək məqamı olan bu uca və ülvi məqama çatasınız. Bu məqsəd—məqsədlərin sultanı, bu istək—istəklərin hökmüdarıdır. Lakin Ədalət Günəşinin üfüqü zülmün qara buludundan xilas olmayınca, bu məqamın cəlalının insanlara açılması müşkül məsələdir...

Bütün insanlarla, ey Bəha əhli, birlik və dostluq ruhunda ünsiyyət saxlayın. Əgər siz bir həqiqətdən agahsınızsa və ya sizdə başqalarında olmayan bir cövhər varsa, onu məhəbbət və mehribanlıq dili ilə hər kəslə paylaşın. Əgər o, sözünüzü qəbul edərsə və dedikləriniz ona təsir göstərərsə, deməli, məqsədə çatmısınız. Əks-təqdirdə isə onu öz ixtiyarına buraxın və Allaha dua edin ki, ona yol göstərsin. Məbada onunla qeyri-iltifatla davranasınız. Şəfqətli və mehriban dil insanların qəlbini cəzb edər. O, ruhun

qidasıdır, sözlərə məna donu geyindirər. O, hikmət və anlayış nurunun doğduğu üfüqə bənzər...

## Seçmə 133 (↑)

İLAHİ ƏMRLƏR ONUN ən uca Vəhy səmasından nazil olmuşdur. Hamınız onlara əməl etməlisiniz. İnsanların üstünlüyü, yüksəlişi və nailiyyətləri həmişə bundan asılı olmuşdur və olacaqdır. Kim onlara əməl etdisə, əbədi rahatlıq tapdı.

Tövhid Məzhərini və Birlik Məşriqini tanıdıqdan sonra hər kəsin iki vəzifəsi var: Birincisi—Onun məhəbbətində dönməz olmaq. Belə ki, hay-küyçülərin qışqırıqları və saxta iddiaçıların iddiaları onu Haqdan uzaqlaşdırmamalıdır və o, onları bir heç sanmalıdır. İkincisi—Onun əmrlərinə tabe olmaq. O, hər zaman insanlara bu əmrləri vermiş və gələcəkdə də verəcəkdir. Onların vasitəsilə haqq batildən seçilir və məlum olur...

## Seçmə 134 (↑)

İNSANLARIN ÜZƏRİNƏ QOYULAN birinci və ən başlıca vəzifə, Əbədi Həqiqət olan Kəsi tanıdıqdan sonra, Onun Əmrində möhkəm olmaqdır. Ondan möhkəm yapış və fikri möhkəmcə Allaha bağlananlardan ol. Bundan dəyərli heç bir əməl olmamışdır və yoxdur. Əməllərin sultanı budur, and olsun Ulu və Əzəmətli Rəbbinə!...

Haqqın bəyəndiyi əməllər və məziyyətlər aydın və aşkardır. Belə ki, bu barədə bütün səmavi Kitablarda deyilmiş və yazılmışdır. Etibar, düzlük, Haqqı zikr edərkən qəlbin təmizliyi, səbr, Allahın qəzavü-qədərinə razılaşmaq, Onun müəyyən etdiklərinə qane olmaq, bəlalara dözmək və hətta şükr etmək, bütün hallarda Allaha təvəkkül etmək bu keyfiyyətlərdəndir. Bu işlər Allahın yanında ən böyük və ən üstün əməllər kimi xatırlanır. Bütün digər işlər ikinci dərəcəli hökmlərdir və qeyd edilən əməllərə tabe olmuşdur və olacaqdır...

Xülasə, qəlbin ruhu Allahı tanımaq, onun zinəti "Həqiqətən, O istədiyini edər və istədiyinə hökm verər" kəlamını qəbul etmək, onun libası Allahdan çəkinmək, onun kamilliyi isə Onun Əmrində dönməz olmaqdır. Allah Onu istəyənlərə belə bəyan edir. Həqiqətən, O, Ona üz tutanları sevir. Ondan başqa Allah yoxdur. Odur Bağışlayan və Səxavətli! Həmd olsun Allaha—aləmlərin Rəbbinə!..

## Seçmə 135 (↑)

EY HƏRFİ-HƏYY! Allahın qulağı sənin sədanı eşitdi və Allahın gözü sənin məktubunu nəzərdən keçirdi. Və indi O, Özünün—Qoruyan və Qəyyumun cəlal taxtından ayələri ilə səni çağırır.

Xoş sənin halına ki, Qoruyan, Qüdrətli və Sevimli Rəbbinin gücü ilə nəfs və yanlış xəyallar bütünü sındırdın və şübhə pərdələrini cırdın. Elə isə sənin başqa Hərflərdən üstün olan Hərflər sırasına daxil edilməyin düzgün olar. Buna görə də Allah əvvəllər səni üzünün nuru ilə yaranmışları və yaranacaqları işıqlandıran Əlinin (Həzrət Babın) dili ilə seçmişdir. Allaha həmd elə və şükr et, çünki O sənin elə bir Əmri qəbul etməyinə kömək göstərdi ki, ondan yerin və göyün sakinləri lərzəyə gəldi, Əmr və xilqət aləmlərində olanlar imdad istədi, könüllərdə gizli olan sirlər məlum oldu və sınandı.

İndi Ulu Rəbbin Uca Üfüqdən sənə xitab edərək, deyir: Xoş sənin halına, ey Hərfi-Həyy, çünki sən Mənə iman gətirdin, Səma Sakinlərinin yanında Məni xəcil etmədin, əhdinə vəfa etdin, özünü yanlış xəyallar pərdəsinin arxasından çıxararaq, Rəbbin olan Allaha, görünən və görünməz şeylərin Rəbbinə, Abad Evin Rəbbinə üz tutdun. Mən səndən razıyam, çünki üzlərin qara olduğu bir gündə sənin üzünün işıq saçdığını gördüm.

De: Ey Bəyan əhli! Məgər Biz bütün Lövhələrdə və bütün gizli Kitablarda sizə vəsiyyət etmədikmi ki, nəfsinizin və ehtirasınızın ardınca getməyin, Böyük Tərəzinin qurulduğu və Qoruyan, Qüdrətli və Müqəddəs Rəbbinizin ərşinin sağ tərəfindən Ruhun nəğmələrinin ucaldığı Gündə nəzərlərinizi uca cəlal Mənzərinə dikin?! Məgər Biz sonrakı Zühurda Bizim Camalımızı görməyinizə mane olacaq bütün şeyləri, hətta onlar Allahın adlarının mücəssəmələri və Onun sifətlərinin təzahürləri, eləcə də onların səltənətləri olmuş olsa belə, sizə qadağan etmədikmi?! Amma Mən Özümü zühur etdirdikdə, siz inkar edib üz çevirdiniz və Allahın əlamətlərini oyun-oyuncaq bilən kəslərdən oldunuz.

Camalıma and olsun, Allahın səltənəti durduqca səcdə edib yalvarsanız da, bu Gün sizdən heç bir şey qəbul olunmaz, çünki bütün işlər Onun əmrindən asılıdır və bütün əməllər Onun qəbuluna və razılığına bağlıdır. Bütün kainat Onun əlində bir ovuc

torpaqdır. Bu Gün Allahı tanımayınca və Onu sevməyincə, heç kəsin sədası Ona yetişməz. Bu, Onun Dininin əsasıdır—bunu anlayın.

Nə üçün siz çöllükdəki ilğıma razı oldunuz, amma Allahın insan qəlbini təravətləndirən təmiz və sərin su ilə doldurduğu dəryadan üz çevirdiniz?! Allahın nemətini belə bir şeyə dəyişdiyiniz üçün vay sizin halınıza! Siz o kəslərdən oldunuz ki, birinci dəfə Məni inkar etmişdilər—bunu özünüz başa düşün.

Elə isə Allahın qarşısında ayağa qalxın və Rəbbinizin yanında həddinizi aşdığınıza görə bağışlanmağınız üçün tədarük görün. Bu, mənim sizə əmrimdir—bunu eşidin. Canıma and olsun, sizin etdiklərinizi nə Quran ümməti, nə Tövrat və ya İncil, nə də ki, başqa bir Kitab əhli etmişdir. Mən Öz canımı Onun Əmrinin isbatı üçün fəda etdim və bütün Lövhələrdə sizə Onun zühurunun müjdəsini verdim. Lakin O, Bəhanın qiyafəsində Əzəmət Libası ilə və başqa bir parlaqlıqla zühur edəndə, siz Ona—Qalibiyyətli və Qəyyuma qarşı müharibəyə qalxdınız. Ayılın, ey insanlar, Allahın yolunda Mənim başıma gətirdiklərinizə görə utanın! O kəslərdən olmayın ki, Onun yüksək şərəf səmasından onlara nazil olanı inkar etdilər.

Ey Hərfi-Həyy, indi sənin Rəbbin Uca Aləmdən belə söyləyir. Rəbbinin sözlərini bəndələrə çatdır, bəlkə onlar ayılıb o Allahın qarşısında tövbə etdilər ki, onları və onlardan başqalarını xəlq etdi və bu parlaq, müqəddəs və aşkar Camalı onlara göndərdi...

## Seçmə 136 (↑)

DE: EY İNSANLAR, qəlblərinizi təmizləyin və onları Məndən başqasına bağlılıqdan xilas edin. Mənim zikrim bütün şeyləri pak edər—əgər ariflərdənsinizsə, bunu bilin. De: Əgər bu gün bütün şeylər dünya bihudəliklərindən və ehtiras pərdələrindən qurtulsalar, Allah onların hamısını: “O, yaradılış səltənətində istədiyini edər” libasına bürüyər və bununla da bütün şeylərdə Onun hökmranlığının əlamətləri aşkara çıxar. Necə də Uludur bu Qadir, Qalibiyyətli, Şərəfli və Qüdrətli Sultan!

Allahın ayələrindən sənə yetişənləri, ey Mənim bəndəm, Ona yaxın kəslərin avazı ilə oxu, qoy nəğmələrinin şirinliyi sənin öz qəlbini alovlandırsın və bütün insanların ürəyini cəzb etsin. Bir kəs Allahın nazil etdiyi ayələri öz evində təklikdə belə oxusa, Qüdrətlinin gəzərgi mələkləri onun dodaqlarının söylədiyi sözlərin ətrini hər yana yayar və bununla da bütün mömin könüllər yerindən oynar. O, əvvəlcə onların təsirindən bixəbər ola bilər, lakin ona inayət edilmiş mərhəmətin gücü gec-tez onun ruhuna öz təsirini göstərər. İlahi Vəhyin sirləri qüdrət və hikmət Məşriqi olan Kəsin İradəsinin gücü ilə belə müəyyən olunmuşdur.

Ey Xəlil, and olsun Allaha, Qələm Lövhə üzərində hərəkət etsə də, öz qəlbində Əzəli Camalın İradəsi ilə yarananların Onun başına gətirdiklərini yada salıb ağlayır və sızlayır, onunla bərabər Ərşin yanındakı çıraq da nalə çəkir. Allah buna şahiddir və bunu bilir. Əgər bir kəs qulağını müşriklərin hay-küyündən təmizləyib yaradılmış şeylərə diqqət yetirsə, müşrik bəndələrimizdən çəkdiyimiz əziyyətlərə görə onların fəryad etdiyini və inlədiyini eşidər. Beləcə Biz sənə öz müsibətlərimizdən cüzi bir qismini çatdırdıq ki, sən Bizim başımıza nələr gəldiyini biləsən və öz başına gələnlərə səbrlə dözəsən.

Hər vaxt və bütün hallarda Öz Rəbbinə yardım göstər və Onun köməkçilərindən ol. Sonra Ruhun bu parlaq və aydın Lövhədə söylədiklərini insanlara xatırlat. De: Ey insanlar, yer üzündə fitnə-fəsad toxumları səpməyin və heç kəslə vuruşmayın. Bütün işlərdə səbrli olun və Allaha güvənib Ona təvəkkül edənlərdən olun. Öz mərhəmətli Rəbbinizə hikmət və söz qılıncı ilə kömək göstərin. Bu, insanın şəninə yaraşır, bundan başqası isə hökmran və Sübhan Allaha gərək deyil. Lakin insanlar azıblar və doğrudan da qafildirlər.

Ey insanlar, qəlblərin qapılarını Allahın Zikri və sizin aranızda Hikmət Mənbəyi olan Kəsin zikr açarları ilə açın! Allah yer üzündə olan şeylərdən yalnız bəndələrin qəlblərini Özü üçün seçib və onları Öz nurunun zühur etdiyi ərşə çevirib. Elə isə onları bütün başqa şeylərdən təmizləyin, qoy onlarda nədən ötrü yaradılıblarsa, o da əks olunsun. Həqiqətən, bu, Allahın ən böyük fəzlidir.

De: Ey insanlar, dillərinizi düzlükdə, qəlblərinizi isə dürüstlük naxışı ilə bəzəyin. Çəkinin, ey insanlar, heç kəsə xəyanət etməyin və camaat arasında Allahın etibarlı kəsləri və Onun səxavət nişanələri kimi tanınaraq, yaxşılardan olun. Pislik və pozğunluq edən kəslərin isə səyləri əbəsdir və onlar ziyana uğrayarlar. Ey insanlar, çalışın ki, nəzərləriniz Allahın mərhəmətinə dikilsin, qəlbləriniz Onun ecazkar zikrlərini xatırlasın, ürəkləriniz Onun inayətinə və fəzlinə əmin olsun, ayaqlarınız Onun rizasının yolu ilə addımlasın. Əgər siz əməl edənlərdənsinizsə, Mənim sizə vəsiyyətim budur.

## Seçmə 137 (↑)

BƏZİLƏRİ İNSANLARIN MALINI özlərinə halal bilir və Kitabın hökmünü saya salmırlar. Onlara bəla burulğanı və Qüdrətli, Qadir Allahın əzabı nəsib olsun!

And olsun Müqəddəslik Üfüqünün Günəşinə, bütün aləm qızıla və gümüşə dönsə də, həqiqətən iman və iqan səltənətinə yüksəlmiş kəs nəinki onu ələ keçirməyə çalışmaz, ona heç gözünün ucu ilə də baxmaz. Bu barədə şirin ərəb dilində və fəsahətli sözlərlə əvvəllər nazil olub. And olsun Allaha, hər kəs Onun şirinliyini dadsa, heç vaxt Allahın izn verdiklərindən başqa bir şey etməz, Yardan savayı heç kəsə baxmaz, dünyanın faniliyini bəsirət gözü ilə görər və qəlbən əbədi aləmə bağlanar.

De: Ey Əzəli Camala məhəbbət iddiası edənlər, utanın, Allahın yolunda Onun çəkdiyi əziyyət və məşəqqətlərdən ibrət götürün və ayılın. Əgər məqsəd bu ikrah doğuran sözlər və faydasız əməllər idisə, onda O bütün bu əziyyətlərə niyə qatlaşırdı?! Axı, Mənim Zühurumdan əvvəl istənilən oğru və quldur sizin etdiklərinizi edir və sizin dediklərinizi deyirdi.

Doğrusunu söyləyirəm: Bu şirin sədanı eşidin və özünüzü nəfsin və ehtirasın çirkabından təmizləyin! Bu Gün İlahi Çadırda sakin olanlar və əbədi şərəf taxtında oturanlar acından ölsələr də, başqasının, o nə qədər alçaq və ləyaqətsiz olsa da, malına əl uzatmazlar.

Tək Haqq Allahın Özünü zühür etdirməkdə məqsədi insanları düzgünlüyə və saflığa, möminliyə və etibara, Allahın İradəsinə təslim olub, onunla razılaşmağa, dostluğa, mehribanlığa, dürüstlüyə və müdrikliyə dəvət etməkdir. Onun məqsədi hamını müqəddəslik xalatı ilə bəzəmək, hər bir insanı pak və xeyir əməllərin libası ilə zinətləndirməkdir. De: Özünüzə və insanlara rəhminiz gəlsin, müqəddəslik cövhərindən də pak olan İlahi Əmri natəmiz, nalayiq təsəvvürlərin və gümanların çirkabına bulaşdırmayın.

## Seçmə 138 (↑)

EY MƏRHƏMƏTLİ VƏ yaranmışları Öz qüdrətinə tabe edən Allah! Görürsən ki, Sənin bəndələrin və qulların Sənin əmrinə və İradənə əsasən gündüzlər oruc tuturlar və Sənin fəzilət dəfinələrində, fəzl və kəramət xəzinələrində saxlanan nemətlərə yetişmək ümidi ilə səhərlər Səni zikr etmək və Səni tərif etmək üçün ayağa dururlar. Ey yaranmışların cilovunu əlində saxlayan, adlar və sifətlər səltənətini ovcunda tutan Allah! Səndən diləyim budur ki, Öz Günündə bəndələrini Öz mərhəmət buludunun yağışlarından məhrum qoyma və onları Öz razılıq dənizinin damlalarından binəsib etmə.

Ya Rəbb, bütün zərrələr Sənin qüdrətinə və hökmranlığına şəhadət verir, bütün əlamətlər Sənin əzəmət və qüvvətini təsdiq edir. Elə isə ey aləmin Rəbbi, Əzəl hökmdarı və ümmətlərin Sultanı, bu bəndələrinə rəhm elə ki, Sənin əmrlərinin ipindən yapışdılar və Sənin iradənin səmasından nazil olan hökmlərə boyun əydilər.

Ya Rəbb, görürsən ki, onların nəzərləri Sənin inayətinin üfüqünə dikilib, onların qəlbləri Sənin lütflərinin dəryasına yönəlib, onların səsləri Sənin Əbha adınla Uca Məqamdan yüksələn şirin sədanın önündə kəsilib.

Ya Rəbb, o dostlarına kömək et ki, Sənin yanında olanlara çatmaq ümidi ilə özlərində olanları atdılar, aləmdən üz çevirib Sənin Uca Üfüqünə üz tutduqlarına görə bəla və müsibətlərlə əhatə olundular. Ya Rəbb, Səndən diləyim budur ki, onları nəfs və ehtirasın işlərindən hifz elə, dünyada və axirətdə xeyirli olacaq şeylərə nail olmalarında onlara yardım göstər.

Ya Rəbb, səni and verirəm yaradılmışlar səltənətində ucadan səslənərək hamını Sidrətül-müntəhaya və ən uca şərəf məqamına dəvət edən o gizli və qorunan Adına ki, Öz mərhəmət buludunun yağışlarını bizə və bütün bəndələrinə nazil eylə və bununla da bizi Səndən başqasının zikrindən uzaqlaşdırıb Öz fəzilət dənizinin sahilinə yaxınlaşdır. Ya Rəbb, Uca Qələminlə bizə elə bir yazı yaz ki, onun sayəsində bizim ruhlarımız Sənin Cəbərutunda, bizim adlarımız Sənin Mələkutunda, bizim həyatımız Sənin qoruduğun gizli məkanlarda, bizim bədənlərimiz isə Sənin alınmaz xəzinələrində əbədi qalsın. Çünki bütün olanlar və olacaqlar Sənin qüdrətinə tabedir. Səndən başqa Allah yoxdur, Sən Qüdrətli Qoruyan və Qəyyumsan.

Ya Rəbb, görürsən ki, rica edən əllər Sənin səxavət və kəramət səmana doğru qalxıb. Səndən diləyim budur ki, onları Öz əta və ehsan xəzinələrində olanlardan başqa bir şeylə geri qaytarma! Ya Rəbb, bizi, bizim ata və analarımızı bağışla, Sənin fəzilət və səxavət dənizindən umduqlarımızı bizə nəsib elə! Ey bizim Məhbubumuz, Sənin yolunda etdiklərimizi bizdən qəbul elə! Həqiqətən, Sən Qüdrətli, Uca, Bənzərsiz, Vahid, Bağışlayan və Mərhəmətlisən!

## Seçmə 139 (↑)

EY NƏBİLİ-ƏZƏM, Əzəl Dilinin Öz cəlallı Adının səltənətindən nida edərək sənə dediklərini eşit! O hər an Uca Mələkutda belə söyləyir və bütün şeylərin qəlbində belə oxuyur: "Mənəm Allah, Məndən başqa Allah yoxdur! Mən əzəldən Qüdrətli Sultan olmuşam və həmişə də hər şeyi Qoruyan Hökmdar olacağam. Mənim dəlilim—Mənim qüdrətim və bütün aləmləri bürüyən səltənətimdir"...

Ey Mənim Adım, xoş sənin halına ki, Bəha -Gəmisinə mindin, mənim ucadan uca qüdrətim sayəsində böyüklük dənizində seyrə çıxdın və o kəslərdən oldun ki, onlar şərəfə layiq görülmüş və adları Allahın Barmağı ilə yazılmışdır. Sən dirilik piyaləsini o Qulamın əlindən alıb içdin ki, Sübhanın Məzhərləri Onun başına dolanır və Rəhmanın Məşriqləri hər səhər və hər axşam Onun görüşündən bərəkət alırlar.

Onun şərəfi səninlədir, çünki sən Allahdan Allaha doğru səfər etdin və əbədiyyət məkanına daxil oldun. Bu, elə bir yerdir ki, aləmdəkilər onu təsvir edə bilməz. Orada müqəddəslik nəsimi sənin öz Mövlana məhəbbətlə dolu qəlbini ehtizaza gətirdi, irfan suyu səni bütün müşriklərin və qovulmuşların çirkabından təmizlədi. Sən insanlar arasında o Zikrin Mücəssəməsini tanımaqla Allahın Zikr Cənnətinə yetişdin.

Elə isə Allaha şükr elə ki, Onun Əmrinə xidmət etməkdə sənə yardımçı oldu və sənin qəlbinin bağçasında elm və hikmət sünbülləri əkdi. Beləcə, Onun fəzli səni və bütün aləmdəkiləri bürüdü. Ehtiyatlı ol ki, yerdə və göydə xəlq olunmuş heç bir şey səni kədərləndirməsin. Özünü bütün təhriklərdən qoru və pərdə arxasında qalanların bütün boş və mürəkkəb mübahisələrini bir kənara at. Sonra Öz Rəbbinin Əmri yolunda Əzəmətli Ruhun sənə təlqin etdiklərini söylə ki, bunun sayəsində məxluqatın qəlbi mübarək və cəlallı məkana doğru meyl etsin.

Bil ki, Biz qılınc hökmünü aradan qaldırdıq və Əmrə kömək üçün dildən və sözün gücündən istifadə yolunu müəyyən etdik. Öz fəzlimiz sayəsində Biz belə əmr etdik. De: Ey insanlar, yer üzündə fitnə-fəsad törətməyin və heç kəslə çəkişməyin, çünki Rəbbiniz yer üzünü və onun şəhərlərinin hamısını hökmdarların ixtiyarına vermiş və onları orada olanlar üçün Öz qüdrətinin məzhərlərinə çevirmişdir. O, Mülk aləmindən Özü üçün heç bir şey istəməmişdir. Haqqın Özü buna şahiddir. O, Özü üçün yalnız qəlb şəhərlərini saxlamışdır ki, onları yer üzünün çirkabından təmizləyərək

müşriklərin əli çatmayan bir Məkana yaxınlaşdırsın. Ey insanlar, söz açarları ilə qəlb şəhərlərinin qapılarını açın! Biz, öncədən müəyyən edilmiş həddə uyğun olaraq, sizin vəzifənizi belə nazil etdik.

And olsun Haqqa, dünya, onun bər-bəzəyi və onda olan bütün nemətlər Allahın nəzərində bir ovuc torpaqdan başqa bir şey deyildir, hətta ondan da əskikdir. Əgər insanlar bəsirət sahibi olsalar, bunu anlayarlar. Elə isə özünüzü dünyadan və onda olanlardan təmizləyin, ey Bəha əhli! Allaha and olsun, onlar sizə layiq deyil, onları arzulayanların ixtiyarına buraxın və üzünüzü müqəddəs və nurlu Mənzərə doğru tutun!

Sizə yaraşan şey Allahı və Onun Zatının Məzhəri olan Kəsi sevmək və Onun tərəfindən müəyyən edilənlərə tabe olmaqdır—bunu bilin!

De: Özünüzü düzlük və ədəblə bəzəyin, özünüzü həlimlik və ədalət xalatından məhrum etməyin, qoy sizin könüllərinizdən bütün məxluqatın üzərinə xoş müqəddəslik nəsimləri əssin. De: Ehtiyatlı olun, ey Bəha əhli! Sözləri ilə əməlləri bir olmayanların yolu ilə getməyin. Çalışın ki, sizin sayənizdə yer üzündə Allahın əlamətləri və Onun əmrləri aşkara çıxsın. Öz əməllərinizlə insanlara doğru yol göstərin, çünki istər yüksək, istərsə də aşağı təbəqədən olan bəndələrin əksəriyyətinin sözləri əməllərindən fərqlənir. Məhz əməlləriniz sizi başqalarından fərqləndirə bilər və sizin nurunuzu yer üzündə olanlara aşkar edər. Xoş o kəsin halına ki, mənim nəsihətimi eşidər və Elm və Hikmət Sahibi tərəfindən əmr edilənə tabe olar.

## Seçmə 140 (↑)

EY MƏHƏMMƏDƏLİ, XOŞ sənin halına ki, qəlbini Şərəfli və Tərifəlayiq Rəbbinə məhəbbət bəzəyi ilə zinətləndirdin! Bu gün bu məqama nail olan kəsə bütün xeyirlər üz verər.

Baxma ki, bu günlər Allahın dostları zahirən zillətə düçar olublar. Bu zillət əslində bütün şərəflərdən və dünyəvi məqamlardan üstündür. Bundan böyük nə şərəf ola bilər ki, Əzəl Dili Böyük Məhbəsdə öz dostlarını xatırlamaqla məşğuldur?! Tezliklə aranı kəsən buludlar dağılar və "Şərəf Allaha və Onun dostlarına məxsusdur!" kəlamının parlaq günəşi Onun İradəsinin səmasından boylanaraq işıq saçar.

Yüksək və aşağı təbəqədən olan bütün insanlar daim bu məqamı arzulamışlar. Lakin Həqiqət Günəşi parlayanda, onlar hamılıqla məhrum olub pərdə arxa-sında qaldılar. Yalnız o kəslərdən başqa ki, Haqqın inayətinin ipindən yapışmışdılar və Ondan savayı hər şeydən əllərini üzüb Onun müqəddəs məqamına üz tutmuşdular.

Aləmin Məqsuduna şükr elə ki, bu ən böyük şərəfə nail oldun. Çox keçməz ki, dünya və onda olan bütün şeylər fənaya uğrayar və şərəf sənin Qüdrətli və Səxavətli Rəbbinin dostlarına qalar.

## Seçmə 141 (↥)

HƏQİQƏTƏN, KİTAB, ANLAYAN kəslər üçün nazil olmuşdur. O, insanlara ədalətli və çəkingən olmağı əmr edir, pis əməlləri və pozğunluğu qadağan edir ki, bəlkə onlar ayıldılar.

De: Ey insanlar, Lövhələrdə sizə əmr olunanlara əməl edin, fəsad əhlinin yanlış gümanlarının ardınca getməyin, çünki onlar pis əməllər törədir, amma özlərini Müqəddəs, Şərəfli və Uca Allaha mənsub edirlər. De: Biz bəla və müsibətləri ondan ötrü qəbul etdik ki, siz paklaşasınız. Nə üçün siz bu barədə düşünmürsünüz?! And olsun Allaha, Bizim çəkdiyimiz əziyyətlər haqqında düşünən kəs qəm odunda alışıb yanar. Sənin Rəbbin dediklərimə şahiddir. Biz bütün bəlalara dözdük ki, siz təmizlənəsiniz, siz isə qafillərdən oldunuz.

De: Bu Ətəkdən yapışan hər bir kəs Səma Sakinlərinin ikrah etdiyi şeylərdən pak olmalıdır. Şərəfli Rəbbin tərəfindən bu aydın Lövhədə belə əmr olundu. De: Siz Mənim məhəbbətimi bir kənara qoyub Mənim qəlbimi kədərləndirən işlərmi törətmək istəyirsiniz?! Hər şeyi Bilən və hikmət Sahibi olan Allah tərəfindən nazil olanları anlamaqda sizə mane olan nədir?!

Həqiqətən, Biz sizin əməllərinizi görürük. Biz onlardan müqəddəslik və paklıq ətri duyanda, sizi salamlayırıq. O zaman behişt əhlinin dili Allaha yaxın kəslərin arasında sizi zikr edir və sizə tərif söyləyir.

Allahın Ətəyindən tut və Onun heç kəsin qıra bilmədiyi möhkəm İpindən yapışın! Məbada bu Böyük Xəbəri inkar edən kəslərin hay-küyü sənə mane olsun! Bəndələr sənə etiraz etsələr və əleyhinə qalxsalar belə, bu Lövhədə sənə əmr olunanları onlara çatdır. Həqiqətən, Sənin Rəbbin Qalibiyyətli və Qoruyandır. Sənə və Mənim dostlarımdan səninlə olanlara Mənim şərəfim nəsib olsun! Bil ki, onlar şərəfə nail olacaqlar.

## Seçmə 142 (↑)

AND OLSUN MƏHBUBUN Camalına! Bu, bütün məxluqatı əhatə edən bir Mərhəmətdir və bu, İlahi fəzlin bütün kainatı bürüdüyü və hər şeyə nüfuz etdiyi bir Gündür. Ey Əli, Mənim mərhəmət bulağım axmaqda, şəfqətli qəlbim yanmaqdadır. Çünki O, heç vaxt istəməyib ki, onun dostlarını kədər bürüsün, yaxud onlar qəmə batsınlar.

Hər dəfə Mənim "Rəhman" adım dostlarımdan razı olmadığım bir söz eşidəndə, qüssəli və qəmli bir halda öz yerinə qayıtdı. Və hər zaman Mənim "Səttar" adım kiminsə təhqiramiz işlərlə məşğul olduğunu görəndə, hədsiz kədər və məyusluq içərisində müqəddəs məkana döndü və ağlayıb-sızlamağa başladı. Mənim "Bağışlayan" adım dostlarımın bir günahının şahidi olduqda, nalə çəkib huşsuz halda yerə yıxıldı və əmr mələkləri onu götürüb Böyük Mənzərə apardılar.

Haqq olan varlığıma and olsun, ey Məhəmmədəli, Bəhanın ürək yanğısı səninkindən artıqdır və Onun naləsi sənin naləndən daha güclüdür! Hər dəfə kiminsə günaha batdığı Müqəddəs Hüzura ərz ediləndə, Əzəli Vücud utandığından Camalını gizlətmək istəyir, çünki O, həmişə vəfa gözləyib və onun şərtlərinə əməl edib.

Sənin sözlərin Mənim hüzurumda oxunan kimi Mənim vəfa dənizim dalğalandı, sənin qəlbin üstündən Mənim əfv yellərim əsdi, inayət ağacım Sənə kölgə saldı və fəzl asimanım sənin üzərinə öz nemətlərini yağdırdı. And olsun əbədi Üfüqün Günəşinə ki, sənin kədərindən kədərliyəm və sənin qəmindən qəmginəm….Sənin ahın Əbha çadırından keçib əlçatmaz, müqəddəs və uca məkana yetişdi…. Mən sənin xidmətlərini və Mənim yolumda çəkdiyin əzabları təsdiq edirəm. Mənim sənə olan məhəbbətimə bütün zərrələr şəhadət verir.

Ey Əli, sənin bu çağırışın olduqca xoşagələndir. Mənim Əmrimi həm qələminlə, həm də dilinlə bəyan et. İnsanları aləmlərin Pərvərdigarına doğru elə bir hərarət və şövq ilə çağır ki, hamının qəlbinə od düşsün.

De: Ey mənim Allahım, ey Məhbubum, ey Məni hərəkətə gətirən, Qütb Ulduzum və qəlbimdə car çəkən, ey Mənim sirdaşım! Həmd olsun sənə ki, üzümü Sənə tutmağıma, Sənin zikrinlə alovlanmağıma, Sənin adını çağırmağıma və Sənə tərif söyləməyimə kömək etdin.

Ya Rəbb, Ya Rəbb! Əgər qəflət olmasaydı, Sənin mərhəmət bayrağın sancılardımı və səxavət bayrağın ucalardımı?! Əgər xəta olmasaydı, Sənin eyibləri Örtən, günahları Bağışlayan, Hər şeyi Bilən və Hikmət Sahibi olmağın necə bilinərdi?! Mənim canım Səndən qafil olanların qəflətinə fəda olsun, çünki onun ardınca Sənin "Rəhman" və "Rəhim" adının mərhəmət nəsimləri əsər. Mənim həyatım Sənə qarşı günah işlədənlərin günahına fəda olsun, çünki onun sayəsində sənin fəzlinin ətri duyular və Sənin lütflərinin müşkü ətrafa səpilər. Mənim zatım Sənə asi olanların asiliyinə fəda olsun, çünki onun vasitəsilə Sənin əta üfüqündən inayət Günəşin parlayar və Sənin səxavət yağışların bütün məxluqatın üstünə tökülər.

Ya Rəbb, mən bütün günahlarımı boynuma aldım və heç bir insanın etiraf etmədiyi şeyləri etiraf etdim. Mən Sənin əfv dənizinin sahilinə tələsdim və Sənin kəramət çadırının kölgəsində məskən saldım. Ey Əzəl hökmdarı və aləmi Qoruyan Kəs, Səndən rica edirəm, mənə elə bir keyfiyyət bəxş et ki, onun aşkara çıxması ilə ruhlar Sənə məhəbbətin səmasında və könüllər Sənin Ruhunla ünsiyyətin fəzasında uçsunlar. Mənə Öz qüdrətindən elə bir güc ver ki, onunla bütün məxluqatı Sənin Zühurunun Şəfəqinə və Sənin Vəhyinin Məşriqinə doğru döndərim.

Ya Rəbb, mənim bütünlüklə Sənin İradənə təslim olmağıma və xidmətində durmağıma kömək elə, çünki mən bu həyatı yalnız ondan ötrü sevirəm ki, Sənin Vəhy Çadırının və Cəlal Taxtının ətrafına fırlanım. İlahi, görürsən ki, mən Səndən ötrü hər şeydən əlimi üzmüşəm və Sənin qarşında da boyun əymişəm. Mənimlə istədiyin kimi, Sənin cəlalına yaraşan və Həzrətinə layiq olan tərzdə rəftar elə!

Ey Əli, sən aləmlərin Rəbbinin inayətinə nail olmusan və olacaqsan. Onun gücü və qüvvəsi ilə bəndələr arasında Onun Əmrinə kömək etmək və zikrini ucaltmaq üçün ayağa qalx! Adi elmləri və yazıb-oxumağı bilmədiyinə görə kədərlənmə. Bütün feyzlərin qapıları Haqqın qüdrətli əlindədir, onları Ona bəndəlik edənlərin üzünə açmışdır və açır. İnşaallah, bu xoş ətir hər zaman sənin qəlbindən aləmə yayılar və onun səmərəsi bütün diyarlarda aşkar olar. O hər şeyə qadirdir. Həqiqətən, O, Qüdrətli, Şərəfli və Qüvvətlidir.

## Seçmə 143 (↑)

XOŞ SƏNİN HALINA, ey bəndə, çünki sən Haqqı tanıdın və Rəhmana qarşı küfr etdiyi üçün Ana Lövhədə zalımlar sırasına daxil edilən kəsdən üz döndərdin. Allaha məhəbbətində və Onun Əmrində dönməz ol. Sonra -sözlərinlə Ona kömək göstər. Rəhman zalımların əlində məhbus olduğu bir zamanda sənə belə əmr edir.

Əgər Mənim yolumda bəlalara düçar olsan, mənim başıma gələn bəlaları, Mənim sürgün və həbs olunmağımı xatırla. Qüdrət və Hikmət Sahibi olan Allah tərəfindən sənə belə çatdırırıq.

Canıma and olsun, tezliklə dünyanın və onda olanların büsatını pozar və başqa bir büsat qurarıq. Həqiqətən, O, hər şeyə qadirdir.

Qəlbini Məni zikr etmək üçün, qulağını isə Mənim ayələrimi eşitmək üçün təmizlə! Sonra Mərhəmətli Rəbbinin taxtının qurulduğu yerə üz tut. De: Ya Rəbb, həmd olsun Sənə ki, məni Öz Məzhərini tanımağa müvəffəq eylədin, Sənin vüsal və görüş Kəbənə uz tutmağıma kömək göstərdin. Səni and verirəm göyləri yaran və yeri parçalayan Adına ki, Səndən başqalarından üz çevirib Sənə üz tutanlar üçün yazdıqlarını mənim üçün də yaz, Əbha Çadırında Sənin yanında düzlük məqamında oturmağı mənə nəsib eylə! Həqiqətən, Sən istədiyini edənsən. Səndən başqa Allah yoxdur, Sən Qüdrət və Hikmət Sahibisən.

## Seçmə 144 (↑)

UCA QƏLƏM BU Əmrin təbliğini hər kəsə vacib buyurmuş və bir vəzifə olaraq həvalə etmişdir... Allahdan başqa hər şeydən inqita etmiş kəsə, şübhəsiz, Allah elə bir ilham bəxş edər ki, onun qəlbindən hikmət və bəyan çeşmələri çağlayıb axar. Həqiqətən, sənin mərhəmətli Rəbbin nəyi istəyirsə, edir və necə istəyirsə, hökm verir.

Əgər sən bu dünya barədə düşünsən və ondakı şeylərin fani olduğunu anlasan, Rəbbinin Əmrinə xidmətdən özgə bir yol seçməzsən. O zaman bütün yer üzündə olanlar sənin əleyhinə birləşsələr belə, Ona tərif söyləməyinə mane ola bilməzlər.

Yolunla düz get və Ona xidmətdə çalışqan ol. De: Ey insanlar, bütün Yazılarda vəd olunmuş Gün yetişdi. Allahdan qorxun və sizin xəlq edilməyinizin səbəbi olan Kəsi tanımaqdan özünüzü məhrum etməyin. Ona doğru tələsin—bu, sizə dünyadan və onda olanlardan daha xeyirlidir. Əgər arifsinizsə, bunu bilin.

## Seçmə 145 (↑)

ZƏLİL GÜNƏ DÜŞMÜŞ bir kəs gördükdə, ona ikrah və təkəbbürlə baxmayın, çünki Şərəfli Sultan bu günlərdə belələrinin qayğısına qalar və bunun necə olduğunu öz iradəsini Qüdrət və Hikmət Sahibi olan Rəbbinin İradəsinə tabe edən şəxslərdən başqa kimsə bilməz. Ey varlılar tayfası! Yerə yıxılmış bir yoxsul gördükdə, ondan qaçmayın; onun yanında oturub qəzavü-qədər dəryasından onun başına nələr yağdığı barədə sorğu-sual edin. And olsun Allaha, siz onunla ünsiyyət edəndə Səma Sakinləri sizi görərək, sizə salam göndərər, sizə şəfaət göstərər, öz müqəddəs, pak və fəsahətli dilləri ilə sizi xatırlayar və tərifləyərlər. Xoş o alimin halına ki, öz elmi ilə başqalarının qarşısında öyünməz. Xoş o yaxşının halına ki, günahkara istehza ilə baxmaz və ondan gördüklərini gizlədər ki, Allah da onun özünün günahlarını gizlətsin...

## Seçmə 146 (↑)

BİZ İSTƏYİRİK Kİ, sizin hamınızı və hər birinizi aləmdəkilər arasında bütün xeyirlərin mənbəyi və düzlüyün nümunəsi kimi görək. Məbada özünüzü qardaşlarınızdan üstün tutasınız. Yer üzündə Allahın Mücəssəməsinə nəzər salın. Həqiqətən, O, Özünü aləmin islahı üçün fəda etdi. Doğrudan da, O, Kəramətli, Şərəfli və Ucadır. Aranızda ixtilaf yaranan zaman Məni üzünüzün qarşınızda görün və Mənim adımın xatirinə, Mənim aşkar və nurlu Əmrimə məhəbbətinizin əlaməti olaraq bir-birinizin səhvlərinə göz yumun. Biz istəyirik ki, sizi hər zaman Öz razılıq cənnətimizdə dostluq və yoldaşlıq halında görək və sizdən ülfət, mehribanlıq, məhəbbət və birlik ətri duyaq. Hər şeyi Bilən Etibarlı Kəs sizə belə nəsihət verir. Biz daim sizin aranızdayıq—sizdən mehribanlıq ətri duyduqda sevinirik və bundan başqa bir şey görmək istəmirik. Bütün ariflər və bəsirət sahibləri buna şəhadət verir...

## Seçmə147 (↑)

AND OLSUN İSMİ-Əzəmə! Heyfdir bu Gün, kimsə ötəri şeylərə könül bağlasın. Ayağa qalxın, Allahın Əmrindən möhkəm yapışın və bir-birinizlə hədsiz məhəbbət ilə rəftar edin. Məhbubun xatirinə nəfsinizin pərdələrini sönməz Alovla büsbütün yandırın, şad və gülər üzlə bir-birinizlə ünsiyyətdə olun. Siz Haqqın Sözü olan Kəsin davranışını bütün cəhətləri ilə öz gözünüzlə görmüsünüz. O, heç vaxt istəməyib ki, hətta bir gecəlik də Allahın dostlarından kim isə bu Qulamdan incisin.

Allahın Sözü aləmin qəlbinə od salıb. Heyfdir ki, bu oddan alovlanmayasınız! Ümidvarıq ki, inşaallah, bu mübarək gecəni birlik gecəsinə çevirəcəksiniz, hamınız birləşərək gözəl və bəyənilmiş xasiyyətlərlə bəzənəcəksiniz. Çalışın ki, kimi isə fanilik burulğanından xilas edib Allahın əbədi Dininə qovuşdurasınız. Bəndələr arasında elə rəftar edin ki, haqqın əlamətləri sizdən aşkar olsun. Çünki Onun Ruhunun yenidən yaratdıqları, Ona səcdə və ibadət edənlərin, Onun Cəlal Taxının ətrafında təvaf edənlərin birincisi sizsiniz! And olsun Məni istədiyi kimi danışdıran Kəsə! Sizin adlarınız Uca Mələkutda sizin öz yanınızda olduğundan daha məşhurdur. Güman etməyin ki, bu söz bir uydurmadır. Kaş Mərhəmətli Rəbbinizin gördüyü kimi, siz də öz şəninizin ucalığını, qədrinizin böyüklüyünü, məqamınızın yüksəkliyini görəydiniz. Allahdan diləyimiz budur ki, nəfsiniz və ehtirasınız sizin üçün müəyyən olunana yetişməyinizə maneə törətməsin...

## Seçmə 148 (↑)

EY SALMAN, ARİFLƏRİN və müdriklərin söylədiklərinin və ya yazdıqlarının hamısı, insan zəkasının labüd məhkum olduğu həddi heç vaxt aşmamış və heç vaxt da aşmağa ümid edə bilməz. Çünki ali şəxslər inqita etmiş və arif könüllər nə qədər dərin dalsalar da, nə qədər elm və irfan səmasında uçsalar da, öz təsəvvürlərinin yaratdığı və öz düşüncələrinin məhsulu olan şeylərin hüdudlarını aşa bilməzlər. Bütün ariflərin irfanı, bütün zikr edənlərin zikri və bütün vəsf edənlərin vəsfi Rəbbin təzahürünün onların özündə yaratdıqları ilə məhdudlaşır. Hər kəs bu barədə düşünsə, təsdiq edər ki, elə bir hədd var ki, insanların onu aşması mümkün deyil. Əvvəli olmayan əvvəldən üzü bəri Allahı görmək və dərk etmək cəhdləri Onun xilqətinə aid hədlərlə məhdudlaşmışdır o xilqət ki, Onun yaradıcı İradəsi ilə başqa bir məqsəd üçün deyil, məhz Onun Özü üçün yaranmışdır. Allah elə ucadır ki, heç kəsin irfanı ilə tanınmaz və heç kəsin təsvirinə sığmaz. Onunla xəlq etdikləri arasında nə bir bilavasitə əlaqə və rabitə var, nə də Onun yaratdıqlarının işarə və əlamətləri Onun mahiyyətinə yaxınlaşa bilər. O, məxluqatı aləmləri əhatə edən iradəsi ilə yaratdı. Haqq əzəldən Öz ülvi səltənətində və Birlik zirvəsində məxluqatın irfanından üstün olmuş, həmişə də Öz əlçatmaz yüksəkliyində və uca hökmranlığında mövcudatın idrakından uzaq olacaqdır. Yerdə və göydə olanların hamısı Onun bir sözü ilə yaranmış və Onun İradəsi ilə xalis yoxluqdan varlıq səhnəsinə qədəm qoymuşdur. Allahın Sözündən yaranmış məxluq Əzəli Mahiyyətə necə yetişə bilər?!..

## Seçmə 149 (↑)

DE: BU GÜN kim göylərdə və yerdə olanların hamısından əlini üzüb Allahın Müqəddəs Vəhy Günəşi olan Kəsə üz tutsa, hər şeyi Bilən və Hikmət Sahibi olan Rəbbinin adlarından biri ilə bütün məxluqata üstün gələr. Bilin ki, Həqiqət Günəşi əvvəlki əsrlərdə misli görünməmiş bir parlaqlıqla işıq saçdı. Ey insanlar, Onun ziyası ilə nurlanın və biganələrdən olmayın...

## Seçmə 150 (↑)

DE: QƏLƏBƏ YETİŞƏN zaman hamı mömin olduğunu iddia edər və Allahın Əmrinə sığınar. Xoş o kəslərin halına ki, hər tərəfdən fitnə-fəsadın baş qaldırdığı bu günlərdə Əmrdə möhkəm oldular və onun həqiqətindən dönmədilər...

  

## Seçmə 151 (↑)

EY İLAHİ BÜLBÜLLƏR, zillət tikanlığından mənəvi parlaqlıq gülüstanına tələsin! Ey torpağa bağlı dostlar, ruhani yuvaya doğru yollanın. Cana müjdə verin ki, Canan zühur tacını başına qoyub və Əzəl Gülzarının qapılarını açıb. Gözlərə müjdə verin ki, Onun Gözəlliyini görmək zamanı gəldi. Qulaqlara müjdə verin ki, Onun səsini eşitmək vaxtı yetişdi. Şövq bağçasındakı dostlara xəbər verin ki, Yar insanların arasına çıxdı. Səba şanapipiklərinə bildirin ki, Nigar görüşə icazə verib. Ey Cananın Üzünün aşiqləri, hicran qəmini əbədi vüsal sevinci ilə, ayrılıq zəhərini görüş balı ilə əvəz edin.

Əgər indiyə qədər aşiqlər Məşuqun dalınca qaçırdılarsa və sevənlər Məhbubun ardınca gedirdilərsə, bu günlər Sübhanın fəzli mərhəmət buludlarından elə yağır ki, Məşuq özü aşiqləri çağırır və Məhbub özü sevənləri arayır. Bu fəzli qənimət sayın və bu neməti az bilməyin. Əbədi nemətləri qoyub ötəri şeylərə qane olmayın. Qəlbinizin gözündən niqabı götürün və ürəyinizin gözündəki pərdəni cırın ki, Yarın Camalını hicabsız görəsiniz və indiyədək görmədiyinizi görüb, eşitmədiyinizi eşidəsiniz.

Məni eşidin, ey fani bülbüllər! Əbədi gülzarda elə bir Gül açılıb ki, bütün güllər Onun yanında tikana bənzər, gözəllik cövhərinin Onun yanında dəyəri yoxdur. Elə isə canınızın təpəri, ürəyinizin istəyi, ruhunuzun şövqü, iradənizin coşqunluğu və bütün varlığınızın gücü ilə çalışın ki, vüsal bağçasına daxil olub bənzərsiz Gülü iyləyəsiniz və müqəddəsliyin şirin rayihələrini duyasınız və Əbədi hüzurdan öz payınızı alasınız. Bu nəsihətə qulaq asan kəs bütün zəncirləri qırar və cünun eşqinin dadını bilər, öz Sevgilisinə qovuşar və canını Cananına tapşırar. Bu qəfəsdən çıxaraq o, bir ruh quşu kimi öz müqəddəs və əbədi yuvasına doğru qanad çalar.

Neçə gecələr keçdi, neçə gündüzlər ötdü, neçə vaxtlar bitdi, neçə saatlar getdi, amma siz fani dünyaya bağlı olmadan bir nəfəs də almadınız. Çalışın ki, qalan bu bir neçə nəfəsiniz hədər getməsin. Ömürlər şimşək tək ötüb keçər, başlar torpaq yastığa qoyular. O zaman artıq çarə tapılmaz, işlər əldən çıxar.

Əbədi Şam açıq-aşkar yanıb işıq saçır və bütün fani pərdələri yandırır. Ey pərvanələr! Qorxunu unudub tələsin və özünüzü oda vurun! Ey aşiqlər, ürəyinizdən və canınızdan keçib Məşuqun yanına gəlin və rəqibsiz Məhbuba doğru qaçın! İndiyə kimi Gizli

qalmış Gül indi sizin gözləriniz qarşısındadır, özü də örtüksüz və hicabsız bütün büsatı ilə! O bütün müqəddəs ruhları vüsala çağırır. Bu çağırışı qəbul edənlərin iqbalı nə gözəldir! Xoş bu ecazkar hüsnün nuruna boyananların halına!

## Seçmə 152 (↥)

GÖZÜN—MƏNİM ƏMANƏTİMDİR, onu nəfsin və ehtirasın tozu ilə qaraltma. Qulağın Mənim səxavətimin təzahürüdür, öz şəhvani istəklərinin hay-küyü ilə onu Mənim hər yeri bürüyən sözümü eşitməkdən məhrum etmə. Qəlbin Mənim xəzinəmdir, Mənim onda qoyduğum gizli gövhərləri oğru nəfsinə və xain ehtiraslarına tapşırma. Əlin Mənim inayətimin əlamətidir, onun gizli və qorunan Lövhələrimi götürməsinə mane olma… Sən istəmədən, Mən fəzlimi sənin üzərinə yağdırdım. Sən rica etmədən, Mən sənin arzunu yerinə yetirdim, sən layiq olmadan hədsiz fəzl və səxavətimi səndən əsirgəmədim…. Ey Mənim bəndələrim! Torpaq kimi itaətkar olun ki, Mənim irfanımın müqəddəs, əlvan və ətirli çiçəkləri vücudunuzun torpağından cücərsin. Od kimi şölələnin ki, qəflətin qalın pərdələri yansın, sizin soyuq və pərdə arxasında olan bədənləriniz İlahi Məhəbbətin hərarətindən dirilik və əbədilik kəsb etsin. Hava kimi incə və azad olun ki, Mənim taxtım olan məkana, müqəddəslik Dərgahıma daxil ola biləsiniz...

## Seçmə 153 (↑)

EY SÜRGÜN OLUNMUŞ və vəfalı dost! Qəflətin -susuzluq və yanğısını Mənim fəzlimin müqəddəs çeşməsi ilə söndür, uzaqlığın zülmət gecəsini Mənə yaxınlığın nurlu sabahı ilə işıqlandır. Mənim sənə olan ölməz məhəbbətimin evini ötəri şəhvətin zülmü ilə xaraba qoyma və ruhani Qulamın camalını nəfsin qara pərdələri ilə örtmə. Xalis möminlik yolunu seç və Allahdan başqa heç kəsdən çəkinmə. Tamah və ehtiras çör-çöpü ilə qəlbin nurlu çeşməsinin yolunu bağlama və ürəyin axar bulağının çağlamasına mane olma. Haqqa sığın və Onun inayət ipindən yapış, çünki Ondan başqa heç kəs heç kəsi yoxsulluqdan varlılığa çatdırmaz və nəfsin zillətindən xilas edə bilməz.

Ey bəndələr, əgər siz Mənim gizli və baqi sərvətlər dəryamdan xəbər tutsanız, əlbəttə, bu dünyanı, xeyr, bütün xilqəti bir heç sanarsınız. Axtarış odunu canınızda elə şiddətlə yandırın ki, Canana yaxınlıq və onunla görüş məqamından ibarət olan uca və ülvi məqsədə nail olasınız...

Ey bəndələr, Həzrət Sübhana sizin inamınızın yəqinlik şəhərinin bünövrəsini mövhumat və yanlış gümanlar lağımı ilə dağıtmayın. Çünki bu gümanların əzəldən faydası olmayıb və onlar heç zaman kimi isə doğru yola istiqamətləndirməyib. Ey bəndələr, siz Mənim hökmranlığımın uca, uzun, açıq və qüdrətli əlinin bağlandığınımı zənn edirsiniz, əzəli, tükənməz, hər şeydən üstün və sizə nazil olan mərhəmətimin kəsildiyinimi düşünürsünüz, səxavət və kəramətimin yüksək və əlçatmaz buludlarının daha yağış yağdırmadığınımı fərz edirsiniz? Məgər Mənim misilsiz hökmranlığımın qüdrətini göstərən möcüzələr yoxa çıxıb?! Yoxsa Mənim hər yeri bürüyən İradəmin aləmdəkilərə təsiri itib?! Əgər siz belə düşünmürsünüzsə, onda nə üçün Mənim solmaz, müqəddəs və şərəfli Camalımın zühuruna mane olursunuz? Onda nə üçün Mənim Nurlu və Qüdrətli mahiyyətimin Məzhərinin əbədi qüdsiyyət səmasında görünməsinin qarşısını almağa çalışırsınız?! Əgər insaf gözünüzü açsanız, bütün məxluqatın bu yeni və ecazkar Şərabdan məst olduğunu görərsiniz, yer üzünün bütün zərrələrinin Onun işığından nurlandığını müşahidə edərsiniz. Sizin zənn etdikləriniz necə də pisdir, sizin hələ də düşündükləriniz nə qədər çirkindir!

Ey bəndələr, öz əslinizə qayıdın və sizin yaradılışınızın Mənbəyi olan Kəsə dönün. Özünüzü nəfs və ehtirasın qəflətindən xilas edib bu gizli və uca Vəhyin Sinasında

yanan sönməz Oda yetişməyə tələsin. Hər şeyi əhatə edən, ilkin və mübarək Sözü dəyişdirməyin, Onun şərəfli paklığını və müqəddəsliyini pozmayın və Onun ucalığını alçaltmayın. Ey qafil bəndələr, Mənim mərhəmətimin möcüzələri bütün görünən və görünməz aləmləri əhatə etsə də, səxavət və fəzlimin təzahürləri məxluqatın bütün zərrələrini bürüsə də, bilin ki, əzabımın qamçısı çox güclüdür və qəzəbimin şiddəti olduqca böyükdür. Mənim mehribanlıqla verdiyim nəsihətləri təkəbbür və ehtirasdan təmiz olan bir qulaqla eşidin, zahiri və batini gözünüzlə Mənim Əmrimin möcüzələrinə nəzər salın.

İndi, ey bəndələr, İlahi şərəf taxçasında yanaraq işıq saçan əbədi, nurlu və müqəddəs Çıraqdan özünüzü məhrum etməyin. İlahi məhəbbət alovunu hidayət yağı ilə öz işıqlı ürəyinizin dönməzlik taxçasında yandırın. Onu İlahi hidayət yağı ilə qızışdırın və onu özünüzün dönməzlik sığınacağında qoruyun. Allahdan başqa hər şeydən əlinizi üzüb təvəkkül şüşəsi ilə onu müşriklərin nəfsinin yellərindən qoruyun. Ey Mənim bəndələrim, Mənim İlahi Vəhyim elə bir dənizə bənzəyir ki, onun dərinliklərində saysız-hesabsız, son dərəcə qiymətli, incə və parlaq gövhərlər gizlənib. Hər bir axtaran kəs, əlbəttə, cəhd və axtarış kəmərini bağlayıb həmin dənizin sahilinə can atmalıdır ki, gizli və hökmü vacib Lövhlərdə müəyyən olunmuş qismətini axtarış və cəhdinin səviyyəsinə uyğun olaraq əldə etsin. Elə isə əgər bir kəs Onun müqəddəs sahilinə qədəm qoymasa və Onu axtarmağa başlamasa, heç o dənizdən və ondakı gövhərlərdən bir şey azalarmı, yaxud ona bir nöqsan gələrmi?! Sizin özlüyünüzdə düşündükləriniz necə də əbəs və pisdir və sizin xəyallarınız nə qədər də çirkindir! Ey Mənim bəndələrim, Haqq olan Allaha and olsun, o ən əzəmətli, o dərin və dalğalanan dəniz sizə heyrətedici dərəcədə yaxındır. Baxın, hətta şah damarınızdan da yaxındır! Əgər istəsəniz, bir an içində o əbədi feyzdən, Sübhanın fəzlindən, Rəhmanın səxavətindən, Əbhanın qüdrətli kəramətindən öz nəsibinizi ala bilərsiniz!

Ey mənim bəndələrim, əgər Mənim səxavət və fəzlimin sizdə əmanət qoyulmuş möcüzələrindən agah olsanız, şübhəsiz, yaradılmış hər şeydən əlinizi üzərsiniz və özünüzü tanımağa nail olarsınız ki, bu da əslində Məni tanımaq deməkdir. Və bu halda Məndən başqa heç kəsə ehtiyac duymazsınız, Mənim inayət dəryamı və kəramət dənizimi zahiri və batini gözünüzlə özünüzdə Mənim Əbha adımdan parlayan günəş kimi açıq və aşkar görərsiniz. Bu ən uca və müqəddəs məqamı öz güman və ehtiraslarınızın təhrikləri ilə, öz xəyalınızın və batini korluğunuzun

doğurduğu istəklərlə zay etməyin. Siz o quşa bənzəyirsiniz ki, güclü qanadları ilə sonsuz sevinc və hədsiz bir arxayınlıq içərisində səmaların ənginliklərində uçur, sonra yem ümidi ilə yerdəki suya və palçığa meyl edir və tam acgözlüklə özünü suya və palçığa bulaşdırır. Sonra yenidən havaya qalxmaq istəyəndə, özünün aciz və gücsüz olduğunu görür, çünki suya və palçığa batmış qanadlar artıq uçmağa qadir deyil. Beləliklə, bir vaxtlar uca səmalarda uçan o quş indi fani torpaqda məskən salmağa məcburdur. İndi ey bəndələr, öz qanadlarınızı qəflət və güman palçığına, kin və ədavət torpağına bulaşdırmayın ki, müqəddəs irfan səmalarında uçmaqdan məhrum olmayasınız.

Ey mənim bəndələrim, Mən Allahın gücü və ruhun qüvvəti sayəsində əbədi dəryanın sədəflərindəki gövhərləri İlahi elm və hikmət xəzinəsindən çıxardım. Pərdə və hicab arxasında olan Huriləri bu üstün qüdrət və hikmət sözlərinin libasına bürüdüm. Vəhyimin nəfis şərabının möhürünü qüdrət əli ilə açdım və onun gizli və müqəddəs ətrini bütün məxluqatın üstünə səpdim. İndi hər yanı bürüyən bu uca feyzlərə və parlayıb işıq saçan bu inayətə baxmayaraq, özünüzü məhrum etsəniz, bunun günahı sizin özünüzdə olar və olacaqdır...

Ey mənim bəndələrim, Mənim könlümdə İlahi hidayət Sübhünün şəfəqlərindən özgə bir şey yoxdur və Mən sizin Pərvərdigarınızın nazil etdiyi xalis haqq olan sözlərdən başqa bir şey demirəm. Elə isə nəfsinizə tabe olmayın, Allahla əhdinizi pozmayın, vədinizə xilaf çıxmayın, tam qətiyyətlə, ürəyiniz, qəlbiniz və dilinizlə Ona üz tutun və ağılsızlardan olmayın. Dünya mənası olmayan bir tamaşadır, varlıq şəklində bəzənmiş bir yoxluqdur. Ürəyinizi ona bağlamayın, Pərvərdigarınızdan uzaq düşməyin və qafillərdən olmayın. Doğrusunu deyirəm, dünya su şəklində görünən ilğıma bənzər, susuzluqdan yananlar ona yetişmək üçün çox çalışarlar, ona çatanda isə onun xəyal olduğunu görüb məhrum və binəsib qalarlar. Yaxud o, məşuqun canı və ruhu olmayan şəklinə bənzəyir. Aşiq ona çatanda görür ki, bu məşuq onu "nə doydurur, nə də ehtiyacını ödəyir". Və aşiqin hədsiz əziyyətdən və həsrətdən başqa bir hasili olmur.

Ey bəndələr, əgər yaşadığınız bu günlərdə və bu aləmdə Allahın müəyyən etdiyi və aşkara çıxardığı bəzi işlər sizin istəyinizcə deyilsə, pərişan olmayın, çünki bunun ardınca xoş və səmavi həzz verən günlər gələr. Müqəddəs və ruhani aləmlər gözləriniz qarşısında açılar. Bu dünyada və ondan sonra da O, bütün bunlardan sizə

bir qismət ayırıb, bir sevinc payı və bir ruzi təyin edib. Əlbəttə, siz onların hamısına çatacaq və nail olacaqsınız...

## Seçmə 154 (↑)

XÜLASƏ, EY SALMAN, Haqqı sevənlərə çatdır ki, heç kəsin sözlərinə etiraz nəzərləri ilə baxmasınlar, əksinə, şəfqət və mərhəmət gözü ilə nəzər salsınlar. Yalnız o kəslərdən başqa ki, bu Gün Allahı rədd edən atəşin yazılar yazırlar. Bu gün Allahı rədd edən şəxslərə bacardığı şəkildə cavab yazmaq hər bir kəsin borcudur. Qadir və Qüdrətli Allah tərəfindən belə müəyyən olunub, çünki bu gün Haqqa söz və kəlamla kömək etmək lazımdır, qılınc və ona bənzər şeylərlə yox. Biz əvvəllər də belə nazil etmişdik və indi də deyirik—bunu bilin.

And olsun bu Gün bütün şeylərdə "Həqiqətən, Məndən başqa Allah yoxdur!" söyləyən Kəsə! Əgər bir kəs Allahı rədd edən şəxsi təkzib edən bir söz yazsa, ona elə bir məqam bəxş edilər ki, bütün Səma Sakinləri o məqamın həsrətini çəkər, bütün insanların qələmi o məqamı təsvir etməkdə aciz qalar və bütün məxluqatın dili onu vəsf etməkdə gücsüz olar. Belə ki, bu Gün bu ən müqəddəs, ən uca və ən yüksək Əmrdə dönməz olan Kəs göylərdə və yerdə olan bütün şeylərə bərabərdir. Allah Özü buna şahiddir və bunu bilir.

Ey Allahın dostları, rahat yatağınızda yatmayın! Elə ki, Rəbbinizi, Yaradanı tanıdınız və Onun başına gələnləri eşitdiniz, qalxın və Onun köməyinə tələsin! Sonra Onun Əmrini bəyan edin və bir an belə susmayın. Bu, sizə indiki və gələcək xəzinələrdən daha xeyirlidir—əgər arifsinizsə, bunu bilin...

## Seçmə 155 (↑)

ALLAHIN BƏNDƏLƏR ÜÇÜN yazdığı birinci vəzifə—Onun Vəhyinin Məşriqini və qanunlarının Şəfəqini tanımaqdır ki, bu Kəs Onun Əmrinin səltənətində və xilqət aləmində Allahlığın Təmsilçisidir. Buna nail olan kəs bütün xeyirlərə yetişər, bundan məhrum olan kəs isə bütün saleh əməllərə sahib olsa belə, yolunu azmışlardan sayılar. Bu yüksək məqama və uca üfüqə yetişən hər kəs aləmin Məqsudunun hər bir hökmünə tabe olmalıdır. Bu iki vəzifə bir-birindən ayrılmazdır və biri digəri olmadan qəbul olunmaz. İlahi İlham Mənbəyi olan Kəs tərəfindən belə hökm olunmuşdur.

Allah tərəfindən bəsirət verilmiş kəslər Allahın qanunlarına dünyanın nizamı və xalqların qorunması üçün ən böyük vasitə kimi baxırlar, bundan qafil olanlar isə cılız və düşüncəsizlərdir. Həqiqətən, Biz sizə nəfsin və ehtirasın çərçivəsindən çıxmağı əmr etdik, Uca Qələmin yazdıqlarından yox! Çünki o, dünyada olanlar üçün dirilik ruhudur. Rəhmanın nəsimi əsdiyi üçün hikmət və bəyan dənizləri dalğalandı. Bunu qənimət bilin, ey ağıl sahibləri! Allahın əmrlərindən çıxıb Onunla əhdini pozan və onu bir kənara atan kəslər Ehtiyacsız və Uca Allahın yanında yolunu azmışlardan sayılarlar.

Ey yer əhli! Yəqin bilin ki, Mənim əmrlərim bəndələrim arasında inayətimin çıraqları və məxluqat üçün Mənim mərhəmətimin açarlarıdır. Vəhy Sahibi olan Rəbbinizin İradə səmasından əmr belə nazil olmuşdur. Əgər bir kəs Rəhmanın İradəsinin ağzından çıxan -sözlərin şirinliyini dadsa, yer üzünün xəzinələrinə sahib olmuş olsa belə, bütün malik olduqlarını qurban verər ki, Onun inayət və lütf üfüqündən parlayan əmrlərdən birini isbat etsin.

De: Mənim qanunlarımdan Mənim libasımın ətri duyular və bunun sayəsində qələbə bayraqları ən yüksək zirvələrdə və təpələrin başına sancılar. Mənim qüdrət dilim əzəmət səltənətimdən bütün məxluqata xitab edərək deyib: “Mənim Camalıma məhəbbətiniz naminə Mənim qanunlarıma əməl edin!” Xoş o aşiqin halına ki, heç bir dillə vəsfi mümkün olmayan bir həddə fəzl rayihəsi gələn sözlərdən Məhbubun ətrini duydu. Canıma and olsun, kim Mənim lütf əllərimdən insaf şərabını alıb içsə, şübhəsiz, Mənim aləmin üfüqündən parlayan əmrlərimin ətrafına fırlanar.

Siz elə zənn etməyin ki, Biz sizə sadəcə ehkamlar nazil etdik, yox, Biz qüdrət və qüvvət barmaqları ilə möhürlənmiş kuzənin ağzını açdıq. Vəhy Qələmindən nazil olanlar buna şəhadət verir. Fikirləşin, ey düşüncə sahibləri!..

Bəyan üfüqündən hökmlər Günəşi parlayanda, hamı onlara tabe olmalıdır—lap Onun əmrindən dinlərin könül səması yarılsa belə! Çünki O, istədiyini edər və istədiyinə görə sorğu-suala tutulmaz. Həqiqətən, Məhbub nə hökm edərsə, o, bəyənilәndir. And olsun xilqətin sahibinə! Rəhmanın ətrini duyan və bu sözlərin Mənbəyini tanıyan kəs insanlar arasında Allahın hökmlərini isbat etmək üçün gözlərini oxlara hədəf edər. Xoş bunu qəbul edənin və bu xitabın mənasını anlayanın halına!..

## Seçmə 156 (↑)

ƏZƏLI HAQQIN ÜZÜ Cəlal Üfüqündən Bəha əhlinə müraciət edərək, buyurur “Bütün hallarda insanların rahatlığına və rifahına səbəb olan işlərlə məşğul olun. Bütün ağlınızı və iradənizi aləm əhlinin tərbiyəsinə sərf edin ki, bəlkə İsmi-Əzəmin köməyi ilə xalqlar arasındakı çəkişmə və ixtilafa son qoyuldu, onların hamısı bir məclisin və bir şəhərin əhli kimi göründü. Qəlbinizi nurlandırın, onu kin və ədavət çör-çöpündən təmizləyin. Hamınız bir aləmin sakinlərisiniz və bir sözdən yaranmısınız. Xoş o kəsin halına ki, bütün insanlarla sonsuz məhəbbət və mehribanlıqla ünsiyyətdə olar!”

## Seçmə 157 (↑)

BİZİM ƏMRİMİZİ TƏBLİĞ etmək üçün vətənlərini tərk edən kəslərə Ruhül-Əmin yardım göstərər, Qüdrətli və Hər şeyi Bilən Allahın hökmünə uyğun olaraq, Bizim seçkin mələklər dəstəsi onların yanında olar. Xoş o kəsin halına ki, Allaha xidmət etmək şərəfinə nail oldu! Canıma and olsun, Qadir və Qüdrətli Rəbbinin istədiyi əməllərdən başqa, heç bir əməl bu əməllə müqayisəyə gəlməz. Həqiqətən, o, əməllərin ağası və bəzəyidir. Qüdrətli Zahir Edən, Günlərin Qədimi tərəfindən belə müəyyən olunmuşdur.

Əmrimizin təbliğinə qalxan kəs özünü bütün dünyəvi şeylərdən azad etməli və hər zaman Bizim Dinimizin qələbəsini özünün ali məqsədi hesab etməlidir—Qorunan Lövhədə belə müəyyən olunmuşdur. Öz Rəbbinin Əmri naminə vətənini tərk etdiyi zaman onun azuqəsi—Allaha təvəkkül, libası isə Allahdan qorxmaq olmalıdır—Qüdrətli və Tərifəlayiq Allah tərəfindən belə müəyyən edilmişdir. O, məhəbbət odu ilə yandığı və təvazökarlıq bəzəyi ilə zinətləndiyi təqdirdə, onun sözləri bəndələri alovlandırar. Həqiqətən, sənin Rəbbin Hər şeyi Bilən və hər şeydən Xəbərdardır. Xoş o kəsin halına ki, bu çağırışı eşitdi və ona cavab verdi. Həqiqətən, o, Allaha yaxın kəslərdən sayılar...

## Seçmə 158 (↑)

ALLAH BÜTÜN İNSANLARA Öz Əmrini təbliğ etməyi vacib buyurub. Bu hökmü yerinə yetirmək istəyən kəs Onun Müjdəsini bəyan etməzdən əvvəl gözəl və bəyənilən xasiyyətlərlə bəzənməlidir ki, onun sözləri ona üz tutanların qəlblərini cəzb edə bilsin. Əks-təqdirdə, onun sözləri bəndələrin qəlbinə təsir göstərməz.

## Seçmə 159 (↑)

İNSANLARA VƏ ONLARIN ağlının azlığına nəzər salın. Onlar özlərinə ziyan olan şeyləri istəyir, xeyir olan şeylərdən isə yan keçirlər. Bilin ki, onlar sərgərdan qalmışlar.

Biz görürük ki, bəzi insanlar azadlıq istəyir və onunla fəxr edirlər. Onlar aşkar bir cəhalətdədirlər. Çünki hədsiz azadlıq sonda elə bir qarışıqlıqla nəticələnir ki, onun alovunu söndürmək olmur. Hesablayan və hər şeyi Bilən Kəs sizə belə xəbərdarlıq edir. Bilin ki, azadlığın təcəssümü və təzahürü heyvandır. İnsan isə müəyyən qayda-qanuna tabe olmalıdır ki, bu, onu öz cəhalətindən və məkrlilərin zərərindən qorusun. Azadlıq insanı ədəb və ləyaqət hüdudlarından çıxarar və onu rəzil bir varlığa çevirər.

Baxın, insanlar qoyunlara bənzəyir, onları qorumaq üçün mütləq çoban lazımdır. Bu, şəksiz bir həqiqətdir. Biz bəzi məqamlarda azadlığı bəyənirik, başqalarında isə yox, çünki Biz hər şeyi bilirik.

De: Əsl azadlıq—Mənim əmrlərimə tabe olmaqdadır. Əgər ariflərdənsinizsə, bunu bilin. Əgər insanlar vəhy səmasından onlara nazil olanlara tabe olsalar, özlərinin əsl azadlıqda olduqlarını görərlər. Xoş o kəsin halına ki, Allahın aləmlərə üstün gələn İradəsinin səmasından nazil olanlardan Onun istəyini anlayar! De: Sizə xeyirli olan azadlıq yalnız Haqq olan Allaha bəndəlik etməkdədir. Kim onun şirinliyini dadsa, onu göylərin və yerin mülkünə dəyişməz!..

## Seçmə 160 (↑)

BU GÜN TÖVHİD əhli Haqqı bütün müqayisə və bənzətmələrdən üstün bilənlərdir, müqayisə və bənzətmələri Haqqa bərabər tutanlar yox! Məsələn, diqqət yetirin: sənətkar bir sənət əsəri yaradır, yaxud rəssam bir rəsm çəkir. İndi əgər deyilsə ki, həmin sənət əsəri və rəsm sənətkarla rəssamın özüdür, bu, yalan olar. And olsun göyün və yerin Rəbbinə! Onlar yalnız sənətkarın və rəssamın kamil yaradıcılığından xəbər verir.

Ey fani Şeyx! Özünü fani edib Allahla əbədi qalmağın mənası odur ki, hər kəs özünə Haqqın iradəsi önündə fani və heç bir şey kimi baxmalıdır. Məsələn, əgər Haqq buyursa ki: "Belə et!", o, hədsiz səy, şövq və cazibə ilə bunu yerinə yetirməyə çalışmalıdır. Yoxsa özlüyündə bir şey uydurub onu haqq sanmamalıdır.

Orucluq duasında belə nazil olub: "Əgər Sənin İradənin ağzından onlara müraciətlə bu sözlər çıxsa ki: "Ey insanlar, Mənim Camalıma məhəbbətiniz xatirinə oruc tutun və onu müəyyən vaxta və həddə bağlamayın!"—İzzətimə and olsun, onlar oruc tutar və ölənə qədər yeməzlər". Budur fani olmağın mənası! Bu məqam barədə yaxşı fikirləşin ki, xilqətin Sahibinin sözlərindən axıb süzülən dirilik çeşməsindən içmək şərəfinə nail olasınız və Haqqın həmişə məxluqatdan üstün olduğuna şəhadət verəsiniz. Həqiqətən, O Bənzərsiz, Əbədi, Hər şeyi Bilən və Hər şeydən Xəbərdardır. Bu məqam bütün məqamlar içərisində ən böyüyü olmuşdur və olacaqdır.

Cənabınız Allahın istəyinə tabe olmalıdır, Allahın istəyi isə Lövhələrdə nazil olanlardır. Belə ki, özünüzün qətiyyən istəyiniz və iradəniz olmamalıdır. Budur həqiqi tövhid məqamı! Allahdan diləyin ki, bu məqamda sabit olasınız və insanları məxsusi görkəmdə zühur edib məxsusi sözlər söyləyən Məlum Sultana doğru istiqamətləndirəsiniz. Budur imanın və iqanın cövhəri! Öz yanlış təsəvvürlərinə uyub adını "batin" qoyan kəslər əslində bütlərə pərəstiş edirlər. Rəhman öz Lövhələrində buna şəhadət verir. Həqiqətən, O, Hər şeyi Bilən və Hikmət Sahibidir.

## Seçmə 161 (↑)

HİMMƏT KƏMƏRİNİ QURŞA ki, öz qonşunu Rəhman Allahın yoluna daxil edəsən. Bu həqiqətən, Hər Şeyə Malik və Ulu Allahın yanında ən üstün əməllərdən sayılır. Allahın Əmrində elə dönməz ol ki, hətta yer üzündə olanların hamısı səninlə mübarizə və mücadiləyə qalxsalar belə, heç bir şey səni öz üzərinə düşən xidmətdən yayındıra bilməsin.

İlahi Hidayətin Dan Yerini işıqlandıran Kəsin Müjdəsini yayarkən külək kimi azad olun. Görün, külək Allahın hökmünə uyğun olaraq həm xaraba, həm də abad olan yerlərin üstündən necə əsir. Nə abadlığı görüb sevinir, nə də xarabalığı görüb kədərlənir—Yaradanın buyurduğu kimi, o hər yana əsir. Tək olan Haqq Taalanı sevdiyini iddia edən kəs də belə olmalıdır. O baxışlarını Onun Əmrinin əsaslarına dikməli və səylə onun təbliğinə çalışmalıdır. Tamamilə Allah naminə Onun Əmrini bəyan etməli və elə həmin ruhla da onun sözlərini dinləyənin istənilən cavabını qəbul etməlidir. Qəbul edən və iman gətirən kəs öz mükafatını alar, üz döndərən kəsin isə cəzası özünə çatar. Üfüqləri işıqlandıran Günəş İraqdan çıxarkən, zülmət quşları barədə xəbərdarlıq etmişdi. Şübhəsiz, bəzi yerlərdən qarğa səsləri ucalacaqdır, necə ki, ötən illərdə olmuşdu. Bütün hallarda Haqqa pənah aparın ki, yalançı şəxslərə tabe olmayasınız.

Bu əzəmətli Zühurla bütün zühurlar başa çatdı. Hər şeyi Bilən və Hikmət Sahibi olan Rəbbiniz sizə belə nəsihət verir. Həmd olsun Allaha—aləmlərin Rəbbinə!

## Seçmə 162 (↑)

HƏZRƏT RƏHMAN İNSANI görən və eşidən bir varlıq kimi xəlq etmişdir. Bəziləri onu "kiçik aləm" saysa da, lakin əslində o, "böyük aləm"dir. Bu Vəd Olunmuş Gündə hər bir insanın məqamı, rütbəsi və ləyaqəti aşkara çıxmalıdır.

Uca Qələm bütün hallarda hədsiz sevinc və mehribanlıqla Haqqın övliyalarını xatırlamış və onları ruhlandırmışdır. Xoş o kəsin halına ki, dünyanın müxtəlif işləri onu tövhid nurunun işığından məhrum etmədi və o, tam qətiyyətlə və Qəyyumun adı ilə möhürlənmiş şərabdan içdi. O, aləmlərin Rəbbi olan Allahın Kitabında behişt əhli sırasına yazılar...

## Seçmə 163 (↑)

HƏMD OLSUN ALLAHA! O, aləmə elə bir zinət vurub və elə bir libas geyindirib ki, qoşun, əsgər, qüdrət və sərvət sahibləri bunu anlamağa qadir deyil. De: Qüdrət bütünlüklə aləmlərin Məqsudu olan Allaha məxsusdur, əzəmət bütünlüklə səma və yer əhlinin Məbudu olan Allaha məxsusdur. Torpaqdan olan bu qüvvələr isə öz təbiəti etibarilə heç xatırlanmağa da layiq olmamışlar və deyildirlər.

De: Bu quşların su içdiyi çeşmələr bu dünyadan deyil. Onların mənbəyi insan idrakından uca və kənardır. Allahın işıqlı Əli ilə yanan odu söndürməyə kimin qüdrəti çatar? Qüvvətli, Qalibiyyətli və Qadir Rəbbin qüdrət əlinin şölələndirdiyi alovu söndürməyə kimin gücü çatar?! Fitnə tonqalının alovunu isə Qüdrət əli söndürdü. Həqiqətən, O, istədiyi şeyə qadirdir. Onun “Ol!” deməsi ilə aləm mövcud oldu. De: Mənim seçilmişlərimin tərpənməz dağını nə aləmin külələri, nə də ümmətlərin qasırğaları dağıda bilər. Sübhanallah! Bu tayfanı Haqqın övliyalarını əsir edib məhbəsə salmağa nə vadar etdi?! Tezliklə sadiqlər Ədalət Günəşinin Uca Üfüqdən parlamasını görəcəklər. Aləmin Mövlası bu ağır məhbəsdən sənə belə xəbər verir...



## Seçmə 164 (↑)

EY BƏŞƏR ÖVLADLARI! Möhkəm İpdən yapışın, çünki o, aləmlərin Rəbbi olan Allahın sayəsində yer üzündə sizə xeyir gətirər. Ədalət və insaf yolu ilə gedin və Allahdan uzaq düşmüş bütün o cahillərin sizə əmr etdiklərini boşlayın. Onlar başlarını əmmamələrlə bəzədilər və Hikmət Sahibinin Əmrini aşkar edən Kəsin əleyhinə fitva verdilər. Onların məqamı bəndələr arasında Mənim Adımla yüksəldi, lakin Mən özümü zühur etdirən zaman onlar aşkar bir zülmlə Mənim əleyhimə fitva verdilər. Beləcə Qələm həqiqəti söylədi, amma insanlar qafil oldular.

Ədalətdən yapışan kəs heç bir işdə orta həddi aşmaz və Hər şeyi Görənin sayəsində bəsirət sahibi olar. Əgər elm və sənət adamlarının haqqında danışdıqları təməddün orta həddi aşarsa, insanlara bədbəxtlik gətirər. Hər şeydən Xəbərdar olan Kəs sizə belə xəbərdarlıq edir. Təməddün həddini aşdığı zaman fəsad mənbəyinə çevrilər, orta həddə olduqda isə xeyir mənbəyi olar. Düşünün, ey insanlar və sərgərdan qalmayın! Tezliklə şəhərlər onun odundan yanar və Əzəmət Dili söyləyər: "Hökmranlıq—Qüdrətli və Tərifəlayiq Allaha məxsusdur!" Hər bir şeyə bu cür nəzər sal və sonra da bu ecazkar Lövhədə səni xatırladığına görə Rəbbinə şükr elə, Həmd olsun Allaha—əzəmətli ərşin Sahibinə!

Əgər bir kəs həqiqətən Uca Qələmdən nazil olanlar barədə düşünsə və onun şirinliyini dadsa, şübhəsiz, öz istəyindən və iradəsindən xilas olub Allahın İradəsi ilə hərəkət edər. Xoş o kəsin halına ki, bu məqama nail oldu və bu böyük fəzldən məhrum qalmadı.

Bu gün Biz nə qorxub imanını gizlədəni bəyənirik, nə də səs-küylə özünün Əmrimizə mənsub olduğunu söyləyəni. Hər bir kəs hikmətlə hərəkət etməli və Əmrin xeyrinə ən yaxşı yolla xidmət göstərməklə məşğul olmalıdır.

Hamı bu Məzlumun həyatı barədə düşünməlidir. Əmrin əvvəlindən indiyə qədər Biz dostların və düşmənlərin arasında olmuşuq. Və hər tərəfdən Bizi bəla və müsibətlər əhatə etdiyi çağlarda bütün yer əhlini tam cəsarətlə Uca Üfüqə dəvət etmişik. Uca Qələm belə məqamlarda öz müsibətlərini xatırlamağı xoşlamayıb və xoşlamır, çünki bu, şübhəsiz, yaxınların, tövhid əhlinin və sadiqlərin kədərlənməsinə səbəb olar.

Həqiqətən, O, Doğrusunu Deyən, hər şeyi Eşidən və Biləndir. Biz çox vaxt düşmənlərin əlində olmuşuq və indi də ilanlar arasında yaşayırıq.

Bu Müqəddəs Torpaq bütün İlahi Kitablarda təsvir olunub və xatırlanıb. Peyğəmbərlərin və Rəsulların əksəriyyəti bu Torpaqda zühur edib. Bu, həmən biyabandır ki, orada bütün peyğəmbərlər: “Ləbbeyk, ey Allahım, Ləbbeyk!”— söyləmişlər. Allahın Zühuru bu torpaqda vəd olunub. Bu, qəzavü-qədər vadisi, bəyaz torpaq və nurlu məkandır. Bu gün aşkara çıxanların hamısı əvvəlki Kitablarda xatırlanıb. Lakin onun əhalisi bütün ilahi Kitablarda qəbul olunmayıb. Belə ki, bəzi məqamlarda onlar “əfi balaları” adlandırılıb. Və indi bu Məzlum “əfi balaları” arasında uca səslə nida edir və hamını Son Məqsədə, Yüksək Zirvəyə və Uca Üfüqə doğru çağırır. Xoş o kəsin halına ki, bəyan səltənətindən bu dilin söylədiklərini eşidər, vay o kəsin halına ki, qafil olub uzaqda qalar...

## Seçmə 165 (↑)

BİL Kİ, HƏR bir eşidən qulaq, əgər o pak və təmizdirsə, hər an hər tərəfdən bu müqəddəs sözləri bəyan edən səsi eşidir: “Həqiqətən, biz Allahdanıq və Ona da qayıdacağıq”. İnsanın cismani ölümünün və onun qayıtmasının sirləri açılmamışdır və hələ də gizli qalır. And olsun Allahın həqqaniyyətinə! Əgər onlar açılsaydı, bir çoxları qorxu və qüssədın həlak olar, bəziləri isə elə sevinərdilər ki, Şərəfli Haqqdan ölüm diləyər və hər an həsrətlə sonlarını yaxınlaşdırmağı istəyərdilər.

Yəqinlik hasil edənlər üçün ölüm—dirilik suyu ilə dolu bir piyalə təqdim edir; o, sevinc saqisidir, fərəh bəxş edər və əbədi həyat əta edər.

İnsanın yerdəki varlığının meyvəsini dadmış, yəni Şərəfli Haqqı—tərifi ucalsın Onun—tanımış kəslərə gəldikdə isə, onların sonrakı həyatı elədir ki, Biz onu təsvir etməyə qadir deyilik. Bunun biliyi yalnız bütün aləmlərin Rəbbi olan Allahın yanındadır.

## Seçmə 166 (↑)

DÜZ MİN İL tamam olmamışdan qabaq Allahdan bir Vəhy iddiasında olan kəs yalançı və fırıldaqçıdır. Allahdan diləyimiz budur ki, onun bu iddiadan əl çəkib tövbə etməsinə yardım göstərsin. Əgər o tövbə etsə, Allah onu, şübhəsiz, bağışlayar. Əgər o, dediyində israr etsə, Allah onun qarşısına elə bir şəxs çıxarar ki, ona rəhm etməz. Həqiqətən, Onun cəzası şiddətlidir! Kim bu ayəni aşkarda nazil olduğundan fərqli bir şəkildə təfsir etsə, o, Allahın Ruhundan və Onun bütün yaradılmışları bürüyən mərhəmətindən məhrum olar. Allahdan qorxun və yanınızdakı mövhumata tabe olmayın! Qüdrət və Hikmət Sahibi olan Rəbbinizin sizə əmr etdiklərinə tabe olun!